VAQİF PİRİYEV

# AZƏRBAYCANIN TARİXİ-SİYASİ C O Ğ R A F İ Y A S I

«Müəllim» nəşriyyatı
B a k ı – 2 0 0 6

***Elmi redaktor:*** **N.M.VƏLİXANLI,** *Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru*

***Rəyçilər:*** **N.M.VƏLİXANLI,** *Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru;*

**S.Ş.ALLAHVERDİYEV,** *tarix elmləri namizədi, dosent*

***Piriyev Vaqif Ziyəddin oğlu***
**«Azərbaycanın tarixi-siyasi coğrafiyası»**. – Bakı, «Müəllim» nəşriyyatı, 2006. - 148 səh. (rəngli xəritələrlə)

Dərs vəsaitində Azərbaycan tarixşünaslığında son vaxtlara kimi unudulmuş bir sahənin – Azərbaycanın ən qədim dövrlərdən zəmanəmizə qədərki tarixi-siyasi coğrafiyası və onun tədrisi məsələlərindən bəhs olunur. Zəngin tarixi dəlillər əsasında yazılmış vəsaitdə Azərbaycanın müxtəlif dövrlərdəki əraziləri, sərhədləri, hüdudları, inzibati bölgüsü şərh olunur, torpaqlarımızın itirilmə dinamikası izlənilir, torpaqlarımıza qarşı yad iddialara münasibət bəslənilir. Dərs vəsaiti tarixçilər – ali məktəb müəllimləri, tələbələri, eləcə də Azərbaycanın tarixi əraziləri ilə maraqlanan oxucular üçün nəzərdə tutulur.

$V\frac{4910042562}{050-2002}$ Qrifli nəşr

© «Müəllim» nəşriyyatı, 2006
Təkmilləşdirilmiş ikinci nəşr

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| | G İ R İ Ş | **4** |
| ***I mövzu:*** | Tarixi coğrafiya fənni: vəzifələri, əlaqələri, elmi istiqamətləri, tədqiqat üsulları və metodları | **5** |
| ***II mövzu:*** | Azərbaycanın qədim dövr tarixi-siyasi coğrafiyasının mənbələri və tarixşünaslığı | **8** |
| ***III mövzu:*** | Azərbaycanın qədim dövr tarixi-siyasi coğrafiyası | **14** |
| ***IV mövzu:*** | Qafqaz Albaniyasının tarixi-siyasi coğrafiyası | **16** |
| ***V mövzu:*** | Azərbaycanın ərəb dövrü tarixi-siyasi coğrafiyası | **21** |
| ***VI mövzu:*** | IX-XII əsrlər Azərbaycanının tarixi-siyasi coğrafiyası | **25** |
| ***VII mövzu:*** | XIII-XV əsrlər Azərbaycanının tarixi-siyasi coğrafiyası | **28** |
| ***VIII mövzu:*** | Səfəvilər dövrü Azərbaycanının tarixi-siyasi coğrafiyası | **34** |
| ***IX mövzu:*** | Azərbaycan XVIII əsrdə. Azərbaycan xanlıqları: əraziləri, hüdudları | **39** |
| ***X mövzu:*** | Qarabağ və Naxçıvan orta əsrlərdə (əraziləri, hüdudları və inzibati bölgüləri) | **44** |
| ***XI mövzu:*** | Orta əsrlər Azərbaycanının ərazisi və inzibati bölgüsü barədə bəzi qeydlər | **49** |
| ***XII mövzu:*** | Azərbaycanın XIX-XX əsrin əvvəllərindəki tarixi-siyasi coğrafiyası | **52** |
| ***XIII mövzu:*** | Azərbaycan Xalq Cümhuriyyəti: ərazisi, sərhədləri, inzibati-ərazi bölgüsü | **56** |
| ***XIV mövzu:*** | Azərbaycan ərazisi XX əsrin 20-90-cı illərində | **61** |
| | *Əsas nəticələr* | **66** |
| | *İstifadə olunmuş mənbə və ədəbiyyat* | **68** |
| | *Xəritələr* | **71** |

# G İ R İ Ş

Müstəqil Azərbaycan Respublikasının təsisi ölkəmizin ictimai-siyasi, elmi-mədəni həyatında bir sıra yeniliklərin baş verməsinə səbəb oldu. Tarixi köklərə malik Azərbaycan xalqı öz mənəviyyatını bərpa etməyə, keçmişini dərindən araşdırmağa başladı. Sovet rejimi dövründə unudulmuş, məhəl qoyulmamış və ya bilərəkdən toxunulmamış sahələr, məsələlər, problemlər üzrə köklü araşdırmalar aparıldı, onların tədqiqinə səy göstərildi. Belə mühüm problemlərdən biri tarixşünaslığımızın əsas sahələrindən olan Azərbaycanın tarixi coğrafiyasının, xüsusilə də, tarixi-siyasi coğrafiyasının unudulması idi. Bunun əsas səbəbləri dövrün siyasi vəziyyəti, ideologiyası, yuxarıdan olan təzyiqlər, həmçinin, yerli mənbələrin və ümumiyyətlə, mənbəşünaslıq bazamızın nisbətən kasadlığı və mövcud mənbələrin faktlarının tarixi-siyasi coğrafiya baxımından ciddi araşdırılmaması olsa da, ziyalılarımızın həmin sahəyə biganə münasibəti də onun unudulmasında az rol oynamamışdır. XX əsrin 80-ci illərinə kimi bu sahədə, demək olar ki, əsaslı bir iş görülməmişdi. Məhz həmin dövrdə baş vermiş hadisələr, cəmiyyətdə gedən dəyişikliklər Azərbaycanda elmin bu sahəsinin də inkişafına təkan verdi. Qısa müddət ərzində müəyyən işlər görüldü, tədqiqatlar aparıldı və Azərbaycanın tarixi coğrafiyasına həsr olunmuş toplu meydana gəldi.

Problemin həlli sahəsində görülən tədbirlərdən biri bu fənnin ali məktəblərdə tədrisinin həyata keçirilməsi oldu. Respublikanın ali məktəblərinin tarix fakültələrində, tarix ixtisası üzrə yenidənhazırlama kurslarında «Azərbaycanın tarixi coğrafiyası» fənninin tədrisi ona qarşı olan marağı artırdı. Ali və həmçinin, orta məktəblər üçün «Azərbaycan tarixi» dərsliklərinə tarixi coğr- [3-4] afiyaya aid materiallar, müxtəlif dövrlər üzrə Azərbaycan ərazisini əks etdirən xəritələr daxil olundu.

Bununla yanaşı «Azərbaycanın tarixi coğrafiyası» fənninin ali təhsil ocaqlarında tədrisində bir sıra çətinliklər mövcuddur: fənnin əsas məğzinin tam şəkildə müəyyənləşdirilməməsi, dərsliyin və dərs vəsaitinin olmaması, ədəbiyyat qıtlığı, mütəxəssis kadrların azlığı onların ən əsaslılarındandır. Müəllim və tələbələrin istifadəsinə verilən bu dərs vəsaitində məhz həmin çətinliklərin qismən aradan qaldırılması, mövcud boşluğun az-çox doldurulması məqsədi güdülür. Dərs vəsaiti 2002-ci ildə nəşr olunmuş «Azərbaycanın tarixi coğrafiyası» Proqramı əsasında yazılmış və buradakı mətnlər Proqramdakı mövzulara uyğun verilmişdir. Proqramda həmçinin fənnin nümunəvi tədris-tematik planı təklif olunur. Dərs vəsaiti həmin plana uyğun yazıldığından onun burada da çapı məqsədəuyğun sayılmışdır. 60 saatlıq həmin plandan tədris müəssisəsinin xüsusiyyətindən asılı olaraq yaradıcı istifadə etmək işin xeyrinə olardı.

Dərs vəsaitinin bəzi mövzularında bu və ya digər məsələyə, sahəyə xüsusi diqqət yetirilir; Azərbaycanın inzibati-ərazi bölgüsünü əks etdirən hissə və sxematik cədvəl, ölkədəki ticarət yolları və s. məsələlər barədəki məlumat bu baxımdan diqqəti cəlb edir. Həmin səpgidən olan materiallar ayrı-ayrı mövzuların daha geniş şərhinə imkan yaratmaqla yanaşı, orta əsrlər Azərbaycanında göstərilən məsələnin, problemin ümumi mənzərəsini təsəvvür etməyə kömək edir. Bununla yanaşı, mövzuların şərhində konkretliyə, yığcamlığa fikir verilmiş, bir sıra məsələlərin geniş öyrənilməsi üçün müvafiq mənbə və ədəbiyyat tövsiyyə edilmişdir. Dərs vəsaitində əksər mövzulara dair xəritələr verilmişdir. Bu məqsədlə tarixi ədəbiyyatda, xüsusilə də çoxcildlik «Azərbaycan tarixi»ndə mövcud olan xəritələrdən geniş istifadə olunmuşdur. Bununla yanaşı, tədris prosesində «Azərbaycanın tarixi xəritələri» (bax:15) və «Azərbaycanın tarixi coğrafiyası» (72) toplusundakı xəritələrdən faydalanmaq məqsədəuyğundur.

Dərs vəsaitində hər bir mövzuya dair əlavə mənbə və ədəbiy [4-5] yat kod sistemində göstərilmişdir. Belə ki, mənbə və ədəbiyyatın tam siyahısı dərsliyin sonunda sıra nömrəsi ilə verilmiş, hər bir mövzuya aid olan mənbə və ədəbiyyat isə həmin mövzuya dair mətnin axırında öz kod nömrəsi ilə nəzərə çatdırılmışdır.

Azərbaycanın tarixi-siyasi coğrafiyası və onun tədrisi sahəsində ilk təşəbbüs olan bu dərs vəsaiti əlbəttə müəyyən qüsurlardan, nöqsanlardan xali deyildir. Müəllif onları nəzərə çatdıracaq mütəxəssislərə, ziyalılara və eləcə də, vəsaitin nəşrində əməyi olan bütün şəxslərə, xüsusilə də, dəyərli məsləhətləri ilə vəsaitin təkmilləşməsinə yaxından kömək etmiş Azərb. MEA müxbir üzvü, tarix elmləri doktoru Nailə Vəlixanlıya öz dərin minnətdarlığını bildirir. [5]

## *I mövzu:* Tarixi coğrafiya fənni: vəzifələri, əlaqələri, elmi istiqamətləri, tədqiqat metodları və üsulları

Tarixi coğrafiya elmi müəyyən tarixi dövrdə bu və ya digər ərazinin, ölkənin tarixi və coğrafi vəziyyətini öyrənir. Tarixi coğrafiya bizim tarixi anlayışlarımızı xronoloji baxımdan konkretləşdirir və onları müəyyən ərazilərlə əlaqələndirir. Buna görə də, tarixi coğrafiya bu və ya başqa ölkənin tarixinin müxtəlif inkişaf dövrlərindəki fiziki, iqtisadi, siyasi coğrafiyasının xarakteristikasını açıqlayır. Tarixi coğrafiya əsasən özündə aşağıdakı cəhətləri birləşdirir:

1) Fiziki-coğrafi şərhlər – relyef, iqlim, su ehtiyatları, torpaq örtüyü, bitki aləmi, heyvanlar aləmi, faydalı qazıntılar və s. barədə şərhlər;

2) Əhalinin coğrafiyası – əhalinin təşəkkülü, formalaşması, etnik tərkibi, məskunlaşdırılması və yer dəyişməsi məsələləri;

3) İqtisadi coğrafiya – sənayenin və təsərrüfat əlaqələrinin, sahələr və rayonlar üzrə xarakteristikası ilə birgə, coğrafiyası;

4) Siyasi coğrafiya – siyasi sərhədlərin təyini, tarixi baxımdan seçilən ərazilərin və rayonların müəyyənləşdirilməsi, tarixi hadisələrlə bağlı məskənlərin xəritədə göstərilməsi, şəhərlərin, yaşayış məskənlərinin, qalaların, müdafiə istehkamlarının və s. lokalizasiyası (yerləşdirilməsi), xalq hərəkatının coğrafiyası və s. məsələlərin şərhi.

Tarixi coğrafiya geniş diapozona malik elm sahəsidir. Yaranması Renessans və Böyük coğrafi kəşflər dövrü ilə (XV-XVI əsrlərlə) əlaqələndirilən tarixi coğrafiya elmi eyni zamanda təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsini, müxtəlif tarixi mərhələlərdə təsərrüfat fəaliyyətinin coğrafi mühitə, coğrafi mühitin istehsalata və etnogenezə təsirini öyrənir. Tarixi coğrafiya fənninin vəzifələrinə, həmçinin, etnik qrupların müəyyənləşdirilməsi, etnik birliklərin lokalizasiyası, qəbilələrin birləşməsi və dövlət qurumlarının təşəkkülü, dövlətlərin siyasi hüdudlarının, sərhədlərinin, ərazisinin araşdırılması və s. daxildir. [7-8]

Beləliklə, tarixi coğrafiya tarixi-fiziki coğrafiya, əhalinin tarixi coğrafiyası, tarixi-iqtisadi coğrafiya, tarixi-siyasi coğrafiya, təbiətlə insanın qarşılıqlı əlaqələri, coğrafi mühitin insan cəmiyyətinə təsiri, insanın öz fəaliyyətində təbiətdən istifadəsi və ona təsiri və s. məsələləri araşdırır.

Coğrafi mühit (coğrafi örtük) dedikdə cəmiyyəti əhatə edən və insan həyatı üçün daim zəruri olan təbiət anlaşılır. Yerin relyefi, torpaq örtüyü, iqlim, su ehtiyatları, bitki və heyvanlar aləmi, yeraltı sərvətlər və s. coğrafi mühitin əsas komponentlərindəndir. Cəmiyyətin tarixi təbiət tarixindən ayrılmazdır və onlar daima qarşılıqlı təsir gücünə malikdirlər. Coğrafi mühitin cəmiyyətə təsiri maddi istehsalın səviyyəsindən və ictimai quruluşun xarakterindən daha çox asılıdır.

Tarixi coğrafiyanın geniş əhatə dairəsinə malik olması, təbiət və cəmiyyət (ictimai) elmlərinin qovşağında formalaşması bu elm sahəsinin mahiyyətinin, məğzinin və aidiyyətinin müəyyənləşdirilməsində bəzi çətinliklərin, fikir ayrılığının meydana çıxmasına səbəb olmuşdur və bununla əlaqədar çoxlu əsərlər meydana gəlmişdir. Belə ki, tarixçi alimlər tarixi coğrafiyanın bilavasitə tarix elminə aid olduğunu iddia edirlər, bu elmin tarix ilə yaxın olduğunu sübut etməyə çalışırlar və daha çox humanitar məsələlərin tədqiqinə diqqət yetirirlər. Coğrafiyaşünas alimlər isə əksinə, tarixi coğrafiyanın coğrafiya elminə aid olduğunu israr edirlər. Məsələn, fiziki coğrafiya mütəxəssislərinin nəzərində tarixi coğrafiya təbiətin inkişafının son mərhələsinin, insanın yaranmasından sonrakı mərhələnin öyrənilməsi ilə məşğul olan elm sahəsidir. Bəziləri tarixi coğrafiyanı xalqların tarixini təbiətin tarixi ilə əlaqədar öyrənən elm sahəsi hesab edirlər. Əslində isə tarixi coğrafiya həmin 2 elm sahəsinin – tarix və coğrafiyanın qovuşmasından təşəkkül tapmışdır. Bu elm sahəsi hər hansı ölkənin, bölgənin, ərazinin konkret tarixi dövrdəki vəziyyətini – tarixi, coğrafi, iqtisadi, mədəni, mənəvi və s. vəziyyətini araşdırır və həmin diyar barədə dolğun və hərtərəfli məlumat əldə edir. Tarixi coğrafiya ilə coğrafiya tarixi qarışdırılmamalıdır. Bunlar ayrı-ayrı elm sahələridir.

Tarixi-coğrafiyanı bəzən müasir dövrün coğrafiyası ilə eyniləşdirirlər. Məlumdur ki, tarixçi-

coğrafiyaşünas üçün müasir [8-9] dövrdən keçmişə nəzər salmaq vacib cəhətdir. Buna görə də o, müasir coğrafi obyekti yaxşı mənimsəməlidir ki, onun keçmişini öyrənə bilsin. Burada tədqiqatın tarixçi və ya coğrafiyaşünas tərəfindən aparılması əsas şərt hesab olunmur. Lakin coğrafiyaçılar ilə tarixçilər qarşısında duran vəzifələr bir-birindən fərqlənirlər; onların hər biri məsələyə öz sahəsi baxımından yanaşır. Nəticə olaraq qeyd etmək lazımdır ki, tarixi coğrafiya, eləcə də müasir dövr coğrafiyası tarix ilə coğrafiya arasında ortaq elm sahəsidir. Bu elm sahəsi təbiətin insan cəmiyyətinin inkişafına təsirini, həmçinin, insanın təbiətə təsirini müəyyənləşdirir.

Tarixi coğrafiya fənni digər elm sahələri ilə geniş əlaqələrə malikdir. Tarix və coğrafiya fənləri ilə yanaşı bu elm sahəsi öz fəaliyyətində etnoqrafiya, arxeologiya, toponimika, iqtisadiyyat, ədəbiyyat, dilçilik, dəqiq elm sahələri və b. k. elmlərlə sıx əlaqədə olur. Tarixi coğrafiyanın əhatə dairəsinin genişliyi onun bütün başqa elm sahələrindən bəhrələnməsinə səbəb olmuşdur. Bölgənin müəyyən tarixi dövrdəki vəziyyətini tam şəkildə araşdırmaq üçün tarixi və coğrafi şəraitlə yanaşı həmin dövrün ədəbi mühiti, mədəniyyəti, mənəvi həyatı, elmi və digər sahələrinin araşdırılması və şərhi vacibdir. Bu vəzifələri öhdəsinə götürən tarixi coğrafiya onlara aid mövcud materiallardan, faktlardan faydalanır. Odur ki, tarixi coğrafiya fənni bütün elm sahələri ilə maraqlanır. Məsələn, hər hansı bölgənin müəyyən dövrdəki, konkret tarixi andakı həyat tərzini və ya xalqın dilini araşdırmaq lazım gələrsə, tarixi coğrafiya həmin dövrə dair etnoqrafik materiallardan və ya dilçilik materiallarından bəhrələnir; ərazinin yaşayış yerlərinin müəyyənləşdirilməsində toponimikadan, pul tədavülünün tədqiqində sikkə materiallarından və s. istifadə olunur.

Geniş əhatə dairəsinə malik tarixi coğrafiya fənninin aşağıdakı 6 mühüm elmi istiqaməti, sahəsi vardır:

1. Tarixi coğrafiya köməkçi tarix fənni kimi – bu elmi istiqamət yaşayış məskənlərinin yerinin müəyyənləşdirilməsi, şəhərlərin topoqrafiyası (səthinin, ayrı-ayrı nöqtələrinin qarşılıqlı vəziyyəti) ilə, müxtəlif tarixi hadisələrə dair abidələrlə, rabitə vasitələrilə və s. məsələlərlə məşğul olur. Göstərilənlər tarix elmi üçün az əhəmiyyət kəsb etməsə də, mahiyyət etibarilə tarixə kö- [9-10] məkçi sahələr hesab olunurlar;

2. Tarixi coğrafiya keçmiş tarixi dövrlərin iqtisadi coğrafiyasını öyrənən elmi istiqamət kimi – bu elmi istiqamət tarixçilərin və coğrafiyaşünasların birgə cəhdləri ilə tədqiq olunur. Həmin elmi istiqamət əhalinin tarixi-coğrafi problemlərinə və tarixi demoqrafiyaya (əhalinin tərkibi, sayı, baş verən dəyişikliklər) aid məsələləri də əhatə edir;

3. Tarixi-siyasi coğrafiya elmi istiqaməti – dövlətlərin, ölkələrin sərhədlərini, hüdudlarını, inzibati ərazi bölgüsü məsələlərini, xalq hərəkatının coğrafiyasını və s. öyrənir;

4. Tarixi-etnik coğrafiya elmi istiqaməti – xalqların coğrafi mühitlə əlaqədar tarixini öyrənir. Bu elmi istiqamətin öhdəsinə xalqların təsərrüfat-mədəni növlərinin (tiplərinin) öyrənilməsi, tarixi-etnoqrafik rayonlaşdırmanın, əhalinin tərkibinin, sayının, baş vermiş etnik dəyişikliklərin araşdırılması və s. kimi məsələlər də daxildir;

5. Tarixi coğrafiya coğrafi mühitin və landşaftların (Yer səthinin formasının) inkişafı, mənimsənilməsi və dəyişiklikləri tarixini öyrənən elm sahəsi kimi – bu sahə ilk növbədə ümumi tarixi-fiziki coğrafiya şəklində təmsil olunur və coğrafi mühitin müəyyən tarixi dövrdəki inkişafının və dəyişikliklərinin ümumi məsələlərini araşdırır (başqa sözlə, «Yerşünaslıq» adlanır). Burada yerin mənimsənilməsi və təbiətin dəyişilməsi problemləri geniş masştabda tədqiq olunur. Bu istiqamət digər tərəfdən regional-tarixi-fiziki coğrafiya (landşaftların tarixi coğrafiyası) şəklində təmsil olunur və yer landşaftlarının inkişafı, dəyişiklikləri və mənimsənilməsi tarixini öyrənir.

6. Tarixi coğrafiya keçmiş dövrlərin təbiətinin, əhalisinin, təsərrüfatının xüsusiyyətlərini öyrənən birləşmiş elm sahəsi kimi - bu elm sahəsini coğrafiya ilə müqayisədə tarixi-coğrafi ölkəşünaslıq və ya tarixi-coğrafi diyarşünaslıq adlandırmaq olar. Bu sahə digər tarixi-coğrafi istiqamətlərin, sahələrin məlumatına əsaslanır və əsasən tədrisi məqsədlərə, kompleks şərhlərin tərtibinə xidmət edir. Xronoloji baxımdan onu qədim, orta əsrlər, yeni və ən yeni dövrlərin tarixi coğrafiyalarına bölürlər. Həmin səpkili şərhlər tarixi kəsiklər metodundan istifadə edərək əsas diqqətlərini ictimai-iqtisadi məsələlərə yönəldən tarixçilər tərə- [10-11] findən hazırlanır.

Tarixi coğrafiyanın şərh olunan elmi istiqamətləri, sahələri bir daha göstərir ki, bu elm sahəsi tarix və coğrafiyanın qovşağında ortaq mövqe tutan elm sahəsidir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, tarixi coğrafiyanın sadalanan 6 elmi istiqamətindən (sahəsindən) «Tarixi-siyasi

coğrafiya» elmi istiqaməti daha mühüm əhəmiyyət kəsb edir. Həmin elmi istiqamətin əsas vəzifələrindən biri dövlətlərin, ölkələrin, vilayətlərin tarixi ərazilərini, hüdudlarını, sərhədlərini, inzibati-ərazi bölgüsünü müəyyənləşdirməkdən ibarətdir. Qeyd olunduğu kimi, Azərbaycan tarixşünaslığında məhz bu məsələlərin tədqiqi sahəsində XX əsrin 80-ci illərinədək, demək olar ki, heç bir iş görülməmişdi. Bunun göstərilən fənnin son vaxtlaradək və hal-hazırdakı tədrisinə də mənfi təsiri olmuşdur: «Tarixi coğrafiya» fənni adı ilə Azərbaycanın siyasi tarixi və ya coğrafiyasının tədrisi adi hala çevrilmişdi. Əslində isə tarixi coğrafiyanın çox geniş sahələri əhatə etdiyini, bölgənin ümumi vəziyyətini tam şəkildə, ətraflı araşdırdığını nəzərə almalı və bununla yanaşı, əsas diqqət məhz «Tarixi-siyasi coğrafiya» elmi istiqamətinin öyrədilməsinə və tədrisinə verilməlidir. Çünki, tarixi coğrafiyaya daxil olan digər elmi məsələlər, problemlər elmin müxtəlif sahələri, fənləri tərəfindən araşdırılır və müxtəlif adlarla tədris olunur. Odur ki, «Tarixi coğrafiya» fənni ilə əsasən «Tarixi-siyasi coğrafiya» elmi istiqamətinin tədrisi həyata keçirilməlidir.

Tarixi coğrafiyanın özünə məxsus tədqiqat metodları və üsulları vardır. Burada da, digər elm sahələrində olduğu kimi, metod ilə konkret materialın tədqiqi üsullarını (yollarını, tərzini) bir-birindən fərqləndirmək lazımdır. **M e t o d** elmi həqiqətin dərk olunmasının ümumi istiqamətlərini müəyyənləşdirir. Elmi həqiqətin idrakı üçün tarixi, məntiqi, müqayisəli, marksist-dialektik və s. metodlardan istifadə olunmuşdur. **Ü s u l** (tərz, yol, vasitə və s.) isə elmi həqiqətin anlaşılması üçün aparılan araşdırmaların, tədqiqatların formasını, yolunu, tərzini əks etdirir. Qeyd etmək lazımdır ki, tarixi coğrafiya sahəsində istifadə olunan bütün metod və üsullar bir məqsədə – ətraf mühitin inkişafının və dəyişikliklərin tarixi prosesini dərk etməyə xidmət edir. Tarixi coğrafiya fənnində çox müxtəlif tədqiqat üsulların- [11-12] dan istifadə olunur. Bu həmin fənnin tarix ilə coğrafiya arasında ortaq vəziyyətdə olmasından, təbii və ictimai materiallardan istifadə lüzumundan irəli gəlir. Ümumiyyətlə götürüldükdə, tarixi coğrafiyanın əsas tədqiqat üsulları və metodları aşağıdakılardır:

- ***Tarixi-fiziki-coğrafi üsullar*** – Əsasən landşaft tədqiqatlarında istifadə olunur. Həmin üsullar tədqiqatçıdan təkcə landşaft elmi sahəsində deyil, arxeologiya və tarix sahəsində də müəyyən biliklərə malik olmağı tələb edir.

- ***Məxsusi tarixi üsullar*** – bu üsullar tarixi coğrafiyanın ən mühüm üsulları sırasına daxildir; belə ki, tarixi materiallar landşaftların mənimsənilməsi və dəyişilməsi prosesini daha dolğun şəkildə xarakterizə edir. Tarixçilərin sənəd xarakterli və digər mənbələrin öyrənilməsi nəticəsində əldə etdikləri nailiyyətlər tarixi coğrafiyanın tədqiqində də qiymətlidir. Bununla bərabər, tarixçi-coğrafiyaşünas alim tarixi materialları, tarixi landşaftlar üzrə tədqiqat baxımından, yenidən təfsir (şərh) etməli və müxtəlif hissələrə bölməlidir. Bu baxımdan materialların arxiv sənədləri, salnamələr, baş mərzçəkmə (sərhədqoyma) materialları, hərbi-toponimik təsvirlər, meşələr barədə materiallar, yerli müəssisələrin materialları, coğrafi lüğətlər və şərhlər və s. kimi bölmələr üzrə təsnifi məqsədəuyğun hesab olunur.

- ***Toponimik və landşaft-leksik üsullar*** – Toponimlərin və ümumi coğrafi terminlərin öyrənilməsi keçmiş landşaftların xüsusiyyətlərini və insanın təbiəti dəyişdirməsinin xarakterini müəyyənləşdirməyə imkan verir. Bu üsul geniş şəkildə tətbiq olunur. Onun tarixi coğrafiya sahəsində tətbiqinin səciyyəvi cəhəti bundadır ki, bütün toponimik və landşaft-leksik materiallar coğrafi məkanlar üzrə lokalizə olunur və landşaft xüsusiyyətlərinə və insanın təbiətə təsiri baxımından araşdırılır.

- ***Kompleks tədqiqat üsulu*** – tarixi coğrafiyanın tədqiqat üsullarını müxtəlif qruplara – tarixi-fiziki coğrafiya, məxsusi tarixi, toponimik və s. qruplara bölməklə əslində müəyyən mücərrədliyə yol verilmiş olur; belə ki, tarixçi-landşaftçı alim, tədqiqatçı öz əməli fəaliyyətində həmin qrupların hamısından bəhrələnir və bu cür yanaşma landşaftlarda tarixi dəyişikliklərin mahiyyətinin dərindən açılmasına yardım edir. Tədqiqatçı məsələyə hansı nöqteyi-nəzərdən yanaşsa da, o, bütün mövcud fakt- [12-13] lardan, materiallardan istifadə etməli və ümumiləşdirmə aparmalıdır. Bu iş kompleks tədqiqat üsulu ilə həyata keçirilir.

- ***Tarixi-coğrafi kəsiklər metodu*** – ənənəvi olaraq tarix elmi sahəsində istifadə olunur. Tarixi hadisələrin dövrlər üzrə analizi bu metodun səciyyəvi cəhətidir. Tarixçilərin bu sahədə əldə etdikləri böyük təcrübədən digər istiqamətlərdə çalışan tarixçi-coğrafiyaşünaslar tərəfindən istifadə olunmalıdır. Tarixi kəsikləri müxtəlif cəhətlərə görə bölmək olar: ilk növbədə onlar 2 yerə – komponent (tərkibi) və inteqral (tam, bütöv) hissələrə ayrılırlar. ***Komponent*** dövrü kəsiklər ayrı-ayrı tarixi süjetlərin – siyasi-coğrafi, demoqrafik, iqtisadi-coğrafi, təbii-coğrafi və s. mövzuların

tədqiqində istifadə olunur. Onlara ərazinin siyasi-inzibati bölgüsünün, demoqrafik quruluşunun, təsərrüfat vəziyyətinin araşdırılması və s. zamanı müraciət oluna bilər. ***İnteqral*** (tam, bütöv) tarixi kəsiklərdən isə təbiətin, əhalinin, təsərrüfatın müəyyən dövrlərdəki hərtərəfli qarşılıqlı tədqiqi aparılarkən istifadə olunur. Tarixçi-coğrafiyaşünaslar da coğrafi istiqamətlərdə tədqiqatlar apararkən inteqral tarixi kəsiklərdən bəhrələnirlər. Coğrafi obyektlərin bütün inkişaf prosesini araşdıran tarixçi-coğrafiyaşünas üçün xüsusi tarixi-coğrafi kəsiklər (dövrlər) müəyyənləşdirmək vacibdir. Tarixi-coğrafi kəsik həmin dövrdə səciyyəvi olan bütün təbiət-əhali-təsərrüfatarası qarşılıqlı əlaqələrin ümumi mənzərəsini araşdırmağa imkan verir. Tarixi-coğrafi kəsiklər metodu ilə işləyən mütəxəssis tarixi kəsik tətbiq olunan vilayətin, məskənin ərazi baxımından vahidliyini dəqiqləşdirməli, onun sərhədlərini müəyyənləşdirməli, topladığı tarixi-coğrafi materialların, faktların sinxron analizini aparmalı, təbiət-əhali-təsərrüfatarası mühüm qarşılıqlı əlaqələri üzə çıxarmalı və onları dərindən tədqiq etməlidir.

- ***Tarixi-coğrafi tədqiqatlarda diaxronik yanaşma üsulu*** – müasir coğrafi obyektlərin tarixini öyrənmək məqsədilə həyata keçirilən bütün tədqiqatlar üçün xarakterik cəhətdir. Tarixi kəsiklər üsulu əksər hallarda tarixçilər tərəfindən istifadə olunursa, diaxronik yanaşma daha çox coğrafiyaşünaslar tərəfindən tədqiqata cəlb olunur. Lakin, onları qarşı-qarşıya qoymaq da doğru deyildir. Diaxronik yanaşmanın məqsədi tarixi kəsikləri əlaqələndirmək və daha böyük tarixi dövrdə coğrafi obyektin ümu- [13-14] mi inkişaf meyllərini müəyyənləşdirməkdən ibarətdir. Diaxronik yanaşma ilk növbədə coğrafi obyektin əmələ gəlməsinin düzgün müəyyənləşdirilməsinə, sonra onun inkişafı və dəyişikliklərinin öyrənilməsinə, nəhayət, tədqiqatlar nəticəsində həmin ərazinin, obyektin gələcək inkişafı barədə əsaslandırılmış mülahizələr irəli sürməyə imkan verir. Müasir coğrafi gerçəkliyin analizində diaxronik yanaşmanın bir sıra metodik prinsipləri (6 prinsip) mövcuddur. Bunlardan biri tədqiq olunan bölgənin ərazi bütövlüyünün gözlənilməsidir.

- ***Kartoqrafik metod*** – əslində tarixi coğrafiyanın 2 müxtəlif istiqamətlərini – tarixi və coğrafi istiqamətlərini bariz şəkildə əks etdirən göstəricidir. Tarixi coğrafiya sahəsində bir çox xəritələr tərtib olunur. Onları tarixi-coğrafiya və tarixi-landşaft xəritələrinə bölmək mümkündür. Lakin bunlar da daha konkret sahələr üzrə bölünürlər. Ayrı-ayrı tarixi dövrləri əks etdirən xəritələr müxtəlif istiqamətlərdə çalışan tarixçi-coğrafiyaşünaslar üçün qiymətli mənbə hesab olunur. Bu xəritələrdə əsasən dövlətlərin sərhədləri, yaşayış məskənlərinin lokalizasiyası, rabitə, ticarət yolları, sənaye obyektləri və s. göstərilir, lakin onlarda insanın təbiətin dəyişilməsinə təsiri nadir hallarda öz əksini tapır. Bununla yanaşı, bu qəbildən olan xəritələr yeni xəritələrin tərtibində mühüm mənbə hesab olunur. Coğrafi xəritələrdə də heç də hər vaxt coğrafi mühitin inkişafı və dəyişiklikləri öz dolğun əksini tapmır.

- ***Tarixi-coğrafi rayonlaşdırma metodu*** mühüm əhəmiyyət kəsb etməklə yanaşı, müəyyən tarixi dövrdə təsərrüfatın, əhalinin, coğrafi mühitin ərazi baxımından təşkili barədə biliklərin ümumiləşdirilməsinə xidmət edir. Tarixi-coğrafi rayonlaşdırmanın əsasını əməyin ərazi baxımından bölgüsü tutur. Burada tarixi-sahəvi (təsərrüfat) yanaşma, tarixi-etnoqrafik yanaşma (xalqların təsərrüfat-mədəni tipləri üzrə) və s. istiqamətlər mövcuddur. Rayonlaşdırmada yüksək inzibati vahid tarixi-coğrafi vilayət – tarixi inkişafı və müəyyən təsərrüfat-mədəni cəhətləri ilə seçilən ərazi hesab olunur. Bu inzibati vahid özlüyündə daha kiçik hissələrə bölünür. Tarixi-landşaft araşdırmalarında rayonlaşdırma metodu ikinci dərəcəli əhəmiyyət kəsb edir.

- ***Tarixi-coğrafi təsvirlərin, əsərlərin quruluşu*** da tarixi-coğ- [14-15] rafi tədqiqatlarda müəyyən mövqeyə malikdir və müxtəlif formalarda həyata keçirilir. Bəziləri tarixi-coğrafi məsələləri dövrlər üzrə fəsillərdə, bəziləri təbiətin malik olduğu xüsusiyyətlərə uyğun hissələrdə şərh edirlər. Tarixi-landşaft təsvirlərin quruluşunda ümumi və regional cəhətlərin nəzərə alınması vacibdir. Landşaftların mənimsənilməsi və dəyişilməsi tarixini öyrənərkən aşağıdakı mərhələlərdə iş aparmaq məqsədəuyğundur: a) ərazinin fiziki-coğrafi rayonlaşdırılması və tədqiqat obyektinin müəyyənləşdirilməsi; b) landşaftın müasir dövrdəki kənd təsərrüfatının əsas istiqamətlərinin aydınlaşdırılması; v) həmin tarixi vilayətə aid xarakterik toponimlərin və landşaft-leksik materialın öyrənilməsi; q) landşaftın mənimsənilməsi və dəyişikliklərin tarixi sənədlər və materiallar əsasında tədqiqi; d) mətnin hazırlanması və xəritənin tərtibi. Bu tələblərə əsasən hazırlanmış tədqiqatlar tarixi coğrafiya, xüsusilə də, tarixi-landşaft sahəsindəki biliklərin daha elmi və dürüst inikasına imkan yaradır.

Tarixi coğrafiyanın yuxarıda sadalanan tədqiqat metodları və üsulları içərisində «Tarixi-

coğrafi kəsiklər» metodu «Tarixi-siyasi coğrafiya», «Tarixi-etnik coğrafiya» elmi istiqamətləri baxımından daha mühüm hesab olunur. Siyasi coğrafiya, demoqrafik proseslər, iqtisadi coğrafiya, təbii coğrafiya və b.k. məsələlərin tədqiqində də göstərilən metod geniş istifadə olunur. Tarixi-coğrafi kəsik metodu müəyyən tarixi dövrdə müəyyən coğrafi ərazidə təbiətin, əhalinin və təsərrüfatın qarşılıqlı əlaqələrinin kompleks tədqiqini nəzərdə tutur.

(Bax: 11; 72; 78)

## *II m ö v z u :* Azərbaycanın tarixi-siyasi coğrafiyasının mənbələri və tarixşünaslığı

Azərbaycanın tarixi-siyasi coğrafiyasına dair mənbələr barədə məlumatın şərhindən əvvəl tarixi coğrafiya fənninin özünün ikili mahiyyət daşıdığına bir daha nəzər yetirmək lazımdır. Göstərildiyi kimi, tarixi coğrafiya elmi çox geniş sahələri birləşdirir və bu baxımdan onun tədqiqi üçün həddən ziyadə və müxtəlif xarakterli – tarixi, coğrafi, ədəbi, lingvistik və s. mənbələr mövcuddur. Onların sırasında yazılı, arxeoloji, etnoqrafik, toponimik, numizmatik, epiqrafik, bədii, folklor, dil, antropoloji, təbiət elmlərinə dair məlumatlar, dəqiq elmlərin göstəriciləri və s. materiallar vardır. Odur ki, Azərbaycanın tarixi coğrafiyası ümumi şəkildə götürülərsə, ona dair ilk mənbələrin çoxluğu və müxtəlif xarakterli olması diqqəti cəlb edir. Azərbaycanın tarixi coğrafiyasının «Tarixi-siyasi coğrafiya» elmi istiqamətinə dair ilk mənbələrə gəldikdə isə onların sayı və növləri heç də lazımi qədər deyildir, ayrı-ayrı vaxtlarda, tarixi dövrlərdə ölkənin tarixi-siyasi coğrafiyasını əks etdirən spesifik əsərlər, xüsusi mənbələr yazılmamışdır. Bununla yanaşı bütün dövrlərə aid ilk yazılı mənbələrdə, xüsusilə, tarixi və coğrafi əsərlərdə Azərbaycanın tarixi-siyasi coğrafiyasına dair faktlara rast gəlmək mümkündür. Bəzi mənbələrdə belə faktlar cüzidirsə, digərlərində nisbətən çoxdur. Əsas vəzifə həmin mənbələrdən tarixi-siyasi coğrafiyaya aid materialların, faktların araşdırılıb üzə çıxarılması, toplanması, tərcüməsi, tədqiqata cəlb olunması və onların əsasında dövrün tarixi-siyasi coğrafiyasını öyrənməkdən ibarətdir.

Tarixi coğrafiyaya aid ilk mənbələr, dövrlər üzrə fərqləndiyi kimi, yazıldığı dillərə görə də müxtəlifdirlər. Ən qədim mənbələr şumer, akkad, latın, yunan və s. dillərdə mövcuddur. Sonrakı dövr mənbələri isə alban, erməni, qədim fars, ərəb, orta fars, türk, rus, avropa, gürcü və s. dillərdə meydana gəlmişdir. Azərbaycanın tarixi coğrafiyasını qonşu ölkələrin, dövlətlərin, vilayətlərin tarixi coğrafiyalarından təcrid etmək də düzgün deyildir. Azərbaycan, bir vilayət, dövlət kimi, qonşu ölkələrlə, xüsusilə, Qafqaz, Kiçik Asiya, Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqədə olmuş, buna görə də, Azərbaycanın tarixi coğrafiyası ilə həmin ölkələrin tarixi coğrafiyaları arasında bir sıra oxşarlıq, eynilik, ümumilik mövcuddur. Bu oxşarlığın təzahürü ilk mənbələrin eyniliyində də özünü göstərir. Bir çox ilk mənbələr, xüsusilə qədim və antik dövr mənbələri qonşu ölkələrin tarixi coğrafiyası ilə yanaşı Qafqazın, o cümlədən Azərbaycanın tarixi-siyasi coğrafiyası barədə faktlara malikdir. Bu baxımdan şumer-akkad dastanları ilə yanaşı Herodotun «Tarix», Strabonun «Coğrafiya», Plutarxın «Parallel tərcümeyi-hallar», Klavdi Ptolomeyin «Coğrafiya dərsliyi», Pomponi Melanın «Yerin təsviri» və s. əsərlər [16-17] diqqəti cəlb edir. Bu mənbələrdə qonşu ölkələrlə yanaşı Atropatena və Qafqaz Albaniyasının tarixi-siyasi coğrafiyası barədə qiymətli faktlar verilir ki, məhz onların köməyi ilə diyarın həmin dövrlərdəki vəziyyəti araşdırılır. Herodotun Dərbənd keçidi, Araz çayı, Xəzər dənizi, kaspilər, utilər, Strabonun Albaniyanın ərazisi, Kür çayının mövqeyi, 26 alban tayfası, Plutarxın bir sıra toponimlər, Kür və Araz çayları, Klavdi Ptolomeyin Albaniyanın 29 şəhəri, kəndi, çayları, dağ aşırımları, Pomponi Melanın Atropatena və Qafqaz Albaniyasının çayları, dağları, adaları, bəzi tayfaları, həmçinin, Böyük Plininin Albaniyanın baş şəhərləri, albanların mənşəi və s. barədəki məlumatı bu baxımdan əhəmiyyət kəsb edir.

Alban və erməni dilli mənbələr arasında Ananiy Şirakatsinin «Erməni coğrafiyası» (VII əsr), Moisey Kalankatlının «Albanların tarixi» (VIII əsr), Mxitar Qoşun «Alban xronikası» (XII əsr), Gevond Vardapetin «Tarix» (VIII əsr), Gəncəli Kirakosun «Tarix» (XIII əsr) əsərləri Azərbaycanın tarixi-siyasi coğrafiyasına aid materialları ilə seçilirlər. Moisey Kalankatlının və Gəncəli Kirakosun Albaniyanın ərazisi barədəki faktları bu baxımdan diqqəti daha çox cəlb edir. Son müəllifin əsərində Albaniyanın Ermənistan və Gürcüstandan ayrı olması xüsusi vurğulanır.

Ananiy Şirakatsi də əsərində Albaniyanın sərhədlərini göstərir, əyalətlərinin adını sadalayır və bildirir ki, Albaniyaya 20 mahal daxildir. Lakin, onun yazdığından Albaniyanın Kürdən şimalda yerləşdiyi anlaşılır. Gevond Vardapetin əsərində də Albaniyanın VIII əsrdəki hüdudları barədə məlumat verilir.

Ərəbdilli ilk mənbələrin xronoloji çərçivəsi əsasən IX-XV əsrləri əhatə edir. Onların böyük bir qismi Xilafətin tərkibinə daxil olan ölkələrin, o cümlədən Azərbaycanın tarixi-siyasi coğrafiyası barədə faktlara malikdirlər. Ərəb müəllifləri – tarixçi və coğrafiyaşünas alimləri İbn Hişam (IX əsr), İbn Xordadbeh (IX əsr), əl-Yaqubi (IX əsr), İbn əl-Fəqih (IX əsr), ət-Təbəri (IX-X əsrlər), əl-Məsudi (X əsr), əl-İstəxri (X əsr), İbn Havqəl (X əsr), əl-Müqəddəsi (X əsr), əl-Biruni (XI əsr), əl-İdrisi (XII əsr), əl-Qərnati (XIII əsr), Yaqut əl-Həməvi (XII-XIII əsrlər), İbn əl-Əsir (XIII əsr), ən-Nəsəvi (XIII əsr), Zəkəriyyə əl-Qəzvini (XIII əsr), İbn Bəttutə (XIV əsr), İbn Ərəbşah (XIV-XV əsrlər), [17-18] Əbdürrəşid Bakuvi (XV əsr) və başqaları öz əsərlərində bu diyarın tarixi, coğrafiyası və eləcə də, tarixi coğrafiyası barədə müəyyən dəlillər, faktlar verirlər. Məsələn, İbn Hişam (IX əsr) Azərbaycandan bəhs edərək yazır: «Ora türk torpağıdır». İbn Xordadbehin Azərbaycan şəhərləri, onların arasındakı məsafə, ticarət yolları, ən-Nəsəvinin Azərbaycanın qərb sərhədləri, İbn Bəttutənin XIV əsrin ortalarında Hülakular dövlətinin 11 hissəyə parçalanması, əl-Kufinin, əl-Bəlazurinin, İbn Xəldunun Azərbaycanda məskən salmış ərəb qəbilələri, İbn Ərəbşahın Əlincə qalası və s. barədəki məlumatları ölkənin orta əsrlərdəki tarixi coğrafiyasının araşdırılması baxımından çox əhəmiyyətlidirlər.

XI-XII əsrlərdən başlayaraq ərəbdilli mənbələr öz mövqeyini tədricən farsdilli mənbələrə verir. Bu hal fars dilinin inkişafı, mədəniyyət, elm, siyasət dili statusu kəsb etməsi ilə əlaqədardır. Fars dilində yazılmış tarixi və coğrafi əsərlər müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın tarixi-siyasi coğrafiyasına dair maraqlı faktlarla zəngindir. Onların bəziləri bu baxımdan xüsusilə fərqlənirlər. Ravəndinin «Rahət əs-südur və ayət əs-sürur» (XI-XII əsrlər), anonim «Əcaib əd-dünya» (XIII əsr), Rəşidəddinin «Came ət-təvarix», «Mükatibat» (XIII-XIV əsrlər), Həmdullah Qəzvininin «Nüzhət əl-qulub», «Zeyl-e tarix-e qozide» (XIV əsr), Şərəfəddin Əli Yəzdinin «Zəfərnamə» (XIV-XV əsrlər), Hafiz Əbrunun «Zübdət üt-təvarix» (XV əsr), Həsən Rumlunun «Əhsən ət-təvarix» (XV əsr), Əbdürrəzzaq Səmərqəndinin «Mətlə' üs-sə'deyn» (XVI əsr), İskəndər Münşinin «Tarix-e alam aray-i Abbasi» (XVII əsr), A.A.Bakıxanovun «Gülüstani-İrəm», Mirzə Camal Qarabağinin «Qarabağ tarixi» (XIX əsr), «Qarabağnamələr» və s. mənbələr həmin qəbildəndir. Yeri gəldikcə farsdilli və eləcə də, ərəb və başqa mənbələrdəki tarixi-siyasi coğrafiya və tarixi-etnik coğrafiyaya aid mühüm faktlara diqqət yetiriləcəkdir.

Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından XVI əsrin sonunda və XVIII əsrin 20-ci illərində türk dilində tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri», «Naxçıvan sancağının müfəssəl dəftəri», «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri», «Tiflis əyalətinin müfəssəl dəftəri. Borçalı və Qazax (1728-ci il)», [18-19] «Ərdəbil livasının müfəssəl dəftəri» və başqa qəbildən olan məlumat kitabları böyük əhəmiyyət kəsb edir. Onların hamısı son vaxtlarda Azərbaycan dilində nəşr olunaraq elmi ictimaiyyətin istifadəsinə verilmişdir. İki nüsxədə tərtib olunmuş bu dəftərlərdə adı çəkilən bölgələrin həmin dövrlərdəki ərazisi, inzibati bölgüsü, yaşayış məskənləri, kəndləri müfəssəl şəkildə şərh olunur və diyarın əhalisi, gəlirləri göstərilir.

Məlum olduğu kimi, son orta əsrlərdə Avropanın bir çox ölkələrindən müxtəlif səviyyəli şəxslər - dövlət xadimləri, diplomatlar, səfirlər, səyyahlar, tacirlər və s. Şərq ölkələrinə gəlmişlər və gəzdikləri, gördükləri yerlər barədə xatirələrini qələmə almışlar. Onların bəziləri Azərbaycanda da olmuşdur. Alessandri Vinçesso, Adam Oleari və başqalarının xatirələrində, gündəliklərində Azərbaycanın tarixi-siyasi coğrafiyası barədəki qeydlər diqqəti cəlb edir. Məsələn, Alessandri Vinçesso 1572-ci ildə Səfəvilər dövləti haqqında hazırladığı hesabatda dövlətin inzibati quruluşu barədə qiymətli məlumat verir. Alman alimi Adam Olearinin (XVI əsr) xatirələrində də Səfəvilər dövlətinin inzibati quruluşundan bəhs olunur. İohann Şiltberqerin (XIV əsr) Qafqazın vilayətləri, şəhərləri, İohann de Qalonifontibusun (XV əsr) Qafqazda yaşayan xalqlar, Oruc bəy Bayatın ispan dilində yazılmış hekayələrində (1604) qızılbaş tayfaları və s. barədəki qeydləri Azərbaycanın tarixi-siyasi mənzərəsinin araşdırılmasında çox qiymətlidir.

Cənubi Qafqazın, eləcə də Şimali Azərbaycanın Rusiyanın nüfuz dairəsinə keçməsi tarixi coğrafiyaya dair mənbələr sırasında rusdilli ədəbiyyatın meydana gəlməsinə və tədricən çoxalmasına səbəb oldu. Bilindiyi kimi, çar Rusiyası Qafqaza meyl saldığı ilk vaxtlardan başlayaraq ayrı-ayrı bölgələrin coğrafi mövqeyi, təsərrüfatı, əhalisi, adət-ənənələri, mədəniyyəti, inzibati bölgüsü,

yaşayış məskənləri, iqlimi, maddi nemətləri və s. barədə dəqiq araşdırmalar aparmışdır. Qafqaz arxeoloji komissiyası tərəfindən toplanmış xüsusi sənədlər (aktlar), müxtəlif statistik məlumatlar, əhalinin kameral siyahıyaalınmaları, ayrı-ayrı rus məmurlarının qeydləri bu baxımdan maraq doğurur. İ.Q.Qerber (Описание стран и народов вдоль западного берега Каспийского моря, 1728 г.), P.Q.Butkov (Материалы для новой истории [19-20] Кавказа с 1722 по 1803 года), V.Leqkobıtov (Кубинская провинция), F.F.Simonoviç (Описание Южного Дагестана, 1796), F.A.Şinitnikov (Описание Кубинской провинции, 1832 г.) və s. müəlliflər bu sahədə müəyyən işlər görmüşlər. 1870-ci ildə Qafqaz bölgəsi üzrə tərtib edilmiş Rusiya imperiyası yaşayış məskənlərinin Siyahısı Şimali Azərbaycanın tarixi-siyasi coğrafiyasının tədqiqi baxımından qiymətlidir. Burada Azərbaycanın şimal ərazilərindəki ayrı-ayrı yaşayış məskənləri öz əksini tapmış və onların əhalisi, təsərrüfatı göstərilmişdir.

Azərbaycanın tarixi-siyasi coğrafiyasına dair mənbələr sırasında müxtəlif dövrlərdə tərtib olunmuş, çəkilmiş xəritələrin və tarixi coğrafi təsvirlərin rolu əvəzsizdir. Belə xəritələrdən ərəb müəllifi İbn Havqəlin (X əsr) «Kitab surət əl-ərd» əsərindəki «Xəzər dənizi xəritəsi», «Azərbaycan və Arran xəritəsi», əl-İdrisinin (XII əsr) xəritəsi, XIX əsrə dair rus məmurlarının Qafqaza və Xəzəryanı bölgələrə həsr olunmuş xəritələri, 1903-cü ildə Qafqaz hərbi bölgəsi (Кавказский военный округ) tərəfindən tərtib edilmiş xəritə (1993-cü ildə təkrar nəşr olunmuşdur), əsrimizin 20-ci illərində tərtib olunmuş «Qafqaz və İran Azərbaycanı xəritəsi», «Şimali Azərbaycan Rusiya imperiyası tərkibində» (1868-1917-ci illər inzibati bölgüsünə əsasən), «Azərbaycan xəritəsi (1920-ci il ünvan-təqvimi)», 1926-cı ildə çəkilmiş «Azərbaycanın siyasi və təbii xəritəsi» (İbrahim Ağa Vəkilovun), xüsusilə də, 1994-cü ildə tərtib olunmuş «Карта Азербайджанской Республики 1918-1920 гг.» xəritəsi diqqəti cəlb edir.

Azərbaycanın tarixi coğrafiyasının ***tarixşünaslığına*** gəldikdə burada da iki cəhəti bir-birindən ayırmaq vacibdir. Qeyd olunduğu kimi, tarixi coğrafiyanın müxtəlif elmi istiqamətləri mövcuddur və bu elm sahəsi hər hansı tarixi dövr ərzində bu və ya başqa ərazinin vəziyyətini hərtərəfli şəkildə öyrənir. Bu baxımdan Azərbaycanın nəzərdə tutulmuş hər bir dövrdəki vəziyyətinin müəyyən istiqamətlərinin – siyasi tarixinin, iqtisadi vəziyyətinin, coğrafi şəraitinin və s. araşdırılmadığını söyləmək doğru olmazdı. Tarixçi və coğrafiyaşünas alimlərin həmin sahələrdəki əməyi az deyildir. Azərbaycanın şəhərləri, qalaları, ticarəti, ticarət yolları, mədəniyyəti və s. sahələrdə də müəyyən tədqiqatlar aparılmışdır. Alimlərimizin çoxsaylı araşdırmaları, əldə etdikləri [20-21] elmi nailiyyətlər, çap olunmuş monoqrafik əsərlər, akademik nəşrlər və s. buna canlı sübutdur.

Ümumiyyətlə götürüldükdə, Azərbaycan tarixinin və eləcə də tarixi coğrafiyasının tarixşünaslığı A.A.Bakıxanovun adı ilə əlaqələndirilir. Müəllif «Gülüstani-İrəm» əsərində ilk dəfə olaraq Azərbaycanın bir hissəsinin – Şirvanın tarixi coğrafiyasına dair qiymətli məlumat verir. O, Şirvanın orta əsrlər dövründəki şəhərləri, qalaları, yaşayış məskənləri, dağları, çayları, kənd təsərrüfatı, əhalisi və məşğuliyyəti və s. barədə ətraflı danışır. A.A.Bakıxanovdan sonra Mirzə Camal Qarabaği, Mirzə Adıgözəl bəy və s. tarixçilər öz əsərlərində tarixi coğrafiyaya aid faktlar vermişlər. Azərbaycanın qədim və orta əsrlərdəki şəhərləri, qalaları, yaşayış məskənləri, ticarət yolları, əhalisi və etnik tərkibi, məşğuliyyəti və s. barədə V.V.Bartold, Z.Vəlidi, A.Krımski, V.Minorski, Ə.S.Sumbatzadə, Ə.Ələkbərov, M.Şərifli, Ə.Hüseynzadə, M.Heydərov, Q.Qeybullayev və s. tədqiqatçılar araşdırmalar aparmış və müəyyən nəticələr əldə etmişlər.

Əhməd Zəki Vəlidinin «Azərbaycanın tarixi coğrafiyası» adlı tədqiqatı öz dövrünə görə orijinallığı və mövzuya yaxınlığı ilə diqqəti cəlb edir. Əsər əslində müəllifin 1927-1931-ci illərdə İstanbul darülfünununda oxuduğu mühazirələrin bir hissəsindən ibarətdir. Onlar Rusiya Federasiyası EA Şərqşünaslıq İnstitutunun kitabxanasında mühafizə olunur. Təxminən 50 səhifədən ibarət həmin mühazirələrdə Azərbaycanın şimal hissəsinin yaşayış məskənləri barədə məlumat verilir, toponimlərin izahı, lokalizasiyası və təsərrüfat həyatı göstərilir. Burada «Azərbaycan» kəlməsi izah olunur, Dərbənd, Bərdə, Abxaz-Quba, Şabran, Şamaxı, Bərzənd, Bakı-Ərəş-Şəki-Zaqatala bölgəsi, Qəbələ və s. yaşayış məskənləri, onların lokalizasiyası ətraflı şərh olunur. Vəlidinin Azərbaycanın tarixi coğrafiyasının araşdırılması sahəsindəki əməyi müsbət qiymətləndirilməklə yanaşı, onu da qeyd etmək vacibdir ki, müəllif Azərbaycanın sərhədləri, hüdudları barədə konkret məlumat vermir və ölkənin ümumi ərazisi haqqında danışmır, daha doğrusu, Azərbaycanın tarixi-siyasi coğrafiyası məsələlərinə xüsusi diqqət yetirmir.

Azərbaycanın tarixi coğrafiyasının tədqiqi sahəsində, ümumiyyətlə götürüldükdə, müəyyən

işlərin görüldüyü göz qabağın- [21-22] dadır. Lakin tarixi coğrafiyanın bəzi elmi istiqamətləri uzun illər boyu nəzərdən qaçırılmış, unudulmuş və tədqiqatdan kənarda qalmışdır. Bu əsasən tarixi coğrafiyanın «tarixi-siyasi coğrafiya» və qismən də «tarixi-etnik coğrafiya» elmi istiqamətlərinə aiddir. Adı çəkilən müəlliflərin əsərlərində həmin elmi istiqamətlər, demək olar ki, araşdırılmamışdır. Nəticədə göstərilən elm sahələri, xüsusilə də, Azərbaycanın tarixi-siyasi coğrafiyası unudulmuş, ölkənin tarix boyu malik olduğu ərazisi, sərhədləri, hüdudları, inzibati-ərazi bölgüsü, F.Məmmədovanın müəyyən tədqiqatları istisna olmaqla, öyrənilməmişdir. Etnik məsələlər üzrə müəyyən işlər görülsə də bu elmi istiqamət də geniş tədqiqatdan kənarda qalmışdır. Həmin işdə keçmiş İttifaq miqyasındakı qadağanlar, təsirlər az rol oynamasa da, alimlərimizin, ziyalılarımızın və ilk növbədə Azərbaycan dövlətçiliyinin məsələyə laqeyd münasibəti, onu ciddi qiymətləndirə bilməmələri həlledici mövqe tutmuşdur. Belə ki, XX əsrin ortalarından başlayaraq yaxın qonşularımız olan gürcülər və ermənilər öz respublikalarının Elmlər Akademiyalarında «Gürcüstanın tarixi coğrafiyası» və «Ermənistanın tarixi coğrafiyası» adlı şöbələr təsis edib elmin bu sahəsinin tədqiqi ilə ciddi məşğul olduqları halda, Azərbaycanda nəinki müvafiq şöbə, heç bu işlə maraqlanan da yox idi. Əksinə, Azərbaycanın tarixi-siyasi coğrafiyasına toxunan kiçik elmi məqalələrin nəşrinə belə icazə verilmir, tarixi-siyasi coğrafiya ilə maraqlananların qarşısına sədd çəkilirdi. Mövcud siyasətin, tarixi-siyasi coğrafiyaya olan laqeydliyin mənfi təsiri, nəticəsi əsrin 80-ci illərində özünü biruzə verdi. Qonşularımız öz ölkələrinin müxtəlif dövrlərdəki tarixi-siyasi coğrafiyası – tarixi əraziləri, sərhədləri, müxtəlif səmtlərdə hüdudları barədə bütün dünyaya səs sala bildikləri, çoxsaylı kitablar, əsərlər, xəritələr çap etdirdikləri bir anda bizlər, necə deyərlər, «quru yerdə qaldıq» və 1982-ci ildə Tiflisdə keçirilən bu mövzuya həsr olunmuş elmi müşavirəyə əliboş getdik.

XX əsrin 80-ci illərində Azərbaycanın tarixi-siyasi coğrafiyasının araşdırılması sahəsində oyanış baş verdi, bu sahədə ciddi işlər görüldü və demək olar ki, yeni dövr başlandı. Həmin oyanışa səbəb 1982-ci ilin mart ayında Tiflisdə keçirilən regional elmi müşavirə oldu. Müşavirə keçmiş SSRİ EA SSRİ tarixi [22-23] institutunun təşəbbüsü ilə keçirilirdi və «SSRİ xalqları atlası. Cənubi Qafqaz regionu» vəsaitinin hazırlanması və nəşrinə həsr olunmuşdu. Müşavirənin işində Moskva alimləri ilə yanaşı Azərbaycan, Gürcüstan və Ermənistan alimləri də iştirak edirdi. Azərbaycandan müşavirəyə İ.H.Əliyev, F.C.Məmmədova və V.Z.Piriyevdən ibarət nümayəndə heyəti getmişdi. Müşavirə öz işinə başladığı ilk andan məsələnin mahiyyəti, ciddiliyi ön plana çıxdı. Əsas çətinlik tərəflərin müşavirəyə hazırlıq səviyyələrinin eyni olmamasından doğurdu. Erməni və gürcü alimləri müşavirədə hər biri 20-dən artıq xəritə nümayiş etdirdiyi halda Azərbaycan tərəfinin əlində bir dənə olsa da xəritə yox idi. Bu hal məhz əvvəlki illərdə tarixi-siyasi coğrafiyaya olan biganəçiliyin məntiqi nəticəsi idi.

Müşavirənin və ümumiyyətlə, həyata keçirilməsi planlaşdırılan həmin tədbirin əsas məqsədi isə ermənilərin, Moskvanın köməyi ilə, Cənubi Qafqazın tarixi-siyasi coğrafiyasına dair xəritələri öz mənafelərinə uyğun hazırlayıb çap etdirmək və tezliklə bütün dünyaya yayaraq sonrakı erməni təcavüzünə «elmi dayaq» yaratmaq niyyəti olmuşdur. Atlasın işinə Azərbaycan və Gürcüstan tərəflərinin cəlb olunması əslində formal xarakter daşıyırdı və onların razılığı alınsaydı xəritələrin Cənubi Qafqaz alimlərinin iştirakı və rəyi ilə çap olunduğu xüsusi vurğulanmalı idi. İlk müşavirədə və sonralar Moskvada keçirilən 3 görüşdə çox ciddi müzakirələr keçirilsə də, mübahisələr baş versə də, atlasın nəşri baş tutmadı. Tərəflərin heç biri öz mövqelərindən geri çəkilmədilər, ərazilərini güzəştə getmədilər. Azərbaycan tərəfinin qazancı isə o oldu ki, hələ Tiflis müşavirəsində Azərbaycanın tarixi-siyasi coğrafiyasının dərindən araşdırılmasının vacibliyini dərk etdi.

80-ci illərin ortalarında Azərbaycanın tarixi-siyasi coğrafiyasına həsr olunmuş ilk kollektiv əsər – «Историческая география Азербайджана» toplusu 10 min nüsxə ilə çap olundu. Toplunun hazırlanmasına 1982-ci ilin ortalarından başlanılmış və təxminən 2 ildən sonra toplu nəşriyyata təqdim olunmuşdu. Lakin, toplu hərtərəfli təzyiqlərə məruz qaldığından yalnız 1987-ci ildə işıq üzü gördü. Onun satışı da təşkil olunmadı, geniş yayılmasına imkan verilmədi. Toplunun hazırlanmasında Respubli- [23-24] kanın görkəmli alimləri – Z.M.Bünyadov, F.C.Məmmədova, N.M.Vəlixanlı, V.Z.Piriyev, O.Ə.Əfəndiyev, Ə.Ə.Rəhmani, F.Ə.Əliyev yaxından iştirak etdilər. Akad. Z.M.Bünyadovun redaktəsi ilə çap olunan topluda eramızdan əvvəl III əsrdən başlamış b.e. XVIII əsrinin sonuna qədərki dövrü əhatə edən 20 xəritə verilmişdir. Hər bir xəritə əhatə etdiyi dövrün ilk mənbələrinin məlumatı ilə əsaslandırılmışdır. Müəlliflər xəritədə çəkdiyi sərhəd-

ləri ilk mənbələrin faktları ilə təsbit etmişlər. Eyni zamanda Azərbaycan torpaqlarına olan yersiz iddiaların, xüsusilə erməni və gürcü iddialarının səbatsızlığı açıqlanmışdır. Min illik bir dövrün (e.əv. III əsr – b.e. VIII əsri) real tarixi vəziyyətini ilk dəfə bərpa edən F.C.Məmmədova bu sahədə təəccüb doğuran materiallarla çıxış edən qonşu tədqiqatçılarla ciddi mübahisələrə girmiş və inandırıcı dəlillərlə öz mövqeyini müdafiə edə bilmişdir. N.M.Vəlixanlı da müasir erməni və gürcü tədqiqatçılarının ərəb dövrü Azərbaycanının tarixi ərazilərinə olan yersiz iddialarını aradan qaldırmalı olmuşdur. M.X.Şəriflinin materialları əsasında tərtib olunmuş xəritələrdə IX-XII əsr Azərbaycan feodal dövlətlərinin, Z.M.Bünyadovun xəritəsində Azərbaycanın Eldənizlər (Atabəylər) dövründəki etnik-siyasi hüdudları əks olunmuşdur. Azərbaycanın son orta əsrlər dövrü tarixi-siyasi-coğrafi vəziyyəti xronoloji olaraq V.Z.Piriyevin (XIII-XIV əsrlər), O.Ə.Əfəndiyevin (XV-XVI əsrlər), Ə.Ə.Rəhmaninin (XVI əsrin sonu - XVII əsr) və F.M.Əliyevin (XVIII əsr) xəritələrində öz əksini tapmışdır. Toplu Azərbaycanın tarixi-siyasi coğrafiyasına həsr olunmuş ilk samballı əsər olmaqla yanaşı bu sahədə sonrakı tədqiqatlara təkan vermiş oldu.

80-ci illərin ortalarında Azərbaycanın tarixi-siyasi coğrafiyası sahəsində daha bir mühüm nailiyyət əldə olundu. F.C.Məmmədovanın uzun illər apardığı ciddi tədqiqatların nəticəsi olan «Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası» adlı samballı monoqrafiyası «Elm» nəşriyyatında çapdan çıxdı (rusca, 1986) və elm aləmində böyük maraq doğurdu. Cənubi Qafqazda tarixi-siyasi coğrafiya məsələləri üzrə mövcud baxışlara kəskin düzəlişlərlə zəngin olan bu kitab 1993-cü ildə azərbaycan dilində də nəşr olundu.

Əsrin son onilliyi Azərbaycanın tarixi coğrafiyasının, o [24-25] cümlədən tarixi-siyasi coğrafiyanın araşdırılması baxımından diqqəti cəlb edir. Bu dövrdə bir tərəfdən həmin mövzuya həsr olunmuş xüsusi atlas nəşr olundu, bir tərəfdən 80-ci illərdə başlanan tədqiqatlar davam etdirildi, digər tərəfdən yeni mövzular üzərində tədqiqatlar aparıldı. 1994-cü ildə Azərbaycan Ensiklopediyası tərəfindən hazırlanmış «Azərbaycanın tarixi xəritələri» adlı nəfis atlas işıq üzü gördü. Ali və orta məktəblər üçün qiymətli vəsait sayılan həmin atlas 1987-ci ildə rusca nəşr olunmuş «Azərbaycanın tarixi coğrafiyası» toplusu əsasında tərtib edilmişdir. Burada Azərbaycanın müxtəlif dövrlərini əks etdirən 24 xəritə verilmişdir. Onlardan son 5 xəritə Azərbaycanın çar Rusiyası dövründəki vəziyyətinə, Azərbaycan Cümhuriyyəti ərazisinə və başqa məsələlərə həsr olunmuşdur. Atlasın böyük tirajla çapı tarixi-siyasi coğrafiya məsələlərinin təbliğində əhəmiyyətli addım oldu.

1994-cü ildə Azərbaycanda tarixi-siyasi coğrafiyaya aid daha bir xəritə nəşr olundu. «Azərbaycan Respublikasının xəritəsi. 1918-1920-ci illər» adlanan (rusca) həmin xəritə ölkənin Azərbaycan Cümhuriyyəti dövründəki ərazilərini, sərhədlərini, inzibati-ərazi bölgüsünü dəqiq şəkildə əks etdirdi. Xəritədə Azərbaycan Cümhuriyyətinin mübahisəsiz əraziləri verilir və qərb sərhədlərimizin Göycə gölündən keçdiyi göstərilir. Xəritənin məziyyətlərindən biri də odur ki, buradakı toponimlər həmin dövrdəki adları ilə əks olunmuşdur.

Azərbaycanın tarixi xəritələrinin ali və orta məktəblər üçün «Azərbaycan tarixi» dərsliklərinə, «Azərbaycan tarixi»nin akademik nəşrinə və digər nəşrlərə daxil olunması isə ölkəmizin tarixi-siyasi coğrafiyasının geniş oxucu kütləsinə çatdırılmasında çox mühüm əhəmiyyət kəsb etdi. Hal-hazırda «Azərbaycan tarixi» üzrə bütün dərsliklərdə əhatə etdikləri dövrün tarixi-siyasi xəritələri verilir. Bu isə şagirdlərin elə məktəb illərindən öz doğma vətənlərinin ərazisi, sərhədləri ilə yaxından tanış olmasına imkan yaradır.

90-cı illərdə Azərbaycanın tarixi-coğrafiyasına həsr olunmuş yeni mövzular ətrafında tədqiqatlar aparıldı, dissertasiyalar yazıldı. T.F.Əliyevin Şirvanın XVII-XVIII əsrlərdəki tarixi-coğrafiyasına, S.İ.Budaqovanın Naxçıvanın XVIII əsrin II yarısı [25-26] – XIX əsrin 1 qərinəsindəki tarixi coğrafiyasına həsr olunmuş tədqiqatları bu baxımdan maraqlıdır. Dövrün tarixi-coğrafiya baxımından cəzbedici cəhətlərindən biri erməni işğalına məruz qalan ərazilərimizin tarixi-coğrafi şəraitinin araşdırılmasına marağın artması idi. Qısa müddət ərzində Ə.Ələkbərlinin «Qədim türk-oğuz yurdu - Ermənistan», «Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası», «Историческая география Западного Азербайджана» kimi monoqrafik əsərlər işıq üzü gördü. Həmin əsərlərin əsas məğzini ümumi tarixi-coğrafi məsələlər təşkil etsə də, onlarda tarixi-siyasi coğrafiyaya aid materiallar da az deyildir. Son illərdə Azərbaycanın tarixi-siyasi coğrafiyasına aid bir sıra elmi məqalələr də nəşr olundu. X.Vahidovanın Ordubad şəhərinin ərazisinə, V.Piriyevin Azərbaycanın XIII-XIV əsrlərdəki hüdudlarına, Naxçıvanın həmin

dövrdəki tarixi coğrafiyasına həsr olunmuş məqalələri bu qəbildəndir.

Fərəhli haldır ki, 2002-ci ildə (gec olsa da) Azərbaycan MEA Tarix institutunun strukturunda «Azərbaycanın tarixi coğrafiyası» şöbəsi yaradılmışdır. Həmin şöbənin fəaliyyəti nəticəsində vətənimizin tarixi-siyasi coğrafiyasının tədqiqi sahəsində daha mühüm nailiyyətlərin qazanılacağı şübhə doğurmur.

Azərbaycanın tarixi-siyasi coğrafiyasına dair məsələlərin araşdırılmasında, problemlərin üzə çıxarılmasında Respublikamızdan kənarda nəşr olunmuş əsərlərin özünəməxsus rolu vardır. Həmin əsərlərin əksəriyyətində Azərbaycana qarşı ərazi iddiaları irəli sürülür. Lakin, onlardan elmi polemika və müzakirələr üçün istifadə etmək vacibdir. Çünki qarşı tərəfin nə istədiyini, nədən bəhs etdiyini biləndə onunla fikir mübadiləsi etmək, ona cavab vermək nisbətən asan olur. Erməni, gürcü, rus və qismən də fars araşdırıcılarının bu baxımdan olan kitabları, məqalələri Azərbaycanın tarixi-siyasi coğrafiyasının tədqiqində müəyyən rol oynayır. S.Yeremyanın Ermənistan və ətraf ərazilərin 592-653, 701-862 və 862-953-cü illərdəki vəziyyətinə həsr olunmuş xəritələri, D.Musxilişvilinin Şərqi Gürcüstanın tarixi coğrafiyasına, M.Berdzinişvilinin XIII əsrin əvvəllərində gürcü dövlətinin sərhədlərinə, M.C.Məşkürün Azərbaycanın tarixi sərhədlərinə, V.Yeqorovun Qızıl Ordanın XIII-XIV əsrlərdəki tarixi coğrafiyasına, S.Yuşkov və A.Novoseltsevin qədim və antik Al- [26-27] baniyanın sərhədlərinə həsr olunmuş əsərləri, xüsusilə də, R.H.Hevsenin 2001-ci ildə nəşr olunmuş «Ermənistan. Tarixi xəritələr» toplusu, Ş.Mkrtçyanın «Arsax xəzinəsi» əsəri və s. belə «tədqiqatlar» sırasına daxildir. Bu növ «tədqiqatlarda» erməni torpaqlarının Xəzərə kimi, gürcü torpaqlarının Ağsu aşırımına kimi, Rusiya sərhədlərinin Dərbənddən cənuba kimi uzandığı, Azərbaycanın tarixən İran torpağı olması və s. barədə əsassız iddialar irəli sürülsə də, onlara biganə münasibət bəsləmək olmaz. Əsas vəzifə, bu və buna bənzər «araşdırma»lara obyektiv yanaşılmasında, onların mülahizələrinə tənqidi nöqteyi-nəzərdən münasibət bəslənilməsində və elmi dəlillərlə belə iddiaların əsassız olduğunu sübut etməkdədir. Gələcək tədqiqatlarda bu məqsədə nail olunarsa, Azərbaycanın tarixi-siyasi coğrafiyası sahəsindəki ağ ləkələr silinər, torpaqlarımıza qarşı yersiz iddialar azalar.

(Bax: 1-10; 12; 15; 17; 25; 26; 35; 37; 42-55; 59; 63; 65; 69; 73-80; 86-88; 91; 94; 103; 106; 107)

## *III mövzu:* Azərbaycanın qədim dövr tarixi-siyasi coğrafiyası

Azərbaycanın qədim tarixinə dair yazılı mənbələrin kifayət qədər olmaması həmin dövrdə mövcud olmuş dövlət qurumlarının tarixi-siyasi coğrafiyasının geniş şərhinə imkan vermir. Materialın azlığını nəzərə alaraq bu mövzunun tədrisində tarixi-siyasi coğrafiya məsələləri ilə yanaşı sırf siyasi, iqtisadi, etnik və mənəvi məsələlərə də toxunulmuşdur.

E.əv. III-II minilliklərdə Azərbaycanın cənub ərazilərində, xüsusilə də Urmiya gölünün ətrafında bir sıra tayfalar məskunlaşmışdı. Gölün şərq və qərb sahillərində kutilər, cənubunda lullibilər, hurrilər, cənub-şərqində uruatrilər, kutmixilər yaşayırdılar. Lullubi tayfalarının tərkibində turukki, su və başqa tayfaların mövcud olduğu güman olunur. Bu tayfalar Azərbaycan xalqının siyasi həyatında yaxından iştirak etmiş və xalqın gələcək təşəkkülündə müəyyən mövqe tutmuşlar.

Məlum olduğu kimi, Azərbaycanın cənubunda və şimalın- [27-28] da sinifli cəmiyyətin bərqərar olması müxtəlif tarixi dövrlərə təsadüf edir və cənubda dövlət qurumu daha əvvəllər təşəkkül tapmışdır. Bu həmin ərazinin İkiçayarası əraziyə yaxın olması və buradakı dövlətlərlə əlaqəsi ilə izah olunur. Manna dövləti Azərbaycanın cənub ərazisində meydana gəlmiş ilk dövlət qurumudur[1]. Daha sonralar bu ərazidə Atropatena dövləti meydana gəlmiş, şimalda isə Qafqaz Albaniyası fəaliyyət göstərmişdir.

Adı ilk dəfə e.əv. 843-cü ildə çəkilən, Assur, Urartu mənbələrində və Bibliyada Munna,

[1] Son vaxtlarda Azərbaycan tarixşünaslığında Mannadan düz 2000 il əvvəl, təxminən həmin ərazidə Aratta adlı dövlətin mövcud olduğu göstərilir. Lakin bu fikir tarixşünaslıqda birmənalı qəbul olunmamış və mütəxəssislər arasında mübahisəyə səbəb olmuşdur. «Azərbaycan tarixi»nin son akademik nəşrində (bax: 13/1) Arattanın adının belə çəkilməməsi onun varlığını şübhə altına alır. Bunu nəzərə alaraq, Aratta barədə ayrıca məlumat verilməsi məqsədəuyğun hesab olunmur. Proqramda bu dövlət barədə qeydlər verildiyindən onunla maraqlananlara ali və orta məktəblər üçün «Azərbaycan tarixi» dərsliklərinə müraciət etmələri tövsiyə olunur.[28-29]

Manna, Mannas (Mana), Minni və s. kimi adlandırılan Manna dövləti (843-610) əsasən Urmiya gölünün cənub-şərqindəki xırda hökmranlıqların birləşdirilməsi nəticəsində təşəkkül tapmışdır. Manna çarlığı qədimdə Lullubum adlanan Böyük Zamua vilayətinin bir hissəsində olan Daxili Zamuanın ərazisində meydana gəlmişdir. E.ə. I minilliyin başlanğıcına aid olan mənbələr Lullubum, Zamua və Manna anlayışları arasında varisliyi izləməyə imkan verir. Assur hökmdarı II Sarqon isə Manna çarlığının meydana gəldiyi Zamua vilayətini «Zamua adlanan Lullume ölkəsi» kimi təqdim edir. Mannanın sərhədləri cənubda Diyala və Zab çaylarına, Şərqdə təqribən Xəzər dənizinə, şimalda Araz çayına, qərbdə Urmiya gölünə kimi uzanırdı. Paytaxtı İzirtu (Zirtu) şəhəri idi. Dövlətin ərazisi canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünmüşdü: Gizilbunda, Zikertu, Andia, Uişdiş, Subi, Bari, Buştu belə əyalətlərdən idi. Ölkə ərazisində Zibia (Uzbia, İzzibiya), Armait (Urmeyate), Uşkaya, Tarun, Tarmakisa, Buştu qalaları, müasir Həsənli təpəsi yerində qala-şəhər mövcud olmuşdur. Dövlətin çiçəklənmə dövrü e.əv. VIII əsrin axırlarına – İranzunun və onun sələflərinin hakimiyyəti dövrünə təsadüf edir. E.əv. 714-cü ildə [28-29] Urartu çarı I Rusanın assur hökmdarı tərəfindən məğlub edilməsi Manna sərhədlərinin genişlənməsinə səbəb oldu. Bu dövrdə yarımmüstəqil ucqar hakimlərin torpaqları da (Uişdiş, Messi, Andia və s.) Mannaya tabe idi. Asılı vilayətlər də daxil olmaqla Manna həmin dövrdə Urmiya gölünün bütün cənub hövzələrini, Urmiya ilə Araz arasındakı su ayrıcınadək gölün şərq sahilini, habelə, Qızılüzən çayı hövzəsinin xeyli hissəsini və ondan cənubda yerləşən rayonları əhatə edirdi. Manna ərazisi Mada Atropatenası – Aturpatakana, yəni Cənubi Azərbaycana təxminən uyğun gəlirdi. Bununla yanaşı Manna sərhədləri müəyyən dövrlərdə Araz çayından şimala tərəf də uzanmışdır. Lakin Mannanın çiçəklənməsi uzun sürmədi. Assurluların yürüşü nəticəsində Manna dövlət kimi öz mövqeyini itirdi; Zikertu, Uişdiş, Messi, Andia və başqa vilayətlər ondan ayrıldılar. Mannanın adına son dəfə Bibliyada, e.əv. 593-cü ildəki hadisələrin şərhi ilə əlaqədar təsadüf olunur.

Mannalıların formalaşmasında qədim yerli əhali – kuti-lullubi tayfaları əsas rol oynamışlar. E.əv. I minilliyin əvvəllərində əhalinin tərkibində hurrilər gücləndi. Daha sonra ölkədə irandilli tayfaların təsiri artdı. Huri-kuti dillərinin nax-dağıstan dilləri ilə qohumluğu ehtimal olunur. Əhali allahlar panteonuna (çoxallahlı dinin bütün allahlarına) və həyat şəcərəsinə sitayiş edirdi. Mannalılar azərbaycanlıların əcdadları olmuşlar.

***Atropatena*** (və ya Kiçik Midiya) e.əv. IV – b.er. III əsrlərində İran yaylasının şimal-qərb hissəsində mövcud olmuşdur. Onun ərazisi əsasən müasir Cənubi Azərbaycan, İran Kürdüstanı, bəzi vaxtlarda isə Şimali Azərbaycanın cənub rayonlarını və bəlkə də, Cənubi Qafqazın bir sıra vilayətlərini əhatə edirdi. Dövlətin şimal hüdudları çox vaxt Araz çayına, şərq hüdudları Talış və Elbrus dağlarına, cənub sərhədləri isə Əlvənd dağlarına çatırdı. Paytaxtı Urmiya gölünün cənub-şərqində Miandor şəhərindən şərqdə Leylan kəndi yaxınlığında mövcud olmuş Qazaka (Qanzaka) şəhəri idi. Antik müəlliflər Atropatenada kifayət dərəcədə inkişaf etmiş şəhər həyatının olduğunu xəbər verirlər. Atropatena şəhərlərindən Fraaspa, Fanaspa, Aqanzananın adları çəkilir. Fraaspanın müasir Marağa şəhəri ətrafında, Fanaspanın Marağa ilə Miyanə şəhərləri arasındakı Qaleye-Zöhhak adlı qə- [29-30] dim yaşayış məskənində, Aqanzananın isə Zəncan şəhəri yerində mövcud olduğu güman edilir. Beyləqan bölgəsində e.əv. IV – b.e. I əsrlərinə aid yaşayış məskənində (müasir Təzəkənd ərazisində) qədim Paytakaran şəhəri mövcud idi. Atropatenada Vera, Qaleye-Sasan, Qaleye-Navduz, Ərdəbildən 30 km şimal-qərbdə Qala və s. istehkamlar da vardı. Bizim eranın ilk əsrlərində ölkədə şəhər həyatı daha da inkişaf etmişdi. Bu dövrdə Atropatenada Marağa, Təbriz, Şiz (Təxti-Süleyman), Zəncan, Ərdəbil, Bacarvan, Dehxarqan, Salmas, Xoy, Urmiya, Cabravan, Neriz, Sərat, Meyməd, Bərzə və s. şəhərlər fəaliyyət göstərirdi.

Atropatena ərazisi əsasən dağlıq vilayətlərdən ibarət idi. Ölkənin müxtəlif ərazilərində, səmtlərində Savalan, Səhənd, Büzgüş, Qaflantı, Bağra (Amard), Zaqros və s. dağlar vardı. Atropatena həmin dağlardan axan çaylarla da zəngin idi: əsas çayları Qızılüzən (Sefidrud), Qarasu, Kiçik Zab, Korxa, Karun və başqaları olmuşdur. Atropatena ərazisi zəngin faunaya və floraya, təbii ehtiyatlara malik idi. Ölkə ərazisindən yerli və tranzit ticarət yolları keçirdi.

Atropatena orta fars (pəhləvi) abidələrində Adurbadaqan («odun himayəsində olan ölkə») adlanır. Bizim eranın III əsrindən başlayaraq ölkə Sasanilər dövlətinin tərkibinə daxil olur və onun vilayətlərindən (dastakertlərindən) birinə çevrilir. Erkən sasani dövründə Adurbadaqan Sasanilər dövlətini təşkil edən şəhrlərdən – ölkə və ya vilayətlərdən biri idi və dövlətin «İran olmayan» 27 şəhrindən biri sayılırdı. I Xosrov Ənuşirəvanın (531-579) inzibati islahatları

nəticəsində Adurbadaqan dövlətin 4 iri canişinliyindən – «kust»undan (hərfən: tərəf, cəhət) birinə çevrildi. «Azərbaycan kustu» adlanan həmin canişinliyə (Şimal canişinliyinə) Cənubi Azərbaycanla yanaşı, Albaniya, İberiya, Ermənistan, Balasakan, Sisakan, Rey, Gilan, Deyləm, Dəmavənd, Təbəristan, Ruyan (Rovan), Amul, Həmədan və Muğan daxil idi. Bu dövrdə Adurbadaqanın vilayət kimi hüdudları şimalda Araz çayına, cənubda Zəncan və Dinavər düzünə yetişir, Xulvan düzü və Şəhrəzurdan keçərək, Dəclə çayına qovuşan əraziyə kimi uzanırdı. İnzibati-idarə sisteminə görə kust (tərəf, coğrafi cəhət) və şəhr/kust (vilayət) inzibati vahidindən sonra nahiyə (nahanq) gəlirdi və bu da öz növbəsində rustaqlara (rayonlara) [30 -31] bölünürdü. Rustaqlar ilk növbədə kənd yerlərini özündə birləşdirirdi. Adurbadaqan rustaqlarından Peraxravar (Burxuvar) və onun baş kəndi Siroşmaqovun adı bəllidir. Adurbadaqan torpaqlarının münbitliyinə və təbii sərvətlərinə (neft, duz) görə Sasanilər dövlətinin iqtisadiyyatında mühüm yer tuturdu və Zərdüştlüyün əsas mərkəzi hesab olunurdu.

Atropatenanın Azərbaycan tarixində yeri böyükdür. Bu dövrdə «Azərbaycan» məfhumu formalaşır, etno-mədəni xarakterli hadisələrin başlanğıcı qoyulur, xalq təşəkkül tapır və s. Bilindiyi kimi, «Azərbaycan» adının meydana gəlməsi müxtəlif cür izah olunur (odlar ölkəsi, ərlər ölkəsi və s.). Lakin, elmi araşdırmalar sübut etmişdir ki, bu istilah məhz şəxs adından – Atropatın adından təşəkkül tapmışdır (Osman imperiyası – I Osmanın, Özbəgistan – Özbəyin, Kolumbiya – Kolumbun və s. adından yarandığı kimi). Digər tərəfdən, Atropatenanın təsisi atropatilər sülaləsinin meydana gəlməsinə səbəb olmuşdur. Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış atropatilər midiyalılar kimi tanınsalar da, Atropatenada bir sıra başqa tayfalar, o cümlədən, midiyalılar tərəfindən assimilyasiya olunmuş tayfalar yaşayırdılar. Belə tayfalardan saqartilər, mikilər (Muğan adı buradandır), utilər, parikanlar, ortokoribantilər, kadusilər, dareytilər, pantimatilər, pavsikilər, kaspilər, matienlər, mardlar, porsilər, aparikilər və s. tayfaları göstərmək olar. Antik Atropaten etnosu yerli qəbilələri özündə assimilyasiya etmiş yeni bir etnos idi. Akad. İ.H.Əliyev yazır: «Antik dövrdə meydana gəlmiş Atropatena etnosu heç də Cənubi Azərbaycanın (orta) Midiya dilinin dialektlərində danışan əvvəlki əhalisinin hər hansı qruplarından ibarət deyildi. Bu regionun yerli qəbilələrinin assimilyasiyası nəticəsində meydana gələn yeni bir etnos idi». Alimin fikrincə, Atropatena əhalisinin müəyyən hissəsi irandilli, bir qismi isə yerli tayfalardan ibarət olmuşdur. Atropatenada işlədilən əsas dil də irandillilərə məxsus olmuşdur. Əhali azəri dilində də danışırdı. Talış dilinə yaxın olduğu aşkarlanan azəri dili fars dili olmasa da, İran dilləri qrupuna daxildir.

Qədim Azərbaycan əhalisinin dini görüşləri səma qüvvələrinə, oda, suya, müxtəlif bütlərə inamla bağlı idi. Əhali arasında çoxallahlılıq (politeizm) mövcud olmuşdur. Azərbaycanda, xü-[31 -32] susilə onun cənubunda oda sitayiş – atəşpərəstlik geniş yayılmışdı. Ölkədə zərdüşt dininə də sitayiş olunurdu. Atəşpərəstliklə zərdüştlüyü eyniləşdirsələr də, onlar əslində ayrı-ayrı din sahələri olmuşlar, amma bir-birilə yaxın əlaqədə idilər. Atəşpərəstlik kahinləri – maqlar e.əv. VI əsrdən zərdüştlük dininə kahin kimi xidmətə başlamışlar və zərdüştlüyə atəşpərəstlik ehkamlarını daxil etmişlər. Təkallahlığı əsas tutan zərdüştlüyün dini kitabı «Avesta»dır. Avestanın dünyagörüşü üçün ifrat dualizm xarakterikdir. Avestaya görə, dünyada həm maddi, həm də xəyali olan hər şey ***xeyir*** və ya ***şər başlanğıca*** malik olmaqla 2 qismə ayrılır. Baş Allah Ahura Mazda (Hörmüzd) – xeyirxah, dağıdıcı ruh Anhra Manyu (Əhrimən) – şər başlanğıcın ifadəsi və ya rəmzidir. Zərdüştlüyün Orta Asiyada, yaxud Əfqanıstanda meydana gəlib İrana yayıldığı güman edilir. Bəzi mülahizələrə görə isə bu din Reydə (Tehranda), digərlərinə görə Azərbaycanda təşəkkül tapmışdır. Sasanilər dövründə Avesta bir neçə dəfə – III, IV, VI və VII əsrlərdə kodifikasiya edilmişdir. Avestanın kanonlaşdırılmış mətni pəhləvi (orta fars) dilinə tərcümə olunmuş və şərhlərlə təchiz edilmişdir. Azərbaycan əhalisinin bir qismi göy cisimlərinə sitayiş etmişdir. Günəş (Helios), Səma (Zevs), Ay (Selena) allahlarına inam daha güclü idi.

(Bax: 12; 13/I;15; 27; 29; 57; 76; 82).

## *IV mövzu:* Qafqaz Albaniyasının tarixi-siyasi coğrafiyası

Qafqaz Albaniyası Azərbaycanın şimal hissəsində elmə məlum ən ilkin dövlət qurumu

olmuşdur. Göstərildiyi kimi, ölkənin bu hissəsində dövlət qurumu müəyyən səbəblərdən cənuba nisbətən daha gec meydana gəlmişdir. Albaniya haqqında qədim yunan, latın, alban, erməni, gürcü, siryani, ərəb və s. dilli mənbələrdə məlumat verilir. Herodotun (e.əv. 480-425)) «Tarix» əsərində Qafqaz Albaniyasının adı birbaşa çəkilməsə də, bu ərazi və orada baş vermiş hadisələr barədə bəzi faktlara təsadüf olunur. Strabonun (e.əv. 64 - b.e. 24) «Coğrafiya» əsərində isə Al-[32-33]baniyada 26 dildə (ləhcədə) danışan tayfaların yaşaması, Kür çayının mövqeyi, amazonkalar və s. barədə qeydlər mövcuddur. Böyük Plini (23-79) Albaniyanın baş şəhərləri, təbiəti, əhalisi, albanların mənşəyi («Təbiət tarixi»), Plutarx (45-127) albanların Pompeyə qarşı mübarizəsi, onların piyada və süvari qoşunları, silahları («Parallel tərcümeyi-hallar»), Pomponi Mela (I əsrin I yarısı) Qafqaz Albaniyasının çayları, dağları, bəzi tayfaları, Kaspi dənizi, onun adaları və s. («Yerin təsviri») barədə məlumat verirlər. Ermənidilli mənbələrdə də (Aqafanqel, Koryun, Moisey Xorenski, Yeqeşe, Ananiy Şirakatsi, Gevond Vardapet və s.) Albaniya tarixinə dair materiallar az deyildir. Lakin Albaniyaya dair ən mühüm və qiymətli mənbə VII-VIII əsrlərdə yaşamış alban müəllifi Musa (Moisey) Kalankatlının «Albanların tarixi» əsəri hesab olunur. Uti vilayətinin Kalankat kəndində anadan olmuş müəllifin həmin əsəri ən qədim dövrlərdən başlamış 999-cu ilə kimi olan hadisələrə həsr olunmuşdur. 3 hissədən ibarət bu əsərdə Albaniyanın coğrafiyası, Albaniyada xristianlığın yayılması, Aluen (Aquen) məclisi (488) və onun qəbul etdiyi qanunlar, albanların sasanilərə qarşı mübarizəsi, Arşakilər sülaləsinin süqutu, Mehranilərin hakimiyyətə gəlməsi, Cavanşir və onun fəaliyyəti, ərəblərin Cənubi Qafqaza yürüşləri, alban hökmdarları və katalikosları, Varaz Trdatın hakimiyyətinin son illəri və s. haqqında məlumat öz əksini tapmışdır. Ehtimal olunur ki, 710-cu ildən sonrakı hadisələr əsərə başqa müəllif tərəfindən əlavə edilmişdir.

Albaniya müxtəlif dilli mənbələrdə ayrı-ayrı şəkildə adlandırılır. Antik mənbələr bu ölkəni «Albaniya» kimi xatırladırsa, sonrakı dövr mənbələrində onun adı Ardan (orta fars), Arran (ərəbdilli), Rani (gürcü), Ağvan (erməni), Aran (Suriya) və s. şəkildə əks olunmuşdur.

E.əv. III əsrdə Albaniya vilayətləri arasında iqtisadi və mədəni əlaqələrin inkişafı, ibtidai icma quruluşunun dağılması, sinifli cəmiyyətin meydana gəlməsi alban tayfa ittifaqı zəminində Alban dövlətinin yaranmasına səbəb oldu. Bu dövlət eramızın VIII əsrinin əvvəllərinə kimi fəaliyyət göstərdi. Alban dövləti Arşakilər (eramızın VI əsrinə kimi) və Mehranilər sülalələri tərəfindən idarə olunmuşdur. Qafqaz Albaniyası dövlətinin fəaliyyətinə [33-34] 705-ci ildə ərəblər tərəfindən son qoyulmuş və onun ərazisi Əməvilər xilafətinin tərkibinə qatılmışdır. Buna baxmayaraq, alban hökmdarları (Səhl ibn Sumbat, Xaçın knyazı Həsən Calal) sonralar kiçik ərazidə olsa da, albanların hakimiyyətini bərpa edə bilmişlər.

Qafqaz Albaniyasının ərazisi əsasən Böyük Qafqaz sıra dağlarının şimali-şərq ətəklərindən Kiçik Qafqaz dağları və Araz çayına, Qabırlı çayından Xəzər dənizinə qədər olan sahələri, Mil və Muğan düzlərini əhatə edirdi. Onun şimal sərhədləri Böyük Qafqaza, Samur sıra dağlarının şimal ətəklərinə, şimali-qərbdə Qabırlı (İori) və Qanıx (Alazan) çaylarının yuxarı axarına, şimali-şərqdə isə müasir Dərbəndin şimalına qədər gedib çatırdı. Dövlətin cənub sərhədləri əksər vaxtlarda (I-VIII əsrlərdə) Araz çayı boyunca uzanmış və cənubi-şərqdə Kaspiananın cənub tərəfindən keçmişdir. E.əv. II-I əsrlərdə Albaniyanın bütün sərhədləri sabit qalsa da, cənubi-şərqdə sərhədlər daralır. Kaspiana eramızın I əsrinə kimi Albaniyanın tərkibində olmamış (ermənilər tərəfindən zəbt olunmuşdu) və bu zonada dövlət sərhədləri həmin vilayətin şimal istiqaməti boyu keçmişdir. Sonrakı dövrlərdə isə sərhədlər yenidən əvvəlki kimi bərqərar olur və dövlətin süqutuna kimi əsaslı dəyişikliklərə uğramır.

Albaniyanın paytaxtı uzun müddət Kabalaka (Qəbələ) şəhəri olmuş, V əsrdə isə paytaxt Kürün sağ sahilində Bərdə şəhərinə köçürülmüşdür. Ümumiyyətlə, Qafqaz Albaniyasında 30-dan artıq şəhər mövcud idi. Son dövrlərdə Azərbaycan və Dağıstan ərazilərində aparılan arxeoloji qazıntılar nəticəsində Albaniyada antik dövrdə mövcud olmuş bir sıra şəhər tipli yaşayış məskənləri aşkara çıxarılmışdır. Bunlar Qəbələ (Çuxur-Qəbələ, Çaqqallı, Seyidtala, Uzuntala), İsmayıllı (Mollaishaqlı, Şıxdərə Kəlləsi, Qalagah), Ağsu (Nüydü düzü), Qax (Torpaqqala), Qazax (Sarıtəpə), Şamaxı, Beyləqan (Təzəkənd, Qaratəpə) rayonlarında, Mingəçevir zonasında, Dağıstanda (Torpaqqala, Urseki, Tarki, Dərbənd) və başqa yerlərdəki qazıntılar nəticəsində aşkar olunmuş məskənlərdir. Ptolemeyin verdiyi məlumatdan da antik dövr Albaniyası ərazisində, göstərildiyi kimi, 30-dan artıq şəhər və digər yaşayış məskəninin olduğu aydınlaşır.

Qeyd etmək lazımdır ki, Qafqaz Albaniyası ərazisinə tar- [33-34] ixən ermənilər tərəfindən müxtəlif iddialar irəli sürülmüş və indi də davam etməkdədir. Erməni iddialarını əslində 2 yerə bölmək olar: onların bir iddiasına görə, Albaniya ərazisinin müəyyən hissəsi, yəni Kür çayı ilə Araz çayı arasındakı torpaqlar köklü erməni əraziləri imiş, digər iddiaya görə, Albaniyanın bütün ərazisi ermənilərə məxsus imiş, başqa sözlə, Albaniya ərazisi Şərqi Ermənistan imiş. Ermənilərin ilk iddiası hələ VII əsrdən irəli sürülməyə başlanmışdır. Həmin dövrün müəllifi Ananiy Şiraklı (Şirakatsi) «Coğrafiya» adlı əsərində VI-VII əsrlərdə Yaxın Şərqin siyasi bölgüsünü verərək bildirir ki, Asiya 44 ölkəyə ayrılmışdır. Onun bölgüsündə İberiya 25-ci, Albaniya 26-cı, Ermənistan isə 27-ci pillədə durur. Müəllif həmçinin yazır ki, Kür və Araz çayları arasındakı ərazi, yəni Arsax, Paytakaran və Uti vilayətləri hələ qədim zamanlardan ermənilərin olub və yalnız 387-ci ildə, Ermənistan İran və Bizans arasında bölüşdürülərkən həmin vilayətlər Albaniyaya, Quqark isə Gürcüstana birləşdirilmişdir. Ermənilərin ikinci iddialarının meydana çıxması isə «Böyük Ermənistan» yaratmaq xülyası ilə bağlıdır. Üç dəniz arasındakı torpaqlara yiyələnməyə can atan ermənilər Albaniyanın bütün ərazisinin özlərinə məxsus olduğunu iddia etməklə Xəzər dənizinə çatmaq niyyəti güdürlər. Onların niyyətini hələ 2000 il bundan əvvəl Strabon və digər antik müəlliflər də duymuşlar. Strabon yazır: «... əvvəlki zamanlarda kiçik ölkə olmuş Ermənistanı Artaksinin və Zariadrinin müharibələri böyütdü... Onlar birlikdə qonşu xalqların vilayətlərinin bir qismini kəsərək öz mülklərini genişləndirdilər: onlar madalılardan (yəni atropatenalılardan – P.V.) Kaspiananı, Favnitidanı və Basoropedanı; iberlərdən Pariadrın ətəklərini, Xorzenanı və Kür çayının o biri sahilində yerləşən Qoqarenanı; xaliblərdən və mossiniklərdən Karenitidanı və Kiçik Ermənistanla həmsərhəd olan və yaxud onun hissəsi olan Kserksenanı; kataonlardan Akilisenanı və Antitavr ətrafındakı vilayəti; nəhayət, suriyalılardan Taronitidanı zorla aldılar». Lakin nəzərə almaq lazımdır ki, «Böyük Ermənistan» adlandırılan dövlət e.əv. II əsrin əvvəllərindən e.əv. I əsrin 60-cı illərinədək mövcud olmuşdur. E.əv. 60-cı illərdə II Tiqran bütün işğallardan imtina etməli olmuş və Romadan asılı vəziyyətə düşmüşdür. Ermənilərin ikinci iddiası XX əsrin son rübündə çəkil- [35-36] miş S.Yeremyanın «Армения и сопредельные страны в 701-862 гг.» (Yerevan, 1983) adlı xəritəsində də bariz şəkildə nəzərə çarpır. Müəllifin iddiasına görə, guya ərəblərin Cənubi Qafqaza yiyələnmələri və Qafqaz Albaniyasının süqut etməsi nəticəsində onun əraziləri Ərminiyə ərəb inzibati bölgüsünə qatılaraq erməni torpağına çevrilmişdir. Əslində Ərminiyə ərəb inzibati bölgüsündə olan ərazilər heç də Ermənistan torpaqları demək deyildir.

Ananiy Şiraklının və eləcə də V əsr müəllifi Favst Buzandlının Kür-Araz çayları arasındakı torpaqların ermənilərə məxsus olması barədəki qeydləri (ermənilərin ilk iddiası) əslində dövrün sinxron müəlliflərinin – Movses Xorenskinin, Musa Kalankatlının və s. məlumatı ilə təkzib olunur. Həmin müəlliflərin yazdığına görə eramızın I əsrində Albaniyanın cənub sərhədləri Araz çayı boyunca uzanırdı. Məsələn, «erməni tarixinin atası» hesab olunan Movses Xorenski yazır: Alban hökmdarına «Erasx (Araz – P.V.) çayından başlamış Xnarakert (Ağstafa zonası – P.V.) adlanan qalayadək olan Alban düzü və onun dağlıq hissəsi miras qaldı... Parfiyalı Valarşak adlı-sanlı, cəsur Aranı (albanların əfsanəvi əcdadını – P.V.) hakim təyin edir... Aranın varislərindən utilər, qardmanlar, sodey tayfaları və Qarqar knyazlığı əmələ gəlmişlər...». Musa Kalankatlı da həmin məsələni şərh edərək yazır ki, Sisakan nəslindən olan Yafətin xələflərindən Aran adlı birisi Araz çayından Hunan (Xnarakert) qalasına kimi Albaniyanın dağlarının və düzlərinin varisi idi... Deyirlər ki, onun (Aranın) övladlarından Unik, Girdiman, Arsax və Qarqar knyazlıqları meydana gəlmişdir.

Erməni iddialarının səbatsızlığı və qeyri-elmiliyi F.C.Məmmədova tərəfindən sübuta yetirilmişdir. Müəllifin «Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası» monoqrafiyası bu baxımdan diqqəti cəlb edir. Alim Albaniyanın cənub sərhədlərinin əksər vaxtlarda Araz çayı boyunca keçdiyini elmi dəlillərlə əsaslandırmışdır. Lakin, onun son kitabında (bax: 84) yol verilmiş ciddi səhvə heç cür haqq qazandırmaq olmaz. Belə ki, müəllif kitaba daxil etdiyi «Албания и сопредельные страны II-I вв. до н. э.» xəritəsində «Великая Армения» sözünü Təbrizdən də şimali-şərqə, təxminən Ərdəbilə kimi uzatmaqla əslində ermənilərin həmin ərazilərə olan iddialarına şərik çıxmışdır. Həqiqətdə isə [36-37] bu ərazilər, xüsusilə də, Qafqaz Albaniyasının Kaspiana vilayəti həmin dövrdə ermənilər tərəfindən sadəcə zəbt olunmuşdu; bu isə göstərilən ərazilərin «Böyük Ermənistan»a daxil olduğunu bildirmir. Orta əsr müəlliflərinin yazdığına görə, Böyük Ermənistan (Ərminiyyə) Kiçik Ermənistanın şərqində, əsasən Van gölünün

şimali-qərbində olub şərqdə Arran, Azərbaycan (tarixi Atropatena) və Kürdüstanla həmsərhəd idi (bax: 102, s. 117-119).

Qafqaz Albaniyasının ərazisi inzibati baxımdan əyalətlərə (nahanqlara) və vilayətlərə (havarlara) bölünmüşdü. Nahanqlar (əyalətlər) bir neçə havarlara (vilayətlərə) ayrılırdı. Albaniyanın ərazisində əsas 12 əyalət mövcud olmuşdur: Kabalaka, Şəki, Kambisena, Əcəri (Heceri), Çola, Lpina, Kaspiana, Uti, Sakasena (Şakasena), Girdiman, Arsax və Sünik. Həmin əyalətlər şərti olaraq 2 hissəyə bölünür: belə ki, onlardan ilk 6 əyalət Kürün sol sahili, digər 6 əyalət isə (o cümlədən, 2 vilayət) Kürün sağ sahili əyalətləri hesab edilir:

***Çola*** əyaləti Çola (Dərbənd) keçidindən cənuba doğru təxminən Beşbarmaq dağınadək Xəzərsahili zolağı əhatə edirdi. İri şəhərləri Çola və Dərbənd idi. Çola (Çor, Çol) adının iran-mənşəli sözdən yarandığı söylənilir. Çola 698-ci ildə ərəblərin hücumuna məruz qalır və VIII əsrin 30-cu illərində onların ixtiyarına keçir. Çolanın əhalisinin tabasaranlar (tavasparlar), albanlar, çilblər (silvlər), leqlər, xeçmataklar, maskutlar, xəzərlər, hunlar təşkil edirdilər. Sasanilərin köçürmə siyasəti ilə əlaqədar burada irandilli tayfalar məskunlaşmağa başlayır.

***Lpina*** Çolanın şimali-qərbində Çola ilə Şəki arasında yerləşmişdi. Həmin ərazidə albanlar, lpinlər, leqlər və başqa etnik qruplar yaşayırdı. Yerin adı yunanca «lupen», ermənicə «lpin» adlandırılmış etnosun adından götürülmüşdür. Lpina VI-VII əsrlərdə türkdilli köçərilərin yürüşləri ilə əlaqədar basqınlara məruz qalmışdır.

***Kambisena*** (Kambeçen) adlanan ərazi Albaniyanın şimal-qərbində, İberiya sərhəddində yerləşirdi. Həmin əyalət şimal-qərbdə Qanıx və Qabırlı çaylarının orta axarlarından cənubda Kür çayınadək, şərqdə isə Qanıx, Qabırlı, Kür çaylarının qovşağına kimi olan ərazini əhatə edirdi. Şirak yaylasının yarısı da bu əraziyə daxil idi. Kambisenada albanlar, lpinlər, skif və sak qəbilələrinin [36-37] varisləri – savirlər (türkdilli xalqlar) və silvlər məskunlaşmışdı. Kambisena siyasi və ideoloji baxımdan siyasi-inzibati və kilsə-inzibati vahid (yepiskopluq) idi. Kambisena Sasanilər dövlətinin süqutundan sonra Mehranilərin (Cavanşirin) idarəsində olmuşdur.

***Əcəri*** (Eceri, Heceri) Qəbələ vilayətinin cənubunda Qarasu və Girdiman çayları arasında yerləşmişdi və cənubda Kür çayına söykənirdi. VII əsr «Ermənistan coğrafiyası»nda həmin ərazi həmçinin «Dəşt-i Bazkan» adlandırılmışdır. Əcəri barədə ətraflı məlumat mövcud deyildir. Vilayətin adı müasir Ucar şəhərinin adında qorunub saxlanılmışdır.

***Kabalaka*** (indiki Qəbələ) əyaləti Lpinadan cənubda, Əcəri vilayətindən şimalda Şəki və Çola vilayətləri arasındakı ərazidə yerləşmişdi. Qəbələ şəhəri uzun müddət Alban dövlətinin paytaxtı olmuşdur. 510-cu ildə alban arşakiləri öz hakimiyyətini başa vurduqdan sonra Qəbələ sasani mərzbanlarının qərargahına çevrilir və bununla əlaqədar Qəbələ vilayəti eyni zamanda «Vostan-i mərzban» adlandırılır. Qəbələ də siyasi-inzibati və kilsə-inzibati vahid idi. Qəbələdə xeçmataklar, qluarlar, qatlar və Şimali Qafqazın türkdilli tayfaları – savirlər, xəzərlər, bulqarlar, barsillər yaşayırdılar. K.V.Treverə görə, adları çəkilən ilk 3 tayfa Qafqaz etnoslarıdır.

Tarixi ***Şəki*** (Şako – erməni mənbələrində) vilayəti Şake (gürcü mənbələrində - Nuxpato) adlı şəhəri ilə birgə Albaniyanın şimal-qərbində, Qafqazın dağətəyi rayonlarında, Qəbələnin şimal-qərbindəki ərazini tuturdu. Qərbdə və cənub-qərbdə Kambisena vilayəti ilə, şimali-qərbdə Lpina ilə, cənubi-şərqdə Qəbələ ilə həmsərhəd idi. Burada albanlarla, utilərlə yanaşı skif və sak qəbilələri, həmçinin zakenlər (tsekanlar), xenuklar (genioxlar) yaşayırdı. VI-VIII əsrlərdə Şəki siyasi-inzibati mərkəz olmaqla bərabər, kilsə-inzibati vahid (yepiskopluq) idi.

Albaniyanın Kür çayının sağ sahilindəki əraziləri siyasi-inzibati baxımdan 4 böyük nahanqa (əyalətə), 6 vilayətə bölünmüşdü. Bunlar Arsax, Uti, Paytakaran və Sünik nahanqları idi. Uti əyalətinin (nahanqının) tərkibində daha 2 vilayət – Sakasena (Şakaşena) və Girdiman vilayətləri var idi. Onların hər biri də özlüyündə havarlara (mahallara) bölünmüşdü. Bu əyalətlər eyni zamanda kilsə-inzibati vahidlər idilər. [38-39]

***Paytakaran*** mənbələrdə müxtəlif adlarla – Kaspk, Kazbk (erməni mənbələrində), Kaspiana (yunan-Roma mənbələrində), Paytakaran-Balasikan (Musa Kalankatlı və bəzi erməni mənbələrində), Balasakan (fars və ərəbdilli mənbələrdə) və s. adlandırılmışdır. Bu əyalət müasir Şimali Azərbaycanın cənubi-şərq hissəsində yerləşmiş və şərqdə Xəzər dənizinin sahillərinə kimi uzanırdı. Mil və Muğan düzlərinin bir hissəsi də onun tərkibinə daxil idi. Bəzi vaxtlarda Paytakaran Atropatenanın şimali-şərq torpaqlarını da öz tərkibində birləşdirmişdir. Ehtimal olunur ki, Şirvanın Xəzər dənizinə kimi cənubi-şərq hissəsi Abşeron yarımadası ilə birlikdə Paytakaranın tərkibində olmuşdur. Mərkəzi eyni adlı şəhər – Paytakaran (Beyləqan) idi. Paytakaran siyasi cə-

hətdən bəzən Atropatenanın tərkibində, bəzən isə müstəqil olmuşdur. Lakin IV əsrin II yarısından bu əyalət Albaniyanın ərazisinə daxil idi. V-VII əsrlərdə Balasakanda albanlar, kaspilər, balaslar, hunlar, xəzərlər, akasirlər və s. tayfalar yaşamışdır.

***Uti*** (Utik – ermənicə, Otena - yunanca) əyaləti də Kürün sağ sahilində yerləşirdi. Əyalət Paytakaranla (şərqdə), Arsaxla (cənubda), Kür çayı ilə (şimalda) həmsərhəd idi, qərbdə isə Albaniyanın İberiya sərhədlərinə kimi uzanırdı. Əyalətin tərkibində antik şəhərlərdən Ayniana, Xani, Anarika, eləcə də Xalxal, Soqari və Bərdə şəhərləri var idi. Bərdə 551-ci ildən alban katalikosunun daimi yaşayış yerinə, 630-cu ildən isə Mehranilər sülaləsindən olan böyük alban knyazları Varaz-Qriqorun, Cavanşirin və başqalarının iqamətgahına çevrilir. Uti vilayətində albanların mifik əcdadlarının nəsilləri sayılan utilər, qarqarlar, savdeylər yaşayırdılar. Eyni zamanda burada saklar, daha sonralar hunlar, kəngərlər, xəzərlər yaşayırdı. Utilər son zamanlaradək mənşəcə alban olduqlarını xatırlayırdılar. Onların I Pyotra ünvanlanmış məktubunda yazılır: «Biz ağvanıq (yəni albanıq – P.V.) və milliyyətcə utilərik». Axır vaxtlarda Mingəçevirdən tapılmış yazıların uti dilində olduğu fikri elmdə üstünlük təşkil edir və onların bu dil vasitəsilə açılmasına cəhdlər göstərilir (Z.Aleksidze). Uti 705-ci ildə ərəblər tərəfindən işğal olunmuş və Aran inzibati vahidinə qatılmışdır.

Uti əyaləti (nahanqı) daha xırda ərazilərə – havarlara (vilayətlərə) bölünmüşdü. Onlardan əsaslıları Sakasena (yunan mü- [39-40] əlliflərində) – Şakasena (erməni mənbələrində) və Girdiman idi. **Şakaşena** (Sakasena) Arsax vilayəti ilə Kür çayının arasında idi. Burada sakasenlər yaşayırdı. Strabona görə Baktriya (Bəlx) və s. əraziləri tutan saklar Qafqazda ən məhsuldar torpaqlara sahib olub burada məskunlaşmışlar və bu ərazi Sakasena adlanmışdır.

***Girdiman*** Kürün sağ sahilində yerləşən siyasi-inzibati vahid kimi Uti əyalətinə daxil idi. Mənbələrdə bu vilayət Qardman (qədim erməni dilində), Girdiman (qədim İran dillərində) və Qardabani (qədim gürcü dilində) kimi verilir. Həmin vilayətin lokalizasiyası barədə 3 mülahizə mövcuddur: bir çoxları onun Ağsu və Girdiman çayları arasında, bəziləri müasir Qazax rayonu ərazisində, bəziləri isə Şəmkirçay hövzəsi ətrafında və Gədəbəy rayonunda yerləşdiyini bildirirlər. F.C.Məmmədovanın fikrincə həmin vilayət Albaniyanın şimali-qərbində, Kürün sağ sahilində, erməni və gürcü torpaqları ilə sərhəddə yerləşmişdi. Sonralar mehranilər öz torpaqlarının hüdudlarını genişləndirmiş, Kürün sol sahilinə doğru (müasir İsmayıllı rayonu ərazisinə tərəf) irəliləmiş və Göyçay çayı – Girdiman çayı hövzəsini əhatə etmişlər. Mehranilər burada Girdiman qalasını, Mehrəvan şəhərini və məbəd inşa etmişlər. Girdiman Qafqaz Albaniyası 3 vilayətə bölündüyü vaxt Uti əyalətinin digər vilayətləri ilə birlikdə Arrana daxil oldu. Girdiman əhalisinin əsasını Musa Kalankatlının «Albanların tarixi»ndəki əfsanəvi Aran nəslindən olanlar təşkil edirdi. V əsrdən isə buraya irandilli qəbilələr gəlməyə başlamışlar.

***Arsax*** (erməni müəlliflərində) və ya Orxistena (antik mənbələrdə) əyaləti sağsahil Albaniyasının ən mühüm əyalətlərindən (nahanqlarından) biri olmuşdur. Əyalət hal-hazırki Qarabağın dağlıq hissəsini və Mil düzünün bir hissəsini əhatə edirdi. Onun ərazisi 12 xırda inzibati vahidə bölünmüşdü. Əyalətin əhalisini qarqarlar, utilər, hunlar, xəzərlər və barsillər təşkil edirdi. Xristianlığın qəbuluna kimi (IV əsr) əhalisi bütpərəst olmuşdur. Xristianlıqdan sonra burada bir neçə yepiskopluq yaranmışdı. VIII əsrdə Arsax Albaniyanın tərkibində Əməvilər xilafətinə qatıldı. Sonralar Arsaxda Qriqori Hamama (IX əsr), Qriqori Hamama-Sahək (IX-X əsrlər), Həsən Calal (XIII əsr) və s. başçılığı ilə Alban dövləti bərpa olunmuş və qısa müddətlərdə fəaliyyət [40-41] göstərmişdir. Arsax əhalisi ərəblərdən sonra xristianlığı qoruyub saxlaya bilmiş və ermənilərin təsirinə düşərək tədricən qriqorianlaşmış, daha sonra erməni dilini və mədəniyyətini qəbul etmiş, başqa sözlə erməniləşmişlər. Əslində bu, X əsrdən sonra başlamış mədəni-ideoloji assimilyasiya idi.

***Sünik*** (Sisakan) Albaniyanın cənub ucqarlarında – Göycə gölündən və Arsaxdan cənubda, Ermənistanın şərqində mövcud olmuşdur. Sisakan onun adının İran variantı olub ilk dəfə VI əsrdə meydana gəlmişdir. Sünik əyaləti 12 vilayətdən ibarət idi. Sünik ilk alban qəbilə ittifaqlarına daxil olmamış, ayrı-ayrı dövrlərdə Albaniyanın, Atropatenanın tərkibində olmuş və ya müstəqil fəaliyyət göstərmişdir. Ümumiyyətlə götürüldükdə isə Sünik alban vilayəti hesab olunur. Bunu sasanilər və ərəblər dövründə Süniklə əlaqədar baş vermiş hadisələr, tarixi faktlar təsdiq edir. Sünik əyalətinin mərkəzi Naxçıvan şəhəri olmuşdur. Sünikin vilayətlərindən biri olan Qoxtan müasir Ordubad rayonu ərazisini əhatə edirdi. Onların Ermənistana daxil olmadığı F.C.Məmmədovanın ciddi araşdırmaları nəticəsində bir daha sübut olunur.

Qafqaz Albaniyasının ərazisi VIII əsrdən başlayaraq ciddi təbəddülata uğradı. Buna səbəb ərəb yürüşləri, ölkənin xilafətin tərkibinə qatılması, Albaniya dövlətinin süqutu, islam dininin tədricən yayılması və xristianlığın qismən olsa da ortadan çıxması idi. «Albaniya» adı tarix səhnəsindən silindi. Ərəblər ilk vaxtlarda bu ərazini tam şəkildə «Arran» adlandırdılar. Ərəb Arranının hüdudları Dərbənddən Tiflisə, oradan Naxçıvanın qərbinə, oradan isə Astaraya kimi uzanırdı. Lakin, tədricən tarixi Albaniya ərazisi nisbətən xırda hissələrə – vilayətlərə parçalandı. Onun ərazisində 3 vilayət – Arran, Muğan və Şirvan vilayətləri yarandı. Bu bölgüdən sonra «Arran» adı ilə yalnız Kür-Araz çayları arasındakı ərazilər nəzərdə tutulurdu. Muğan Kürün Arazla qovuşduğu yerdən cənubi-şərqdəki əraziləri əhatə edirdi. Kürün sol sahil əraziləri (Dərbəndin şimalına kimi) isə Şirvan adlanmağa başlandı.

İrəlidə şərh olunmuş faktlardan da göründüyü kimi, Qafqaz Albaniyası etnik baxımdan çoxsaylı qəbilələri, tayfaları birləşdirən ölkə olmuşdur. Strabon yazır: «Onların dilləri 26-dır, belə ki, onlar bir-biri ilə asanlıqla ünsiyyətə girə bilmirlər». Al- [41-42] baniya əhalisinin tərkibində utilər (udilər), qardmanlar, qarqarlar, sodeylər, aynianlar, anariaklar, gellər, leqlər, kaspilər, silvlər, sanarlar, parrisilər, herlər, didoylar (didurlar), lpinlər (lupenlər) və s. tayfalar mövcud olmuşdur. Eyni zamanda ölkə əhalisi içərisində irandilli və türkdilli tayfalar vardı. Erkən türkdilli tayfalar Albaniyaya III-IV əsrlərdə daxil olmağa başlamışlar. Daha sonrakı əsrlərdə (V-VI) Albaniyaya hunlar, savirlər, bulqarlar, barsillər, xəzərlər və s. türk tayfalarının axını başlanır və bu proses əhalinin tərkibində türkdilli xalqların artmasına səbəb oldu. Heç şübhəsiz ki, özündə 20-dən artıq tayfanı ehtiva etmiş alban (alban-uti) aborigen etnik massivi Qafqaz Albaniyası ərazisində əsas, üstün massiv olmuşdur. Albanlar Kür çayının hər iki tərəfində məskunlaşmışlar. Buna əks olan erməni mövqeyi, yəni albanların yalnız Kürün sol sahilində məskunlaşdığı fikri dövrün mənbələrinin (Strabon və s.) məlumatı ilə təkzib olunur və elmi səslənmir. Strabon birmənalı qeyd edir ki, Kür çayı Albaniya ərazisindən keçir, yəni çayın sol və eləcə də, sağ sahili Albaniyaya məxsusdur və deməli, alban tayfaları hər iki sahildə yaşayırdılar.

Albanların sonrakı taleyi diqqət mərkəzində duran məsələlərdəndir. Tarix elmində mövcud olan fərziyyəyə görə (Z.M.Bünyadov, K.K.Kutsiya, F.C.Məmmədova), ərəblərin gəlməsi və islam dininin qələbəsi ilə alban tayfaları tədricən iki qismə bölünmüşdür: onların bir hissəsi islamı qəbul etməyə məcbur olmuş və müsəlman əhalisi arasında assimilyasiya olunmuşlar. İslamı qəbul etməyən albanlar da öz növbəsində 2 yerə ayrılmışlar; xristian qalmış albanların bir hissəsi ermənilərə, digər hissəsi isə gürcülərə meyl etmiş və zaman keçdikcə erməniləşmiş və ya gürcüləşmişlər. Hal-hazırda Qarabağda yaşayan köklü albanların özlərini «erməni» kimi tanımaları məhz bu prosesin nəticəsidir. Alban tayfalarının bir qismi indi də Azərbaycanın və Dağıstanın müxtəlif ərazilərində yaşayırlar: utilər, ləzgilər, xınalıq, buduq, qrız və s. etnik qruplar albanların xələfləri hesab olunurlar.

Əsasən bütpərəst olan albanlar Geliy (Günəş allahı), Zevs (Səma allahı), Selen (Ay allahı) kimi allahlara sitayiş edirdilər. Lakin eramızın əvvəllərində burada xristianlıq yayılmağa baş- [42-43] landı. Həmin dövrdə (I-II əsrlərdə) Fələstində meydana çıxmış xristianlıq Yerusəlimdən gəlmiş apostol (elçi, həvari) Faddey tərəfindən təbliğ olunur və Albaniyada (Ermənistandan əvvəl) yayılmağa başlayır. Lakin, möhkəmlənə bilmir. Eramızın IV əsrindən ölkədə xristianlığın yayılmasının ikinci mərhələsi başlandı. Bu dövrdə Anadolunun Qeysəri şəhərində xristian ailəsində anadan olmuş Qriqori Ermənıyədə III Trdatı (287-332) xristianlığa sövq edir. Alban hökmdarı Urnayr III Trdatın yanına gedib orada bütlərə inamdan əl çəkmiş, xristianlığı qəbul etmiş və onu 313-cü ildə dövlət dini elan etmişdir. V-VI əsrlərdə Albaniyanın əhalisi də zorla xristianlaşdırılmışdır. Xristianlıq Arsax və nisbətən Kambisena vilayətində daha çox kök salmışdır. 552-ci ildə xristianlığın mərkəzi Çoladan Bərdəyə, VIII əsrdə isə Bərdədən Arsaxa keçir.

(Bax: 7; 13; 15; 29; 43; 45; 52; 54; 74; 76; 84-86; 94; 99; 103)

## *V mövzu:* Azərbaycanın ərəb dövrü tarixi-siyasi coğrafiyası

VII əsrin əvvəllərində başlamış ərəb yürüşləri Atlantik okeandan Hindistana kimi olan

ərazilərdə məskunlaşmış xalqların tarixi talelərində əsaslı dəyişikliyin baş verməsinə səbəb oldu. Ərəblər, başqa ölkələrdə olduğu kimi, Azərbaycan (Atropatena) və Qafqaz Albaniyasına da əldə silahla gəldilər və bu ölkələri zor gücünə zəbt etdilər. Ərəb işğalları nəticəsində İspaniyadan Hindistana kimi geniş bir ərazinin siyasi xəritəsi ciddi təbəddülata uğradı. Baş vermiş dəyişikliklər bir çox ölkələrin tarixi-siyasi coğrafiyasına da əsaslı təsir göstərdi. Bu ərazilər ayrı-ayrı vilayətlər şəklində Xilafətin tərkibinə daxil oldular, lakin onların idarə sistemləri əsasən ərəblərəqədərki şəkildə saxlanıldı.

Bilindiyi kimi, Azərbaycan (Atropatena), Qafqaz Albaniyası, Şərqi Ermənistan və İberiya (Gürcüstan) əraziləri, digər sahələrlə birlikdə, sasanilər İranının ən böyük inzibati ərazi vahidlərindən idi. Ərəb işğalından sonra Qafqaz bölgəsindəki ölkələrin tarixi-coğrafi ərazi bütövlüyü saxlansa da, onlar inzibati cə- [43-44] hətdən dəyişikliyə uğradılar. İlk vaxtlarda Adurbadaqan, Albaniya, Ermənistan, Şərqi Gürcüstan və əl-Cəzirə vilayətləri gənc ərəb dövlətinin 5 vilayətindən birini təşkil edirdi. VIII əsrin başlanğıcında Albaniya ərəblər tərəfindən Arran (ər-Ran, Aran) adlanmağa başladığı dövrdə «Ərminiyə» adlı yeni ərəb inzibati adı meydana gəldi. Bu adla tanınan əraziyə Ermənistan, Albaniya və İberiya torpaqları daxil idi. Yeni ərəb inzibati termininin adı çəkilən ölkələrə şamil edilməsi Bizans imperatoru I Yustinianın (527-565) islahatları (536) nəticəsində yaranmış Bizans Ermənistanı inzibati vahidinin adı ilə bağlı olmuşdur. Həmin inzibati islahata əsasən Ərminiyə adlanan ərazi bilavasitə Bizans ərazisində (müasir Türkiyə ərazisində) – Qara və Aralıq dənizləri arasında idi və 4 hissəyə bölünürdü. «Ərəb Ərminiyəsi» inzibati adının yaranmasına başqa obyektiv səbəblər də təsir etmişdir: belə ki, ərəblər Azərbaycana qədəm basmamış (639-640-cı illərdə) Mesopotamiyaya yürüş zamanı Bizansın tabeliyində olan «Ərminiyyə» adlanan əraziləri ələ keçirmiş, digər tərəfdən ərəb işğal zonasını idarə edən canişinliyin qərargahı həmin dövrdə ermənilərin baş şəhəri olmuş Dəbildə – Dvində yerləşirdi. Təbii ki, özlərindən əvvəlki Bizans inzibati-idarə sisteminə varis durmuş ərəblər, başqa yerlərdə olduğu kimi, burada da köhnə dövrə dair «Ərminiyə» adını saxlamışlar. Ərəblər sonralar işğal etdikləri yeni həmhüdud əraziləri də tabeliklərində olan əraziyə birləşdirmişlər. Dvin tərəfdən Albaniya və Gürcüstan ərazilərinə daxil olan ərəblər Qafqazda tutduqları başqa torpaqları - azərbaycanlıların, gürcülərin, ləzgilərin və başqalarının yaşadığı əraziləri də əvvəlki işğal zonasına qatmış və bu yerlərin hamısını, idarəetməni asanlaşdırmaq məqsədilə, əllərində olan Ərminiyə vilayətinin adı ilə adlandırmış və onun idarəsini Dvindəki canişinə həvalə etmişlər. «Ərminiyə» inzibati adının sonralar nisbətən daha Şərq ərazilərə şamil olunmasında isə ərəblərlə əks cəbhədə olan Bizansa qarşı dini-ideoloji mübarizə aparan erməni din xadimlərinin rolu da müəyyən mövqe tutmuşdur. Eyni zamanda Xilafətin qərəzli siyasəti nəticəsində alban kilsəsinin erməni kilsəsinə tabe edilməsi və bununla əlaqədar bütün Arran və Ermənistan xristianlarına real rəhbərliyin erməni katalikosunun əlində cəmlənməsi, Albaniyanın özünün isə bir dövlət kimi süqutu həmin prosesin inkişafına təkan verdi. Erməni din xadimləri, kahinləri yeni-yeni ərazilərə [44-45] sahib durmaq niyyətilə əvvəllər bilavasitə Bizans ərazisində mövcud olmuş Ərminiyələrin tədricən Cənubi Qafqazdakı ərazilərə şamil edilməsində əllərindən gələni etdilər. Odur ki, Bizans ərazisindəki 4 Ərminiyə ilə ərəblər dövründəki 4 Ərminiyə bir-birindən fərqlənirlər; başqa sözlə ərəb müəlliflərinin şərh etdikləri 4 Ərminiyə I Yustinian dövrünün 4 Ərminiyəsi ilə uyğun gəlmir.

«Ərminiyə» termini ilk vaxtlarda ərəblər tərəfindən şərtsiz qəbul olunmuşdur. «Ərminiyə» istilahı altında böyük bir ərazi nəzərdə tutulurdu və İbn Xordadbeh, Əl-Bəlazuri, əl-Yəqubi, İbn əl-Fəqih və s. ərəb müəlliflərinin əsərlərində əks olunduğu kimi, 4 yerə bölünürdü: I Ərminiyə Qafqaz Albaniyasının, ərəb istilahı ilə, Arran ərazisini əhatə edirdi. II Ərminiyə ərəb tarixçilərinin yazdığına görə, əsasən gürcülərin, ləzgilərin və başqa dağlıların məskunlaşdıqları əraziləri əhatə edirdi. III Ərminiyə Arazın aşağı axarının sağ sahillərini, Göycə gölünün qərbi ilə Van gölünün şərqini və şimali-şərqindəki əraziləri əhatə edirdi. IV Ərminiyə III Ərminiyədən daha qərbdə Xilat tərəfdə olan ərazilərdə mövcud olmuşdur. Göründüyü kimi, Xilafətin Cənubi Qafqazdakı I və II Ərminiyə nizibati bölgüləri şimalda Tiflis və Dərbənddən cənubda Araz çayınadək, qərbdə Kiçik Qafqaz dağlarından şərqdə Xəzərə kimi olan sahəni əhatə edir və əsasən ərəblərin Arran adlandırdıqları qədim Albaniya torpaqlarını birləşdirirdi. Artıq IX əsrin sonlarından başlayaraq ərəb tarixçiləri Xilafətin Cənubi Qafqazdakı vilayətlərini dəqiq sərhədləndirməyə və adlandırmağa başladılar və “Ərminiyə» termini də aradan çıxdı. Bunun əsas səbəbi Bizans ilə müharibələrə başı qarışmış Xilafətin Qafqazdakı hadisələrə lazımi diqqət yetirə bilməməsi idi. Sonralar Azərbaycan, Arran və Ermənistan formal olaraq vahid Qafqaz canişinliyi – vilayəti tərkibində birləşdirildi və xəlifənin valisinin idarəsinə verildi. Xilafətin zəifləməsi

nəticəsində isə I və II Ərminiyə bölgələrinin tərkibindəki Şimali Azərbaycan torpaqlarının bir qismi mənşəcə ərəb olan məzyədilərin əlinə keçdi və onlar 861-ci ildə Şirvanşahlar dövlətini təsis etdilər. Lakin, «Ərminiyə» termini sonralar işlədilməsə də, ilk ərəb müəlliflərinin öz əsərlərində bu termini işlətmələri müasir ermənilərin yersiz torpaq iddiaları irəli sürmələrinə vasitə oldu.

S.T.Yeremyanın 1983-cü ildə Yerevanda nəşr etdirdiyi [45-46] «Армения и сопредельные страны в 701-862 гг.» adlı xəritə bu baxımdan maraqlıdır. Xəritədə sanki ermənilərin üç dənizarası Böyük Ermənistan xülyası reallaşdırılmışdır. Burada Ermənistanın şərq sərhədlərinin Xəzər dənizinə, qərb sərhədlərinin Qara dənizə, cənubi-qərb hüdudlarının, dolayısı ilə, Aralıq dənizinə çatdığı nümayiş etdirilir. Azərbaycan torpaqlarına gəldikdə, nəinki onun qərb hissələri, hətta Dərbənddən tutmuş Kür və Araz çaylarına kimi sahələr, Mərəndin şərqindən, Təbrizin yaxınlığından tutmuş Urmiya gölünün cənub hissələri Ermənistana məxsus imiş. Qafqaz Albaniyası süqut etdikdən sonra onun ərazisi tam şəkildə Ermənistana daxil olubmuş. Azərbaycan ərazisi isə, müəllifə görə, Kür-Araz çaylarının cənub istiqamətində, Əhər, Təbriz, Marağa şəhərlərinin qərbindən Xəzərə kimi olan torpaqları əhatə edirdi. Qeyri-obyektiv, qeyri-elmi olduğu qədər, məntiqi əsaslara malik olmayan bu iddianın irəli sürülməsində «Ərminiyə» termininin mövcudluğu da öz rolunu oynamışdır.

Qeyd olunduğu kimi, ərəb işğalları Azərbaycanın tarixi-siyasi coğrafiyasına ciddi təsir göstərmişdir. İlk növbədə Qafqaz Albaniyasının ərazisi ərəb müəllifləri tərəfindən Arran adlanmağa başlandı. Daha əvvəllər siryanilər bu əraziyə Aran, gürcülər Rani deyirdilər. Ümumiyyətlə qeyd etmək lazımdır ki, Arran istilahı orta əsrlərdə ikili məna kəsb etmişdir. Akad. V.V.Bartold yazır ki, ərəblər dövrünün Arranı qədim Albaniyanın (Qafqaz Albaniyasının) adını əks etdirir. İlk vaxtlarda Albaniya termini ilə yanaşı Arran termini ilə də şimali-şərqdə Dərbənddən tutmuş qərbdə Tiflisə və cənubda və cənubi-qərbdə Araz çayına qədər olan ərazi nəzərdə tutulmuşdu. Mütəxəssislərin rəyinə görə (N.Vəlixanlı) Tiflisin Arran inzibati bölgüsünə daxil edilməsi, şübhəsiz onun 644-cü ildə ərəblər tərəfindən zəbti və 1122-ci ilədək müsəlmanların idarəsində olması və Arranın hüdudlarında yerləşməsi ilə bağlıdır. Erkən ərəb müəllifləri (əl-Bəlazuri, əl-Yəqubi və b.) Arran ərazisinə tabe etdikləri vilayətlər sırasında alban vilayət və nahiyələri Sakasenanın (Şakaşenanın), Kambisenanın (Kəmbiranın), Utinin, Sisakan-Sünikin (Sisəcanın), Xaçının, Mete İrankın (əl-Məsiranın), Mete Kuenkin (əl-Miskuanın), Şəkinin, eləcə də, Şirvanın, Layzanın, Məsqətin, Xursanın, Şabranın, Tabasaranın, Muğaniyənin və başqalarının ad- [46-47] larını çəkirlər. Son orta əsrlər Arranı isə nisbətən kiçik ərazini, Kür və Araz çayları arasındakı torpaqları əhatə etmişdir.

Ərəb istilalarının mənfi təsirinə baxmayaraq, onun nəticələri müəyyən mənada Azərbaycan xalqının taleyində müsbət rol oynamışdır. Belə ki, ərəblərin gəlməsi ilə tarixi Atropatena və Albaniya əraziləri birləşərək vahid Azərbaycan ərazisinə çevrilmiş və «Azərbaycan» məvhumu meydana gəlmişdir. Ərəb yürüşlərindən əvvəl başlanmış bu proses uzun müddət davam etmişdir. Bununla belə, hələ VIII əsrin ortalarından başlayaraq ərəb müəllifləri Arran-Albaniya ərazisindən danışarkən onu Azərbaycanla əlaqələndirirdilər. Faktlara müraciət edək:

- «əl-Ədiyyə… Azərbaycan ölkəsinə yola düşdü və Beyləqanda məskən saldı» (əl-Kufi);
- «əl-Həris ibn Əmr Azərbaycan ölkəsinə gedir və Bərdədə dayanır» (əl-Kufi);
- Məsləmə ibn Əbdülməlik türklərə (xəzərlərə) qarşı yürüş təşkil etdi və «Azərbaycan vilayətində əl-Baba (Dərbəndə) çatdı» (ət-Təbəri, İbn əl-Əsir).

Göründüyü kimi, dövrün müəllifləri tarixi Albaniyanın Beyləqan, Bərdə, Dərbənd şəhərlərini Azərbaycan şəhərləri kimi qələmə verirlər.

Xilafətin yürüşləri və hakimiyyəti dövründə sasanilərin tərkibindəki Atropatena və Qafqaz Albaniyasının əraziləri onun tərkibinə daxil oldu və onlar qədim dövrlərdəki qonşu dövlətlərdən qonşu vilayətlərə, əyalətlərə çevrildilər. Bununla da, hər iki ərazinin idarəsi eyni siyasi qurumda birləşdi, başqa sözlə «siyasi birlik» yarandı. Onların aralarındakı sərhədlər isə dövlətlərarası sərhəddən eyni bir dövlətin vilayətlərarası sərhəddinə çevrildi. Zaman keçdikcə Atropatena ilə Albaniya arasında siyasi, iqtisadi, mədəni, dini, etnik əlaqələr gücləndi. Bir tərəfdən islam dininin yayılması və möhkəmlənməsi ilə atəşpərəstlik, zərdüştlük və qismən də, xristianlıq aradan getdi və yerini islam dini tutmaqla vahid din birliyi yarandı. Digər tərəfdən atəşpərəstliyə və xristianlığa əsaslanan ikili mədəniyyətin əvəzinə islama əsaslanan vahid mədəniyyət meydana gəldi. Üçüncü tərəfdən Atropatena və Qafqaz Albaniyası əhalisinin bir-birinə qovuşması, onların tərkibində

türkdilli əhalinin çoxluq təşkil etməsi, türk [47-48] (azərbaycan) dilinin hər iki ərazidə üstün mövqe kəsb etməsi ölkədə vahid dilin meydana gəlməsi ilə nəticələndi. Ərəb xilafəti sərhədləri daxilində vahid Azərbaycan ərazisi təşəkkül tapmağa başladı və tədricən möhkəmləndi. «Atropatena» istilahından təşəkkül tapmış «Azərbaycan» məvhumu Zəncandan Dərbəndə qədər olan geniş əraziyə şamil olundu. Albaniya istilahı isə tədricən unuduldu. Onun ərazisi vahid Azərbaycanın tərkibində Arran, Şirvan və Muğan vilayətləri kimi tanınmağa başlandı.

Türk-islam birliyi əsasında Ərəb xilafəti daxilində vahid Azərbaycanın təşəkkülü Azərbaycan xalqının sonrakı taleyində çox müsbət rol oynadı. Bu birliyin möhkəmlənməsində Xilafətin parçalanmasından sonra meydana gəlmiş feodal dövlətlərinin, xüsusilə Sacilərin, Salarilərin təsiri az olmamışdır. Atabəylər dövründə daha da genişlənən vahid Azərbaycan torpaqları min ildən artıq bir dövrdə öz birliyini, vahidliyini qoruyub saxlaya bilmiş və yalnız XIX əsrin əvvəllərində yenidən parçalanmaya düçar olmuşdur.

Ərəb xilafəti tərkibində vahid Azərbaycan ərazisi şimalda Dərbənd torpaqlarını, cənubda Zəncan ərazisini əhatə edərək Həmədana kimi uzanırdı. Onun şərq sərhədləri Xəzər dənizi və Deyləm ərazisi, qərb sərhədləri əl-Cəzirə, Ermənistan və Gürcüstan əraziləri ilə hüdudlanırdı. Göycə mahalı və Tiflisə qədər ərazilər Azərbaycana daxil idi. Qeyd olunduğu kimi, Xilafət əsarətə aldığı geniş əraziləri idarə etmək üçün həmin yerlərdə mövcud olmuş əvvəlki ənənələrdən istifadə etməyə üstünlük vermişdir. Ərəblər sasanilərin mərzbanlıqlarına bənzər əmirliklər (canişinliklər) sistemi yaratdılar. Əvvəlcə 5 əmirlik təşkil olundu və Azərbaycan (Arran ilə birlikdə) 4-cü əmirliyə daxil oldu. Əməvilər sülaləsi dövründə inzibati quruluşda bəzi dəyişikliklər edildi: Azərbaycan əl-Cəzirə adlanan 3-cü əmirliyin tərkibinə qatıldı. Abbasilər dövründə də bu sahədə yeniliklər edildi: 83 əyalətdən ibarət 14 əmirlik yaradıldı. Əmirliklər özləri də daha kiçik inzibati vahidlərə – nahiyələrə və rayonlara bölünmüşdü.

Vahid Azərbaycan ərazisi 5 hissəyə – Azərbaycan, Arran, Muğan, Şirvan və Şəki mahallarına bölünmüşdü. Ölkə ərazisində Girdiman, Kambisena, Şakaşena, Tabasaran, Məsqət, Leyzan, Xursan, Muğaniyyə, Sisakan, Bəzzeyn və s. mahallar [48-49] mövcud idi. İri şəhərlər sırasına Marağa, Ərdəbil, Bərdə, Təbriz, Bakı, Şamaxı, Şirvan, Şabran, Dərbənd, Qəbələ, Şəki, Gəncə, Şəmkir, Beyləqan, Naxçıvan, Xoy, Salmas, Urmiya, Uşniya, Zəncan, Mərənd, Sarab və s. daxil idi. Cənubda Ərdəbil və sonra Marağa, şimalda isə Bərdə ərəb canişinliyinin iqamətgahları idi. Ərəb müəlliflərinin «Nəşəva» adlandırdıqları Naxçıvan şəhəri bilavasitə Azərbaycana daxil idi. Bilindiyi kimi, Naxçıvan adı ilə daha 2 şəhər (Qarsda və Don sahilində) mövcuddur və ermənilər bundan «məharətlə» istifadə edirlər.

Ərəblərin Azərbaycanı zəbt etmələri və Azərbaycanın Xilafətin tərkibində olması ölkənin tarixi-siyasi coğrafiyası ilə yanaşı, mənəvi həyatına, əhalisinin etnik tərkibinə də güclü təsir göstərdi. Məlum olduğu kimi, Azərbaycanda islam dini qələbə çaldı və cəmiyyətin gələcək inkişafında həlledici amilə çevrildi. Digər tərəfdən, ərəblər ilk vaxtlardan başlayaraq Azərbaycana (eləcə də, işğal etdikləri başqa vilayətlərə) axışdılar. Onların IX əsrin I rübünə kimi davam etmiş köçürmə siyasəti nəticəsində Arranda və Azərbaycanda ərəb qəbilələri məskunlaşmağa başladı. Bərdə, Beyləqan, Qəbələ, Dərbənd, Varsan, Təbriz, Məyanic, Bərzənd, Neriz, Sarab və s. ərazilər müxtəlif ərəb qəbilələrinin əlinə keçdi. Arranda əksər vaxtlarda rəbiilər üstünlük təşkil etdilər və Bərdə, Şamaxı və Şirvanda məskunlaşdılar. Müdarilər ilk vaxtlarda Azərbaycana gələn ərəb qəbilələrindən idilər. Təbrizdə rəvvadilər, Məyanic və Cilbayədə həmədanilər, Bərzənd mahalında avdilər, Nərizdə tailər, Sarabda kindilər və s. qəbilələr yerləşmişdi. Onların bəziləri Azərbaycanın siyasi həyatında fəal iştirak etmiş və yaranmış vəziyyətdən istifadə edərək nüfuz dairələrində olan ərazilərdə sonralar müstəqil dövlətlər təsis etmişlər. Şirvanşahlar (IX əsrdən), Rəvvadilər, Ağsunqurilər dövlətləri, Dərbənd əmirliyi ərəb mənşəli qəbilələrin Azərbaycanda qurduqları dövlətlərdir.

İlk vaxtlarda nisbətən müstəqil fəaliyyət göstərən ərəb qəbilələri zaman keçdikcə yerli əhali arasında assimilyasiya olunmuşlar və son nəticədə öz etnik mənsubiyyətlərini də unutmuşlar. Hal-hazırda Azərbaycan əhalisinin tərkibində özünü ərəb adlandıranlar olmasa da, ölkədə ərəblərin adı ilə bağlı çoxlu toponimlər, etnonimlər, oykonimlər mövcuddur. XIX əsrdə Azərbaycanda Ərəb-Sarvan, Ərəb-Şamlu, Ərəb-Cabirlu, Ərəb-Bal- [49-50] oğlan, Ərəb-Qədim, Ərəb-Şahverdi, Ərəb-Qardaşbəyli, Ərəb-Babalı, Ərəb-Bəsrə, Ərəb-Qubalı, Ərəbuşağı, eləcə də, Ərəbkeymuraz, Ərəbhacı, Ərəblər, Ərəbocaq, Ərəbşah, Ərəbxana, Ərəb Mehdibəy, Çölərəb və s. məskənlər olmuş və onların bir çoxu indi də mövcuddur. Ərəb qəbilələrinin Azərbaycana gətirdikləri Heybər, Hillə, Xələb, həmçinin Şeyban qəbiləsinə mənsub Şubani (Qaradağ rayonu)

toponimləri də ərəblərin burada məskunlaşdıqlarına dəlalət edir.
(Bax: 13/II; 15; 19; 39; 40; 46; 64; 71; 74; 76; 77).

## *VI mövzu:* IX-XII əsrlər Azərbaycanının tarixi-siyasi coğrafiyası

Bilindiyi kimi, IX əsrdə Xilafətin tədricən zəifləməsi prosesi getmiş və onun müxtəlif hissələrə parçalanması ilə nəticələnmişdir. Buna səbəb Xilafətə tabe olan ölkələrdə azadlıq hərəkatının və müharibələrin genişlənməsi, feodal prosesinin inkişafı nəticəsində mərkəzi hakimiyyətə tabe olmaq istəməyən qüvvələrin artması, Xilafət daxilində çəkişmələrin çoxalması və s. amillər idi. VIII əsrin son rübündən yayılmağa başlamış xürrəmilik və Babəkin başçılığı ilə 20 ildən çox davam edən xalq azadlıq hərəkatı Xilafətin zəifləməsində əsaslı təsirə malik oldu. Həmin dövrdə Mərakeşdə, Əlcəzairdə, Tunisdə, Liviyada, bir müddət sonra Yəməndə (Zeydilər), Xorasanda (Tahirilər) müstəqil dövlət yaratdılar. Babək hərəkatının yatırılmasına baxmayaraq Azərbaycanda və ətraf ərazilərdə müstəqillik meylləri daha da artdı. Təbəristanda (Ələvilər), İranda (Səffarilər), Misirdə (Tulunilər), Xorasan və Orta Asiyada (Samanilər) yerli feodal dövlətləri meydana gəldi. Yerli hakimlər Xilafətin təsirindən çıxır və öz müstəqilliklərinə nail olurdular. Azərbaycanda bu prosesin əsası IX əsrin ortalarında qoyuldu. Ölkə ərazisində Şirvanşahlar (861) və daha sonra Sacilər (898) dövləti təşəkkül tapdı. X əsrdə və sonralar Salarilər (942), Şəddadilər (971), Rəvvadilər (981) dövlətləri fəaliyyətə başladı. Daha sonralar ölkə ərazisi Səlcuq imperiyasının tərkibinə qatıldı və nəhayət, XII əsrdə Azərbaycan [50-51] Atabəyləri hakimiyyətə gəldilər. IX-XII əsrlərdə ölkə ərazisində Şəki məlikliyi, Sünik və Arsax-Xaçın knyazlığı, Dərbənd əmirliyi, Əhər məlikliyi, Ağsunqurilər dövləti (Marağada) və s. qurumlar da fəaliyyət göstərmişdir. Göründüyü kimi, IX-XII əsrlərdə Azərbaycanda müxtəlif feodal dövlətləri mövcud olmuşdur. Onların bəzisi Azərbaycanın bütün ərazisini, tarixi Atropatena və Qafqaz Albaniyası torpaqlarını əhatə etsələr də, digərləri ölkənin bu və ya başqa ərazilərində fəaliyyət göstərmişlər. Mövcud siyasi vəziyyət Azərbaycanın tarixi-siyasi coğrafiyasına ciddi təsir göstərmiş və bu istiqamətdə tez-tez dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Bununla yanaşı, göstərilən dövrdə Azərbaycan vahid şəkildə mövcud olmuş, onun ərazisi Dərbənddən Zəncana, Xəzərdən Göycə mahalının qərbinə kimi olan torpaqları əhatə etmişdir. X əsr müəllifi İbn əl-Havqəl Cənubi Qafqaz bölgəsinin təsvirini verdiyi xəritəsində bölgənin vilayətlərinin dəqiq hüdudlarını göstərir. Müəllif vahid Azərbaycanın 2 iri vilayətinin, yəni Azərbaycan – Adurbadaqan və Arranın (Albaniyanın) Araz çayı ilə sərhədləndiyini qeyd edir. Ermənistan isə onun xəritəsində Van (Xilat) gölü ilə Araz çayının yuxarı axarı arasında yerləşdirilmişdir. Bu fakt Arrana qarşı erməni iddialarına tutarlı cavabdır.

Yuxarıda adı çəkilən feodal dövlətlərinin tarixi-siyasi coğrafiyası barədə şərh olunan qısa məlumat Azərbaycanın həmin əsrlərdəki ümumi mənzərəsinin qavranılmasına yardım etmiş olar.

Hələ VI əsrin I yarısında Şabran və Gilgil çayları arasında sasanilər tərəfindən yaradılmış ***Şirvanşahlar dövləti*** təxminən 1000 il (1538-ci ilədək) fəaliyyət göstərmişdir. Dövlətin sərhədləri sonradan genişlənmiş və cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə olunmuşdu. Paytaxtı Şamaxı (Yəzidiyə) şəhəri olmuşdur. Şirvan ərazisi IX-X əsrlərdə qədim Albaniyanın müəyyən hissəsini təşkil edirdi. İlk mənbələrin məlumatına görə, X əsrdə Şirvan əsasən 3 nahiyədən – Şirvan (Şərvan), Xursan və Laican nahiyələrindən ibarət idi. Xursan Dərbənd ilə Şirvan arasında yerləşirdi və Qafqaz dağına birləşirdi. Laicanın Girdiman çayı ilə Göyçay arasında yerləşdiyi qeyd olunur. IX-XI əsrlərdə Şir- [51-52] vanın tərkibinə Xursan və Laicandan başqa Məsqət, Dərbənd, Qəbələ, Şəki, Sənariyə, Beyləqan vilayətləri və müəyyən dövrlərdə Bərdə də daxil olmuşdur. Uzun illər fəaliyyət göstərən Şirvanşahlar dövləti ilk Şirvanşahlar, Məzyədilər (861-1027), Kəsranilər (1027-1382) və Dərbəndilər (1382-1538) tərəfindən idarə olunmuşdur. Tarixi ədəbiyyatda onların ayrı-ayrı sülalələr olması barədə mülahizələr mövcud olsa da, mütəxəssislərin fikrincə bu sülalələr əslində eyni nəsildəndirlər və dövlətin əsasını qoyan Heysəm ibn Xalidin davamçılarıdır. Onların sonralar Kəsranilər və ya Dərbəndilər kimi adlanmaları digər amillərə, səbəblərə malikdir. Z.M.Bünyadov bu məsələyə həsr etdiyi xüsusi tədqiqatında 861-1538-ci illərdə Şirvanşahlar dövlətini idarə etmiş

44 şirvanşahın şəcərəsini vermiş və buradan göründüyü kimi, Məzyədilərlə Kəsranilər və Kəsranilərlə Dərbəndilər arasında yaxın qan qohumluğu mövcuddur.

***Sacilər dövləti*** IX əsrdə Azərbaycanda təşəkkül tapmış ikinci müstəqil dövlət idi. Onun əsasını 898-ci ildə mənşəcə türk qəbiləsindən olan Məhəmməd Afşin ibn Əbu Sac Divdad ibn Yusif qoymuş və bu dövlət 941-ci ilə qədər fəaliyyət göstərmişdir. Dövlətin ərazisi qərbdə Ani və Dvin şəhərlərindən şərqdə Xəzər dənizinə kimi uzanırdı. Şimalda Dərbənd, cənubda Zəncan əraziləri bu dövlətin tərkibinə daxil idi. Şirvan, Şəki, Xaçın, Sünik, Tiflis əmirliyi və s. hakimləri Sacilərə vergi ödəyirdilər. Yusif ibn Əbu Sacın (901-927) dövründə Azərbaycan torpaqları ilk dəfə vahid dövlətin hüdudlarında birləşdirildi. Sacilər müəyyən dövrlərdə Ermənistan ərazilərini də öz nüfuz dairələrinə ala bilmişlər. Dövlətin paytaxtı Ərdəbil şəhəri idi: paytaxt bu dövlətin təsis olunduğu vaxtlarda Marağadan Ərdəbilə köçürülmüşdür. Buna baxmayaraq, Marağa və eləcə də, Bərdə, Təbriz, Urmiya, Xoy, Salmas, Mərənd, Beyləqan və başqa şəhərlər Sacilər dövründə böyük iqtisadi və siyasi əhəmiyyət kəsb edirdilər. Sacilər dövləti əksər vaxtlarda Azərbaycanın bütün ərazisini vahid şəkildə mühafizə edib saxlamışdır. Bu cəhət Azərbaycanın sonrakı taleyinə müsbət təsir göstərmişdir. Bir tərəfdən Sacilər dövründə qədim Atropatena, Qafqaz Albaniyası və eləcə də, Şirvan əhalisi arasında etnik və mədəni və eləcə də, iqtisadi birlik daha da qüvvətləndi, digər tərəfdən mənşə etibari- [52-53] lə türk olan Sacilərin hakimiyyətdə olmaları indiki Azərbaycan dili və eyni sistemə daxil olan türk dilinin danışıq dili olaraq yayılması prosesini daha da inkişaf etdirdi.

X əsrdə Azərbaycanda fəaliyyətə başlayan növbəti dövlət ***Salarilər dövləti*** olmuşdur. Sacilər dövləti zəminində qurulan bu dövlət 942-981-ci illərdə, təxminən 40 il fəaliyyət göstərmiş və mütəxəssislərin fikrincə, həmin dövrdə Qafqaz və Ön Asiyada ən qüdrətli feodal dövlətlərindən biri olmuşdur. Dövlətin təsisçisi Mərzban ibn Məhəmməd mənşəcə Azərbaycana qonşu olan Deyləm (müasir Gilan) vilayətindən idi və Gilanın salarilər tayfasına mənsub olduğundan təsis etdiyi dövləti Salarilər dövləti adlandırmışdır. Salarilər dövlətinin paytaxtı da Ərdəbil şəhəri olmuşdur. Dövlətin ərazisi Qafqaz sıra dağlarından İraq və Mesopotamiya hüdudlarına, Xəzərdən Ermənistana qədər uzanırdı. Müəyyən vaxtlarda Ermənistanda hakimiyyətdə olan Baqratilər, Arsrunilər, eləcə də, Şərqi Gürcüstan (Tiflis əmirliyi), Sənariyə hakimləri Salarilərin asılılığında olmuşlar və onlara vergi ödəmişlər. Salarilər dövləti Azərbaycanın bütün ərazilərini vahid şəkildə birləşdirmişdi. Onun tərkibinə təkcə Azərbaycanın cənub əraziləri deyil, eləcə də, Arran, Şirvan (vassal kimi), Şəki, Dərbənd əraziləri də daxil idi. Bu hal ölkənin gələcək taleyinə müsbət təsir göstərdi və onun vahidliyinin qorunmasına səbəb oldu.

X əsrin son rübü ərəfəsində Azərbaycanda tarixi-siyasi coğrafiya baxımından təbəddülat baş verdi. Sacilər və Salarilər dövründə vahid dövlətin tərkibində olan Azərbaycan ərazisində paralel dövlətlər meydana gəldi. 971-ci ildə Şəddadilər Kür və Araz çayları arasında müstəqil dövlət (əmirlik) təşkil etdilər, 981-ci ildə isə Salarilər dövlətinin cənub ərazilərində Rəvvadilər hakimiyyətə gəldilər. Azərbaycanın şimal torpaqlarında isə Şirvanşah Məzyədilər hökmran idilər. Beləliklə, Azərbaycan ərazisi yenə də müxtəlif feodal dövlətlərinin nüfuz dairəsinə bölündü. Lakin, bir müddət davam edən bu vəziyyət ölkənin siyasi həyatına təsir etsə də, Azərbaycan coğrafi baxımdan öz vahidliyini əldən verməmişdi. Onun cənub hüdudları yenə də Həmədana, şimal hüdudları Dərbənddən şimala, qərb hüdudları Ani və Dvin ərazilərinə çatırdı.

Salarilərdən sonra hakimiyyətə gələn ***Rəvvadilər*** daha uzun [53-54] dövrdə fəaliyyət göstərmişlər və onların fəaliyyəti 2 hissədən ibarət olmuşdur. Rəvvadilər ilk pillədə 983-1065-ci illərdə, onların davamçıları sayılan Ağsunqurilər isə sonralar, 1107-1117-ci illərdə (Marağada) fəaliyyət göstərmişlər. Rəvvadilər mənşəcə ərəb idilər. Ərəb yürüşləri dövründə Azərbaycana gələn rəvvadilər hələ VIII əsrdən başlayaraq Təbriz, Marağa, Əhər və Qaradağda hakimiyyətdə olmuş və öz müstəqillikləri uğrunda ciddi mübarizə aparmışlar. Rəvvadi Əbül-Hica 983-cü ildə hakimi olduğu Əhərdə özünü müstəqil elan etdi və Rəvvadilər dövlətinin əsasını qoydu. Rəvvadilər dövlətinin ərazisi əsasən indiki Cənubi Azərbaycan ərazisini əhatə edirdi. Ermənistan ərazisi də müəyyən vaxtlarda Rəvvadilərin nüfuz dairəsində olmuşdur. Dövlətin paytaxtı Ərdəbildən Təbrizə köçürüldü. Buna səbəb Təbrizin Ərdəbilə nisbətən tərəqqi edərək iqtisadi, siyasi və mədəni cəhətdən irəliləməsi olmuşdur. Rəvvadilər (ilk mərhələdə) 1065-ci ildə öz müstəqilliyini itirib səlcuq sultanı Alp Arslanın vassalına çevrildilər.

***Şəddadilər dövləti*** X-XII əsrlərdə Cənubi Qafqazda fəaliyyət göstərmiş feodal dövlətlərindən biri olmuşdur. Dövlətin əsasını mənşəcə kürd olan Məhəmməd ibn Şəddad qoymuşdur. Şəddadi-

lər səlcuq sultanları ilə ittifaqa girib Bizans imperiyası, Rəvvadilər, Sacilər, Şirvanşahlar və Gürcüstan dövlətləri ilə mübarizə aparmışlar. Şəddadilər dövləti Səlcuqlarla müttəfiqlik sayəsində XI əsrdə Cənubi Qafqazda ən qüdrətli dövlətlərdən birinə çevrilmişdi. Şəddadilər dövləti əslində həmin sülalə tərəfindən idarə olunan 3 əmirliyin federasiyasından ibarət idi: Dvin əmirliyi (951-1130), Gəncə əmirliyi (971-1065) və Ani əmirliyi (1072-1199).

Gəncə (Arran-Naxçıvan-Gəncə) əmirliyi 971-1065-ci illərdə fəaliyyət göstərmişdir. Əmirliyin ərazisi Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Naxçıvan, Sünik, Qafan və Arranın digər əraziləri bu əmirliyin tərkibində idi. Gəncə əmirliyi şimalda Şəki və Kaxetiya, cənubda Rəvvadilər dövləti ilə həmsərhəd olmuşdur. Müəyyən dövrlərdə Dəbil (Dvin), Şəki, Kaxetiya və Ermənistanın xeyli hissəsi Şəddadilərin nüfuz dairəsinə daxil idilər. Gəncə əmirliyin mərkəzi idi. Şəhər həmin dövrdə inkişaf edərək yüksəlmiş və bölgədə aparıcı mövqe tutmuşdur. [54-55]

IX-XII əsrlərdə Azərbaycanda fəaliyyət göstərmiş dövlətlərə ümumi nəzər yetirildikdə onların müxtəlif qəbilələr, mənşəcə müxtəlif olan sülalələr tərəfindən təsis olunduqları diqqəti cəlb edir. Göstərildiyi kimi, şirvanşahlar ərəb, sacilər türk, salarilər İran (Gilan), rəvvadilər ərəb, şəddadilər isə kürd mənşəli olmuşlar. Buradan qeyri-elmi, qeyri-məntiqi mülahizələr də meydana çıxa bilər və həmin dövlətlərə varislik edənlər tapılar. Lakin, məsələnin bu tərzdə qoyulması məntiqi və elmi əsasa malik deyildir. Çünki, mənşəcə müxtəlif olan qəbilələr, sülalələr tərəfindən qurulmuş bu dövlətləri birləşdirən mühüm bir cəhət vardır: onların hamısı Azərbaycan ərazisində təşəkkül tapmış və milli zəmində fəaliyyət göstərmişlər. Paytaxtları Azərbaycan şəhərləri – Marağa, Ərdəbil, Təbriz, Gəncə, Şamaxı olmuşdur. Digər tərəfdən həmin qəbilələrdən, sülalələrdən bəziləri, xüsusilə ərəblər, uzun müddət Azərbaycanda yaşadıqlarından artıq yerli əhali arasında assimilyasiyaya uğrayaraq öz mənşələrini unutmaq səviyyəsinə çatmışdı. Məhz bunları nəzərə alaraq, ölkə tarixində mühüm rol oynayan həmin dövlətlərin «Azərbaycan feodal dövlətləri» adlanması elmi və məntiqi hesab olunur.

XI əsrin ortalarında Orta və Yaxın Şərqdə mühüm tarixi hadisə baş verdi. Orta Asiya, İran, Suriya, Kiçik Asiya və digər əraziləri özündə birləşdirən Səlcuq imperiyası meydana gəldi (1038-1157). Azərbaycan ərazisi də onun tərkibinə qatıldı. Məlum olduğu kimi, həmin dövrdə Azərbaycanda əsasən Rəvvadilər, Şəddadilər və Şirvanşahlar dövlətləri fəaliyyət göstərirdi. Səlcuq yürüşləri nəticəsində Rəvvadilərin və Şəddadilərin fəaliyyətlərinə son qoyuldu, Şirvanşahlar isə daxili müstəqilliyini əllərində saxlaya bilsələr də, çox zəiflədilər.

Azərbaycanın Səlcuq imperiyası tərkibinə daxil olması ölkənin tarixi-siyasi və tarixi-etnik coğrafiyasına əsaslı təsir göstərdi. Belə ki, ölkə daxilində mövcud olan parçalanmaya qismən son qoyuldu. Rəvvadilərin, Şəddadilərin və eləcə də, Şirvanşahların nüfuz dairəsində olan ərazilər imperiyanın tərkibində yenidən vahid şəkildə birləşdirildi və Azərbaycan vilayəti kimi tanındı. Digər tərəfdən səlcuqların Azərbaycana axını ölkədə əhalinin etnik tərkibinə əsaslı təsir göstərdi. Bilindiyi kimi, 24 tayfadan ibarət oğuzlar arasında q ı n ı q tayfası xüsusi fərqlənirdi və [55-56] səlcuqlar bu tayfadan idilər. 119 il davam etmiş səlcuq dövrü türkdilli xalqların, o cümlədən Azərbaycan xalqının hərbi-siyasi, iqtisadi-ictimai və mənəvi sahələrdə vahid birliyinin yaranmasına səbəb oldu. XI əsrin ortalarında isə qıpçaqların Azərbaycana axını və türk-oğuz dili daşıyıcısı olan bu tayfaların Azərbaycanda yaşayan türklərlə qaynayıb-qarışması ölkənin etnik mənzərəsinə təsir etdi. Azərbaycanın şimal və cənub hissələrində oğuz dilli türklərin üstünlüyü getdikcə artdı. Son nəticədə türkdilli Azərbaycan xalqının hələ ərəblərin gəlişi ərəfəsində başlayan formalaşma prosesi tam şəkildə başa çatdı. Böyük axınla Azərbaycana gələn oğuz türkləri bu prosesi sürətləndirdi. Türk dili fars dili ilə yanaşı Azərbaycanda elm, mədəniyyət dilinə çevrildi. Bununla bərabər Azərbaycan ərazisində qafqazdilli və irandilli xalqlar da yaşamaqda davam edirdilər. Həmin dövrdə də Azərbaycan əhalisi etnik tərkibinə görə fərqlənirdi və ölkə çoxsaylı xalqların, etnik qrupların, etnoqrafik azlıqların birgə yaşadığı diyar idi.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bəzi tarixçilər (F.Sümər) səlcuq dövrünü Azərbaycan xalqının türkləşməsi prosesinin əsas mərhələlərindən hesab edirlər. Əslində söhbət əhalinin türkləşməsindən deyil, ölkə əhalisi tərkibində türklərin sayının daha da artmasından gedə bilər. Çünki türklər əvvəllər də bu ərazilərdə yaşamış və digərlərinə nisbətən heç də azlıq təşkil etməmişlər. Sonralar Azərbaycana gələn türklər, o cümlədən səlcuqlar buradakı türklərin sayının çoxalmasına xidmət etmişlər və göstərildiyi kimi, türkdilli Azərbaycan xalqının formalaşması prosesi başa çatmışdır.

Səlcuqların fəaliyyəti nəticəsində imperiyanın tərkibində atabəylik institutu meydana gəldi. İmperiyanın ayrı-ayrı yerlərində səlcuq vəliəhdlərinin tərbiyəçiləri (lələləri) hakimiyyətə yiyələnməyə başladılar. Atabəylik institutu 10 qola şaxələndi: Şamda Burilər, Mosulda Zəngilər, İbrildə Beytəkinlər, Diyarbəkirdə Artukilər, Xilatda Sekmanilər, Farsda Salqarilər, Luristanda Xəzərəspilər, Kermanda Qutluqxanilər, Orta Asiyada Xarəzmşahlar və nəhayət, Azərbaycanda Eldənizlər hakimiyyəti ələ aldılar. İmperiyanın daxilində cərəyan edən həmin prosesdən istifadə edən və II Toğrulun oğlu Arslan Şahın atabəyi olan [56-57] Şəmsəddin Eldəniz 1136-cı ildə Azərbaycanda müstəqil Atabəy Eldənizlər dövləti təsis etdi. Atabəylər dövləti 1225-ci ilə kimi fəaliyyət göstərdi. Bundan sonra Xarəzmşahların nümayəndəsi Calaləddin, qısa müddətdə olsa da, Azərbaycanda hakimiyyət sürmüşdür.

Eldənizlər dövlətinin ərazisi əsasən Azərbaycanın cənub torpaqlarını və şimali-qərbi İran vilayətlərini əhatə edirdi. Arran və Şirvan əraziləri də bu dövlətin nüfuz dairəsinə daxil idi. Şirvanşahlar daxili müstəqilliyini qorusalar da, Atabəylərin vassalları idilər. Azərbaycanda fəaliyyət göstərən Ağsunqurilər dövləti və Əhər məlikliyi də Atabəylərin asılılığında olmuşlar. Ağsunqurilər Marağa ərazisində (paytaxt Marağa şəhəri idi), Əhər məlikliyi isə Əhər, Mişkin və Sarab ərazilərində fəaliyyət göstərirdi.

Eldənizlər dövlətinin paytaxtları müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz, İsfahan, Marağa olmuşdur. Buna səbəb səlcuqlarda olduğu kimi, Eldənizlərin də ilkin köçəri həyat tərzinə uyğun fəaliyyət göstərmələri, xəzinə və hərbi nəqliyyatı həmişə öz yanlarında saxlamaları və harada məskən salsalar oranı mərkəz kimi qəbul etmələri olmuşdur.

Eldənizlər dövlətinin ərazisi bir sıra vilayət və əyalətlərə bölünmüşdü. Onun tərkibinə bütün dövrlərdə Azərbaycan, Fars İraqı, Rey və Həmədan vilayətləri daxil olmuşdur. Azərbaycan ərazisi, geniş mənada götürüldükdə Azərbaycan, Naxçıvan, Qaradağ, Talış, Muğan, Arran, Şirvan və Şəki əyalətlərinə bölünmüşdü. Azərbaycanın şimal sərhədləri Dərbənddən şimala, qərb sərhədləri Ani şəhərinə və Gürcüstana, cənub sərhədləri Mosul atabəyliyi və Həmədan hüdudlarına, cənubi-şərqdə isə Gilan və Qəzvinə kimi uzanırdı. Əsas şəhərləri sırasına Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Şamaxı, Gəncə, Şəmkir, Dərbənd, Beyləqan, Xoy, Urmiya, Bakı və s. daxil idi. Onların bəzilərində 100 mindən artıq əhali var idi.

Nəticə olaraq qeyd etmək lazımdır ki, Atəbəylər dövrü Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin dövrdə Azərbaycan əraziləri artmış, vilayət kimi onun hüdudları genişlənmişdir və demək olar ki, orta əsrlərdə Azərbaycanın ən geniş ərazilərindən biri bu dövrdə [57-58] mövcud olmuşdur. Bununla yanaşı, Atabəylər Azərbaycanın daxilində siyasi cəhətdən vahid dövlət yarada bilməmişlər və ölkənin müxtəlif yerlərində vassal dövlətlər və dövlət qurumları öz fəaliyyətini davam etdirmişlər.

(Bax: 12; 13/II; 15; 18; 38; 62; 67; 68; 76; 94; 95).

## *VII m ö v z u :* XIII-XV əsrlərdə Azərbaycanın tarixi-siyasi coğrafiyası

XIII-XV yüzilliklər Azərbaycan tarixşünaslığında monqol, qaraqoyunlu və ağqoyunlu tayfalarının yürüşləri və Azərbaycanda və ətraf ərazilərdə dövlət təsis etmələri ilə səciyyəvidir. Bu əsrlərin tarixi-siyasi coğrafiya baxımından vahid dövr kimi götürülməsi bir sıra tarixi hadisələr ilə bağlıdır. Bilindiyi kimi, XIII əsrin ilk rübündə Azərbaycan monqol yürüşlərinə məruz qalır, Atabəylər dövləti süqut edir və son nəticədə ölkədə monqol hökmranlığı başlanır. XV əsrin sonunda isə Ağqoyunlular dövləti süquta uğrayır və 1501-ci ildə səfəvilər hakimiyyətə gəlirlər. Bu dövrü xarakterizə edən digər cəhətlər də vardır. Belə ki, həmin əsrlərdə hakimiyyətdə olan sülalələr monqol-türk və türk mənşəli olmaqla yanaşı, Azərbaycana gəlmə sülalələrdir. İkincisi, onların qurduğu dövlətlər geniş əraziləri əhatə etmiş və Azərbaycandan idarə olunmuşlar. Deməli, nəzərdə tutulan dövr tarixi-coğrafiya baxımdan müəyyən tarixi-coğrafi kəsik (dövr) kimi maraqlıdır.

Qeyd olunduğu kimi, Azərbaycanda bu dövrdə Hülakular (1256-1357), Cəlairilər (1359-1410), Qaraqoyunlular (1410-1468) və Ağqoyunlular (1468-1501) dövlətləri fəaliyyət göstərmişdir. Həmin dövlətlərin tərkibində Şirvanşahlar dövləti vassal asılılığı şəraitində öz

fəaliyyətini davam etdirmiş və Şəki hakimliyi XIV əsrin sonlarında müstəqilləşə bilmişdir. Monqolların həyata keçirdikləri 3 yürüşün son nəticəsi kimi, 1256-cı ildə Hülakular (Elxanilər) dövləti təşəkkül tapdı və çox geniş əraziləri öz tərkibində birləşdirə bildi. Onun banisi monqol şahzadəsi Hülaku xan (1256-1265) idi. Dövlətin sərhədləri Fars körfəzindən Dərbəndə, [58-59] Misir hüdudlarından Amu-Dərya çayına kimi uzanırdı. Onun tərkibinə Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Kerman, Gürcüstan, Kiçik Asiya (Rum), Ermənistan, Kürdüstan, Fars, Xuzistan, Xorasan və s. vilayətlər daxil idi. Paytaxtı Marağa, Təbriz, Sultaniyə və yenidən Təbriz şəhərləri olmuşdur. Cəlairilər dövləti nisbətən yığcam əraziləri əhatə edirdi və Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Ermənistan və Kürdüstan vilayətlərini birləşdirirdi. Bu dövlətin də paytaxtı Təbriz (əvvəl Bağdad) şəhəri idi. Qaraqoyunlular Azərbaycan, Ermənistan, Ərəb İraqı və Əcəm İraqının bir hissəsini, Ağqoyunlular isə Cənubi Azərbaycan, Qarabağ (Arran), Ermənistan, Kürdüstan, Diyarbəkr, Ərəb İraqı, Əcəm İraqı, Luristan, Fars və Kerman vilayətlərini birləşdirmişdi. Bu dövlətlərin paytaxtları da Təbriz şəhəri olmuşdur. Şirvanşahlar dövləti öz tarixi ərazilərində – Kürdən şimalda fəaliyyətini davam etdirirdi.

Azərbaycanın XIII-XV əsrlərdəki tarixi-siyasi coğrafiyasının şərhinə başlamazdan əvvəl həmin dövrü, eləcə də bütün son orta əsrləri xarakterizə edən bir məsələyə diqqət yetirilməsi vacibdir. Söhbət Azərbaycanın, bir vilayət kimi, göstərilən dövlətlərin fəaliyyətindəki rolundan gedir. Qeyd olunduğu kimi, türk və türk-monqol qəbilələrinin idarə etdikləri həmin dövlətlər çox geniş ərazini əhatə etmiş və bir sıra vilayətləri birləşdirmişlər. Azərbaycan bu dövlətlərin mərkəzi vilayəti, Azərbaycan şəhərləri – Təbriz, Marağa onların paytaxt şəhərləri olmuşdur. Deməli, göstərilən dövlətlərin bütün ərazisi, vilayətləri, torpaqları Azərbaycandan – Təbrizdən idarə olunmuşdur. Təbriz təkcə Azərbaycan vilayətinin deyil, adı çəkilən dövlətlərin mərkəzi şəhəri, paytaxtı kimi fəaliyyət göstərmişdir. Hülakular, eləcə də, sonrakı dövlət başçıları Azərbaycana yüksək qiymət vermiş, öz iqamətgahlarını bu vilayətdə qurmuşlar, Qarabağı əsas məskənlərinə çevirmişlər və deməli, dövlət işlərinin idarəsi Azərbaycanda cəmlənmişdir. Bütün bunlar Azərbaycanın bir vilayət kimi həmin dövlətlərin fəaliyyətində yüksək və aparıcı mövqe tutduğunu göstərir. Bununla əlaqədar daha bir məsələni dəqiqləşdirmək vacibdir. Ənənəvi tarixi ədəbiyyatda Azərbaycanın İran ərazisi olması vurğulanır və İran tərəfi tarixən Azərbaycan üzərində hegemonluğundan bəhs edir. Əslində isə tarixi-real şərait [59-60] bunun əksini göstərir. Monqol hökmranlığından başlayaraq XVIII əsrin ortalarına qədər İran ərazisi mərkəzi vilayəti Azərbaycan, paytaxtı Təbriz olan, türk-monqol və türk mənşəli sülalələr tərəfindən idarə olunan dövlətlərin, imperiyaların ətraf vilayətləri statusunda olmuşdur və Azərbaycandan (Təbrizdən) idarə edilmişlər. Belə olduğu halda İranın Azərbaycan üzərində deyil, əksinə Azərbaycanın İran üzərində nüfuzundan danışmaq məntiqi olardı. Onu da yadda saxlamaq lazımdır ki, istər Xilafətin hakimiyyəti və IX-XII əsrlərdə, istərsə də xanlıqlar dövründə Azərbaycanın İrandan asılılığı nəzərə çarpmır. Deməli, bütün son orta əsrlərdə Azərbaycan İran ilə əlaqələrində aparıcı mövqedə durmuşdur.

XIII-XV əsrlərdə Azərbaycanın aparıcı mövqe tutduğu dövlətlərin tərkibində «Ərmən» adlı kiçik bir vilayət mövcud olmuşdur. İlk mənbələrdə onun adı «Ermənistan» deyil, «Ərmən» və ya «Ərminiyyə» kimi verilir. Dövrün tanınmış tarixçi-coğrafiyaşünas alimi Həmdüllah Mustovfi Qəzvini (1281-1345) Ərmən vilayəti və xüsusilə də, «Böyük» və «Kiçik» Ərminiyyələr barədə maraqlı məlumat verir. Müəllif «Ərmən», «Ərminiyyə» adlandırdığı bu vilayətin 2 hissədən – «Böyük Ərminiyyə» və «Kiçik Ərminiyyə»dən ibarət olduğunu xəbər verir. Onun yazdığına görə, Kiçik Ərminiyyə İran ərazisinə daxil deyil. Böyük Ərminiyyə isə Kiçik Ərminiyyədən şərqdə yerləşməklə İrana (yəni Hülakular dövlətinin tərkibinə) daxildir və dövlətin bir tümənini (Əxlaq tümənini) təşkil edir. Böyük Ərminiyyənin hüdudları Kiçik Ərminiyyə (qərbdə), Rum, Diyarbəkr, Kürdüstan, Azərbaycan (tarixi Atropatena) və Arrana kimi çatırdı. Mərkəzi Əxlaq (İxlat) şəhəri idi. Dövlətə 39 tümən vergi ödəyirdi (hansı ki, təkcə Azərbaycan əyaləti – tarixi Atropatena ərazisi bu dövrdə 9 tümənə bölünmüşdü və dövlətə 1000 tüməndən artıq vergi verirdi). Əxlat tüməninin tərkibinə Əxlat, Ərciş, Xəradin, Van, Vəstan və s. kimi şəhər, qala, qəsəbə və başqa məskənlər (müəllif 18 ad sadalayır) daxil idi (bax: 102, s.117-119). Alimin məlumatından göründüyü kimi, «Böyük Ərminiyyə» Hülakular dövləti tərkibində kiçik inzibati vahid – təkcə bir tüməndən (Əxlat tüməni) ibarət idi və onun şərq hüdudları Arran, Azərbaycan (tarixi Atropatena) və Kürdüstanla sərhədlənirdi. [60-61]

XIII-XV əsrlərdə Azərbaycanın ərazisi, dövlətlərin mərkəzi vilayəti kimi, təxminən eyni vəziyyətdə qalmışdır. Həmin dövrdəki Azərbaycan ərazisi, digər dövrlərə nisbətən, daha yığcam olması ilə də diqqəti cəlb edir. İstər Sacilər, Atabəylər dövründə, istərsə də Səfəvilər və xanlıqlar dövründə Azərbaycan ərazisi daha geniş hüdudlara malik idi. Xüsusilə ölkənin qərb və şimal-qərb istiqamətlərində bu cəhət bariz şəkildə nəzərə çarpır. Başqa dövrlərdən fərqli olaraq, XIII-XV əsrlərdə bu istiqamətdə torpaqlarımız Göycə gölü ilə məhdudlaşmış və Göycə mahalının yalnız şərq hissəsi Azərbaycan vilayətinə daxil olmuşdur. Buna səbəb, əlbəttə, monqol yürüşləri və həmin dövrdə xristian aləminin, ilk növbədə ermənilərin Azərbaycana qarşı məkrli siyasətləri idi. İlk monqol xanlarının islama biganə münasibəti, erməniləri və xristianlığı dəstəkləməsi Azərbaycan sərhədlərinin qərb istiqamətində daralmasına gətirib çıxardı. Bu işdə hələ 1253-cü ildə Qaraqorumda bağlanmış erməni-monqol sazişi az rol oynamadı. Həmin dövrdə müəyyənləşmiş Azərbaycan sərhədləri, hüdudları, demək olar ki, XV əsrin sonuna kimi ciddi dəyişikliyə düçar olmadı.

Azərbaycanın bu dövrdəki ərazisi, sahəsi barədə (vilayət kimi) müxtəlif mülahizələr mövcud olsa da, dövrün mənbələrində bu barədə cüzi və həm də dolaşıq faktlara təsadüf olunur. Bu baxımdan tanınmış alim, dövlət xadimi Həmdullah Mustovfi Qəzvininin (XIV əsr) məlumatı maraqlıdır. Müəllif Azərbaycan ərazisinin uzunluğunun 95 fərsəng (təx. 617 km), eninin 55 fərsəng (təx. 357 km) olduğunu yazır. Buradan Azərbaycanın 220.269 kv.km əraziyə malik olduğu müəyyənləşir. Həmdullah Qəzvininin ölkə ərazisini göstərən bu məlumatında müəyyən uyğunsuzluqlar nəzərə çarpır. İlk növbədə, müəllif Azərbaycan dedikdə tarixi Atropatena (müasir Cənubi Azərbaycan) ərazilərini nəzərdə tutmuşdur. Bu cəhət onun Azərbaycan ərazisindəki tümənlər barədəki şərhində də özünü göstərir. Belə ki, o, bu bölmədə yalnız müasir Cənubi Azərbaycana aid (Naxçıvan istisna olmaqla) şəhərlərdən bəhs edir. Digər tərəfdən, onun əsərində vahid Azərbaycanın digər əraziləri – Arran, Muğan, Şirvan, Güştasfi əraziləri ayrı-ayrılıqda şərh olunur. Deməli, Azərbaycanın vahid ərazisi yuxarıda göstərilən 5 ərazinin məcmuundan [61-62] ibarət olduğu qəbul edilməlidir.

Dövrün anonim mənbəyi «Əcaib əd-dünya» əsərində isə Arranın ərazisi barədə məlumat əks olunmuşdur. Burada Arranın uzunluğunun 40 fərsəng (təx. 260 km), eninin 30 fərsəng (təx. 195 km) olduğu göstərilir və məlum olur ki, Arran əyaləti 50.700 kv.km əraziyə malik idi. Muğan, Şirvan əraziləri barədə mənbələrdə faktlara təsadüf olunmur. Bununla yanaşı, Şirvan və Muğan ərazilərinin Arran ərazisindən təxminən 2 dəfə çox olduğu nəzərə çarpır.Odur ki, bu əyalətlərin təxminən 100.000 kv.km əraziyə malik olduğunu söyləmək mümkündür. Belə olduğu halda, həmin əsrlərdə Azərbaycan vilayətinin vahid şəkildə Azərbaycan, Arran, Şirvan və Muğan ərazilərinin cəmindən ibarət olub təxminən 370.000 kv. km sahəyə malik olduğunu qəbul etmək olar.

XIII-XV əsrlərdə Azərbaycan vilayətinin sərhədləri barədə mənbələrdə müəyyən faktlara təsadüf olunur. Orta əsrlərin başqa dövrlərinə nisbətən daha yığcam əraziyə malik olsa da, Azərbaycanın bu dövrdəki sərhədlərinin dəqiqləşdirilməsi ölkənin ümumiyyətlə orta əsrlərdəki hüdudlarını təsəvvür etməyə imkan verir. Belə ki, bu dövrün Azərbaycanı nisbətən dar çərçivədə olsa da, müasir dövrdəki vəziyyətimiz ilə müqayisədə çox geniş əraziləri əhatə etmişdir.

İlk mənbələrdən əldə olunan faktlar XIII-XV əsrlərdə Azərbaycan vilayətinin (vahid şəkildə) sərhədlərini aşağıdakı kimi müəyyənləşdirməyə imkan verir: Xəzər dənizi – Gilan vilayəti - Zəncanın şərq və cənub hüdudları – Savucbulaq, Uşniya şəhərlərinin və Ruyendiz qalasının cənub istiqaməti – Urmiya, Salmas, Xoy, Maku şəhərlərinin qərbi – Dvin şəhəri – Göycə gölü – Debed çayı – Hunan (Xnarakert) qalası – Şəki mahalının qərbi və şimalı – Şirvanın şimalı – Dərbənd mahalının şimalı – Xəzər dənizi.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycan vilayətinin sərhədləri yaxın qonşularımız tərəfindən heç də birmənalı qəbul olunmur və torpaqlarımıza qarşı müxtəlif iddialar irəli sürülür. Erməni, gürcü və rus iddiaları bu baxımdan daha çox diqqəti cəlb edir. Onlar öz iddialarına «elmi don» geyindirməkdən də çəkinmirlər. S.Yeremyan, D.Musxelişvili, V.Yeqorov, [62-63] M.Berdzinişvili və s. müəlliflərin cəhdləri buna canlı sübutdur. Ermənilər Arran ərazisinin onlara məxsus olduğunu və bəzən də, Ermənistanın şərq hüdudlarının Xəzər dənizinə kimi uzandığını iddia edirlərsə, gürcülər Gürcüstan ərazilərinin Ağsu aşırımına qədər çatdığını vurğulayırlar. Rusiyanın iddiası isə Dərbənd ərazisi ilə bağlıdır. V.Yeqorov Qızıl Ordanın XIII-XIV əsrlərdəki tarixi coğrafiyasına həsr etdiyi əsərində Dərbəndin həmin dövrdə Azərbaycanın

deyil, Qızıl Ordanın, dolayısı ilə Rusiyanın tərkibində olduğunu göstərir. A.Şıxsəidovun fikrincə isə Dərbənd əsasən Şirvanın tərkibində qalmışdır. Vilayətlərarası sərhədlər məsələsində Azərbaycan-Ermənistan, Azərbaycan-Gürcüstan, Azərbaycan-Rusiya mübahisələrinə müəyyən aydınlıq gətirmək, qarşı tərəflərin iddialarının səbatsızlığını göstərmək məqsədilə XIII-XV əsr mənbələrindən əldə olunan faktlara müraciət etmək məqsədəuyğundur:

- «Dvin Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında şəhərdir» (Yaqut əl-Həməvi);

- «Şeyx Həsən Çobani Şərur və Dvin [ərazisini] Naxçıvana kimi Əkəncinin oğlu Hacı bəyə verdi» (əl-Əhəri);

- «Nəşəva – Azərbaycanda və bəzilərinin dediyi kimi, Arranda şəhərdir. O Ermənistanla sərhəddədir» (Yaqut əl-Həməvi);

- «Orada Arran adlanan böyük ölkə vardır… Onun qərb qonşusu Ermənistandır» (İoann de Qalonifontibus);

- «Arran və Muğan əyalətlərinin şərhi. Bu əyalətlərin iqlimi isti və rütubətlidir. Onlar Ermənistan, Azərbaycan və Xəzər dənizi ilə sərhədlənirlər» (Həmdullah Qəzvini);

- «Göycə dənizi Azərbaycanın Ermənistanla sərhəddində yerləşir» (Həmdullah Qəzvini);

- «Hunan [Gürcüstanın] Arran ilə sərhəddində təpənin üstündə möhkəmləndirilmiş qaladır» (Həmdullah Qəzvini);

- «Teymurun ordusu Şəmkürdən Aladağa tərəf üz tutdu… Tebeder (Debed) çayının kənarında Gürcüstan sərhəddinə çatdı» (Şərəfədin Əli Yəzdi);

- «O (Sultan Cəlaləddin) gürcülərdən, Tiflisi yandırdıqları üçün qisas almaq məqsədilə geri qayıtdı və Səfiəddini Şirvanın şəhərləri Şəki və Qəbələyə vəzir təyin etdi» (Nəsəvi);

- «Bab əl-əbvab və ya sadəcə əl-Bab Şirvan Dərbəndidir… [63-64] Şəhərin yaxınlığında Qurd adı ilə tanınan böyük dağ vardır. Onun zirvəsinə hər il çoxlu odun yığırlar ki, lazım gəldikdə tonqal qalayıb Azərbaycan və Arran sakinlərini düşmənin hücumundan, əgər onlar qəfil hücum etsələr, xəbərdar etsinlər» (Yaqut əl-Həməvi);

- «1265-ci ildə o (Abaqa xan) əvvəlcə öz qardaşı Yuşumutu Dərbənd, Şirvan və Muğana göndərdi ki, həmin əraziləri düşməndən qorusun» (Fəzlullah Rəşidəddin);

- «Həmin vaxtda Abaqa xan Mazandaranda qışlaqda idi, Yuşumut isə özünəməxsus olan Dərbənd və Arran vilayətlərində idi» (Fəzlullah Rəşidəddin);

- «Sultan Əbu Səid 1328-ci ildə Dərbəndi əmir Əkənciyə verdi» (əl-Əhəri);

- Qızıl Orda qoşunu 1335-ci ildə Kür çayının kənarından geri çəkilərək «özlərini **Dərbəndə çatdırdılar və oradan öz ölkələrinə getdilər»** (Həmdullah Qəzvini);

- «1367-ci il: Şeyx Üveys Cəlairi Dərbəndə kimi bütün Şirvanı zəbt etdi. Oranın hakimləri Hacı Fəramərz və Hacı Firudin gəldilər və sultan onları əzizlədi, çoxlu hədiyyələr verdi, şərəfləndirdi. Sultan nə qədər sağ idi, onlar itaətdən çıxmadılar» (Zeynəddin Qəzvini).

İlk mənbələrin məlumatı yuxarıda adı çəkilən yerlərin sərhəd zonası təşkil etdiyini və ya Azərbaycanın tərkibində olduğunu bir daha təsdiq edir.

Siyasi cəhətdən Hülakular, Cəlairilər, Şirvanşahlar dövlətləri, Şəki məlikliyi, Arsax-Xaçın knyazlığı kimi dövlət qurumlarının fəaliyyət göstərdiyi Azərbaycan vilayəti inzibati-ərazi bölgüsü baxımından Azərbaycan, Muğan, Arran və Şirvan kimi böyük əyalətlərə bölünmüşdü. Azərbaycan adı ilə həm bütöv–vahid ölkə ərazisi, həm də onun cənub hissəsi, tarixi Atropatena ərazisi tanınırdı; daha doğrusu, Azərbaycan əyaləti vahid Azərbaycan vilayətinin tərkib hissəsi idi. Azərbaycan vilayətinə daxil olan Azərbaycan əyalətinə Qaradağ və Talış mahalları, Şirvanın tərkibinə Şəki, Arranın tərkibinə Qarabağ, Güştasfi, Arasbar mahalları daxil idi. Naxçıvan ərazisi tümən statusu ilə Azərbaycan əyalətinin tərkibində idi.

Azərbaycan əyaləti, yəni tarixi Atropatena torpaqları eyni [64-65] zamanda **tümən sistemi** ilə də müxtəlif inzibati-ərazi vahidlərinə bölünmüşdü. Həmdullah Qəzvini Azərbaycan əyalətinin 9 tümənə bölündüyünü xəbər verir və onların 8-nin adını çəkir. «Tümən» termini ilə pul vahidi, 10 minlik qoşun hissəsi mənaları ilə yanaşı, inzibati-hərbi ərazi vahidi də anlaşılırdı. Hər bir tümən müəyyən ərazini əhatə etməklə yanaşı dövlətin hərbi hissələrinə 10 minlik qoşun verməli idi. Azərbaycan əyaləti tümən sistemi ilə Təbriz (əsas şəhərləri Təbriz, Ucan, Təsuc), Ərdəbil (Ərdəbil, Xalxal), Pişkin (Pişkin, Xiyav, Anad, Ərcək, Əhər, Təkalifə, Kələnbər), Xoy (Xoy, Salmas, Urmiya, Uşniya), Sarab (Sarab, Məyanic, Gərmrud), Marağa (Marağa, Bəsavu, Dehxarqan, Nilan), Mərənd (Mərənd, Dizmar), Naxçıvan (Naxçıvan, Azad, Ordubad, Makuyə, Əncan) tümənlərə bölünmüşdü. 9-cu tümənin adı mənbədə öz əksini tapmamışdır. Həmin tümənlərdə 30

şəhər mövcud idi.

Azərbaycan vilayəti qaraqoyunlular və ağqoyunlular dövründə əvvəlki, monqollar dövründəki hüdudlarında qalırdı və əsaslı dəyişikliyə düçar olmamışdı. Onun şimal sərhədləri Dərbənd və Şaki ərazilərinin şimalından, qərb sərhədləri Göycə gölü, Dvin, Maku, Xoy, Salmas, Urmiya, Uşniya şəhərlərinin qərbindən keçirdi. Cənub və cənub-şərq sərhədləri də əvvəlki əsrlərdəki kimi qalırdı. İnzibati ərazi bölgüsü baxımından ölkə Azərbaycan, Arran, Muğan, Şirvan, Şəki əyalətlərinə ayrılırdı. Həmin əyalətlərin tərkibində Qaradağ, Qarabağ, Şərur, Çuxursəəd, Güştasfi mahalları var idi. Göstərildiyi kimi, bu dövrdə Arran əyaləti, ərəb dövrünün Arranından fərqli olaraq, yalnız iki çayarası ərazini, Kür ilə Arazın qovuşduğu yerdən Göycə gölünə kimi əraziləri əhatə edirdi. Qarabağ, Güştasfi, Arasbar mahalları buraya daxil idi.

XIII-XV əsrlər Azərbaycanı ölkədə gedən etnik proseslər baxımından da diqqəti cəlb edir. Mütəxəssislərin qeyd etdikləri kimi, monqol istilalarına qədər Azərbaycan əhalisinin əsas hissəsi (Şirvan istisna olmaqla) türkdilli əhalidən ibarət idi. Bununla bərabər, Azərbaycanda irandilli xalqlar, Dağıstan xalqları, alban qəbilələri və s. qruplar yaşayır və ölkənin bu və ya digər bölgələrində çoxluq təşkil edirdilər.

Qeyd etmək lazımdır ki, albanlar Cənubi Qafqazın gürcü, [65-66]



*QEYD:* Cədvəl Həmdullah Qəzvininin «Nüzhət əl-qulub» əsərinin materialları əsasında tərtib edilmişdir.

ermənі və s. tayfaları ilə yanaşı müstəqil etnik qrup kimi mövcud olmuşlar və onlardan, ilk növbədə ermənilərdən asılı vəziyyətdə deyildilər.

Bilindiyi kimi, monqol yürüşləri dövründə Azərbaycana bir sıra monqol-türk qəbilələri gəlmiş və onların əksəriyyəti yeni ərazilərdə məskunlaşaraq qalmışdır. Azərbaycanın Hulakular dövlətinin mərkəzi vilayəti, Marağa və sonra Təbrizin paytaxt şəhəri olması, Qarabağın elxanilərin istirahət ərazisinə çevrilməsi gəlmələrin çoxunun bu diyara axışmasına səbəb oldu. İlk mənbələrin məlumatı və toponimik materiallar əsasında bu dövrdə Azərbaycana 20-dən artıq qəbilənin gəlib məskunlaşdığını söyləmək olar. Tədqiqatçıların araşdırmaları sulduz-çobani, cəlairi, qurqan, səqait, kingit, curiat, sunit, tənkqut, ildurkin, uryankqat, onqut, tatar, hərtəkan, oyrat, eləcə də cirkin, tamqalıq, dolan, alar, alət, uran və s. qəbilələrin həmin ərazidə sakin olduqlarını göstərir. Azərbaycanın Sulduz mahalı, Sulduz şəhəri, Xan-Çobanlı, Cəlayir, Qurqan, Sumqayıt, Küngüd, Corat, Zunut, Tanqıt, Elciqan, Uriyad, Onqutlu, Tatar, Tatarlı, Xartaqan, Aratkənd, Cirkin, Damqalı, Dolanlar, Alar, Ələt və sairə toponimlərində həmin tayfaların izləri mühafizə olunmuşdur. Tarixi ədəbiyyatdan göründüyü kimi, bu dövrdə budat, bayat, qacar, avşar, kumanı kimi qəbilələr də Azərbaycana gəlib məskunlaşmışlar. Alman şərqşünası B.Şpulerin qeyd etdiyi kimi, onların arasında türk qəbilələri əsaslı yer tuturdu. M.Baharlının fikrincə, hülakularla XIII əsrdə İrana 200.000 türk ailəsi gəlmişdir. Deməli, bu dövrdə təxminən 1 mln.-a qədər türk İrana

gəlmiş və buradan ətraf ərazilərə və ilk növbədə Azərbaycana yayılmışlar. Onların əsas hissəsini Qərbi Türkistandan gəlmiş k a i adlı türk qəbilələri təşkil edirdi.

Mənşəcə oğuz tayfalarından olan qaraqoyunlulara baharlılar başçılıq edirdilər. Qaraqoyunlular ilk vaxtlarda Van gölündən cənubda məskən salmış, tədricən Ərzincan, Sivas, Kürdüstanda möhkəmlənmişlər və sonra Azərbaycana gəlmişlər. Baharlılar qaraqoyunluların süqutundan sonra ağqoyunlulara tabe olmamış, onların bir qismi Hindistana getmiş, bir hissəsi isə Xorasanda məskunlaşmışdır. Türkdilli tayfa birləşməsi olan ağqoyunluların tərkibində isə bayandur, pornək, mosullu, qacar və [67-68] s. tayfalar əsas yer tuturdu. Tarixi faktlardan göründüyü kimi, XIII-XV əsrlərdə Azərbaycana gələn tayfalardan bir qismi, xüsusilə, sulduz-çobani, cəlairi, baharlı, bayandur və s. tayfalar ölkə əhalisinin etnik tərkibinə təsir göstərmiş və türkdilli əhalinin sayca nəzərə çarpacaq dərəcədə artmasına səbəb olmuşlar. M.Naxçıvaninin (XIV əsr) yazdığına görə, onun dövründə dövlət sənədləri hər xalqa öz dilində, o cümlədən türklərə türkcə çatdırılırdı. Bu hal türklərin ölkədə həlledici mövqe tutduqlarından xəbər verir.

Göstərilən əsrlərdə Azərbaycanda əhalinin dini görüşləri kəskin xarakter almışdı. Məlum olduğu kimi, monqollara qədər Azərbaycan əhalisinin əksər hissəsi müsəlmanlardan ibarət idi və islam dininə sitayiş edirdi. Bununla yanaşı , ölkədə xristian, yəhudi dinlərinə sitayiş edənlər də az deyildi. Əsasən büdpərəstlərdən və şamanizmə sitayiş edənlərdən ibarət monqol-türk qəbilələrinin Azərbaycana axını yerli əhali ilə gəlmələrin dini baxışlarının üzləşməsinə və ciddi qarşıdurmanın meydana çıxmasına səbəb oldu. Azərbaycanda islam-xristian-yəhudi-bütpərəst qarşıdurması baş verdi. 1258-ci ildə Bağdadda Abbasilər xilafətinə son qoyan monqollar Azərbaycanda da islama biganə münasibət bəslədilər; onu dövlət dini statusundan məhrum etdilər. İslam dini 40 ilə yaxın rəsmən tanınmadı. Monqollar ölkədə bütpərəstliyin yayılmasına cəhd etdilər, bu dinin geniş təbliğinə başladılar. Dövlətin bir çox ərazilərində, o cümlədən Xoyda, Marağa, Salmasda bütxanalar inşa olundu, bütpərəst din xadimlərinin – bəxşilərin hazırlanması və hərtərəfli fəaliyyət göstərmələri üçün geniş imkanlar yaradıldı. İslama qarşı mübarizədə bütpərəst-xristian-yəhudi ittifaqı meydana gəldi. İlk monqol xanlarının dini siyasəti islamın zəifləməsinə səbəb oldu. Lakin XIII əsrin sonlarında Qazan xanın, məcburiyyət qarşısında qalıb islam dinini qəbul etməsi və bütün gəlmə monqol-türk qəbilələrini bu dinə cəlb etməsi islamın tərəqqisi ilə nəticələndi. Xristian, yəhudi dinləri və xüsusilə, bütpərəstlik öz mövqelərini əldən verməli oldular. İslam dini yenidən dövlət dini statusu kəsb etdi, qaraqoyunlular və ağqoyunlular dövründə daha da qüvvətləndi.

XIII-XV əsrlər Azərbaycanı bir çox iri, iqtisadi cəhətdən inkişaf etmiş şəhərləri ilə də diqqəti cəlb edir. Bu əsrlərdə ölkədə [68-69] 45-ə qədər iri şəhər var idi. Marağa, Təbriz, Şamaxı daha çox inkişaf etmişdi və həmin əsrlərdə mövcud olmuş dövlətlərin paytaxt şəhərləri idilər. Bunlardan başqa Azərbaycanda Ərdəbil, Mərənd, Əhər, Urmiya, Salmas, Xoy, Dehxarqan, Naxçıvan, Maku, Sarab, Miyanə, Beyləqan, Bərdə, Bakı, Gəncə, Qəbələ, Mahmudabad, Şəmkür, Şəki, Şabran və s. şəhərlər, Əlincə, Sainqala, Surxab, Gülüstan, Qəleybuqurt, Gürcüvan, Gələsən-görəsən, Kiş və başqa qalalar var idi. Əlincə Azərbaycan xalqının azadlıq mübarizəsindəki rolu ilə diqqəti cəlb edir.

Azərbaycan (ümumiyyətlə, Hülakular dövlətinin ərazisi) dünya əhəmiyyəti kəsb edən karvan-ticarət yollarının kəsişdiyi məkana çevrilmişdi. Hülakular dövlətinin ərazisindən aşağıdakı əsas karvan yolları keçirdi: Əsas cənub yolu, Əsas şərq yolu, Əsas şimal yolu, Əsas qərb yolu, Əsas cənub-qərb yolu. Təbrizdən şaxələnən karvan yolları bütün istiqamətlərə uzanır, həm dövlətin daxili vilayətlərini, həm də qonşu dövlətləri birləşdirirdi. Təbrizdən cənub-şərqə gedən yol Zəncandan keçib (uzunluğu 41 fərsəng, təx. 270 km) Sultaniyəyə, oradan isə Şərq ölkələrinə gedirdi. Miyanədən cənub-şərqdə olan Sərcam yaşayış məntəqəsində bu yolun bir qolu qərbə tərəf istiqamətlənib Marağa, Uşniya şəhərlərindən keçərək Qara dənizə tərəf uzanırdı. Təbrizdən şimal-qərbə tərəf gedən karvan yolu da Mərənd-Xoy-Sukmanabad şəhərlərindən keçərək qərbə tərəf istiqamətlənirdi (29 fərsəng, təx. 200 km). Təbrizdən başlanan digər karvan yolu şimal-şərqə tərəf gedirdi. Uzunluğu təxminən 260 km (40 fərsəng) olan bu yol Əhər, Bərzənd şəhərlərindən keçərək Bacrəvana çatırdı. Azərbaycanın cənub-şərqində Zəncanda karvan yolu iki istiqamətə ayrılıb, onlardan biri, göstərildiyi kimi, Təbrizə çatırdı (270 km), digər qolu isə Təbrizdən yan ötərək Kağızkonan – Xalxal – Ərdəbil – Ərşad – Vərənd istiaqmətindən Bacrəvana çatırdı (təx. 340 km, 52 fərsəng) və burada Təbrizdən gələn digər yolla birləşirdi. Bacrəvandan şimala gedən karvan yolu yenidən şaxələnirdi: Biləsuvar – Mahmudabad – Şamaxı – Niyazabad – Dərbənd

şəhərlərindən keçən Əsas şimal yolu ölkəni Qızıl Orda və başqa şimal dövlətləri ilə birləşdirirdi. Bacrəvandan şimal-qərbə tərəf istiqamətlənən ticarət yolu isə Beyləqan – Bərdə – Gəncə – Şəmkir kimi şəhərləri və çoxlu yaşayış məskən-[69-70] lərini keçərək Tiflisə doğru gedirdi. Təxminən 370 km (56 fərsəng) uzunluğu olan bu karvan yolu Azərbaycanın şimali-qərb vilayətlərlə və dövlətlərlə ticarətində əsas rol oynayırdı. Azərbaycandan keçən karvan yollarının ümumi uzunluğu 2.000 km-dən çox idi və bu yollar ölkədə ticarətin inkişafında mühüm mövqe tuturdu.

(Bax: 1; 3; 4; 9; 10;13/III; 15; 36; 37; 41; 42; 47-49; 51; 53; 55; 61; 65; 67; 73; 76; 87; 89-91; 96; 101; 102; 104).

## *VIII mövzu:* Səfəvilər dövrü Azərbaycanının tarixi-siyasi coğrafiyası

XV əsrin sonları – XVI əsrin ilk illəri Azərbaycanda Ağqoyunlular dövlətinin zəifləməsi, parçalanması və süqutu və Səfəvilər dövlətinin təsisi ilə səciyyəvidir. Bilindiyi kimi, səfəvi şeyxləri uzun müddət hakimiyyət uğrunda mübarizə aparmış, əvvəlcə Ərdəbildə şiəlik məzhəbinin başçıları kimi tanınmışlar, sonra isə ağqoyunlular dövründə yaranmış siyasi vəziyyətdən istifadə edərək hakimiyyətə gəlmişlər. Bu işdə Şeyx Cüneyd, Şeyx Heydər və əlbəttə, I İsmayılın fəaliyyəti mühüm rol oynamışdır. 1501-ci ildə İsmayılın qurduğu Səfəvilər dövləti 1736-cı ilə kimi fəaliyyət göstərmiş və 236 il mövcud olmuşdur.

Səfəvilər dövləti geniş əraziləri əhatə edirdi. Onun tərkibinə Azərbaycan, Ermənistan, Şərqi Gürcüstan, Kiçik Asiyanın şərq hissəsi və demək olar ki, bütün İran ərazisi daxil idi. Dövlətin cənub sərhədləri İran (Fars) körfəzindən, şimal sərhədləri Dərbənd mahalının şimalından, şərq sərhədləri Amu-Dərya çayından, qərb sərhədləri isə Kiçik Asiya və Gürcüstan ərazilərinin təxminən ortasından keçirdi. Səfəvilər orta əsrlər Şərqində fəaliyyət göstərmiş böyük imperiyalardan idi. Dövlətin paytaxtları müxtəlif dövrlərdə Təbriz, Qəzvin (1555) və İsfahan (1598) şəhərləri olmuşdur.

Azərbaycan vilayəti geniş əraziləri əhatə edən Səfəvilər imperiyasının mərkəzi vilayəti idi. Dövlətin digər əraziləri, vilayətləri Azərbaycandan idarə olunurdu. Azərbaycan şəhərlərindən [70-71] Təbriz dövlətin siyasi mərkəzi, Ərdəbil isə dini mərkəzi idi. Təbriz XVI əsrin ortalarında öz mövqeyini əldən verdisə də, Ərdəbil dini mərkəz kimi imperiyanın bütün mövcudluğu dövründə öz rolunu saxladı.

Səfəvilər dövrü Azərbaycanını səciyyələndirən digər mühüm cəhət ölkənin bütün ərazilərinin vahid dövlətin tərkibində birləşməsi idi. Bu baxımdan səfəvilər dövrü başqa dövrlərdən fərqlənir. Səfəvilər ilk növbədə az-çox öz müstəqilliyini mühafizə etmiş dövlət qurumlarını ləğv etdi; 1538-ci ildə şirvanşahların, 1551-ci ildə Şəki məliklərinin fəaliyyətinə son qoyuldu. Beləliklə də, Azərbaycanın bütün əraziləri bir dövlətin tərkibində vahid şəkildə birləşdirildi. Bu səfəvilərin fəaliyyətində ən mühüm müsbət hal kimi qiymətləndirilir. Azərbaycanın vahid şəkildə mövcudluğu iki əsrə qədər mühafizə olundu.

Səfəvilər dövlətinin təsisi və fəaliyyəti nəticəsində Azərbaycanın, bir vilayət kimi, hüdudları da genişləndi. Bu cəhət ölkənin şimali-qərb istiqamətində daha bariz şəkildə nəzərə çarpır. Səfəvilərin apardığı siyasət bu bölgədəki ərazilərimizin çoxalmasına gətirib çıxardı. Müasir Borçalı mahalı, Göycə mahalı tam şəkildə Azərbaycan vilayətinin tərkibində idi. Azərbaycanın həmin bölgədəki sərhədləri təxminən Tiflisə yaxın ərazidən keçirdi. Kartli və Kaxetiya əraziləri də Azərbaycan vilayətinin tərkibində idi. Səfəvilər dövlətinin şimali-qərb ərazilərinin əsasını Azərbaycan və qismən də, Gürcüstan əraziləri əhatə edirdi. XVIII əsr müəllifi Azər Beydili yazır ki, Azərbaycan sərhədləri ilk vaxtlarda Fars (Əcəm) İraqı, Gürcüstan, Ermənistan, Kürdüstan, Şirvan, Muğan əraziləri ilə hududlanırdı, hal-hazırda isə bütün Şirvan, Muğan, Gürcüstan və Ermənistan Azərbaycanın tərkibinə daxildir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, səfəvilər Azərbaycanının, mərkəzi vilayət kimi, ərazisi bütün orta əsrlər Azərbaycanının ən geniş, əhatəli ərazisi olmuşdur. Göstərildiyi kimi, bu dövr Azərbaycanı bir tərəfdən bütün ərazilərinin vahid dövlətin tərkibində birləşməsi ilə diqqəti cəlb edirsə, digər tərəfdən torpaqlarının çoxluğu, hüdudlarının genişliyi ilə fərqlənirdi. Bununla belə, ölkə ərazisinin nə qədər olduğunu bir mənalı söyləmək mümkün deyil. Təxmini hesablamalar

Azərbaycanın həmin dövrdəki ərazilərinin 400.000 kv.km-dən artıq olduğunu deməyə imkan verir. [71-72]

Səfəvilər dövründə Azərbaycan vilayəti inzibati-ərazi bölgüsü baxımından ***bəylərbəyliklərə*** ayrılmışdı. Azərbaycanda 4 bəylərbəylik var idi:

Azərbaycan (və ya Təbriz) bəylərbəyliyi;

Şirvan bəylərbəyliyi;

Qarabağ (və ya Gəncə) bəylərbəyliyi;

Çuxur Səəd (və ya İrəvan) bəylərbəyliyi.

***Azərbaycan (Təbriz) bəylərbəyliyinin*** mərkəzi Təbriz şəhəri idi. Onun cənub sərhədləri Zəncan, Sultaniyə, Bidlis, Van ərazilərinə çatırdı. Azərbaycan bəylərbəyliyinin tərkibinə Talış, Astara, Qaradağ, Vərqaxan, Sarab, Mişkin, Kapanat, Xoşkrud, Gərmrud, Muğan, Ucarud, Zunuz, Cors, Marağa, Urmiya, Xoy, Salmas, Lahıcan, Saucbulaq, Mərənd və s. mahallar daxil idi. Dövrün mənbələrində Ərdəbil və Xalxalın Azərbaycan bəylərbəyliyinin tərkibinə daxil olduğu göstərilmir. Bunun, irəlidə görəcəyimiz kimi, müəyyən səbəbləri olmuşdur. Əksinə Sultaniyə ərazisi Azərbaycan (Təbriz) bəylərbəyliyinin tərkibində idi. Bunun səbəbi Sultaniyə mahalının əhalisinin etnik və dil baxımından Azərbaycan əhalisi ilə yaxınlığı olmuşdur. Ümumiyyətlə, 18 mahalı birləşdirən Təbriz bəylərbəyliyi Muğan ərazisini də əhatə edirdi. Təbriz bəylərbəyliyi ərazisində sonralar bir neçə müstəqil xanlıq – Təbriz, Urmiya, Xoy, Marağa, Qaradağ, Sarab və s. xanlıqlar təşəkkül tapdı.

***Şirvan bəylərbəyliyinin*** mərkəzi Şamaxı şəhəri idi. Bəylərbəyliyin cənub sərhəddi Kür çayı, şimal sərhəddi Samur çayı və Böyük Qafqaz sıra dağlarının ətəklərindən keçirdi. Dərbənd ərazisi də Şirvan bəylərbəyliyinin tərkibində idi. Dərbənddən şimalda olan Dağıstan əraziləri farsdilli mənbələrdə «Diyari-Çərkəs» (Çərkəs diyarı) adlanırdı. Bəylərbəylik qərbdə Kartli və Kaxetiya ərazisinə çatırdı. Şirvan bəylərbəyliyinin tərkibinə Salyan, Bakı, Quba və Kolxan, Dərbənd, Şəki, Ərəş, Alpaut, Ağdaş, Mahmudabad, Çəmişgizək (Kürün sol sahilində, Şamaxının qərbində) əraziləri daxil idi. Bəylərbəyliyin ərazisində Quba, Şamaxı, Bakı, Dərbənd və Şəki xanlıqları təşəkkül tapdı.

Səfəvilər dövründə Azərbaycanın inzibati-ərazi bölgüsündə olan digər 2 bəylərbəyliyin – ***Qarabağ (Gəncə) və Çuxur-Səəd (İrəvan) bəylərbəyliklərinin*** ərazisi barədə tarixi faktlar daha[72-73] çoxdur. Məlum olduğu kimi, osmanlı Türkiyəsi Gəncə-Qarabağ əyaləti barədə 2 dəfə müfəssəl dəftərlər tərtib etmişdir. 1593-cü və 1727-ci illərdə tərtib olunmuş həmin dəftərlərdə əyalətin ətraflı şərhi verilir. Onları müqayisə etdikdə XVI əsrin sonu – XVIII əsrin əvvəllərində Gəncə-Qarabağ əyalətinin ərazisinin əsaslı dəyişikliyə uğramadığı bəlli olur. Aşağıdakı cədvəllər bunu daha qabarıq şəkildə nəzərə çarpdırır:

***Gəncə-Qarabağ əyaləti 1593-cü ildə***

| № | Sancaq | Nahiyələr | |
|---|---|---|---|
| | | Sayı | Adları |
| 1 | Gəncə | 12 | Gəncə, Gəncə Aranı, Dağlıq Gəncə, Şəmkür Aranı, Dağlıq Sunqur, Kürəkbasan Aranı, Şütur, Danqı, Zəyəm Aranı, Yevlaq, Tavus, Dəmirhəsən |
| 2 | Bərdə | 4 | Bərdə, Sir, Pətəklik, İncərud |
| 3 | Xaçın | 7 | Xaçın, Qaraağac, Ağcabədi, Dağlıq Çelaberd, Çelaberd, Qarqar, Məğaviz |
| 4 | Axıstabad | 5 | Axıstabad (Böyükçay), Quzey, Güney, Dağlıq İncə, İncə |
| 5 | Dizaq | 3 | Arasbar, Dağlıq Dizaq, Dizaq |
| 6 | Həkəri | 4 | Geştasf, Həkəri, Zarıs, Alpaut |
| 7 | Vərəndə | 1 | Vərəndə |
| | **Cəmi:** | **36** | |

Deməli, Gəncə-Qarabağ əyaləti 1593-cü ildə osmanlılar tərəfindən tərtib olunmuş «İcmal dəftəri»nə görə 7 sancaqdan və onların tərkibindəki 36 nahiyədən ibarət olmuşdur.

1727-ci ilin dəftərində həmçinin 3 şəhər (Gəncə, Bərdə və Xılxına) və 1 qalanın (Lori) mövcudluğu da qeyd edilmişdir. Lakin, cədvəlin 8-ci bölgüsündəki 5 nahiyənin hansı livaya (sancağa) aid olduğu bilinmir. Bununla belə, onların 1593-cü ildə mövcud olmuş Xaçın sancağına daxil olduğunu söyləmək mümkündür. Belə ki, XVI əsrin sonunda Xaçın sancağı həmin 5 nahiyənin 2-sini – Xaçın və Çelaberdi özündə birləşdirirdi. [73-74]

***Gəncə-Qarabağ əyalətinin 1727-ci ildəki inzibati-ərazi bölgüsü***

| № | Qəzalar və livalar (sancaqlar) | N a h i y ə l ə r | |
|---|---|---|---|
| | | Sayı | Adları |
| 1 | Gəncə qəzası | 11 | Gəncəbasan, Sunqurabad, Şəmkürbasan, Kürəkbasan, Kiçik Kürəkbasan, Böyük Kürəkbasan, Şüturbasan, Talış, Gülüstan, Yevlaq Qaraman, Danqı |
| 2 | Lori qəzası | 2 | Güney, Quzey |
| 3 | Xılxına livası | 9 | Xılxına, Həsənsuyu, Tavus, Axıncı, Əsrik, Qaraqaya, Türkənlər (?), Yuxarı Zəyəm, Aşağı Zəyəm |
| 4 | Bərdə livası | 4 | Bərdə, İncərud, Sir, Bayat |
| 5 | Arasbar livası | 2 | Arasbar, Həkəri |
| 6 | Bərgüşad livası | 4 | Bərgüşad, Zarıs, Dizaq, Keştasf |
| 7 | Çələndər livası | 1 | (Nahiyələri göstərilmir) |
| 8 | ? | 5 | Xaçın-Sığnaq, Çelaberd, Keştek, Vərəndə-Sığnaq, Köçəz |
| | **C ə m i :** | **37** | |

Cədvəldən göründüyü kimi, əyalətin sərhədləri şimalda Kür çayı boyunca şimali-qərbə doğru, cənubda isə Kür-Araz qovşağından Araz çayı boyunca cənubi-qərbə doğru uzanmışdır. Qərbdə sərhədlər Çuləndər, Bərgüşad, Həkəri, Keştasf, Keştək, Gəncəbasar, Qaraqaya, Türkənlər, Tavus və Həsənlu nahiyələrinin qərbindən (bəzilərinin cənubi-qərbindən), Göycə gölünün şərqindən keçərək şimala doğru davam etmiş, Tiflis əyalətinə daxil olan Borçalı və Taşır nahiyələri ilə həmsərhəd olan Lori qəzasına gedib çatmışdır. Lori ərazisi bu əyalətin tərkibində olmuşdur. Osmanlılar dövründə Qafqazda ən böyük inzibati-ərazi vahidi olan Gəncə-Qarabağ əyalətinin əhalisinin sayı hesablamalara görə 121.975 nəfər olmuş, bunun 65,9%-ni türklər (80.340 nəfər), 31%-ni ermənilər (37.885 nəfər) və 3,1%-ni kürdlər (3.750 nəfər) təşkil etmişdir. Bəylərbəylik əsasən qacar tayfasından olan Ziyadoğlular nəsli tərəfindən idarə olunmuşdur. [74-75] Onun ərazisində sonralar Qarabağ və Gəncə xanlıqları təşəkkül tapmışdır.

***Çuxur-Səəd bəylərbəyliyinin*** mərkəzi İrəvan şəhəri idi və İrəvan bəylərbəyliyi kimi də tanınırdı. Çuxur-Səəd Arazın hər iki sahilindəki düzənlikləri əhatə edirdi. Bəylərbəyliyin tərkibinə Naxçıvan (XVII əsrdən), Maku, Paşak və s. ərazilər daxil idi. Bilindiyi kimi, Çuxur-Səəd bəylərbəyliyinin ərazisi müəyyən vaxtlarda osmanlı Türkiyəsinin tərkibində olmuş və İrəvan əyaləti statusu ilə tanınmışdır. Osmanlılar burada da iki dəfə məlumat xarakterli dəftərlər tərtib etmiş və əyalətin vergi ödəmə imkanını müəyyənləşdirmişlər. 1728-ci il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndən aydın olur ki, əyalət ərazi-inzibati bölgüsü baxımından aşağıdakı hissələrə bölünmüşdü: İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göycə, Məzrəə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri, Şuragöl livası və Naxçıvan sancağı. XVI əsrin I yarısında İrəvan və Naxçıvan əraziləri ustaclu qızılbaş qəbiləsinin məskəni olmuşdur. Sonralar Çuxur-Səəd bəylərbəyliyi qacar qəbiləsi tərəfindən idarə olunurdu. İrəvan (Rəvan) şəhəri və mahalı əsrlər boyu türklər tərəfindən idarə olunmuşdur. Ermənistan Respublikası ensiklopediyasında verilmiş məlumat bu baxımdan diqqəti cəlb edir: erməni tarixçisi Kaxin Ovaoannes Şaxxatunyan dəqiq xronologiya üzrə XIV əsrin sonlarından başlayaraq 438 il ərzində (1390-1828-ci illərdə) İrəvanın ərazisinə Naxçıvanın azərbaycanlı

hakimlərinin başçılıq etdiyini xəbər verir. Sonralar bəylərbəyliyin ərazisində İrəvan və Naxçıvan xanlıqları meydana gəldi.

Səfəvilər dövründə Azərbaycanın bir neçə ərazisi adı çəkilən bəylərbəyliklərin tərkibinə daxil olmamışdır. **Ərdəbil** və **Xalxal** əraziləri bu baxımdan diqqəti cəlb edir. Ərdəbil Səfəvilər xanədanının dini mərkəzi, şiəliyin məskəni olduğundan xüsusi idarə statusuna malik idi və səfəvi şeyxləri tərəfindən idarə olunurdu. Ərdəbilin cənubunda, Gilanın (Dar ül-mərz) cənubi-qərbində yerləşən Xalxal ərazisi isə şah sarayının təyin etdiyi məxsusi hakimlər tərəfindən idarə olunurdu və buna görə də, Təbriz bəylərbəyliyinə daxil deyildi.

Məlum olduğu kimi, Səfəvilər dövlətinin təsisi osmanlı Tür- [75-76] kiyəsinin mənafeyinə toxunurdu. Odur ki, XVI-XVIII əsrin I rübündə qısa fasilələrlə davam edən səfəvi-osmanlı müharibələri baş verdi. Bu müharibələr əslində Cənubi Qafqaz, Kürdüstan və İraq ərazilərini, strateji və beynəlxalq ticarət yollarını ələ keçirmək uğrunda aparılmış və dini pərdə altında həyata keçirilmişdir; tərəflər sünni-şiə məsələsi ətrafında mübahisələrə girişərək öz niyyətlərinə nail olmağa çalışırdı. Həmin müharibələr 7 mərhələdə həyata keçirilmişdir və onların əksəriyyəti Azərbaycan ərazisini də əhatə etmişdir. Səfəvi-osmanlı müharibələri Azərbaycanın tarixi-siyasi coğrafiyasına ciddi təsir göstərmiş və ölkə ərazisinin azalıb-çoxalmasına, sərhədlərinin daralıb-genişlənməsinə, inzibati-ərazi bölgüsündə dəyişikliklərə səbəb olmuşdur. Tərəflər arasında bağlanmış sülh müqavilələrinin şərtlərinə uyğun Azərbaycan ərazisi də təbəddülata uğramışdır. Osmanlı-səfəvi müharibələrinin şərhinə varmadan tərəflər arasında bağlanmış müqavilələri (Azərbaycana təsiri baxımından mühüm olanlarını) nəzərdən keçirmək ölkənin tarixi-siyasi coğrafiyasında baş verən dəyişiklikləri xronoloji olaraq izləmək imkanı verir.

1514-1555-ci illərdə davam etmiş səfəvi-osmanlı müharibəsi Amasiya sülhü ilə başa çatdı (29.05.1555). Azərbaycanda möhkəmlənə bilməyən osmanlılar İraqi-Ərəb, Qərbi Ermənistan və Qərbi Gürcüstan ərazilərini ələ keçirdilər. Qars rayonu iki dövlət arasında bitərəf zona elan olundu. Azərbaycan ərazisi Səfəvilər dövlətinin tərkibində qalsa da, məhz bu müharibə nəticəsində dövlətin paytaxtı Təbrizdən Qəzvinə köçürüldü və Təbriz ölkə idarəsindəki yüksək mövqeyindən məhrum oldu.

Səfəvi-osmanlı müharibələrinin 1578-1590-cı illərdə baş vermiş ikinci mərhələsi Azərbaycanın taleyində daha ciddi rol oynadı, ölkə ərazisinin iki hissəyə parçalanmasına səbəb oldu. 1590-cı il martın 21-də bağlanmış İstanbul sülhünə görə bütün Azərbaycan (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna olmaqla), Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri (Nəhavənd, Luristan və s.) Osmanlı imperiyasına birləşdirildi. Zəbt olunmuş ərazilərdə paşalıq və sancaqlıqlar təşkil olundu. İki dövlət arasında bölünən Azərbaycan ərazisində aşağıdakı sərhəd xətti müəyyənləşdirildi: cənubi-qərbdə Marağa mahalının şərqindən (Miyanə, Sarab, Əhər şəhərlərinin qərb tərəfindən) [76-77] şimala istiqamətlənən sərhəd xətti Xudafərin körpüsünə çatırdı və oradan düz şərqə tərəf uzanıb Bərzənd şəhərinin cənubundan keçərək Lənkəranın şimalında Xəzərə birləşirdi. Azərbaycanın Zəncan, Sultaniyə, Kağızkonan, Miyanə, Xalxal, Sarab, Ərdəbil, Xiyav, Əhər, Astara, Lənkəran şəhərləri səfəvilərin ixtiyarında qalmışdı. Səfəvilər dövlətinin tərkibində qalmış ərazilər vahid bəylərbəylikdə birləşdirildi. Azərbaycanın qalan ərazisi isə, istər cənub, istərsə də, şimal torpaqları osmanlıların nüfuz dairəsinə keçmişdi. Göründüyü kimi, 1590-cı il müqaviləsi vahid Azərbaycan ərazisinin 2 hissəyə parçalanmasına səbəb oldu və ölkənin tarixi-siyasi coğrafiyasına əsaslı təsir göstərdi. Çox keçmədən paytaxt yenidən dəyişildi və Qəzvindən İsfahana köçürüldü (1598). Nəticədə Azərbaycan dövlətin mərkəzi vilayətindən ətraf vilayətinə çevrildi. Osmanlılar isə Azərbaycan torpaqlarında yeni inzibati bölgü apardılar. Ölkənin mühüm məntəqələrində hərbi qarnizonlar yerləşdirildi. Şirvan Şamaxı və Dərbənd vilayətlərinə bölündü və onlara tabe olan dairələrlə – sancaqlarla birlikdə, ayrı-ayrı bəylərbəyliklərə çevrildi. Şamaxının tərkibinə 16 sancaq (Şamaxı, Lahıc, Ağdaş, Qəbələ, Salyan, Zərdab, Şəki, Bakı, Səədru, Qaraulus, Diku, Siryan, Osmani, Xudat (Xudavərd), Mahmudabad, Ərəş), Dərbəndin tərkibinə isə 8 sancaq (Dərbənd, Şabran, Axtı, Quba, Müskir (Müşkür), Kürə, Çıraq və Rustov) daxil idi. Bu bölgü növbəti səfəvi-osmanlı müharibəsinə kimi dəyişilmədi.

Səfəvi-osmanlı müharibələrinin 1603-1612-ci illərdə baş vermiş üçüncü mərhələsində səfəvilər görkəmli qələbə əldə etdilər, Azərbaycan, Ermənistan və Şərqi Gürcüstan ərazisi geri qaytarıldı. Bu işdə I Şah Abbasın (1587-1629) xüsusi rolu olmuşdur. 1612-ci ildə İstanbulda bağlanmış sülhün şərtlərinə görə osmanlılardan geri alınmış ərazilər Səfəvilər dövlətinin tərkibində qaldı. Azərbaycan ərazisi yenidən vahid şəkildə, bir dövlətin tərkibində birləşdi. 1616-1618-ci illərdə

aparılmış səfəvi-osmanlı müharibələri İstanbul sülhünün şərtlərinin təsdiqlənməsi ilə nəticələndi. 1618-ci il sazişinə görə, iki dövlət arasında sərhədlər 1555-ci ilin sərhədlərinə uyğunlaşdırıldı və qərbdə Maku, İrəvan və Tiflisin qərb istiqamətindən müəyyənləşdirildi.

1623-1639-cu illərdə davam etmiş səfəvi-osmanlı müharibəsi [77-78] Qəsri-Şirin sülhü ilə başa çatdı (17.05.1639) və onun şərtlərinə görə, İraqi-Ərəb Osmanlı imperiyasına qatıldı, iki dövlət arasındakı sərhəd 1612-ci il müqaviləsi əsasında təsdiq edildi. Bu vəziyyət təxminən bir əsrə qədər sabit qaldı.

Səfəvi-osmanlı müharibələrinin sonrakı mərhələsində (1723-1727) osmanlılar yenidən Azərbaycanın Marağa, Xoy, Naxçıvan, Ordubad, Təbriz, Gəncə, Ərdəbil ərazilərini və eləcə də, Şərqi Gürcüstan, Şərqi Ermənistan və Qərbi İranı zəbt etdilər. Onların qələbəsi Rusiyanın Xəzər dənizi hövzəsindəki mənafeyinə ciddi təhlükə törədirdi. Bilindiyi kimi, hələ 1722-23-cü illərdə rus qoşunları Dərbənddən Ənzəliyə qədər Xəzər dənizi sahillərini işğal etmişdi. Həmin ərazilər 1723-cü il sentyabrın 23-də bağlanmış Rusiya-İran müqaviləsinə əsasən Rusiyanın tərkibinə keçdi. Rusiya ilə Türkiyə arasında müharibə təhlükəsi yaransa da, razılıq əldə olundu. Azərbaycan ərazisinin müəyyən hissəsi osmanlıların, bir hissəsi Rusiyanın tərkibinə qatıldı. Osmanlılar tutduqları ərazilərdə yenidən inzibati-ərazi bölgüsü apardılar və sancaqlar sistemi tətbiq edildi.

Səfəvi-osmanlı müharibələrinin son mərhələsində (1730-1736) Nadirin müvəffəqiyyətli hərbi yürüşləri nəticəsində İstanbul sülhü bağlandı (17.10.1736). Onun şərtlərinə görə 1723-cü ildən başlayaraq osmanlılar tərəfindən işğal olunmuş bütün ərazilərin geri qaytarılması razılaşdırıldı. Lakin müqavilənin şərtləri həyata keçirilmədi. Sonralar Nadir şahın apardığı uğurlu müharibələr 1746-cı ildə tərəflər arasında yeni sülh müqaviləsinin bağlanması ilə başa çatdı və osmanlılar 1639-cu ilin sərhəd zonalarını tanımalı oldular.

Göründüyü kimi, səfəvi-osmanlı müharibələri Azərbaycanın ictimai-iqtisadi, mədəni həyatı ilə yanaşı ölkənin tarixi-siyasi coğrafiyasına da ciddi təsir göstərmiş, Azərbaycan ərazilərinin əldən-ələ keçməsinə, inzibati-ərazi bölgüsü baxımından dəyişilməsinə səbəb olmuşdur. Lakin, ayrı-ayrı vaxtlarda ölkə ərazisinin osmanlıların nüfuz dairəsində olmasına baxmayaraq, səfəvilərin fəaliyyətinin əksər dövrlərində Azərbaycan vahid halda onların nüfuz dairəsində olmuşdur.

Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından səfəvi şahı I Şah Abbasın həyata keçirdiyi islahatlar müəyyən maraq do- [78-79] ğurur. Tarixi ədəbiyyatda həmin islahatlar ikili qiymətləndirilir. Bir qisim tədqiqatçılar Şah Abbasın fəaliyyətinə müsbət, digərləri mənfi qiymət verirlər. Bilindiyi kimi, Şah Abbasın həyata keçirdiyi tədbirlər nəticəsində Səfəvilər dövləti özünün Azərbaycan dövləti mahiyyətini itirib İran (fars) dövləti mahiyyəti kəsb edir. Dövlətin idarəsinə farsların cəlb olunması səfəvilərin mövqeyinə ciddi təsir göstərdi. Dövlət hüquqi cəhətdən səfəvi sülaləsinə mənsub olaraq qalsa da, onun idarəsində farslar əsas qüvvəyə çevrildilər. Paytaxtın İsfahana keçirilməsi isə Azərbaycanın Səfəvilər dövlətindəki aparıcı mövqeyinə ziyan vurdu və Azərbaycan dövlətin ətraf vilayətinə çevrildi. Şah Abbasın fəaliyyətinin bu cür nəticələnməsi əlbəttə Azərbaycan dövlətçiliyinə mənfi təsir göstərdi. Digər tərəfdən Şah Abbasın hakimiyyətə gəldiyi dövrdə Səfəvilər dövləti və eləcə də, Azərbaycan tənəzzül dövrü keçirirdi və dövlətin müxtəlif hissələrə parçalanması, qonşu dövlətlər, xüsusilə də, osmanlı Türkiyəsi tərəfindən zəbt olunması təhlükəsi göz qabağında idi. Şah Abbasın islahatları bu təhlükənin qarşısını aldı. Bir tərəfdən Səfəvilər dövləti öz itirilmiş qüdrətini bərpa edə bildi, digər tərəfdən Azərbaycan vilayəti yenidən vahid şəkildə birləşdirildi və bir dövlətin tərkibində qaldı. Azərbaycan siyasi idarəçilik baxımından ikinci plana çəkilsə də, dini baxımdan dövlətin mərkəzi vilayəti olaraq fəaliyyətini davam etdirdi. Məsələyə bu nöqteyi-nəzərdən yanaşdıqda Şah Abbasın fəaliyyəti və həyata keçirdiyi tədbirlər, islahatlar müsbət qiymətləndirilməlidir. Məhz onun dövründə möhkəmlənmiş Səfəvilər dövləti sonralar 140 ildən çox mövcud oldu və Azərbaycan öz vahidliyini, demək olar ki, qoruyub saxladı.

Səfəvilərin etnik mənsubiyyətləri barədə müxtəlif və elmi əsasa malik olmayan mülahizələr mövcuddur. Onların kürd (Zəki Vəlidi Toğan, Ə.Kəsrəvi, S.Rəhimzadə, N.Şeybani), İran (M.Müşkür) mənşəli olduqları iddia olunur və beləliklə də, Səfəvilər dövlətinin guya əvvəldən İran dövləti olduğu vurğulanır. Akad. V.V.Bartold, İ.P.Petruşevski, O.Ə.Əfəndiyev və s. tədqiqatçılar bu cür mülahizələrin elmi əsasa malik olmadığını dəfələrlə qeyd etmişlər. V.V.Bartold yazır ki, səfəvilər «Ərdəbil şeyxləridir, şübhəsiz fars deyil, türk mənşəlidirlər». İ.P.Petruşevski isə ilk səfəvilərin ana dilinin azərbaycan dili olduğunu [79-80] göstərir. İlk mənbələrin («Səffat əs-səfa») məlumatı da bunu təsdiq edir. Səfəvilərin əsasını qızılbaş tayfaları

təşkil edirdi. Onların tərkibində şamlu, rumlu, ustaclu, təkəli, zülqədər və s. tayfalar əsas yer tuturdular. Səfəvilərin fəaliyyətində həmçinin əfşar, qacar, varsaq, bayat, qaramanlı, barahlı, alpaut, ərəşli, qazaxlı və s. türkdilli tayfalar da yaxından iştirak etmişlər. Bununla yanaşı ölkə əhalisinin tərkibində irandilli və alban tayfaları müəyyən yer tuturdu. Azərbaycan çoxsaylı qəbilələri birləşdirən ölkə olaraq qalırdı.

Səfəvilərin fəaliyyəti Azərbaycanda dövlətçilik ənənələrinin inkişafına və möhkəmlənməsinə xidmət etdi. Sələflərinin təcrübəsindən faydalanan səfəvilər Azərbaycan dövlətçiliyini daha iki əsr davam etdirə bildilər. Dövlət idarəçiliyində yerli ənənələrdən istifadəyə üstünlük verildi.

Səfəvilərin fəaliyyəti əhalinin dini görüşlərində ciddi təbəddülatın əmələ gəlməsinə səbəb oldu. Azərbaycanın, xüsusilə Təbriz əhalisinin əksəriyyəti sünni olmasına baxmayaraq, Ərdəbil şiəliyin mərkəzi kimi şöhrətlənmişdi. Ərdəbil şeyxləri (Cüneyd, Heydər) hələ XV əsrdə şiə təriqətini yaymaqda davam etmişlər və son nəticədə bu təriqətin varisləri kimi məşhurlaşmışlar. I İsmayıl hakimiyyətə gələn kimi ilk növbədə, yəni 1501-ci ilin payızında şiəliyi dövlət məzhəbi elan etdi. Şiə fanatiki hesab olunmayan I İsmayılın dini islahatı ilk növbədə vahid Azərbaycan, mərkəzləşmiş dövlət yaratmaq məqsədindən doğurdu və öz zamanəsi üçün müsbət hal idi. Lakin, onun bu addımı da tarixşünaslıqda ikili qiymətləndirilir. Şiəliyin möhkəmləndirilməsi ilə Azərbaycanın vahidliyinə, Səfəvilər dövlətinin təsisinə və qüvvətləndirilməsinə nail olan Şah İsmayıl, eyni zamanda, bəlkə özü də hiss etmədən, müsəlman aləmini uçuruma yuvarladı, türk dünyası arasında ciddi qarşıdurma yaratdı. Məhz həmin anlardan pisləşən Türkiyə-İran münasibətləri indi də gərgin olaraq qalır və bu əslində İranda yaşayan azərbaycanlılarla (şiələrlə) Türkiyə türklərinin (sünnilərin) qarşıdurmasına çevrilmişdir.

(Bax: 2; 5; 15; 21; 34; 44; 50; 59; 76; 92-94; 97; 98; 105) [80-81]

## *IX m ö v z u :* Azərbaycan XVIII əsrdə Azərbaycan xanlıqları Ərazisi. Hüdudları

XVIII əsrin I yarısında Azərbaycan ərazisində ölkənin sonrakı taleyinə çox ciddi və həm də mənfi təsir göstərmiş bir sıra ictimai-siyasi xarakterli hadisələr baş verdi. Azərbaycanda gedən tarixi proseslər Cənubi Qafqazda, İran, Türkiyə və Rusiyada cərəyan edən hadisələrlə sıx bağlı idi. Bu dövrdə Səfəvilər dövlətinin tam tənəzzülü ilə əlaqədar Cənubi Qafqaz ərazilərinə yiyələnmək uğrunda İran-Türkiyə qarşıdurması yenidən gücləndi. Tarixi hadisələrin gedişinə təsir edən mühüm amillərdən biri də Rusiyanın bu regiondakı siyasi və iqtisadi marağının artması idi. Rusiya özünün inkişaf etməkdə olan iqtisadiyyatını xammalla təmin etmək, Volqa-Xəzər ticarət yolunu inkişaf etdirib genişləndirmək məqsədilə Xəzəryanı vilayətlərə yiyələnməyə can atırdı və digər dövlətlərin, ilk növbədə Türkiyənin həmin ərazilərdəki nüfuzunun artmasına hər vasitə ilə mane olmağa çalışırdı. Azərbaycan faktiki olaraq 3 dövlətin – İran, Türkiyə və Rusiyanın mənafelərinin toqquşduğu məkana çevrilmişdi. Ölkə ərazisi mütəmadi olaraq bu dövlətlərin arasında nüfuz dairələrinə parçalanırdı və təbii ki, belə bir vəziyyət Azərbaycanın tarixi-siyasi coğrafiyasına əsaslı təsir edirdi.

Hələ 1722-ci ildə I Pyotrun yürüşü nəticəsində Xəzərin bütün qərb və cənub-qərb sahilləri rus qoşunları tərəfindən zəbt olunmuşdu. 1723-cü ildə isə türk qoşunları Cənubi Qafqaza daxil oldu. Nəticədə, 1724-cü ildə Rusiya ilə Türkiyə arasında bağlanan müqaviləyə görə, Cənubi Qafqaz ərazisi iki dövlətin arasında nüfuz dairəsinə bölündü. Əsrin 30-cu illərində Azərbaycan ərazisi Türkiyə və İran arasında gedən yeni mübarizələrin obyektinə çevrildi. 1732-ci ildə Rəşt şəhərində bağlanmış Rusiya-İran müqaviləsinə əsasən Rusiya, Osmanlı imperiyası ilə müharibə təhlükəsi meydana çıxdığından, 1723-cü ildə öz tərkibinə aldığı Gilan, Mazandaran və Astarabad əyalətlərini İrana qaytardı. 1735-ci il Gəncə müqaviləsinin - traktatının şərtlərinə görə Türkiyə ilə müharibəyə hazırlaşan Rusiya Kür çayından şimalda[81-82] yerləşən Azərbaycan torpaqlarından da İranın xeyrinə əl çəkdi. Bu müqavilələr Azərbaycan ərazisinin müxtəlif hissələrə bölünməsinə zəmin yaradırdı.

Nadirin hakimiyyətə gəlməsi və fəaliyyəti Azərbaycan torpaqlarının parçalanması prosesinə ikitərəfli və əsaslı təsir göstərdi. Düzdür, o, Qarabağın məlikliklərini – Vərənd, Çilaberd,

Gülüstan, Dizaq və Xaçın ərazilərini Gəncə bəylərbəyliyinə tabe etdi və sonra isə səfəvilərin inzibati bölgüsünə əsasən mövcud olan Qarabağ, Şirvan, Çuxur-Səəd və Təbriz bəylərbəyliklərini ləğv edərək, əslindən Azərbaycan adı altında vahid inzibati bölgü yaratdı. Vahid Azərbaycanın mərkəzi Təbriz, hakimi isə Nadirin qardaşı İbrahim oldu. Həmin tədbirlər ölkənin tarixi-siyasi coğrafiyası baxımından müsbət qiymətləndirilməlidir. Lakin onun dövründə baş vermiş sonrakı hadisələr Azərbaycanın parçalanmasına gətirib çıxardı. Nadirin hakimiyyətinin ortalarında Azərbaycanın müəyyən hissəsi Gürcüstana verildi. Kaxetiya hakimi Teymuraz 1743-cü ildə Şirvanda yalançı Sam-Mirzənin başçılığı ilə Nadirə qarşı qalxmış üsyanı yatırdığından, Nadir bunun əvəzi olaraq Teymurazı Kaxetiya çarı təyin etdi və üstəlik ona Kartli ərazisindən Araqv mahalını və əvvəllər Gəncə bəylərbəyliyinin tərkibində olan Borçalı və Qazax mahallarını verdi. Bilindiyi kimi, XVIII əsrin II yarısında Qazaxda azərbaycanlıların sultanlığı yaranır, Borçalı isə indiyə kimi Kaxetiyanın tərkibində qalmaqda davam edir. Digər tərəfdən, Nadirin öldürülməsindən sonra (1747) onun dövləti süquta uğradı və bundan əlavə, ayrı-ayrı vilayətlərdə, o cümlədən, Azərbaycanda ciddi parçlanma baş verdi.

Ümumiyyətlə götürüldükdə, XVIII əsrin I yarısında Azərbaycanın siyasi həyatı çox rəngarəng olmuş və bu dövr tarixi-siyasi coğrafiya baxımından aşağıdakı səciyyəvi cəhətlərə malikdir:

1. Səfəvilərin hakimiyyətinin sonuna (1736) kimi Azərbaycan ərazisi bəylərbəyliklərə (4 bəylərbəyliyə) bölünmüşdü;
2. Şirvan (Xəzəryanı sahələr istisna olmaqla) 1721-1735-ci illərdə İran əsarətindən azad olub müstəqilliyə nail olsa da, osmanlı Türkiyəsinin nominal asılılığında qalırdı.
3. Azərbaycanın Xəzəryanı əraziləri çar Rusiyasının tərki-[82-83] binə daxil olmuşdu (1722-1735);
4. İstanbul müqaviləsinə əsasən (1724) Azərbaycan ərazisi Türkiyə ilə Rusiya arasında bölünmüşdü;
5. Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə görə, Xəzəryanı ərazilər Rusiyanın nüfuz dairəsindən İranın nüfuz dairəsinə keçmişdi;
6. 1736-cı ildə səfəvilər dövründəki bəylərbəylik sistemi ləğv edilmiş və 4 bəylərbəylik birləşdirilərək vahid Azərbaycan vilayəti yaradılmışdı;
7. Qarabağ məlikləri Gəncə ərazisinə tabe edilmişdi;
8. Azərbaycanın Borçalı və Qazax əraziləri Nadir şah tərəfindən Kaxetiya çarı Teymuraza verilmişdir;
9. Nadirin ölümündən sonra ölkədə parçalanma prosesi şiddətlənmiş və Azərbaycan 30 hissəyə ayrılmışdır.

XVIII əsrin II yarısı da Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından xüsusi dövrdür. Bir tərəfdən Azərbaycan öz müstəqilliyinə nail olur, qonşu dövlətlərin, imperiyaların nüfuzundan çıxa bilir, digər tərəfdən onun heç də geniş olmayan ərazisində çoxsaylı müstəqil feodal dövlətləri - xanlıqlar və başqa dövlət qurumları təşəkkül tapır; Azərbaycan öz daxili birliyini, vahidliyini itirir, feodal çəkişmələrinin, ara müharibələrinin meydanına çevrilir. Son nəticə isə çox acınacaqlı olur: daxili feodal çəkişmələrindən istifadə edən İran və Rusiya Azərbaycanı iki hissəyə parçalamağa nail olurlar və hərəsi bir hissəyə sahib duraraq hökmranlığa başlayır.

Azərbaycanın XVIII əsrin II yarısındakı ərazisi səfəvilər dövründəki ərazisindən çox da fərqlənmir. Yeganə fərq şimali-qərb istiqamətdə Borçalı ərazisinin itirilməsi idi. Ölkənin sahəsi təxmini hesablamalara görə 380.000 kv.km. idi. Bilindiyi kimi, səfəvilər dövrü Azərbaycanı daha çox ərazini (təx. 400.00 kv. km) əhatə etmişdir. Xanlıqlar dövrü kimi tanınan həmin dövrdə, daha doğrusu XVIII əsrin 40-cı illəri – XIX əsrin I rübündə Azərbaycan ərazisində 20 xanlıq, 5 sultanlıq və 5 məliklik fəaliyyət göstərmişdir. Onların çox az bir qismi əvvəllər mövcud idisə, əksəriyyəti əsrin ortalarında təşəkkül tapmış, bəzisi uzun müddət (hətta 1922-ci ilədək), bəzisi isə qısa müddətdə (30 ildən artıq) fəaliyyət göstərmişdir. Sonralar tarixi ədəbiyatda Azər-[83-84]baycanın Cənub və Şimal xanlıqları kimi tanınan həmin feodal dövlətləri barədə qısa məlumatın şərhi onların ərazisini, hüdudlarını, inzibati-ərazi bölgüsünü müəyyənləşdirməyə imkan verir. Bununla bərabər tarixi ədəbiyyatda Azərbaycan xanlıqlarının ərazisi barədə müxtəlif, həm də bir-birindən fərqli məlumatlar mövcuddur. Çoxcildlik «Azərbaycan tarixi»ndəki (III cild) məlumatın və xəritənin daha elmi olduğunu nəzərə alaraq xanlıqların ərazisinin və hüdudlarının həmin məlumata uyğun müəyyənləşdirilməsi məqsədəuyğun hesab olunmuşdur.

## *Azərbaycanın cənub xanlıqları*

***Təbriz xanlığı*** (XVIII əsrin ortaları - 1780) Xoy, Ərdəbil, Qaradağ, Sarab və Marağa xanlıqları və Urmiya gölü ilə həmsərhəd idi. Təbriz, Güney və Mərənd mahallarına bölünmüşdü. Mərkəzi Təbriz şəhəri idi. İlk vaxtlarda Xalxal və Ərdəbil əyalətləri də Təbriz xanlığına tabe olmuşdur. Təbriz xanlığı digərlərinə nisbətən zəif idi. 1780-ci ildə xanlığın fəaliyyətinə son qoyuldu və onun ərazisi Xoy xanlığının tərkibinə qatıldı.

***Ərdəbil xanlığı*** (1747-1820) Talış, Qaradağ, Təbriz, Marağa xanlıqları və Gilan vilayəti ilə hüdudlanırdı. Mərkəzi Ərdəbil şəhəri olan bu xanlığın ərazisinə inzibati baxımdan Ərdəbil, Aşağı Mişkin, Yuxarı Mişkin, Arşaq (Ərşə), bəzi vaxtlarda isə Vilgic, Astara və Ucarrud (Ucarlu) mahalları daxil idi. Əsası şahsevən tayfa başçısı Bədir xan tərəfindən qoyulmuşdur. Xanlıq bir müddət Quba xanlığının, sonra Qarabağ xanlığının vassalına çevrilir. Əsrin əvvəllərində şahsevənlər 4 qola ayrılırlar və Ərdəbil, Mişkin, Talış və Qaradağda ayrı-ayrılıqda fəaliyyət göstərməyə başlayırlar. Xanlığın fəaliyyətinə 1820-ci ildə son qoyulmuşdur.

***Marağa xanlığı*** (1747-1826) cənubda Saqqız mahalı, şimalda Təbriz, qərbdən Urmiya, şərqdə Ərdəbil xanlıqları ilə sərhədlənirdi. Mərkəzi Marağa şəhəri olan bu xanlığın tərkibinə Marağa, Təkab, Sayınqala, Əcəbşir, Qaraağac, Binab və Miyandab mahalları daxil idi. Xanlığı Qarabağın Cavanşir elinin bir qolu olan Müqəddəm tayfasının nümayəndələri idarə edirdi. 1826-cı ildə İran qoşunu hücum edərək xanlığın fəaliyyətinə son qoydu və ərazisini öz tərkibinə qatdı. [84-85]

***Maku xanlığı*** (1747-1922) Xoy, Naxçıvan, İrəvan xanlıqları, qərbdə isə Osmanlı imperiyası ilə həmsərhəd idi. Mərkəzi Maku şəhəri olan bu xanlıq 30 kəndi birləşdirirdi. Əsası Əhməd sultan (1747-1778) tərəfindən qoyulmuşdur. Maku əyaləti Çuxur-Səəd bəylərbəyliyinə tabe olan yarımmüstəqil sultanlıqlardan ibarət idi və bayat tayfasından olan hakimlər tərəfindən idarə olunurdu. Maku xanlığı ən uzun fəaliyyət göstərmiş xanlıqdır. Onun fəaliyyətinə 1922-ci ildə İran qoşunu tərəfindən son qoyuldu.

***Qaradağ xanlığı*** (1748-1813) Kazım xan tərəfindən təsis edilmişdir. Ərazisi Lənkəran, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Qarabağ və Cavad xanlıqları ilə hüdudlanırdı. Mərkəzi Əhər şəhəri olmuşdur. Tərkibinə 18 mahal daxil idi (Unqut, Kərmədüz, Çələbiyan, Keyvan, Arazbar, Dizmar, Üzüm-dil, Həsənob, Kələybər, Hüseyneyli, Yaft, Qara curru, Do-dangə, Çardangə, Diklə, Bədbostan, Horat). Qaradağ xanlığı bir müddət Qarabağ xanlığının təsirinə düşür, sonra Kərim xan Zəndə (1761) və Ağa Məhəmmədşah Qacara (1791) tabe olur. 1813-cü il müqaviləsinə görə İranın tərkibinə qatılır və xanlığın fəaliyyətinə son qoyulur.

***Sarab xanlığı*** (1747-1828) Ərdəbil və Təbriz xanlıqları ilə həmsərhəd idi. Ərazisi Həştəri, Gərməli və Sarab mahallarına bölünmüşdü. Mərkəzi Sarab şəhəri idi. Əsası şəqaqi tayfasının başçısı Əli xan tərəfindən qoyulmuşdu. Xanlığın ərazisi əvvəlcə Qacarlar dövlətinin tərkibinə qatıldı və 1828-ci ildə xanlıq ləvğ olundu.

***Xoy xanlığı*** (1747–1828) Maku, Naxçıvan, Qaradağ, Təbriz, Urmiya xanlıqları və Türkiyə ilə sərhədlənmişdi. Tərkibində Xoy, Salmas, Avacıq, Qotur, Ələnd, Çaldıran, Çors, Qaraqoyunlu, Sökmənabad, Dərgah mahallarını birləşdirirdi. Mərkəzi Xoy şəhəri idi. Əsasını dümbülü tayfa başçıları qoymuşlar. Xoy xanlığı Türkmənçay müqaviləsinə (1828) görə İranın tərkibində qaldı və fəaliyyətinə qacarlar son qoydular.

***Urmiya xanlığı*** (1747- 1797) şimalda Xoy xanlığı, şərqdə Urmiya gölü və Marağa xanlığı, cənubda və qərbdə Kürdüstan və Osmanlı imperiyası ilə həmsərhəd olmuşdur. Mərkəzi Urmiya şəhəri idi. İnzibati baxımdan Mərgəvər, Tərkəvər, Bərdəsur, Bəradost, Sumay, Ənzəl, Dəşt, Uşnu, Sulduz, Döl, Nazlı, Bəykişili, Rözə və Urmiya mahallarına bölünmüşdü. Əsası Urmiyanın irsi hakimi olan əfşar tayfa başçısı Fətəli xan Əfşar tərəfindən qoyulmuşdu. 1797-ci ildə xanlıq İran taxtına çıxan Fətəli şahın tabeliyinə düşmüş və onun fəaliyyətinə son qoyulmuşdur. [85-86]

## *Azərbaycanın şimal xanlıqları*

***Qarabağ xanlığı*** (1748-1822) Kür və Araz çayları arasında mövcud olmuşdur. Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə hüdudlanırdı. Mərkəzi Şuşa şəhəri idi. İnzibati baxımdan 21 mahala bölünmüşdü (Çalbayır, Kəbirli, Cavanşir, Zəngəzur, Mehri, Bərgüşad, Qafan, Qaraçarlı və s.). Pənahəli xan Cavanşir tərəfindən təsis olunmuşdur. Onun dövründə Bayat, Şahbulaq qalaları tikilmiş, Əsgəran qalası möhkəmləndirilmiş, Şuşa

(Pənahabad) şəhərinin əsası qoyulmuşdur. Xanlıq 1805-ci ildə Rusiyanın himayəsinə keçmiş və 1822-ci ildə çar fərmanı ilə ləğv edilmişdir. Qarabağ xanlığı Azərbaycan xanlıqlarının ən qüdrətlilərindən olmuşdur.

***Şəki xanlığı*** (1743–1819) Azərbaycanın şimal-qərbində yerləşirdi. Gürcüstan, Dağıstan, İlisu sultanlığı, Quba, Qarabağ, Gəncə və Şamaxı xanlıqları ilə həmsərhəd olmuşdur. Mərkəzi Şəki idi. Təsisçisi Hacı Çələbi xan olmuşdur. Şəki xanlığı Azərbaycanın ən iri xanlıqlarından olmuş və onun ərazisi 8 mahala – Şəki, Ərəş, Ağdaş, Alpaut, Padar, Qutqaşen, Xaçmaz və Bum mahallarına bölünmüşdür. Qəbələ və Ərəş sultanlıqları da Şəki xanlığından asılı idilər. Şəki xanlığı 1805-ci ildə Kürəkçay müqaviləsinə görə rəsmən Rusiyaya birləşdirilmişdi və 1819-ildə çar fərmanına əsasən ləğv olunaraq ərazisi Rusiyanın əyalətinə çevrildi.

***Quba xanlığı*** (1726–1806) Azərbaycanın şimali-şərqində mövcud olmuşdur. Hələ 1724-cü ildə Quba əyaləti Rusiyanın tərkibinə daxil edilmişdi və Hüseynəli xan onun hakimi təyin olunmuşdu. Əyalətin paytaxtı əvvəl Xudat, 1735-ci ildən isə Quba şəhəri olmuşur. Hüseynəli xan əsrin ortalarında Quba əyalətini müstəqil xanlıq elan etdi. Xanlıq şərqdə Xəzər dənizi, şimalda Dərbənd xanlığı və Tabasaran əraziləri, qərbdə Şəki xanlığı, cənubi-qərbdə Şamaxı, cənubda Bakı xanlığı ilə həmsərhəd idi. Tərkibində Quba, Rustov, Buduq, Xınalıq, Bərmək [86-87] və s. mahallar vardı. Gülhan, Altıpara, Doqquzpara, Şabran və s. torpaqlar Quba xanlığının mülkləri idi. Quba xanlığı öz qüdrəti ilə seçildiyindən bəzən Dərbənddən Salyana (əsrin 60-cı illərində) kimi ərazilər onun nüfuz dairəsində olmuşdur. Quba xanlığı 1806-cı ildə Rusiyaya ilhaq olundu və Quba əyalətinə çevrildi.

***Bakı xanlığı*** (1747–1806) Abşeron yarımadasında mövcud idi və onun tərkibinə 39 kənd daxil idi. Ərazisi çox kiçik (eni 30-40, uzunluğu 75 verst) olmuşdur. Şamaxı və Quba xanlıqları ilə sərhədə malik idi. Paytaxtı Bakı şəhəri olmuşdur. Onun əsasını 1 Mirzə Məhəmməd qoymuşdur. 1806-cı ilin oktyabrın 3-də Rusiyaya birləşdirilmiş və sonra ləğv edilmişdir.

***Dərbənd xanlığı*** (XVIII əsrin ortaları – 1806) Azərbaycanın şimali-şərqində fəaliyyət göstərmişdir. Qaraqaytaq usmiliyi, Tabasaran, Qazıqumuq və Quba xanlığı ilə sərhədlənirdi. Paytaxtı Dərbənd şəhəri olmuşdur. Xanlığın əsasını Məhəmməd Hüseyn xan qoymuşdur. Xanlığın ərazisi, xüsusilə Dərbənd şəhəri əlverişli coğrafi-strateji mövqedə yerləşirdi. Xanlıq 40 il Quba xanlığından asılı olmuşdur. Onun fəaliyyətinə 1806-cı ildə son qoyulmuş və Rusiyanın əyalətinə çevrilmişdir.

***Gəncə xanlığı*** (XVIII əsrin ortaları – 3.01.1804) Murovdağ silsiləsindən Kür çayına kimi olan əraziləri əhatə edirdi. Şəki, Qarabağ, İrəvan xanlıqları, Qazax və Şəmşəddil sultanlıqları və Gürcüstanla həmsərhəd idi. Paytaxtı Gəncə şəhəri olmuşdur. İnzibati baxımdan Gəncə, Samux, Kürəkbasan, Şəmkür və Ayrım mahallarına bölünmüşdü. Banisi ziyadoğlular nəslindən II Şahverdi xan idi. Görkəmli xanlarından olan Cavad xan 1804-cü il yanvarın 3-də Sisianovla döyüşdə öldürüldükdən sonra xanlığın ərazisi Rusiyaya ilhaq olundu.

***İrəvan xanlığı*** (XVIII əsrin ortaları - 1828) Ararat düzənliyini, Göycə gölünün cənub və şərq tərəflərini, Araz çayının qərbini əhatə edirdi. Gəncə, Qarabağ, Naxçıvan, Maku xanlıqları, Qazax sultanlığı, Osmanlı imperiyası və Gürcüstanla həmsərhəd olmuşdur. Mərkəzi İrəvan şəhəri idi. İnzibati baxımdan 15 mahala bölünmüşdü: Qırxbulaq, Zəngibasar, Qarnibasar, Vedibasar, Şərur, Suran, Dərək, Saatlı, Tala, Seyidli-Axaclı, Sərdarabad, Gərni, Abaran, Dərəçiçək və Göycə. Təsisçisi Həsənəli xan [87-88] olmuşdur. Bir müddət Kartli-Kaxeti çarlığının təsirinə düşmüş, sonra Qacarın, Gülüstan müqaviləsinə görə İranın, Türkmənçay müqaviləsinə əsasən Rusiyanın tərkibinə qatılır və onun əyalətinə çevrilir.

***Lənkəran (Talış) xanlığı*** (XVIII əsrin ortaları - 1826) Ərdəbil, Qaradağ, Cavad, Salyan xanlıqları, Xəzər dənizi və Gilan vilayəti ilə hüdudlanmışdı. Mərkəzi əvvəl Astara, sonra Lənkəran şəhərləri olmuşdur. Tərkibində 11 mahal – Asalim, Gərqənrud, Astara, Vilgic, Zuvand, Çayiçi Lənkəran, Driğ, Uluf, Dəştvənd (Ərkivan), Ucarud və Səfidəşt mahalları vardı. Lənkəran, Astara, Qızılağac kimi ticarət mərkəzlərinə malik idi. Xanlığın əsasını səfəvi nəslindən olan ərdəbilli Seyid Abbas qoymuşdur. Xanlıq 1800-cü ildə Rusiyanın nüfuz dairəsinə düşmüş və 1826-cı ildə çar fərmanı ilə ləğv edilmişdir.

***Naxçıvan xanlığı*** (1747-1828) Zəngəzur sıra dağlarından Araz çayına kimi olan əraziləri əhatə edirdi. Mərkəzi Naxçıvan şəhəri olan bu xanlıq Qarabağ, Qaradağ, Xoy, Maku və İrəvan xanlıqları ilə həmsərhəd olmuşdur. Tərkibində Naxçıvan, Əlincəçay, Mavazıxatın, Dərələyər və s. mahallar vardı. Xanlıq Kəngərli tayfasının başçısı Heydərqulu xan tərəfindən təsis edilmişdir.

Xanlığın ərazisi Gülüstan müqaviləsinə görə (1813) İranın tərkibində qalsa da, Türkmənçay müqaviləsinə (1828) əsasən Rusiyaya birləşdirildi və onun əyalətinə çevrildi.

***Salyan xanlığı*** son vaxtlara qədər «Salyan sultanlığı» kimi tanınırdı və qonşu xanlıqların tərkibində göstərilirdi. Lakin son tarixi ədəbiyyatda onun Kür çayının mənsəbində kiçik xanlıq olduğu bildirilir. Xanlıq şərq tərəfdən Xəzər dənizi, şimaldan Şamaxı xanlığı, qərbdə Cavad xanlığı və cənubda Talış xanlığı ilə sərhədlənirdi.

***Cavad xanlığı*** (XVIII əsrin ortaları - 1813) Kür ilə Arazın qovuşduğu yerdə mövcud olmuşdur. Şamaxı, Qarabağ, Qaradağ, Lənkəran və Salyan xanlıqları ilə hüdudlanırdı. Mərkəzi Cavad şəhəri (iki çayın birləşdiyi yerdə) olmuşdur. Xanlığın əsasını şahsevən tayfasından Həsən xan qoymuşdur. Quba xanlığından asılı olmuş (1768) və onun tərkibində Rusiyaya birləşdirilmişdir.

***Şamaxı xanlığı*** (1748-1820) Bakı, Quba, Şəki, Qarabağ, [88-89] Cavad və Salyan xanlıqları ilə həmsərhəd idi. Paytaxtı bir müddət Ağsu (Yeni Şamaxı) və sonra Şamaxı şəhəri olmuşdur. Əsasını Hacı Məhəmməd xan qoymuşdur. Xanlıq 1805-ci ildə Rusiyanın nüfuzuna düşmüş və 1820-ci ildə çar fərmanına əsasən ləğv edilmişdir. Şamaxı xanlığı həm də Şirvan xanlığı kimi tanınır. Bir müddət Şamaxı xanlığı ərazisində 2 xanlıq – mərkəzi Ağsu olan Yeni Şamaxı və mərkəzi Şamaxı olan Köhnə Şamaxı fəaliyyət göstərmişdir.

Azərbaycan xanlıqları arasında Urmiya, Şəki, Qarabağ, Quba və Xoy xanlıqları daha qüdrətli idilər. Onlar bir-birinə qarşı mübarizə aparır, digər xanlıqların ərazilərini zəbt etməyə cəhd göstərir və bəzən buna nail olurdular. Xanlıqlar öz fəaliyyətlərini möhkəmləndirmək üçün qonşu dövlətlərin, xüsusilə Rusiyanın, İranın nüfuzundan da «bəhrələnirdilər». Azərbaycan ərazisinin birləşdirilməsi cəhdləri də var idi. Quba xanı Fətəli xanın bu sahədəki fəaliyyəti, müəyyən səbəblərdən tam müvəffəqiyyətlə nəticələnməsə də, dövrün mütərəqqi hadisəsi idi.

Azərbaycan ərazisində adı çəkilən xanlıqlarla yanaşı onların bir neçəsinin tərkibində sultanlıqlar və məlikliklər də mövcud olmuşdur. Sultanlıq – sultanın başçılıq etdiyi monarxiya dövləti idi. Məliklik isə məliklər tərəfindən idarə olunan kiçik feodal hakimliyindən ibarət idi. Məliklik «xəmsə» (beşlik) də adlanırdı. Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərindən biri məliklik olmuş və 5 feodal hakimliyini – Vərəndə, Dizaq, Xaçın, Gülüstan və Çilabert hakimliklərini birləşdirmişdi. Azərbaycanda mövcud olmuş sultanlıqlar barədə tarixi ədəbiyyatda müxtəlif fikirlərə rast gəlinir və 10-a yaxın sultanlığın adına təsadüf edilir. Onların əsaslıları aşağıdakılardır:

***Qazax sultanlığı*** Azərbaycanın şimal-qərbində mövcud olmuş və səfəvilər dövründə Qarabağ (Gəncə) bəylərbəyliyinin tərkibində idi. Qazax sultanlığında qazax (qazaxlar) tayfası yaşayırdı. Onlar bu ərazidə irsi hakimiyyətə malik idilər. Qazax sultanlığı Nadir şah tərəfindən Kartli çarı Teymuraza verilmiş, sonralar bir müddət Şəki xanlığının tərkibində olsa da (1752) əsrin sonlarında gürcü çarı II İraklinin vassallığına keçdi və 1801-ci ildə Gürcüstanın tərkibində Rusiyaya birləşdirildi. Sultanlıq 1819-cu ildə ləğv edildi və ərazisində Qazax məntəqəsi yaradıldı.

***Şəmşəddil sultanlığı*** Zəyəm mahalı və ondan qərbdəki ərazilərdə – sonralar Şəmşəddil mahalı adlanan ərazidə mövcud olmuşdur. Həmin ərazi I Şah İsmayılın dövründən Zülqədər tayfasının bir qolu olan Şəmşəddil (Şəmsəddin) tayfasının irsi vilayəti hesab olunurdu. 1743-cü ildə sultanlıq Qazax və Borçalı əraziləri ilə birlikdə Qarabağ bəylərbəyliyindən alınıb Kartli çarı Teymuraza verildi. Sonralar onun ərazisi Qazax ilə birləşdirildi və Qazax-Şəmşəddil sultanlığı adlandı və bu tərkibdə Rusiyaya ilhaq edildi (1801, Gürcüstanın tərkibində). 1819-cu ildə ləğv olundu və Şəmşəddil məntəqəsinə çevrildi.

***Ərəş sultanlığı*** təqribən indiki Yevlax və Ağdaş rayonlarının bir hissəsini, Mingəçevir şəhərinin ərazisini əhatə edirdi. XVIII əsrin 50-ci illərində Şəki xanlığının vassalına çevrilmiş və 1795-ci ildə Ərəş sultanlığı ləğv edilərək mahal kimi Şəki xanlığına qatılmışdır.

***Qəbələ sultanlığı*** Azərbaycanın şimalında mövcud olmuş, onun ərazisi şimaldan Böyük Qafqazın cənub yamacı, şərqdə Göyçay, qərbdə Əlican çayı ilə əhatə olunurdu. Şəki xanlığına daxil idi. XVIII əsrin sonlarından Qəbələ mahalı adlanırdı və mahal Şəki xanlığının naibləri tərəfindən idarə olunmuşdur[*].

***İlisu sultanlığı*** XVI əsrin II yarısından – XIX əsrin ortalarına kimi (təx. 300 il) fəaliyyət

---

[*] Tarixi ədəbiyyatdan təxminən həmin ərazidə Qutqaşen sultanlığının da mövcud olduğu anlaşılır. Hal-hazırda Qəbələnin Qutqaşen rayonu ərazisində olması bu fikri şübhə altına alır. Yəqin ki, dövrün mütəxəssisləri həmin məsələyə aydınlıq gətirəcəklər.

göstərmişdir. Mərkəzi İlisu (Qax rayonunda) idi. Sultanlıq şimaldan və şərqdən Qafqaz dağları, qərbdən Qanıq çayı, cənubi-şərqdən Şəki xanlığı ilə həmsərhəd idi. Əhalisi azərbaycanlılar, saxurlar, avarlar, muğallar, yengiloylar və s. ibarət idi. 1807-ci ildə Rusiyaya birləşdirildi və 1830-cu ildə Car-Balakən inzibati dairəsinə qatıldı. Daha sonralar (1840-cı illərdə) İlisu sultanlığının ərazisi Gürcüstan-İmeretiya quberniyasına daxil edildi və nəhayət, 1844-cü ildə sultanlıq ləğv olundu.

***Car-Balakən camaatlığı*** – Azərbaycanın şimali-qərbində ata xətti ilə qohum nəsillərdən – toxumlardan olanların ittifaqından [90-91] ibarət idi. Tərkibinə Car, Balakən, Katex, Tala, Muxax və Cənik camaatlıqlarında birləşən kəndlər daxil idi. Camaatlıq 1803-cü ildə Rusiyaya birləşdirildi və ərazisində Car-Balakən vilayəti təşkil olundu.

Qarabağ xanlığının tərkibində aşağıdakı 5 məliklik fəaliyyət göstərmişdir:

***Dizaq məlikliyi*** orta əsrlərdə Qarabağın dağlıq hissəsində kiçik feodal hakimliyi olmuşdur. Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin, XVIII əsrin ortalarından Qarabağ xanlığının vassalı idi. 1813-cü ildə Qarabağın tərkibində Rusiyanın nüfuzuna keçirilmişdir.

***Vərəndə məlikliyi*** orta əsrlərdə Qarabağın dağlıq hissəsində yaranmışdı və səfəvilər dövründə Qarabağ bəylərbəyliyinə daxil idi. XVIII əsrin ortalarında Qarabağ xanlığının vassalına çevrilir.

***Xaçın məlikliyi*** hələ XII əsrdə Qarabağın dağlıq hissəsində yaranmışdı və yerli alban hakimləri tərəfindən idarə olunurdu. Səfəvilər dövründə Qarabağ (Gəncə) bəylərbəyliyinə daxil olan Xaçın məlikliyi XVIII əsrin ortalarında Qarabağ xanlığının vassalına çevrilir və 1813-cü ildə həmin xanlığın tərkibində Rusiyaya birləşdirilir.

***Gülüstan məlikliyi*** XVIII-XIX əsrlərdə Qarabağın dağlıq ərazisində yerləşirdi. Mərkəzi əvvəllər İncəçayın yuxarı hövzəsindəki Talış kəndi, sonralar isə Gülüstan qalası olmuşdur. Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin, sonra isə Qarabağ xanlığının tərkibində olmuşdur. 1813-cü ildə Qarabağ xanlığının tərkibində Rusiyaya ilhaq olundu.

***Crabert (Carabert, Cerabert, Çilləbürt) məlikliyi*** orta əsrlərdə Qarabağın dağlıq hissəsində yaranmış kiçik feodal hakimliyi idi. Mərkəzi Crabert qalası olmuşdur. Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin, XVIII əsrin II yarısında Qarabağ xanlığının vassalına çevrilmişdir və sonuncunun tərkibində Rusiyaya ilhaq edilmişdir (1813).

Ümumiyyətlə götürüldükdə, XVIII əsrin II yarısı Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından aşağıdakı cəhətləri ilə səciyyəvidir:

- Azərbaycan ərazisi inzibati baxımdan xanlıqlara, sultanlıqlara, məlikliklərə və mahallara bölünmüşdü; [91-92]
- Əsrin 60-80-cı illərində Azərbaycanın şimali-şərqində Quba xanlığının himayəsində xüsusi birlik yaranmışdı;
- Əsrin sonlarında (1795-1797) Azərbaycan ərazisi Rusiya və İranın həmlələrinə məruz qalır və bu hal ölkənin gələcək taleyinə və tarixi-siyasi coğrafiyasına ciddi mənfi təsir göstərmişdir. Məhz bu dövrdə tüğyan edən feodal pərakəndəliyi son nəticədə Azərbaycanın iki hissəyə parçalanmasına və İran ilə Rusiya arasında bölünməsinə gətirib çıxardı.

(Bax: 6; 8; 11; 13/III; 15; 22; 34; 56; 60; 76; 77; 83)

## *X mövzu:* Qarabağ və Naxçıvan orta əsrlərdə (ərazisi, hüdudları və inzibati bölgüsü)

Bəlli olduğu kimi, Qarabağ və Naxçıvan əraziləri, ümumiyyətlə bu ərazilərin də daxil olduğu Arran vilayəti, tarix boyu mübahisə obyektinə çevrilmiş və indi də həmin mübahisələr səngiməmiş, əksinə daha da genişlənmişdir. XX əsrin sonlarında ermənilər öz məkrli siyasətləri sayəsində Qarabağın müəyyən hissəsini zəbt etsələr də, öz iddialarından əl çəkmir və yeni-yeni xülyalara – Naxçıvan torpaqlarını da ələ keçirməyə can atırlar. Bunu nəzərə alaraq Qarabağın və Naxçıvanın keçmişinə bir daha nəzər yetirmək, onların hansı ölkənin ərazisində mövcud olduqları, tarixən kiminlə bağlı olduqlarını nəzərdən keçirmək vacibdir. Bu iş bir tərəfdən tarixi və elmi həqiqətin ortaya çıxmasına yardım edər, həmin ərazilərin kimlərə məxsus olduğunu göstərər, digər tərəfdən bu ərazilərə qarşı olan yersiz iddiaların səbatsızlığını açıqlayar.

«Qarabağ» termini «xalq və bağ», «böyük bağ», «səfalı bağ» və sairə mənası kəsb edir. Bu

adın Azərbaycanın Kür və Araz çayları arasındakı mənzərəli ərazilərə şamil olunması monqol-türk qəbilələrinin ölkəyə gəlmələri və hülakuların hakimiyyətə yiyələnmələri ilə bağlıdır. Bilindiyi kimi, həmin ərazi Qafqaz Albaniyasının tarixi ərazisi olub, əsasən Arsax, Sünik, Uti, Sakasena və Paytakaran vilayətlərini əhatə edirdi və bu adla da ta- [92-93] nınırdı. Ərazinin mərkəzi hissəsi monqollar dövründə «Arran Qarabağı» kimi tanınmağa başladı. «Arran Qarabağı» terminınə ilk dəfə 1284-cü ilin hadisələrinin şərhi ilə əlaqədar təsadüf olunur. F.Rəşidəddin «Camə ət-təvarix» əsərində yazır ki, həmin ildə ***Arran Qarabağında*** Hülaku şahzadəsi Konqurtayı edam edirlər. Bu ərazinin «Arran Qarabağı» adlanması da təsadüfi deyildir. Məlum olduğu kimi, istər Azərbaycanda, istərsə də Şərqin başqa ölkələrində bir sıra «Qarabağ» adlı yerlər mövcuddur. Azərbaycandakı «Təbriz Qarabağı», «Surxab Qarabağı» (və ya «Kiçik Qarabağ»), Naxçıvandakı Qarabağ, eləcə də Qarsda, Şimali Qafqazda, Türkmənistanda, Özbəkistanda, Əfqanıstanda və s. yerlərdə olan Qarabağ adlı məkanlar buna misaldır. Arran-
dakı Qarabağın «Arran Qarabağı» adlandırılması onu digər Qarabağlardan, ilk növbədə indiki Əfqanıstanın şimali-qərb və Türkmənistanın cənubi-qərb ərazilərində mövcud olmuş «Baqdis Qarabağı»ndan fərqləndirmək məqsədi güdmüşdür.

Unutmaq olmaz ki, müasir dövrdə geniş yayılmış «Dağlıq Qarabağ» terminınə orta əsr mənbələrində təsadüf olunmur və bu istilah son dövrlərin məhsuludur. Orta əsrlərdə isə Qarabağ ərazisi vahid şəkildə mövcud olmuş, onun dağlıq və düzən sahələri, bölgələri tam şəkildə Qarabağ adlanmış və diyarın həmin bölgələri iqtisadi və mədəni cəhətdən sıx bağlı idilər.

Qarabağ Arranın mərkəzi hissəsini əhatə edirdi, necə deyərlər, «Arranın qəlbi» idi. XIV əsr Azərbaycan tarixçisi Əbu Bəkr əl-Əhəri Qarabağı «Arranın paytaxtı», yəni mərkəzi adlandırır. Arran Qarabağının ərazisi barədə məlumatlar az deyil. Orta əsr müəllifləri çox hallarda Qarabağı Arran ilə eyniləşdirirlər. Lakin, araşdırmalar göstərir ki, Arran daha geniş əraziləri əhatə etmişdir. Ərəb dövrünün Arranından fərqli olaraq, son orta əsrlər Arranı yalnız Kür-Araz çayları arasındakı ərazini əhatə edirdi. Onun Ermənistanla sərhəddi Göycə gölündən, Gürcüstanla sərhəddi isə Debed çayından və Hunan qalasından keçirdi. Qarabağ son orta əsrlər Arranının müəyyən hissəsini əhatə edirdi. F.Rəşidəddinin «Mükatibat» əsərində onların «Qarabağ, Muğan, Arran və Şəki vilayətləri» şəklində həmcins üzvlər kimi nəzərə çatdırılması bir daha belə qənaətə gəlməyə əsas verir ki, Qarabağ Arranın daxilində dağlıq və dağətəyi sahələri [93-94] birləşdirən vahid ərazidən ibarət olmuşdur.

Mənbələrin məlumatından aydın olur ki, Qarabağın ərazisi Araz çayından başlayaraq şimali-qərb istiqamətinə uzanmış və Beyləqandan tutmuş Zəqəmçaya kimi olan əraziləri əhatə etmişdir. Onun şərq sərhədləri Kür ilə Arazın birləşdiyi yerdən nisbətən qərbdə idi, qərb hüdudları isə Həkəri çayına çatırdı. Tərkibində Şəmkür, Gəncə, Bərdə, Ağdam, Beyləqan kimi iri şəhərlər, Zəqəm, Xanagah-Şutur, Qarxun, Dih-İsfahan, Lasub, Cuzbuq, Xeyrək, Kanqlıkənd, Bazarcıq, Ləmbəran, Yunan, Xaçındarbatlı, Qandzasar, Bəkrəbad, Xar, Sərçabil, Dolanlar, Şuşa və s. yaşayış məskənləri, Çərek, Əkna, Crabert, Matris, İzz, Xaçın, Zaris, Xayzan və s. qalalar var idi. Qarabağın dağlıq hissəsində Xaçın malikanəsi mövcud olmuş və bütün orta əsrlər boyu öz siyasi mövqeyini qoruyub saxlaya bilmişdir. Qarabağdan ölkənin mühüm ticarət yollarının bir qolu keçirdi və təxminən 300 km olan (45 fərsəng) həmin yol 10-dan artıq iri yaşayış məskənini birləşdirirdi.

Göstərildiyi kimi, ilk orta əsrlərdə Qarabağ ərazisində Qafqaz Albaniyasının bir sıra vilayətləri – Arsax, Sisiakan (Sünik), Uti, Sakasena və qismən də Paytakaran vilayətləri mövcud olmuşdur. Həmin vilayətlərin, deməli Qarabağın tarixi ərazilərinin Qafqaz Albaniyasının tərkib hissəsi olması real tarixi faktlar ilə görkəmli alim F.C.Məmmədova tərəfindən sübuta yetirilmişdir. Ərəb xilafəti, IX-XI əsr feodal dövlətləri və atabəylər dövründə də, Qarabağ Arranın tərkib hissəsi olaraq qalmış və həmin dövlətlərin siyasi, ictimai-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Qarabağın mövqeyi son orta əsrlərdə daha da artmışdır. Həmin ərazi Azərbaycanda hakimiyyətdə olmuş demək olar ki, bütün hökmdarların, dövlət başçılarının istirahət yerinə çevrilmişdi. Bu baxımdan monqol hökmranlığı dövrü diqqəti daha çox cəlb edir. Təkcə onu göstərmək kifayətdir ki, monqol hökmdarlarından ikisi (Qazan xan və Arpa xan) səltənət taxtına Qarabağda çıxmış, ikisi isə (Arqun xan və Sultan Əbu Səid) Qarabağda vəfat etmişlər. XV-XVIII əsrlərdə də Qarabağ öz mövqeyini qoruyub saxlamış və Azərbaycanda fəaliyyət göstərmiş dövlətlərin və deməli, Azərbaycanın tərkibində olmuşdur.

Orta əsrlər Qarabağında bir sıra dövlət qurumları təşəkkül [94-95] tapmış və fəaliyyət

göstərmişlər. Girdiman hökmranlığı, Xaçın knyazlığı, Qarabağ xanlığı bu baxımdan diqqəti cəlb edir. Girdiman hökmranlığı VII əsrin əvvəllərindən Qafqaz Albaniyası ərazisində fəaliyyət göstərmişdir. Onun ərazisi əsasən indiki Şəmkür, Qazax ərazisində mövcud olmuş Girdiman vilayətini əhatə edirdi. Paytaxtı ilk vaxtlarda Girdiman qalası, sonra Bərdə şəhəri olmuşdur. Girdiman hökmranlığı Mehranilər sülaləsi tərəfindən idarə olunurdu. Albaniya hökmdarı Cavanşirin (636-680) vaxtında Girdiman yüksəliş dövrü keçirmişdir. Lakin ərəblərin, xəzərlərin hücumlarına məruz qalmış və nəhayət, 705-ci ildə Albaniya ərəblərin nüfuzuna düşdükdə onun ərazisi Arran, Muğan və Şirvan ərazilərinə bölünür. Girdiman Arranın tərkibində qalır. XIII əsrdə Qarabağın dağlıq hissəsində Xaçın məlikliyi fəaliyyətə başlayır və daxili müstəqilliyini XIX əsrin əvvəllərinə kimi qoruyub saxlaya bilir. Səfəvilər dövründə isə Qarabağda Qarabağ bəylərbəyliyi fəaliyyət göstərir. Bəylərbəylik Qarabağ torpaqları ilə yanaşı daha geniş əraziləri, Kür və Araz çayları arasındakı əraziləri əhatə edirdi. Sonralar Qarabağ bəylərbəyliyinin ərazisində 2 xanlıq – Qarabağ və Gəncə xanlıqları təşəkkül tapır. Qarabağ ərazisi əvvəlcə Qarabağ bəylərbəyliyinin, XVIII əsrin ortalarından isə Qarabağ xanlığının tərkibində olmuş və onların əsas ərazisini təşkil etmişdir. Bu dövrdə xanlığın paytaxtı Şuşa şəhəri idi. Qarabağ ərazisi 1813-cü ildə Qarabağ xanlığının tərkibində Rusiyaya ilhaq edilmiş və sonra Rusiyanın əyalətinə çevrilmişdir.

Qarabağ əhalisinin etnik tərkibi müxtəlif olduğu qədər də, müzakirə obyektinə səbəb olan məsələlərdəndir. Qədim zamanlarda Qarabağ ərazisində alban tayfaları və onlarla birlikdə barsil, savir, hun, xəzər və s. türk tayfaları yığcam şəkildə yaşamışlar. Strabonun əsərində xatırlanan Qafqaz Albaniyasının 26 dildə (ləhcədə) danışan qəbilələrinin bir qismi məhz Qarabağda məskunlaşmışdır. Akademik Z.M.Bünyadovun yazdığı kimi, Arran əhalisi monqol istilalarına qədər türkdilli xalq kimi təşəkkül tapmışdı. XIII əsr müəlliflərinin məlumatından görünür ki, Arran əhalisinin etnik tərkibi əsasən türklərdən ibarət idi: «Müsəlmanların ixtiyarında olan» Arranda «100.000 türk süvarisi vardı» və «buradakı türkmənləri bir yerə toplasaydılar, qa-[95-96] rışqa və çəyirtkə yığnağını xatırladardı». Sonrakı əsrlərdə Azərbaycana gəlmiş türk qəbilələrinin bəzisi Qarabağ ərazisində məskunlaşmışdır. Bu baxımdan monqol yürüşləri dövrü diqqəti cəlb edir. Həmin dövrdə Azərbaycana gələn monqol-türk qəbilələrindən tamqalıq, dolan, kanqlı, qorqan, tatar, qarxun və oyrat qəbilələrinin Qarabağda məskunlaşdığı bəllidir.

Qeyd olunduğu kimi, Qarabağ əhalisinin tərkibində albanlar xüsusi yer tuturdu. Albanlar Qarabağın dağlıq hissəsində, əsasən Xaçın ərazisində yaşayırdılar. Qarabağ albanları Cənubi Qafqazın erməni və gürcü etnosları ilə bir sırada durmuş və etnik baxımdan onlardan asılı olmamışlar. XIII əsr alban tarixçisi Kirakos Gəncəli Cənubi Qafqazda yaşayan etnosları dəfələrlə «ermənilər, gürcülər və albanlar», «albanlar, ermənilər və gürcülər» və s. şəkildə, həmcins üzvlər kimi qələmə alır. Müəllif Albaniyanın, o cümlədən Arranın və onun tərkib hissəsi olan Qarabağın, Ermənistanın ərazisi olmadığını da sezdirir. O, 1220-ci ilin hadisələrindən danışarkən yazır: «Tatarlar Dərbənd qapılarından sürətlə keçib Albaniyaya gəldilər ki, oradan Ermənistana və Gürcüstana soxulsunlar». Deməli, Albaniya adı ilə Ermənistan nəzərdə tutulmadığı kimi, alban sözü ilə də erməni etnosu anlaşılmırdı və əksinə.

Ermənilərin iddiasında olduqları **Naxçıvan** ərazisi də tarixən Azərbaycana məxsus olmuş və onun əzəli-əbədi diyarıdır. Naxçıvanın qədim və orta əsrlərə dair tarixi buna canlı sübutdur. Naxçıvanın tarixi-siyasi coğrafiyasına keçməzdən əvvəl «Naxçıvan» sözü və bu ad ilə məlum olan yaşayış yerlərinə nəzər yetirmək vacibdir. «Naxçıvan» adı ilə bizim Naxçıvandan başqa Qars vilayətində (Kağızman mahalında Ani, Alyam və Mren yaşayış məskənlərinin yaxınlığında), Don çayının sahilində, Van gölü sahilində və s. yerlərdə yaşayış məskənləri mövcuddur. Yeri gəlmişkən, qeyd edək ki, ermənilər Qars Naxçıvanında baş vermiş hadisələri, faktları bizim Naxçıvana şamil etməklə bu şəhərin özlərininki olduğunu əsaslandırmağa çalışırlar.

Naxçıvan ərazisi orta əsrlərdə bəzən Basfurcan (Basfuracan) kimi də adlanmışdır. XII-XIII əsrlər müəllifi Yaqut Həməvi yazır: «Basfurcan Arranda baş şəhəri Nəşava, o həmçinin Naxçıvandır, olan mahaldır». Naxçıvanın adı orta əsr mənbələrində [96-97] müxtəlif şəkildə işlənilmiş və mənalandırılmışdır. Eramızın II əsrində Klavdi Ptolemey onu Naksuan formasında işlədir. Naxçıvan kəlməsi «Nuh çıxan» (Nuhun gəmisinin quruya çıxdığı yer), «ov edilən yer», «şikargah» və s. mənalarda açıqlanır. IX-XI əsr ərəb müəllifləri şəhəri «Nəşava» adı ilə yad edirlər və bu istilah ərəb dilində «böyüyən, inkişaf edən» mənasını verir. Şəhərin adına «Nəqşi-cahan» şəklində də təsadüf olunur və «Dünyanın bəzəyi» mənası kəsb edir. Bəzi tədqiqatçılar isə

Naxçıvan istilahını «xoş su məkanı» - Nax-su-van kimi açıqlayırlar (Y.Yusifov, Q.Qeybullayev). Onların fikrincə, «su» hissəciyi «çu» şəklinə düşmüşdür. Naxçıvanda müalicəvi suların çoxluğu da təsdiqedici amil kimi götürülür.

Naxçıvan ərazisi hələ e.əv. III əsrdən Qafqaz Albaniyasının tərkibində olmuş və bu dövlətin Araksena və sonra Sisiakan vilayətlərinə daxil idi. Dövlətin cənub sərhədləri Naxçıvanın cənubundan Araz çayı boyunca keçirdi. Dövlətin ərazisi Dərbənddən Araz çayına, İberiyadan Xəzər dənizinə kimi uzanırdı. Alban tarixçisi Musa Kalankatlı qeyd edir ki, Albaniyanın hüdudları VII-VIII əsrlərə kimi dəyişilməmişdir. Albaniya ilk orta əsrlərdə, sasanilərin nüfuz dairəsində olduğu vaxtlarda, Naxçıvan İran-Roma müharibələrinin meydanına çevrilir. Əldən-ələ keçən Naxçıvan 387-ci ildə bağlanmış müqaviləyə əsasən sasanilərin nüfuzunda qalır. VII əsrin I yarısında Naxçıvan Bizans çarı İraklinin (610-641) əlinə keçsə də, bir müddətdən sonra yenidən sasanilərə qaytarılır. Göründüyü kimi, Naxçıvan əksər vaxtlarda Qafqaz Albaniyasının tərkib hissəsi kimi fəaliyyət göstərmişdir.

654-cü ildə Azərbaycana soxulmuş ərəb qoşunları Naxçıvanı da zəbt etdi və bağlanmış müqaviləyə görə, Naxçıvan əhalisi ərəblərə vergi – cizyə və xərac ödəməli oldu. Bu zaman dağıdılan Naxçıvan şəhəri xəlifə I Müaviyənin (661-680) vaxtında bərpa olundu. IX əsrin 20-30-cu illərində Naxçıvan ərəblərə qarşı qalxmış Babək hərəkatının geniş yayılmış ərazilərindən biri olmuşdur. Mənbələr Naxçıvanın Babəkin nüfuz dairəsində olduğunu xəbər verirlər. Ərəb xilafəti dövründə inzibati-ərazi bölgüsü baxımından müəyyən dəyişikliklər baş versə də, Naxçıvan Azərbaycanın tərkibində qalmaqda davam edirdi. Ərəb müəllifi əl-[97-98] İstəxri (820-934) Arranın hüdudlarının Dərbənddən Tiflisə, oradan Naxçıvan adlı ərazi də daxil olmaqla Araz çayına kimi uzandığını bildirir.

Naxçıvan IX əsrin sonlarında Sacilər dövlətinin tərkibinə daxil olur və X əsrin 30-cu illərinə kimi onların nüfuz dairəsində qalır. Sacilərin süqutundan sonra bir müddət saci əmiri Deysən ibn İbrahimin [932-937] ixtiyarında qalan Naxçıvan sonralar Salarilər dövlətinin tərkibinə daxil olur. Səlcuq sultanı Alp Arslan [1063-1072] Rəvvadilər sülaləsinin fəaliyyətinə son qoyduqdan sonra Naxçıvana da sahib durur və Naxçıvan şəhərində özünə xüsusi iqamətgah tikdirir. Səlcuqların Azərbaycanda canişinliyi Naxçıvanda yerləşirdi.

1146-cı ildə ölkədəki vəziyyətdən istifadə edən atabəy Eldəniz Naxçıvan vilayətini də öz torpaqlarına qatır və həmin dövrdən başlayaraq Naxçıvan şəhəri və vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir. Eldənizlər dövlətinin tərkibinə Azərbaycan, Arran, Naxçıvan, Fars (Əcəm) İraqı, Rey, Həmədan və s. vilayətlər daxil idi. Akad. Z.M.Bünyadov yazır ki, Naxçıvan sərhəd vilayəti kimi, xüsusi rejimdə idi; burada başqa dinə – xristianlığa etiqad edənlərin nüfuzu məhdudlaşdırılmışdı və islamın mühafizəsi üçün ciddi nəzarət mövcud idi. Naxçıvan vilayəti divan əl-xassə və ya divan əl-əla adlanan Ali divana tabe idi. Atabəylərin xəzinəsi adətən atabəyin olduğu yerdə saxlanılırdı. Əsas xəzinə Naxçıvan şəhəri yaxınlığındakı Əlincə qalasında mühafizə olunurdu. Şəmsəddin Eldənizin dövründə dövlətin bütün gəlirləri burada toplanılırdı. Naxçıvan şəhəri bir müddət Eldənizlərin paytaxtına çevrilir və XII əsrin 70-ci illərinədək mərkəz şəhəri kimi fəaliyyət göstərir. Məhəmməd Cahan Pəhləvanın dövründə [1174-1186] paytaxt Naxçıvandan Həmədana, sonra isə Təbrizə köçürülür. Eldənizlərdən sonra Naxçıvan qısa bir müddətdə xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin nüfuzunda qalır.

Naxçıvan XIII-XIV əsrlər Azərbaycanında və ümumiyyətlə Şərqdə gedən siyasi, ictimai-iqtisadi və mədəni proseslərin, hadisələrin mərkəzlərindən birinə çevrilmişdi. Hülakuların, çobanilərin, cəlairilərin təyin etdikləri hakimlər tərəfindən idarə olunan Naxçıvanın bu dövrdəki inzibati-ərazi bölgüsü də diqqəti cəlb edir. Qeyd olunduğu kimi, İraqi-Əcəm, Muğan, Arran, Gürcüstan, Ərmən və Kürdüstanla hüdudlanan Azərbaycan (indiki Cənubi Azərbaycan) inzibati baxımdan 9 tümənə ayrılmışdı. Həmdullah Qəzvininin məlumatından aydın olur ki, Naxçıvan ərazisi Azərbaycan mahalının tərkibində olmuş və onun 9 tüməninindən biri idi. Naxçıvan tüməni geniş ərazini əhatə edirdi. Şərqdə Ərmən vilayəti ilə sərhədlənən bu tümən Makudan Qafan dağlarına qədər olan geniş ərazini əhatə etmiş və Xoy, Mərənd, Pişkin tümənləri və Qarabağla hüdudlanaraq Göycə gölü istiqamətində Dərələyəz silsiləsinin şimalına kimi çatırdı. Maku və Qafan əraziləri də Naxçıvan tüməninə daxil idi. Əslində Naxçıvan tüməni Arazın hər iki sahilindəki əraziləri birləşdirmişdi və qərbdə Dvin şəhəri də bu tümənin tərkibində idi. Ərəb coğrafiyaşünası Yaqut əl-Həməvi yazır: Dvin «Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında» yerləşir. Əbu Bəkr əl-Əhəri (XIV əsr) isə 1338-ci ildə Şərur və Dvin ərazilərinin Əkəncinin oğlu

Hacı bəy tərəfindən idarə olunduğunu bildirir. F.Rəşidəddinin məlumatından bəlli olur ki, Qafan ərazisi də Naxçıvan tüməninin tərkibində olmuşdur. Müəllif «Asar və əhya» («Təsir və dirçəliş») adlı əsərində 2 yerdə Qafanın Naxçıvan tümənınə aid olduğunu açıq-aydın yazır. Həmdullah Qəzvini (XIV əsr) Maku şəhərini Naxçıvan tümənınə aid olan 5 şəhərin tərkibində verir. Onun yazdığına görə, Azərbaycanın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əcnan və Maku şəhərləri Naxçıvan tümənınə daxil idilər. Naxçıvan tümənində həmçinin Vənənd, Qarabağlar, Giran, Culahə, Şahbuz, Şərur və sairə yaşayış yerləri, Əlincə, Sürməli, Gərni, Tağmar və b.k. qala və istehkamlar mövcud olmuşdur. Əlincə qalası tarixən Azərbaycan xalqının azadlıq mübarizəsinin dayağanı çevrilmişdir. XIII əsrin anonim «Əcaib əd-dünya» əsərində Naxçıvan şəhəri, Xudafərin və Ziyaülmülk körpüləri barədə qiymətli məlumat verilir və onun bilavasitə Azərbaycana aidliyi göstərilir. «Əcaib əd-dünya»nın və digər ilk mənbələrin faktları bir daha təsdiq edir ki, Naxçıvan XIII-XIV əsrlərdə Azərbaycanın tərkib hissəsi olmuş və onun əsas inzibati vahidlərindən birini təşkil edirdi.

XV əsrdə Naxçıvan ərazisi Azərbaycanda və ətraf ərazilərdə fəaliyyət göstərmiş türk mənşəli Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. Bu dövlətlərin ərazisinə bir [99-100] çox vilayətlərlə yanaşı, Ermənistan da daxil idi və həmin ərazi əslində Çuxur-Səəd adı ilə tanınırdı. Çuxur-Səəd geniş ərazini, Araz çayı vadisinin hər iki tərəfini – şimali-qərbdə Şuragel, şimali-şərqdə Göycə gölü, cənub və cənubi-şərbdə Sürməli, Naxçıvan, Maku və bəzən də Bayəzid ərazilərini əhatə etmişdir. Ermənilərin bu dövrdə Naxçıvan üzərində nüfuza malik olmalarını söyləmək ən azı qeyri-məntiqi və qeyri-elmi səslənir.

Səfəvilər dövlətinin təsisi Azərbaycanın ərazisinin genişlənməsinə səbəb olmaqla yanaşı vahid Azərbaycan ərazisinin təşəkkülünə gətirib çıxardı. İnzibati baxımdan Azərbaycan ərazisi 4 bəylərbəyliyə bölünmüşdü. Naxçıvan mərkəzi İrəvan olan Çuxur-Səəd bəylərbəyliyinin tərkibində qalırdı. İrəvan və Naxçıvan qızılbaş ustaclu qəbiləsinin iqamətgahına çevrilmişdi və bu qəbilə tərəfindən idarə olunurdu. Sonralar Çuxur-Səəddə qısa müddətə rumlu türk qəbiləsi məskunlaşdı. Göründüyü kimi, Çuxur-Səəd bəylərbəyliyi və onun tərkibindəki Naxçıvan (eləcə də İrəvan) türk qəbilələrinin sərəncamında olmuşdur.

XVIII əsrin əvvəllərində Naxçıvan ərazisinin əsas hissəsi Çuxur-Səəd bəylərbəyliyinin, Ordubad isə Təbriz bəylərbəyliyinin tərkibində idi. Naxçıvan «ölkə» kimi ustaclu tayfası tərəfindən idarə olunurdu. Dövrün siyasi hadisələrinin gedişində Naxçıvan 1724-cü ildə Türkiyənin nüfuz dairəsinə düşür, 1735-ci ilə kimi onların əlində qalır və osmanlı inzibati-ərazi bölgüsünə əsasən «Naxçıvan sancağı» adı ilə tanınır. Bu dövrdə tərtib olunmuş «Naxçıvan sancağının müfəssəl dəftəri»ndən (1727) məlum olur ki, həmin sancağın tərkibində aşağıda adı çəkilən 15 nahiyə var idi: Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürküt, Sisyan və Dərələyəz. Osmanlılar səfəvilər dövründə Naxçıvanın tərkibində olmuş Zor, Zəbil və Şərur nahiyələrini onun tərkibindən çıxararaq İrəvan əyalətinə birləşdirmişdilər. Naxçıvan sancağına 315 yaşayış məskəni daxil idi. İndiki Naxçıvan MR ərazisindən başqa, buraya müasir Ermənistanın Yexeknadzor rayonu bütövlükdə, Cermux rayonunun yarısı, Sisyan rayonunun böyük bir qismi və Mehri də daxil olmaqla rayonun bir sıra yaşayış məskənləri daxil idi. («İrəvan əyaləti və Naxçıvan sancağı xəritəsi»nə bax). [100-101]

1736-cı ildə özünü şah elan edən Nadir ölkənin inzibati-ərazi bölgüsündə dəyişiklik etdi; bəylərbəyliklər ləğv olundu və vahid Azərbaycan vilayəti yaradıldı. O, Naxçıvanda yaşayan kəngərli tayfasını itaət göstərmədikləri üçün Əfqanıstana sürgün etdi və diyarın idarəsini 2 nəfərə tapşırdı: onlardan biri «hakimi-ölkə-ye Naxçıvan», digəri «hakimi-tümən-i Naxçıvan» adlanırdı. Nadirin ölümündən sonra (1747) kəngərli tayfa başçısı Heydərqulu xan Naxçıvan hakimi Ağa Həsəni hakimiyyətdən məhrum edib, özünü Naxçıvanın müstəqil xanı elan etdi. Zəngəzur dağlarından Araz vadisinə kimi ərazini əhatə edən xanlığın mərkəzi Naxçıvan şəhəri idi. Naxçıvan xanlığı inzibati cəhətdən Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə Çalanapek və Bilav mahallarına bölünmüşdü. Xanlığın ərazisində 2 böyük şəhər – Naxçıvan və Ordubad var idi. Naxçıvan xanlığı Qarabağ, Qaradağ, Xoy, Maku və İrəvan xanlıqları ilə həmsərhəd idi. Naxçıvan xanlığı Heydərqulu xanın ölümündən sonra (1764) tədricən zəiflədi, Rusiya-İran müharibələri dövründə əvvəlcə İranın tərkibinə (1813), sonra isə Rusiyanın tərkibinə qatıldı (1828) və onun fəaliyyətinə son qoyuldu. Naxçıvan ərazisi çar Rusiyasının inzibati bölgüsünə əsasən «qəza» statusu ilə 1841-ci ilin yanvarın 1-də Gürcüstan-İmeretiya quberniyasının tərkibinə

qatıldı və daha sonra, 1849-cu ildə İrəvan quberniyasına birləşdirildi. Naxçıvan qəzası Naxçıvan, Ordubad və Dərələyəz məntəqələrindən ibarət idi. Mərkəzi Naxçıvan şəhəri olmuşdur. 1896-cı ildə Naxçıvan qəzasının sahəsi 4378 kv. km, əhalisi 86.878 nəfər idi.

Naxçıvan əhalisinin etnik tərkibi tarixən türkdilli tayfaların üstünlüyü, çoxluğu ilə diqqəti cəlb edir. Tədqiqatçıların fikrincə, hələ e.ə. VII əsrdə şimal istiqamətindən Cənubi Qafqaza gəlmiş sak tayfaları Naxçıvan ərazisində də məskunlaşmışdır. Sonralar bölgəyə qarqar, şirak, basin, alban, bulqar, xəzər, gerus və s. qəbilələr gəldilər. Eramızın ilk əsrlərində hunların tərkibində Naxçıvana gəlmiş qədim türk mənşəli kəngər tayfası uzun əsrlər boyu burada yaşamış və bölgənin fəaliyyətində yaxından iştirak etmişlər. Bilindiyi kimi, XI-XII əsrlərdə Naxçıvana oğuz türkləri də gəlmişlər. Sonralar ustaclu, rumlu türk qəbilələri diyarda daha fəal olmuş, XVIII əsrdə isə Naxçıvan xanlığı kəngərlilər tərəfindən idarə olunmuşdur. Göründüyü ki-[101-102] mi, tarixən Naxçıvan əhalisi türklərdən – azərbaycanlılardan ibarət olmuşdur. Dövrün mənbələrində bu barədə faktlara kifayət qədər təsadüf olunur. Məsələn, «Əcaib əd-dünya» əsərində (XIII əsr) Naxçıvanda əhalinin sıx olması, aybəniz olmaları, bədii oyma və ağac emalı sahəsində mahir olmaları, qorxmaz, qonaqpərvər və xoş xasiyyətləri ilə seçilmələri, dillərinin xoşagələn olması, xüsusilə islamın şafei təriqətinə itaət etdikləri (yəni erməni olmadıqları) və s. barədə maraqlı qeydlər verilir. «Naxçıvan sancağının müfəssəl dəftəri» də etnik məsələlərin araşdırılması baxımından diqqəti cəlb edir. Bununla yanaşı, orta əsrlər Naxçıvanında başqa xalqların, o cümlədən xristianların yaşadığı məlumdur.

Qarabağın və Naxçıvanın orta əsrlər tarixi barədə ilk mənbələrin məlumatı və tədqiqatçıların rəyləri həmin ərazilərin bütün orta əsrlər boyu, əvvəlki dövrlərdəki kimi, Azərbaycanın tərkibində olduğunu təsdiq edir. Bu ərazilərin başqalarının, ilk növbədə ermənilərin nüfuz dairəsində olması barədə mülahizələr tarixi faktlarla təkzib olunur.

(Bax: 1; 6; 8; 17; 28; 30; 33; 37; 48; 49; 51; 58; 64; 66; 69; 76; 89; 104)

## *XI mövzu:* Orta əsrlər Azərbaycanının ərazisi və inzibati bölgüsü barədə bəzi qeydlər

Azərbaycanın orta əsrlər tarixi və xüsusilə, tarixi-siyasi coğrafiyası barədə nəzərə çatdırılan faktlar, dəlillər bir daha belə qənaətə gəlməyə imkan verir ki, həmin diyar sabit şəkildə qalmamış, onun ərazisi müxtəlif dövrlərdə, tarixi şəraitdən asılı olaraq çoxalıb-azalmışdır. İlk orta əsrlərin ortalarına kimi bu yerlərdə 2 dövlət – Atropatena və Qafqaz Albaniyası fəaliyyət göstərmişdir. Qeyd olunduğu kimi, ərəb istilaları, mənfi təsirlərinə baxmayaraq, göstərilən dövlətlərin ərazilərinin birləşərək vahid Azərbaycanın təşəkkülünə şərait yaratdı. Xilafətin hakimiyyəti dövründə ölkədə gedən bir sıra proseslər bu işin müvəffəqiyyətlə[102-103] başa çatmasına səbəb oldu: ilk növbədə tərəflər arasında siyasi birlik yarandı; hər iki dövlət Xilafətin siyasi quruluşunu qəbul etdi və eyni siyasətlə idarə olundular. Digər tərəfdən bu dövlətlər Xilafətin vilayətlərinə çevrildilər və qonşu müstəqil dövlətlər statusunu itirib eyni dövlətin tərkibində qonşu vilayətlər kimi fəaliyyət göstərdilər. Onların arasında tarixən mövcud olmuş dövlətlərarası sərhəd vilayətlərarası sərhədə çevrildi və öz əhəmiyyətini itirdi. Daha sonra tərəflər arasında tədricən dini, mədəni, etnik, iqtisadi,dil və s. cəhətlərdən birlik yarandı. İslam dini hər iki tərəfdə yayılaraq digər dinləri sıxışdırıb əsas dinə çevrildi və tərəflər arasında din birliyi və bunun zəminində mədəni birlik yarandı. Tərəflərin qovuşması şimal və cənubda olan türk qəbilələrinin qaynayıb-qarışmasına və nəticədə dil birliyinin yaranmasına gətirib çıxardı. Eyni dövlətin tərkibində onların arasında iqtisadi birlik gücləndi. Beləliklə, bütün bunlar və digər amillərin təsiri ilə 2 dövlətin ərazisi birləşdi və vahid Azərbaycan təşəkkül tapdı.

Uzun müddət davam etmiş həmin prosesin müvəffəqiyyətlə başa çatmasında Xilafətin parçalanmasından sonra meydana gəlmiş bəzi feodal dövlətlərinin rolu az olmamışdır. Bu baxımdan Sacilər, Salarilər, eləcə də Atabəylər dövlətləri diqqəti cəlb edir. Həmin dövlətlər əsasən Zəncandan Dərbəndə qədər olan əraziləri əhatə etdiklərindən birləşmə prosesinə müsbət təsir etmişlər. Əksinə, Şirvanşahlar, Şəddadilər, Rəvvadilər, Ağsunqurilər dövlətləri, Əhər məlikliyi həmin prosesə mane olmuş və onun gedişinə mənfi təsir etmişlər. Nəzərə almaq lazımdır ki, bir-

ləşmə prosesinə sasanilərin hakimiyyəti dövrü də müəyyən təsir göstərmiş, birləşmənin rüşeymləri məhz bu dövrdə meydana gəlmişdir.

Vahid Azərbaycan ərazisinin sərhədləri və sahəsi barədə dəqiq fakt yoxdur və ola da bilməz. Belə ki, Azərbaycan ərazisi və sərhədləri sabit qalmamış və müxtəlif dövrlərdə, ölkənin siyasi və iqtisadi vəziyyətindən, hərbi qüdrətindən asılı olaraq çoxalıb-azalmış, daralıb-genişlənmişdir. Ölkədə siyasi, iqtisadi və hərbi cəhətdən qüdrətli, qüvvətli, inkişaf etmiş, hərbi qüdrətə malik vahid dövlətin mövcud olduğu vaxtlarda Azərbaycan ərazisi artmış, onun sərhədləri genişlənmiş, əksinə, feodal pərakəndəli-[103-103] yinin hökm sürdüyü, xarici həmlələrin çoxaldığı, daxili sabitliyin pozulduğu vaxtlarda ölkə ərazisi də azalmış, sərhədləri daralmış, torpaqlarının bir qismi itirilmişdir. Orta əsrlər Azərbaycanı Xilafətin hökmranlığı, Sacilər, Salarilər, xüsusilə Atabəylər və Səfəvilər dövlətləri dövründə daha geniş ərazilərə malik olmuşdur. Onun sərhədləri cənubda Zəncan, Sainqala ərazilərinin cənub tərəfindən, cənubi-qərbdə Urmiya gölünün qərbindəki ərazilərdən, şimal-qərbdə Göycə mahalının qərbindən, şimalda isə tarixi Şəki vilayətinin və Dərbəndin şimalından keçirdi. Bu dövrlərdə Göycə mahalı bütövlüklə və Borçalı ərazisi Azərbaycanın tərkibində olmuşdur. Monqol hökmranlığı, Qaraqoyunlu və Ağqoyunlular dövlətləri dövründə isə Azərbaycanın sərhədləri şimal-qərbdə Göycə gölünün ortasından keçirdi və Göycə mahalının qərb hissəsi itirilmişdi. Bunun səbəbi XIII əsrin 20-30-cu illərində Şərqdə cərəyan edən siyasi hadisələr və onların Azərbaycana olan mənfi təsiri idi. Belə ki, xristian dünyasının islam aləminə qarşı mübarizəsi və bu işdə monqollardan istifadə etmələri təkcə Azərbaycan üçün deyil, əslində bütün müsəlman ölkələri üçün zərərli nəticələr verdi. İlk monqol xanları Bağdadda Abbasilər Xilafətinə son qoydular (1258), müsəlman ölkələrində, eləcə də Azərbaycanda islam dininə biganə münasibət bəslədilər, onu dövlət dini statusundan məhrum etdilər, digər tərəfdən ermənilərin və Avropanın xristian dini xadimlərinin fitvası ilə islam-türk dünyasına qarşı mübarizə şiddətləndi. Nəticədə, islam ölkələrində və Azərbaycanda ictimai-iqtisadi və siyasi baxımdan tənəzzül başladı. Bütün bunlar Azərbaycanın qərb torpaqlarının itirilməsinə, Göycə mahalının yarısının Ermənistana ilhaqına gətirib çıxardı. İlk mənbələrdə də Azərbaycanla Ermənistanın sərhədinin bu dövrdə Göycə gölündən keçdiyi açıq şəkildə əks olunmuşdur. Belə bir vəziyyət XV əsrdə də davam etmişdir.

Göycə mahalının qərb hissəsi səfəvilər dövründə yenidən Azərbaycan vilayətinin tərkibinə daxil olur və Borçalı ərazisi kimi, dövlətin fəaliyyətinin sonuna qədər onun tərkibində qalır. 1743-cü ildə, məlum olduğu kimi, Borçalı Nadir şah tərəfindən gürcü çarı Teymuraza verilir, Göycənin qərb hissəsi də sonrakı dövrlərdə, XX əsrin əvvəllərində itirilir.

Orta əsrlər Azərbaycanın inzibati-ərazi bölgüsünü müəy-[104-105]yənləşdirmək üçün ilk növbədə «Azərbaycan» istilahının özünün mənasını, daha doğrusu bu adla hansı ərazilərin nəzərdə tutulduğunu dəqiqləşdirmək vacibdir. Əsasən coğrafi-ərazi anlayış olan «Azərbaycan» sözü ilə orta əsrlərdə iki ərazi anlaşılırdı: ilk növbədə, bu ad ilə Xilafət dövründə birləşməyə başlamış vahid ərazi – Dərbənddən Zəncana, Xəzərdən Göycə mahalının qərbinə qədər olan ərazi nəzərdə tutulurdu. Digər tərəfdən Azərbaycan adı ilə vahid Azərbaycanın bir hissəsi, tarixi Atropatena əraziləri, yəni müasir Cənubi Azərbaycan torpaqları nəzərdə tutulurdu. Deməli, vahid Azərbaycanın mahallarından biri Azərbaycan mahalı idi. İnzibati-ərazi bölgüsü baxımından vahid Azərbaycan vilayəti aşağıdakı iri hissələrə – mahallara ayrılmışdı: Azərbaycan (Atropatena ərazisi), Arran, Şirvan, Muğan. Həmin hissələr isə öz növbəsində daha kiçik inzibati vahidlərə bölünmüşdü. Onların tərkibində Şəki, Naxçıvan, Qaradağ, Qarabağ, Güştasfi, Arasbar adlanan inzibati vahidlər mövcud olmuşdur. Şəki Şirvanın tərkibində, Qaradağ Azərbaycan mahalının tərkibində, Qarabağ, Naxçıvan, Güştasfi və Arasbar Arranın tərkibində idi. Azərbaycan ərazisi siyasi-inzibati-idarəçilik baxımından isə müxtəlif vaxtlarda tümənlərə, bəylərbəyliklərə, xanlıqlara, sultanlıqlara, məlikliklərə və s. ayrılmışdır.

Vahid Azərbaycanın sahəsini, ərazisinin miqdarını, ölçüsünü əks etdirən faktlar, göstəricilər də az olduğu qədər müxtəlifdir. Bunun səbəbi ərazilərimizin tarixən çoxalıb-azalmasıdır. Orta əsrlər Azərbaycanının ərazisi sabit qalmadığından onun neçə min kvadrat kilometr, nə qədər olması barədə vahid rəqəm axtarmağa dəyməz. Qeyd olunduğu kimi, XIII-XV əsrlərdə Azərbaycan ərazisi yığcam olduğundan onun ölçüsü də az olmalıdır. Həmin əsrlərdən əvvəlki və sonrakı dövrlərdə ərazimiz daha geniş olmuş və deməli, onu əks etdirən rəqəmlər də böyük olmalıdır. Azərbaycan ərazisi barədə orta əsr mənbələrində cüzi və həm də, dolaşıq faktlara, rəqəmlərə təsadüf olunur. XIV əsr müəllifi Həmdullah Qəzvininin məlumatı bu baxımdan maraqlıdır. O,

bildirir ki, Azərbaycan ərazisinin Bakıdan Xalxala kimi uzunluğu 95 fərsəng (təxminən 617 km), Bacrəvandan Sinan dağlarına kimi eni 55 fərsəngdir (təxminən 357 km) . Buradan Azərbaycanın 220.269 kv. km sahəyə malik olduğu müəyyən-[105-106]ləşir. Qeyd olunduğu kimi, müəllif burada yalnız Azərbaycan mahalının, yəni vahid Azərbaycanın bir hissəsi olan Azərbaycan mahalının, tarixi Atropatenanın sahəsini, ərazisini nəzərdə tutmuşdur. O, həmin ərazinin inzibati bölgüsünü verərkən də bilavasitə Cənubi Azərbaycan şəhərlərindən danışır və digər tərəfdən vahid Azərbaycanın başqa ərazilərini – mahallarını – Arran, Muğan, Şirvan və Güştasfini ayrı-ayrılıqda şərh edir, lakin onların sahəsinin nə qədər olduğunu göstərmir. Bu fakt özlüyündə müəllifin qeyd etdiyi rəqəmin təkcə müasir Cənubi Azərbaycan ərazisinə aid olduğunu bildirir.

Arranın sahəsi barədə də ilk mənbələrdə müəyyən rəqəmlərə rast gəlinir. Anonim «Əcaib əd-dünya» (XIII əsr) əsərində Arranın uzunluğunun 40 fərsəng (təxminən 260 km), eninin isə 30 fərsəng (təxminən 195 km) olduğunu göstərən fakt mövcuddur. Buradan Arran ərazisinin 50.700 kv. km olduğu müəyyənləşir. Şirvan və Muğan ərazilərinin sahəsi barədə isə ilk mənbələrdə məlumata təsadüf olunmur (ən azı bizə məlum deyil). Bununla yanaşı, Şirvan və Muğan ərazilərinin birlikdə Arran ərazisindən 2 dəfə artıq olduğunu söyləmək olar və onların təxminən 100.000 kv. km sahəni əhatə etdiyini qəbul etmək mümkündür.

Tədqiqatçıların Azərbaycan ərazisi haqda verdikləri rəqəmlər də diqqəti cəlb edir. XX əsrin əvvəllərində M.Vəliyev (Baharlı) Azərbaycanın 200,5 min kv. km əraziyə malik olduğunu yazırdı. Qeyd edək ki, bu rəqəm mövcud rəqəmlərin ən kiçiyidir və bəlkə də müəllif yalnız Cənubi Azərbaycanı (Atropatenanı) nəzərdə tutmuşdur. Akademik B.A.Budaqov tarixi Azərbaycanın 221,6 min kv. km əraziyə malik olduğunu xəbər verir. Onun göstərdiyi rəqəm XIV əsr müəllifi Həmdullah Qəzvininin məlumatı ilə təxminən eynidir (220.269 kv. km). Lakin bir məsələni nəzərdən qaçırmaq lazım deyil ki, Həmdullah Qəzvininin qeyd etdiyi rəqəm vahid Azərbaycanın deyil, onun tərkibindəki Azərbaycan mahalının (tarixi Atropatenanın) torpaqlarını əks etdirir. Deməli, B.A.Budaqovun göstərdiyi rəqəm də yalnız Azərbaycan mahalına şamil oluna bilər. Lakin müəllif, XIX əsrin ilk rübündə Azərbaycanın Rusiya və İran arasında parçalanması dövründə 135.000 kv. km ərazinin İranın tərkibində [106-107] qaldığını, 86.000 kv. km ərazinin isə Rusiyaya birləşdirildiyini yazmaqla, həmin rəqəmi vahid Azərbaycana şamil edir. Bəlli olduğu kimi, Rusiyaya ilhaq olunmuş ərazilərin sahəsi daha çox olmuş (təx. 140.000 kv. km), 86.000 kv. km ərazi yalnız 1920-ci illərdən sonra əlimizdə qalan ərazilər idi. Azərbaycanın orta əsrlər ərazisinin ölçüsü barədə növbəti rəqəm 300.000 kv. km-dir. Onun müəllifləri (Q.Cavadov, R.Hüseynov) bunu tarixi faktlarla əsaslandırmırlar. Tarixi ədəbiyyatda verilən digər rəqəm əvvəlkilərdən köklü surətdə fərqlənir: M.Dəmirli və M.Məmmədlinin məlumatına görə, vahid Azərbaycanın sahəsi 410.000 kv. km olmuşdur və XIX-XX əsrlərdə cərəyan etmiş siyasi hadisələr, müharibələr nəticəsində həmin ərazi 5 hissəyə bölünmüşdür. Onun 280.000 kv. km İranın tərkibində qalmış (indiki Cənubi Azərbaycan), 70.000 kv. km sahəsi, müəlliflərə görə, hal-hazırda Azərbaycan Respublikasının nəzarətindədir, 50.000 kv. km ərazi Ermənistan tərəfindən tutulmuş, Dərbənd ərazisi Rusiyanın, Borçalı isə Gürcüstanın tərkibindədir. Göründüyü kimi, Azərbaycanın orta əsrlərdəki sahəsini əks etdirən rəqəmlər biri-birindən əsaslı şəkildə fərqlənir. Azərbaycanın sahəsinin dəqiqləşdirilməsi vacib olduğu qədər də, siyasi əhəmiyyət kəsb edir. Bununla belə, orta əsrlər Azərbaycanının sahəsi barədə ilk mənbələrin məlumatının azlığı, tədqiqatçıların fikirlərindəki müxtəliflik vahid Azərbaycanın sahəsini dəqiq müəyyənləşdirməyə imkan vermir. Orta əsrlər vahid Azərbaycanın sahəsini müəyyənləşdirərkən ilk növbədə belə bir mühüm faktı nəzərə almaq lazımdır ki, həmin dövrlərdə, daha dəqiq desək, Xilafətin dövründən başlayaraq XIX əsrin əvvəllərinə kimi, əksər vaxtlarda Azərbaycan (Atropatena), Arran, Şirvan, Muğan və onların tərkibində olan Naxçıvan, Qaradağ, Qarabağ, Şəki, Güştasfi və Arasbar əraziləri siyasi-inzibati, ictimai-iqtisadi, mədəni və s. baxımdan vahid Azərbaycanın tərkib hissələri olmuş və eyni inzibati vahidə daxil idilər. Görkəmli rus şərqşünası A.Yakubovskinin yazdığı kimi, orta əsrlərdə Azərbaycan adı ilə İran və Sovet Azərbaycanını nəzərdə tuturdular. Digər tərəfdən, vahid Azərbaycanın hüdudları, sərhədləri Göycə mahalının qərbindən (bəzi vaxtlarda Göycə gölünün ortasından) Xəzərə və Gilan vilayətinə, Zəncanın cənubundan (bəzən Həmədandan) Dərbən-[107-108]din şimalına qədər uzandığından ölkənin sahəsini müəyyənləşdirərkən həmin ərazilərdəki müasir vilayətlərin, mahalların ərazilərini diqqət mərkəzində saxlamaq vacibdir. Odur ki, orta əsrlərdəki vahid Azərbaycanın ərazisinin, sahəsinin müasir Cənubi Azərbaycan (280.000 kv. km və ya 221,6 min kv. km), Şimali Azərbaycan (tarixi Arran,

Şirvan və Muğan əraziləri – təx. 97.000 kv. km), 1806-cı ildə çar Rusiyasına ilhaq olunmuş Dərbənd xanlığının ərazisi (təx. 10.000 kv. km), eləcə də İrəvan xanlığının və Borçalı mahalının ərazilərinin cəmindən ibarət olduğunu qəbul etmək daha düzgün və məntiqli hesab olunmalıdır. Göstərilən ərazilərin cəmi isə heç də kiçik deyildir və Azərbaycanın orta əsrlərdə ən azı 400.000 kv. km-dən artıq əraziyə malik olduğunu söyləməyə imkan verir. Daha dəqiq rəqəm isə gələcək tədqiqatlar nəticəsində əldə oluna bilər.

(Bax: 12; 16; 20; 23; 41; 48; 51; 75; 100)

## *XII m ö v zu :* Azərbaycanın XIX-XX əsrin əvvəllərindəki tarixi-siyasi coğrafiyası

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində Azərbaycanda feodal pərakəndəliyi hökm sürürdü. Ölkənin ərazisi 30 hissəyə – xanlıqlara, sultanlıqlara, məlikliklərə bölünmüşdü. Azərbaycan dövlətçiliyini təcəssüm etdirən həmin dövlət qurumları öz varlıqları ilə əslində Azərbaycanın gələcək taleyinə sarsıdıcı zərbə hazırlayırdılar. İran və Rusiyanın maraq dairəsində olan Azərbaycan ərazisində tərəflər qanlı döyüşlər aparır, xanlıqlarla vuruşur, onları danışıqlar və ya zor gücünə öz nüfuz dairələrinə keçirməyə və son nəticədə Azərbaycanı parçalamağa can atırdılar və buna nail oldular. XIX əsrin I rübündə cərəyan edən hadisələr Azərbaycanın tarixi-siyasi coğrafiyasına əsaslı təsir etdi.

XIX əsrin ilk 30 ilində gedən İran-Rusiya müharibələri 2 mərhələdə davam etmişdir. 1804-1813-cü illərdə baş vermiş ilk mərhələ Gülüstan müqaviləsi (24.09.1813) ilə başa çatdı. İran tərəfi Aslandüz döyüşündə ciddi məğlubiyyətə uğradığından sülh [108-109] təklif etdi. 1814-cü ilin sentyabrın 15-də qüvvəyə minmiş həmin müqavilənin şərtlərinə görə Azərbaycanın 7 xanlığının ərazisi – Bakı, Qarabağ, Gəncə, Quba, Şəki, Şirvan və Lənkəran xanlıqlarının əraziləri Rusiyaya verildi. Bu müqavilə ilə Şərqi Gürcüstan və Dağıstan əraziləri də Rusiyanın himayəsinə keçdi və Rusiya Xəzərdə hərbi donanma saxlamaq hüququ əldə etdi, rus tacirləri isə İranda daxili gömrükdən azad olundular. Gülüstan müqaviləsi Azərbaycanın parçalanmasının əsasını qoydu, Azərbaycan xalqı iki yerə bölündü.

1826-1828-ci illərdə gedən İran-Rusiya müharibəsində də İran tərəfi ciddi məğlubiyyətə uğradı və Təbrizin rus qoşunları tərəfindən tutulması tərəflər arasında yeni müqavilənin imzalanmasına səbəb oldu. 1827-ci ilin noyabrın 7-də Təbrizin yaxınlığındakı Türkmənçay kəndində bağlanmış və 1828-ci ilin fevralın 10-da qüvvəyə minən həmin müqavilə Azərbaycanın parçalanmasını bir daha qanuniləşdirdi: Gülüstan müqaviləsinin şərtləri təsdiq olunmaqla yanaşı, Naxçıvan xanlığı, Ordubad dairəsi və İrəvan xanlığının əraziləri də Rusiyaya verildi və digər müddəalar təsdiq olunmaqla (20 mln. gümüş pulla təzminat verildi, Xəzər Rusiyanın daxili dənizi hesab edildi, Abbas Mirzə vəliəhd kimi tanındı, dövlətlər arasında səfarətxanalar açıldı) Azərbaycanın iki hissəyə parçalanması faktı rəsmiləşdirildi.

Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycanın orta əsrlərdəki vahid ərazisi iki qismə bölündü və artıq 2 əsrə yaxındır ki, həmin vəziyyət davam etməkdədir. Təxminən 400.000 kv. km ərazinin böyük hissəsi İranın tərkibində qaldı. Tarixi ədəbiyyatda həmin hissənin 135.000, 142.350, 220.000 kv. km, hətta 280.000 kv. km olduğu barədə məlumat verilir. Rusiyaya ilhaq olunmuş ərazilərin ölçüsü isə təxminən 114.000 kv. km-ə (bəlkə də 140.000 kv. km və daha artıq) bərabərdir. Bu hadisə ölkənin tarixi-siyasi coğrafiyasında dərin iz qoydu. Azərbaycanın cənub və şimalında müxtəlif inzibati-idarə üsulu tətbiq olundu, həmin dövlətlərin idarə sisteminə uyğun dəyişikliklər aparıldı.

Azərbaycanın 2 yerə bölünməsi tarixi ədəbiyyatda şərti olaraq «Cənubi Azərbaycan», «İran Azərbaycanı», «Şimali Azərbaycan», «Rusiya Azərbaycanı» kimi terminlərin meydana [109-110] gəlməsinə səbəb oldu. Onlar uzun müddət ictimaiyyət tərəfindən istifadə olundu. 1918-ci ildə Azərbaycan Cümhuriyyəti dövlət parlamentinin öz bəyannaməsində «Azərbaycan» adını işlətməsi İranın narazılığına səbəb oldu: İran Azərbaycan hökumətini «İran Azərbaycanı»nı Türkiyəyə vermək istəməsində günahlandırdı. Azərbaycan hökuməti bir müddət Şimali Azərbaycan ərazisini «Qafqaz Azərbaycanı» adlandırmalı oldu. 1920-ci ilin aprel hadisələrindən

sonra ölkənin adı daha çox «Sovet Azərbaycanı» şəklində işləndi. Bundan əlavə, Azərbaycanın parçalanmış hissələri «Güney Azərbaycan» və «Qüzey Azərbaycan» istilahları ilə də tanınır. Azərbaycanın bölünməsi ölkə əhalisinin adına da təsir göstərdi. Belə ki, şimalda yaşayanlar cənubdakı qardaşlarını «azərbaycanlı», cənubdakılar isə şimaldakıları «türk» adlandırmağa başladılar. Əslində uzun müddət işlədilmiş «Sovet və ya Şimali Azərbaycan» və ya «İran və ya Cənubi Azərbaycan» terminləri siyasi məna kəsb edən terminlərdir. Onlar eyni etnik mənşəyə, dilə, dinə, adət-ənənəyə malik vahid bir xalqın məskunlaşdığı ərazinin iki yerə bölündüyü vaxtdan meydana gəlmiş, ilk vaxtlarda coğrafi məna kəsb etsə də, sonralar siyasi xarakter daşımışdır. Bununla yanaşı, Şimali və Cənubi Azərbaycanın müxtəlif dövlətlərin, ictimai quruluşların tərkibində qalması onların siyasi, ictimai-iqtisadi, mədəni və mənəvi həyatına müxtəlif şəkildə təsir göstərmiş, tarixi-siyasi coğrafiya baxımından ayrı-ayrı istiqamətlərdə inkişafına səbəb olmuşdur.

Müdhiş Türkmənçay müqaviləsinə görə İranın tərkibində qalan Azərbaycan ərazisi ölkənin 4 əyalətindən birini təşkil edirdi. Azərbaycan əyalətinə ilk vaxtlarda cənubda Həmədan, cənubi-şərqdə Zəncan və Qəzvin mahalları da daxil idi. Sonralar Azərbaycan əyalətinin inzibati sərhədləri daraldılmış və 1905-ci ildə qəbul olunmuş nizamnaməyə görə, bu əyalət Təbriz, Urmiya, Xoy, Deyləman, Maku, Marağa, Binab, Miyandaab, Savucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Mişkin, Astara, Xalxal, Sarab, Miyanə və Sainqala mahallarını birləşdirirdi. 1984-cü ildə qəbul olunmuş İranın rəsmi inzibati-ərazi bölgüsünə əsasən Cənubi Azərbaycan adlandırdığımız əraziyə 142.350.7 kv. km sahəni tutan (İran ərazisinin təx. 9%-i) Şərqi Azərbaycan (mərkəzi Təbriz), Qərbi Azərbaycan (Urmiya) və Zəncan [110-111] (Zəncan) ostanları daxildir.

Azərbaycanlılar İranda say etibarilə farslardan sonra ikinci yeri tuturlar. XIX əsrin sonlarında İranda azərbaycanlıların sayı 2 mln-a yaxın idi. Onlardan 1 mln. kənd əhalisi, 0,5 mln. şəhər əhalisi, 0,5 mln. isə yarımköçərilərdən ibarət idi. XX əsrin ortalarında İrandakı azərbaycanlıların sayı 16-18 mln. (32-36%) olmuş və bunlardan 7-9 mln-u Cənubi Azərbaycanda məskunlaşmışdır. 90-cı illərin əvvəllərində aparılmış hesablamalara görə, İranda 28.315.000 azərbaycanlı yaşayır. Onların böyük bir qismi (təx. 20 mln.) Cənubi Azərbaycanda, qalanı isə İranın digər ərazilərində məskunlaşmışdır.

Çar Rusiyasının tərkibinə qatılmış Şimali Azərbaycanda isə tarix-siyasi coğrafiya baxımından hadisələr başqa cür cərəyan edir: Azərbaycan xanlıqlarının bəziləri – Qarabağ, Şəki, Şamaxı ruslara ciddi müqavimət göstərmədiklərindən onların xanlıq idarə sistemi bir müddət mühafizə olunur. Gəncə, Bakı, Quba xanlıqlarında isə xanlıq üsul-idarəsi ləğv olunur. Lakin Qarabağ, Şəki və Şamaxı və eləcə də, Lənkəranda da xanlıq idarə üsulu uzun sürmədi. Keçmiş xanlıqlar və sultanlıqlar ilk vaxtlarda əyalətlərə və dairələrə çevrildilər: 6 əyalət – Bakı (1808), Quba (1810), Şəki (1819), Şirvan (1820), Qarabağ (1822) və Talış (1826), 2 dairə – Yelizavetpol (1804) və Car-Balakən və 2 distansiya – Qazax (1812) və Şəmşədil (1812) təşkil olundu. Əyalət və dairələri çar zabitləri idarə edirdi. Buna komendant idarə üsulu deyilirdi. Əyalətlər, xanlıqlar dövründə olduğu kimi, mahallara bölünmüşdü və naiblər tərəfindən idarə olunurdu.

Əsrin ortalarında ölkədə müəyyən islahatlar keçirildi; 1840-cı ildə komendant idarə üsulu ləğv edildi: quberniyalar və mahallar əvəzinə qəzalar yaradıldı. Ön Qafqaz Gürcüstan-İmeretiya quberniyasına və Kaspi vilayətinə bölündü. 1841-ci ilin yanvarın 1-də təsis edilmiş Kaspi vilayətinə (mərkəzi Şamaxı şəhəri olmaqla) Şimali Azərbaycan torpaqlarının əksəriyyəti daxil olundu. Onun tərkibində 7 qəza – Şamaxı (keçmiş Şirvan əyaləti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzaları daxil idi. Bu inzibati bölgüyə əsasən Qazax və [111-112] Şəmşədil distansiyaları ilə birlikdə Yelizavetpol qəzası, Car-Balakən vilayəti və İlisu sultanlığından yaranmış Balakən qəzası, İrəvan qəzası və Ordubad dairəsi ilə birlikdə Naxçıvan qəzası Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatılmışdı. Qəzalar nahiyələrə bölünürdü. Azərbaycan ərazisində cəmi 32 nahiyə yaradılmışdı. Kaspi vilayəti 1846-cı ilin dekabrında inzibati islahata əsasən ləğv edildi.

Şimali Azərbaycan əraziləri çar Rusiyasının sonralar həyata keçirdiyi əsaslı inzibati dəyişikliklər və nisbətən lokal xarakterli tədbirlər nəticəsində mütəmadi olaraq dəyişilmiş, ölkənin ayrı-ayrı əraziləri bir inzibati vahiddən çıxarılaraq digərinin tərkibinə qatılmış, yeni inzibati vahidlər yaranmış, köhnələri ləğv edilmişdir. Şimali Azərbaycanın XIX-XX əsrin əvvəllərindəki

inzibati-ərazi bölgüsü, aparılmış tədbirlər nəticəsində, 4 dəfə ciddi təbəddülata uğramışdır. Odur ki, həmin dövrdəki inzibati vəziyyəti 4 mərhələ üzrə ümumiləşdirmək məqsədəuyğundur:

1. Azərbaycanın XIX əsrin əvvəllərindəki inzibati bölgüsü;
2. Azərbaycanın 1840-cı ildəki inzibati bölgüsü;
3. Azərbaycanın 1846-1860-cı illərdəki inzibati bölgüsü;
4. Azərbaycanın 1868-1917-ci illərdəki inzibati bölgüsü.

Nəzərə almaq lazımdır ki, əsrin 60-cı illərində həyata keçirilən inzibati tədbirlər nəticəsində sabitləşmiş inzibati-ərazi bölgüsü, kiçik dəyişikliklərlə, XX əsrin 20-ci illərinin sonuna kimi mövcud olmuşdur. Quberniyaların fəaliyyətinə inqilab illərində son qoyulsa da, qəzalar 1929-cu ilin inzibati islahatlarına kimi fəaliyyət göstərmişlər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın (ümumiyyətlə, Qafqazın) XX əsrin ilk illərindəki tarixi-siyasi coğrafiyasının ümumi mənzərəsini təsəvvür etmək üçün 1903-cü ildə çəkilmiş və 1993-cü ildə Bakıda təkrarən nəşr olunmuş «Карта Кавказского военного округа 1903 года» xəritəsi mühüm əhəmiyyət kəsb edir. Xəritədən göründüyü kimi, Şimali Azərbaycanın əsas ərazisi Bakı, Yelizavetpol və İrəvan quberniyalarının tərkibində idi. Bakı quberniyası 6 qəzaya (Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Lənkəran), Yelizavetpol quberniyası 8 qəzaya (Yelizavetpol, Ərəş, Nuxa, Cavanşir, Qazax, Şuşa, Qaryagin, Zəngəzur qəzaları) və bir dairəyə (Zaqatala), İrəvan quberniyası 7 qəzaya (İrəvan, [112-113] Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bayəzid, Sürməli, Eçmiəzzin, Aleksandropol) bölünmüşdü. Azərbaycanın tarixi əraziləri olan İrəvan, Naxçıvan, Göycə mahalı, Şərur-Dərələyəz, Yeni Bayəzid əraziləri İrəvan quberniyasının, Borçalı Tiflis quberniyasının, Dərbənd isə Dağıstan vilayətinin tərkibində idi.

Azərbaycanda fəaliyyət göstərmiş quberniya və qəzaların tarixi barədə qısa xronoloji məlumat onların fəaliyyətlərinin müəyyənləşdirilməsində əhəmiyyət kəsb edir. Hələ 1840-41-ci illərdə çar Rusiyasının həyata keçirdiyi inzibati-ərazi islahatları nəticəsində Şimali Azərbaycan ərazisində aşağıdakı qəzalar yaradılmış və müəyyən müddət fəaliyyət göstərmişlər:

1840-cı ilin aprelin 10-da Kaspi vilayətinin tərkibində təsis olunmuş ***Bakı qəzası*** sonralar Şamaxı və Bakı quberniyalarının tərkibində olmuş və onların ərazisinin 10%-dən çoxunu əhatə etmişdir. 1888-ci il 10 may tarixli qərara əsasən 3 məntəqəyə – Balaxanı-Sabunçu, Maştağa və Saray məntəqələrinə bölünmüşdü. 1906-cı ildə qəzanın ərazisi 2 yerə ayrıldı. Bakı qəzasının tərkibində yalnız kənd icmaları qaldı. Şəhərdaxili ərazilər isə müstəqil inzibati vahidə çevrildi. Bakı qəzası 1929-cu ildə ləğv edilmişdir.

***Quba qəzası*** da 1840-cı ildə Quba xanlığının Rusiyaya ilhaqından sonra yaradılmış Quba əyaləti zəminində təsis edilmişdir. 1832-ci ildə Quba əyaləti Dərbənd hərbi dairəsinin tərkibinə daxil olmaqla 10 mahala bölünmüşdü. Mahallar ləğv edildikdən sonra Quba qəzası yaradıldı və 4 məntəqəyə – Quba, Həzrə, Buduq və Şabran məntəqələrinə bölündü. Sonralar Quba qəzası Dərbənd quberniyasının (1846) və Bakı quberniyasının (1860) tərkibində olmuşdur. Onun fəaliyyətinə 1929-cu ildə son qoyulmuşdur.

1840-cı ildə yaradılmış ***Yelizavetpol qəzası*** da 4 məntəqədən – Qazax, Şəmşədil, Yelizavetpol və Ayrım məntəqələrindən ibarət idi. 1918-ci ildə Gəncə qəzası adlandırılmışdır və 1929-cu ildə ləğv edilmişdir.

***Lənkəran qəzası*** 1842-ci ildə yanvarın 1-də Kaspi vilayətinin tərkibində təsis olunmuşdur. Sonra Şamaxı və nəhayət, Bakı quberniyalarının tərkibində fəaliyyət göstərmişdir. Müasir Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarının ərazisini birləşdirirdi. Mərkəzi Lənkəran idi. Sahəsi 5321,5 kv. km idi. 1929-cu ildə ləğv edilmişdir. [113-114]

***Nuxa qəzası*** da 1841-ci ildə təsis edilmişdir. Əvvəlcə Kaspi vilayətinin, 1846-cı ildən Şamaxı quberniyasının, 1859-cu ildən Bakı quberniyasının və nəhayət, 1868-ci ildən Yelizavetpol quberniyasının tərkibində olmuşdur. Mərkəzi Nuxa şəhəri olan bu qəzanın ərazisində Nuxa, Xaçmaz, Qəbələ və Ərəş məntəqələri var idi. Sahəsi 3808,7 kv. km idi. 1929-cu ildə ləğv edilmişdir.

***Naxçıvan qəzası*** 1841-ci il yanvarın 1-də Gürcüstan-İmeretiya quberniyasının tərkibində yaradılmışdır. 1849-cu ildə İrəvan quberniyasının tərkibinə daxil edilmişdir. Mərkəzi Naxçıvan şəhəri idi. Naxçıvan, Ordubad, Dərələyəz məntəqələrinə bölünmüşdü. Sahəsi 4378 kv. km, əhalisi 86878 nəfər idi (1896-cı ilin məlumatına görə). Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra Naxçıvan qəzasının ərazisi Naxçıvan SSR (28.07.1920), daha sonra Naxçıvan ölkəsinin (27.02.1923) və nəhayət Naxçıvan MSSR-nın (9.02.1924) tərkibinə daxil oldu. Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar 1929-cu ildə ləğv edildi.

***Şamaxı qəzası*** 1840-cı il aprelin 10-da Kaspi vilayətinin tərkibində yaradılmışdır. Quba,

Bakı, Cavad və Göyçay qəzaları ilə həmsərhəd idi. 1846-cı ildən Şamaxı, 1859-cu ildən Bakı quberniyasına daxil olmuşdur. Mərkəzi Şamaxı şəhəri, ərazisi 6653 kv. km, əhalisi 123610 nəfər idi (1897). 1929-cu ildə ləğv edilmişdir.

***Şuşa qəzası*** 1841-ci ildə Kaspi vilayətinin tərkibində təsis edilmişdir. Cavanşir, Göyçay, Cavad, Cəbrayıl və Zəngəzur qəzaları ilə hüdudlanırdı. Mərkəzi Şuşa şəhəri idi. 1846-cı ildən Şamaxı, 1859-cu ildən Bakı və 1867-ci ildən Yelizavetpol quberniyalarının tərkibində fəaliyyət göstərmişdir. Şuşa qəzası 4911 kv. km sahəyə malik idi və Mığri, Kəbirli, Zəngəzur, Cavanşir, Çilabert və Vərəndə məntəqələrinə bölünmüşdü. 1929-cu ildə Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar ləğv edilmişdir.

1844-cü ildə aparılmış inzibati dəyişikliklər zamanı bütün Qafqaz «Qafqaz canişinliyi»ndə birləşdirildi. Mərkəzi Tiflis olan bu canişinlikdə Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları təsis olundu. Qafqaz canişinliyi 1883-cü ildə ləğv edildi, lakin 1905-ci ilin fevralın 26-da yenidən bərpa olundu və 1917-ci ilin martın 9-a kimi fəaliyyət göstərdi. Canişinliyin tərkibində Şamaxı quberniyası yaradılsa da, Quba qəzası Dərbənd quberniyasına, Gəncə isə Tiflis quberniyasına daxil edilmişdi. [114-115]

Qeyd olunduğu kimi, çar Rusiyası Qafqazda inzibati-ərazi islahatlarını vaxtaşırı davam etdirmiş və yeni bölgülər yaratmışdır. Ölkə ərazisinin quberniyalar şəklində bölünməsi bu baxımdan diqqəti cəlb edir. 1846-cı ildə yaradılmış Şamaxı quberniyası əslində Azərbaycan torpaqlarının əsas hissəsini birləşdirirdi. Onun tərkibinə Şamaxı, Şuşa, Nuxa, Bakı və Lənkəran qəzaları daxil idi. 1859-cu ildə quberniyanın mərkəzi şəhərində – Şamaxıda güclü zəlzələ baş verdiyindən bu quberniya Bakı quberniyası (mərkəz Bakı olmaqla) adlandırılır. Bakı quberniyasının tərkibinə adı çəkilən qəzalarla yanaşı Xəzər dənizindəki adalar – Böyük Zirə (Nargin), Daş Zirə (Vulf), Pirallahı (Artyom), Çilov (Jiloy) adaları da daxil idi. Dərbənd quberniyasının ləğvindən sonra (V.1860) Quba qəzası da Bakı quberniyasının tərkibinə qatıldı. 1867-ci ildə isə Şuşa və Nuxa qəzaları Bakı quberniyasından Yelizavetpol quberniyasına verildi. Həmçinin Bakı quberniyasında Cavad və Göyçay qəzaları yaradıldı. Bakı quberniyası Dağıstan vilayəti, Nuxa və Şuşa qəzaları, Astara və Araz çayları və Xəzər dənizi ilə həmsərhəd idi. 1897-ci ilin məlumatına görə əhalisi 789.659 nəfər olmuşdur. 1906-cı ildə (28.X) Bakı və onun fabrik-mədən rayonları Bakı quberniyasından ayrılaraq Bakı qradonaçalnikliyi kimi ayrıca inzibati-ərazi vahidinə çevrildi və Bakı və Balaxanı-Sabunçu polismeysterliklərinə bölündü. Bakı quberniyası 1920-ci ildə ləğv edilmişdir.

1849-cu ildə yaradılmış İrəvan quberniyasının tərkibinə İrəvan, Aleksandropol (Leninakan) və Nor-Bayəzid qəzaları daxil idi. Tiflis, Yelizavetpol quberniyaları, Türkiyə və İran Azərbaycanı ilə həmsərhəd idi. 1867-ci ildə Ordubad qəzası da ləğv edilərək ərazisinin bir hissəsi İrəvan quberniyasının tərkibinə qatıldı. Sahəsi 27830 kv. km olmuşdur. 1920-ci ildə (29.XI) İrəvan quberniyasında Sovet hakimiyyəti fəaliyyətə başladı.

1867-ci ildə çar Rusiyası inzibati baxımdan daha ciddi tədbirlər həyata keçirdi. Həmin ilin dekabrın 9-da verilmiş «Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında» çar fərmanına əsasən ölkənin inzibati-ərazi bölgüsündə bəzi dəyişikliklər aparıldı: yeni quberniya və qəzalar yaradıldı və bu zaman meydana gələn inzibati-ərazi bölgüsü keçən əsrin 20-ci illərinə kimi ciddi təbəddülata uğramadı. 1868-ci ildə Bakı, Tiflis və İrəvan quberniyalarının hesabına Yeliza-[115-116]vetpol quberniyası yaradıldı. Mərkəzi Yelizavetpol (Gəncə) şəhəri olan bu quberniyanın tərkibinə Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Cavanşir, Qaryagin, Zəngəzur və Şuşa qəzaları daxil idi. Sahəsi 39982 kv. km olmuşdur. 1905-ci ildə Yelizavetpol quberniyasının ərazisində 2 müvəqqəti general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir və Şuşa qəzalarını, digəri isə qalan əraziləri əhatə edirdi.

1867-ci il fərmanının həyata keçirilməsi bir müddət davam etdirilmiş və 1867-1873-cü illərdə Azərbaycan ərazisində aşağıdakı qəzalar da təsis olunmuşdur:

- ***Göyçay qəzası*** Bakı quberniyasının tərkibində yaradıldı (1867). Onun sahəsi 4988 kv. km idi. Mərkəzi Göyçay məntəqəsi olmuşdur. Fəaliyyətinə 1929-cu ildə son qoyuldu.
- 1868-ci ildə Bakı quberniyasının tərkibində ***Cavad qəzası*** yaradıldı. Mərkəzi Salyan şəhəri olan bu qəzanın 11617 kv. km sahəsi var idi və Bakı, Göyçay, Lənkəran, Cəbrayıl, Şamaxı və Şuşa qəzaları və Cənubi Azərbaycanla həmsərhəd idi. 1929-cu ildə ləğv edildi.
- Həmin ildə (1868) Yelizavetpol quberniyasının tərkibində yaradılan ***Qazax qəzası*** 5908 kv. km sahəyə malik idi. Mərkəzi Ağstafa olan bu qəza da 1929-cu ildə ləğv edilmişdir.
- 1870-ci ildə İrəvan quberniyasının tərkibində ***Şərur-Dərələyəz qəzası*** yaradıldı. İrəvan, Yeni Bayəzid, Cavanşir, Naxçıvan qəzaları və Güney Azərbaycanla həmsərhəd olan həmin qəza

(mərkəzi Baş Noraşen) 2972,3 kv. km sahəni əhatə edirdi. Onun da fəaliyyətinə 1929-cu ildə son qoyulmuşdur.

- ***Zəngəzur qəzası*** Naxçıvan, Şərur-Dərələyəz, Cavanşir, Şuşa və Qaryagin qəzaları və Cənubi Azərbaycanla həmsərhəd olmuşdur. Onun mərkəzi Gorus məntəqəsi idi.

- 1873-cü ildə Yelizavetpol quberniyasında təsis olunmuş ***Ərəş qəzası*** Nuxa, Göyçay, Cavanşir, Yelizavetpol qəzaları və Zaqatala dairəsi ilə hüdudlanırdı və 3212, 5 kv. km sahəyə malik idi. Fəaliyyətinə 1929-cu ildə son qoyuldu.

- 1873-cü ildə Yelizavetpol quberniyasında 2 qəza – Cəbrayıl və Cavanşir qəzaları yaradılır. Şuşa, Zəngəzur, Cavad qəzaları və İran Azərbaycanı ilə həmsərhəd olan ***Cəbrayıl qəzası*** (mərkəzi Cəbrayıl məntəqəsi) 3332 kv.km sahəyə, Ərəş, Yelizavetpol, Zəngəzur, Şuşa qəzaları və İrəvan quberniyası ilə sərhəd-[116-117]lənən ***Cavanşir qəzası*** (mərkəzi Tərtər məntəqəsi) isə 5497 kv.km sahəyə malik idi. Hər 2 qəzanın fəaliyyəti 1929-cu ildə başa çatdı.

XIX-XX əsrlərdə Azərbaycan ərazisində inzibati-ərazi bölgüsü baxımından **«dairə»** statusuna malik ərazi vahidi də mövcud olmuşdur. Dairə heç bir quberniyanın tərkibinə daxil olmayıb hərbi rəislər tərəfindən idarə edilirdi. Azərbaycanda fəaliyyət göstərmiş ***Zaqatala dairəsi*** 1860-cı ildə təsis edilmişdir. Bu dairə Dağıstan vilayəti, Tiflis və Yelizavetpol quberniyaları ilə həmsərhəd olmuşdur. Sahəsi 3736 kv. km idi. Tərkibinə Əliabad, Qax, Car-Muxax, Balakən məntəqələri daxil idi. Onun fəaliyyətinə də 1929-cu ildə son qoyuldu.

XIX əsrin ilk rübündəki İran-Rusiya müharibələri Azərbaycanın təsərrüfat həyatına ciddi ziyan vurmaqla yanaşı onun əhalisinin azalmasına və eyni zamanda ölkəyə erməni-rus axınının baş verməsinə səbəb oldu. Təkcə 1826-28-ci illərdə İran və Türkiyə ərazilərindən 18.000 erməni ailəsi Ön Qafqaza, o cümlədən Qarabağa köçürülmüşdür. 1828-30-cu illərdə isə Qafqaza daha 40.000-dən çox İran, 84.000 Türkiyə ermənisi köçürüldü və onlara 200.000 desyatindən çox torpaq sahəsi ayrıldı. Azərbaycana rus axını daha güclü şəkildə baş verdi. Hələ 1818-ci ildə ilk xristian almanlar bu ərazilərə köçürüldülər (Yelenendorf, Annefeld koloniyaları). 1830-cu illərdə burada ilk rus məskənləri (Qusar kəndi) meydana gəldi. Daha sonra Dmitrovka (Şamaxı) və Altıağac, Xankəndi, Pravoslavnoe (Lənkəran) adlı rus kəndləri yarandı. Çox keçmədən Şamaxı qəzasında 8, Lənkəran qəzasında 6, Qazax qəzasında 3, Yelizavetpol qəzasında 2 rus kəndi meydana gəldi. Əsrin II yarısında davam edən həmin proses nəticəsində 1900-cü ilə yaxın Şimali Azərbaycanda 41 rus kəndi fəaliyyət göstərirdi. Onların 25-i Bakı quberniyasında, 15-i Yelizavetpol quberniyasında, 1-i isə Naxçıvan qəzasında idi. Özünə «xristian dayağı» yaratmaq məqsədilə çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti, erməni və rusların ölkəyə axını Azərbaycan əhalisinin tərkibinə müəyyən təsir göstərdi və XX əsrdə baş verəcək erməni hərəkatı üçün zəmin yaratdı.

(Bax: 11; 13/IV; 15; 81) [117-118]

## *XIII mövzu:* Azərbaycan Xalq Cümhuriyyəti: ərazisi, sərhədləri, inzibati-ərazi bölgüsü

1917-ci ilin fevral burjua inqilabından sonra Cənubi Qafqazda siyasi vəziyyət gərginləşir və regiondakı vilayətlər özlərinin gələcək fəaliyyətləri üçün tədbirlər görməyə başlayırlar. Çox keçmədən Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı sayılan Zaqafqaziya seymi fəaliyyətə başlayır (23.II.1918). Azərbaycanın seymdəki fraksiyasına M.Ə.Rəsulzadənin başçılığı ilə 44 deputat daxil idi. 1918-ci ilin aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan olunur və Azərbaycandan onun tərkibinə 5 nümayəndə daxil edilir. Lakin bu tədbirlərin heç biri bölgənin vəziyyətini tənzimləyə bilmir, mövcud ziddiyyətləri aradan qaldırmır. Seymin səbatsızlığını görən Gürcüstan onun tərkibindən çıxır (26.V.1918) və beləliklə də, Zaqafqaziya seyminin buraxıldığı elan olunur. Mayın 27-də seymdəki Azərbaycan fraksiyası fövqəladə iclas keçirib Milli şura yaradır. Milli şura mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan olunması barədə qərar qəbul edir və «İstiqlal bəyannaməsi» hazırlanaraq dünyanın böyük dövlətlərinə göndərilir. Bununla da, Azərbaycan Cümhuriyyəti fəaliyyətə başlayır. İyunun əvvəllərində Tiflisdən Gəncəyə köçən Azərbaycan hökuməti bir sıra manеələrlə üzləşsə də, Türkiyə ilə olan anlaşılmazlığın qarşısı alınır. Daha sonra Bakı sovetinin Gəncə üzərinə yürüşü dəf olunur və nəhayət, sentyabrın 15-də

Bakı azad edilərək dövlət idarəçiliyi burada cəmləşir. Lakin dövlət quruculuğu sahəsində ilk ciddi addımlarını atan Azərbaycan Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərə bildi. Onun fəaliyyət dövrü 3 mərhələyə ayrılır: hökumətin ilk addımları və tədbirləri dövrü (VI-XII.1918); dövlətin möhkəmlənməsi dövrü (XII.1918-XII.1919); Azərbaycan Cümhuriyyətinin zəifləməsi və süqutu dövrü (XII.1919-IV.1920).

Şərqdə, islam aləmində və türk dünyasında demokratik idarə üsulunu tətbiq etmiş ilk Respublika sayılan Azərbaycan Cümhuriyyəti 1920-ci ilin əvvəllərində bir sıra daxili və xarici [118-119] amillər üzündən tədricən zəifləməyə başladı və həmin ilin aprelin 27-dən 28-nə keçən gecə Bakıya soxulan XI ordu tərəfindən süquta uğradıldı. Qısa müddətdə mövcud olmasına baxmayaraq, Azərbaycan Cümhuriyyəti Azərbaycan tarixində xüsusi mövqeyə malikdir və Azərbaycan dövlətçiliyinin bərpası, demokratik idarə üsulunun tətbiqi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Cümhuriyyətinin əldə etdiyi nailiyyətlər içərisində ölkə ərazisinin nisbətən qorunub saxlanılması mənəvi və siyasi cəhətdən diqqəti cəlb edir. Ümumiyyətlə götürüldükdə, Azərbaycan hökuməti ərazi məsələsində 3 tərəfli təsirlərə məruz qalmışdı. Bir tərəfdən, Lənkəranda yad qüvvələr Azərbaycan hökumətini tanımır, digər tərəfdən Qarabağ, Zəngəzur, Naxçıvanda erməni daşnaqlarının təcavüzü artır, üçüncü tərəfdən isə şimaldan denikinçilər Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar. Həmin qısa dövr ərzində Azərbaycanda tarixi-siyasi coğrafiya baxımından bir sıra işlər görülmüş, tədbirlər həyata keçirilmişdir. Təəssüf ki, Azərbaycan hökumətinin bu sahədəki ilk addımı uğursuz oldu. Bilindiyi kimi, Cənubi Qafqazda seym buraxıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxdı. İlk günlərdə erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı edilməsi barədə Azərbaycan hökumətinə müraciət etdi. Batumda 1918-ci ilin mayın 29-da keçirilən danışıqlarda Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiəzzin qəzasının Ermənistana verilməsinə razılaşdı. Türkiyənin bu işə müsbət münasibət bəsləməsi də məsələnin həmin şəkildə həllində az rol oynamadı. Lakin bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər. Tarix göstərdi ki, ermənilər həmin iddialarından vaz keçmədilər. Azərbaycan milli şurasının bu addımı isə kobud səhv və ümummilli mənafeyə vurulmuş ağır zərbə oldu. Tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan torpaqlar – Göycə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Azərbaycanın qərb sərhədləri Göycə gölü ilə məhdudlaşdı. Göycə gölü iki respublika – Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Gölün şərq hissəsi «Göycə dairəsi» statusu ilə Azərbaycan Cümhuriyyətinin tərki-[119-120]bində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bayəzid qəzasının şərq torpaqlarını əhatə edirdi və Göycə gölünün şimalındakı Maralicə dağın qərbindən başlayaraq gölün şərq tərəfi ilə cənuba doğru uzanır və Maraldağın qərbinə çatırdı.

Ermənistanın Naxçıvana olan iddiaları isə puç oldu. 1918-ci ilin avqustun 7-də K.Qarabəkir paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil olur və Andronikin buradakı özbaşınalığına son qoyulur. Lakin türk ordusu Naxçıvandan (ümumiyyətlə, Qafqazdan) çıxdıqdan sonra vəziyyət yenidən kəskinləşir. Ermənilərin növbəti həmlələrinin qarşısını almaq üçün 1918-ci ilin noyabrında yerli azərbaycanlı əhalisi Naxçıvanda Araz-Türk Respublikası təsis edir. Mərkəzi əvvəl Qəmərli, sonra isə Naxçıvan olan həmin Respublikaya Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli və Mehri əraziləri daxil idi. 1919-cu ilin mart ayına kimi fəaliyyət göstərmiş həmin respublika bölgənin ermənilərin əlinə keçməsinin qarşısını aldı, Azərbaycan Xalq Cümhuriyyətinin bütövlüyünü təmin etdi. Araz-Türk Respublikasının süqutu ərəfəsində, 1919-cu ilin fevralın 28-də hökumətin qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Onun tərkibinə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Vedibasar və s. ərazilər daxil idi. Buna baxmayaraq, 1919-cu ilin may-iyun aylarında ingilis komandanlığının razılığı ilə Naxçıvan bölgəsində erməni idarəçiliyi təşkil olundu. Buna ciddi narazılıq edən Naxçıvan əhalisi iyulun 19-25-də hərbi əməliyyatlar keçirərək erməni qoşunlarını darmadağın etdi və «erməni idarəçiliyi» iflasa uğradı. Ermənilərin Azərbaycan ərazilərini ələ keçirmək üçün etdikləri sonrakı cəhdlərin, o cümlədən Paris sülh konfransındakı cəhdlərinin də qarşısı alındı.

Ermənistan hökuməti əldə etdiyi güzəştə (İrəvana yiyələnməsinə) baxmayaraq Azərbaycana təcavüzünü gücləndirir və yeni ərazləri – Zəngəzuru, Qarabağı, Naxçıvanı ələ keçirməyə cəhd göstərirdi. Ciddi səhvə yol vermiş Azərbaycan hökuməti daha yeni ərazilər itirməmək naminə mühüm tədbirlər həyata keçirirdi və məhz bunun sayəsində hökumət sonrakı fəaliyyəti dövründə

Azərbaycanın ərazilərini qoruyub saxlaya bildi. Qarabağ ermənilərin ən çox iddiasında olduqları ərazi kimi qalırdı. [120-121] Buranın əhalisinin 400.000 nəfəri azərbaycanlı və kürd, cəmi 170.000 nəfəri erməni idi. Ermənilərin «Müstəqil Qarabağ Respublikası», «Vahid Rusiya», «Sovet Rusiyasının Qarabağ hissəsi» və s. kimi demaqoq şüarlarla pərdələnən cəhdlərinin qarşısı alınırdı. Bu məqsədlə Azərbaycan hökuməti 1919-cu ilin yanvarın 15-də Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları hüdudlarında «Qarabağ general-qubernatorluğu» təsis edir və Xosrovbəy Sultanov qubernator təyin olunur. Erməni tərəfi bu qərarı «ermənilərin ərazi hüquqlarına qarşı qəsd» adlandıraraq etiraz etdikdə Azərbaycan hökuməti onlara layiqli cavab verir və bildirir ki, həmin ərazilər Azərbaycanın mübahisə doğurmayan əraziləridir və Ermənistanın etirazı Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirilməlidir. Beləliklə, Qarabağ məsələsində daşnaqlar susdurulur. Qarabağ general-qubernatorluğunun fəaliyyəti nəticəsində daşnaq Andronikin dəstələri darmadağın olunur, Şuşada ermənilərin özbaşınalığına son qoyulur və avqust ayında Dağlıq Qarabağ erməniləri ilə danışıqlar aparılaraq onların bu ərazidə Azərbaycanın suverenliyini qəbul etmələri barədə razılıq əldə olunur. Lakin 1919-cu ilin noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətləri arasındakı razılaşmaya görə tərəflər Zəngəzurdan qoşun hissələrini çıxarmalı idi. Azərbaycan hökuməti məsələnin tam həllini gözləmədən erməni «səmimiliyinə» inanıb öz qoşunlarını Zəngəzurdan çıxardı. Ermənistan isə vəziyyətdən istifadə edib bölgəyə əlavə qoşun hissələri yeritdi və Zəngəzurda daha iri miqyaslı əməliyyatlar keçirdi. Zəngəzurdakı vəziyyətin nizamlanması uzun mübarizəyə səbəb oldusa da, Qarabağdakı uğurlu döyüşlərdən sonra Azərbaycan üçün müsbət həll olundu.

Ümumiyyətlə götürüldükdə, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövrdə ölkə ərazisinin bütövlüyünü mühafizə edə bildi, onu yad ünsürlərdən təmizlədi. 1918-ci ilin iyunun 26-da Zaqatala mahalına (dairəsinə) aid məsələ Gürcüstanla Azərbaycan arasında müzakirə olundu və sülh yolu ilə həllini tapdı: əhalisinin 91,9 %-nin müsəlman olduğu bu ərazinin Azərbaycana aidiyyəti rəsmiləşdirildi. Rus qiyamçılarının əlində olan Lənkəran qəzası yenidən Azərbaycana qaytarıldı (3.IX.1919), Qarabağ erməniləri ilə razılaşma əldə edildi və [121-122] 1919-cu ilin avqustun 19-da keçirilmiş Dağlıq Qarabağ ermənilərinin VII qurultayında onların Azərbaycan hökumətini tanımalarına nail olundu, Naxçıvanın inzibati cəhətdən Azərbaycana aidiyyəti təmin edildi. Hökumətin cəhdləri nəticəsində 1920-ci ilin aprelin sonunadək ölkə ərazisinin 1919-cu ilin noyabrın 23-nə kimi olan vəziyyəti bərpa olundu.

Azərbaycan Cümhuriyyətinin ərazisi, sahəsi, inzibati bölgüsü diqqəti cəlb edən əsas məsələlərdəndir. Qeyd etmək lazımdır ki, 1920-ci ildə Azərbaycanın Xarici İşlər Nazirliyi informasiya şöbəsi tərəfindən tərtib edilmiş «Azərbaycan Respublikasının xəritəsi» (rusca), eləcə də, 1994-cü ildə nəşr olunmuş «Azərbaycan Respublikasının xəritəsi. 1918-1920-ci illər» (rusca) adlı xəritələr dövlətin ərazisinin dəqiq müəyyənləşdirilməsinə imkan verir. İkinci xəritənin məziyyətlərindən biri burada yer adlarının – toponimlərin həmin dövrdəki adlarla əks olunmasıdır. Xəritə həddən çox yüklənmiş və tərtibçilər hər bir kiçik yaşayış məntəqəsinin də xəritədə əksinə cəhd göstərmişlər.

Azərbaycan Cümhuriyyətinin sahəsi 113.895,97 kv. km olmuşdur. Bunun təxminən 97,3 min kv. km (97.298 kv. km) mübahisəsiz ərazilər, təqribən 16,6 min kv. km-i isə mübahisəli ərazilər hesab olunurdu. Mübahisəli ərazilərin 7,9 min kv. km-i İrəvan quberniyasına, 8,7 min kv. km-i isə Tiflis quberniyasına daxil idi. Mübahisəsiz ərazilər aşağıdakılardan ibarət idi:

1. Bakı quberniyası – sahəsi 39.075 kv.km – buraya Cavad (Salyan), Lənkəran, Göyçay, Şamaxı və Quba qəzaları daxil idi;

2. Gəncə quberniyası – sahəsi 44.371 kv.km idi. Tərkibində Gəncə, Şamxor (Şəmkür), Qazax, Tovuz, Nuxa, Şuşa, Ağdaş (Ərəş), Cavanşir (Tərtər), Cəbrayıl, Zəngəzur qəzalarını birləşdirirdi;

3. Zaqatala quberniyası – sahəsi 3.993 kv. km idi. Tərkibinə Əliabad, Car-Muxax, Qax, Almalı, Balakən sahələri daxil idi, onun tərkibində qəzalar yox idi;

4. Əvvəllər İrəvan quberniyasının tərkibində olmuş Naxçıvan və Şərur-Dərələyəz qəzaları. Onların sahəsi 9,859 kv. km idi.

Göstərildiyi kimi, mübahisəsiz ərazilərin ümumi sahəsi 97.298 kv. km olmuşdur.

Mübahisəli ərazilər isə, qeyd edildiyi kimi, təqribən 16,6 [122-123] min kv. km olmuş və 2 istiqamətdə – Ermənistan və Gürcüstanla mübahisələrin obyektinə çevrilmişdi. 1920-ci ildə tərtib olunmuş xəritədən göründüyü kimi, Ermənistanla mübahisəli ərazilər İrəvan quberniyasının qərb

hissələri – xüsusilə Göycə gölünün bir az cənubundan və Naxçıvan və Şərur-Dərələyəzin qərbindən tutmuş Kasak çayına kimi Arazın hər iki sahili – Böyük Vədi, Eçmiəzzin, İqdır və s. ərazilər idi. Həmin ərazilər tarixi Çuxur-Səəd bəylərbəyliyinin və İrəvan xanlığının ərazilərinə uyğun gəlirdi. Gürcüstanla mübahisəli ərazilərə isə Qarayazı, Axalski və Siqnaq qəzasının cənub hissələri daxil idi. Qarayazı düzü Gəncə-Qazax düzənliyinin davamı olub, həm etnik, həm də iqtisadi cəhətdən onunla bağlı idi. Buranın sakinlərinin 90%-i azərbaycanlı olmuşdur. Bu ərazi 1918-ci ildə Gürcüstan tərəfindən tutulmuş və onun Tiflis qəzasının tərkibində olması faktı əsas götürülmüşdür. Əhalisinin əksəriyyəti (73,5%) azərbaycanlılar təşkil edən Axalski qəzası da türk qoşunları Qafqazdan çıxdıqdan sonra gürcülər tərəfindən zəbt edilmişdir. Siqnaq qəzasının qərbində gürcülər, şərqində isə azərbaycanlılar yaşayırdı.

Azərbaycan Cümhuriyyətinin sərhədlərinə, hüdudlarına gəldikdə bu məsələdə 2 cəhəti nəzərə almaq lazımdır: mübahisəli ərazilər nəzərə alınarsa Azərbaycan Cümhuriyyətinin sərhədləri daha geniş olmuş, cənubi-qərbdə Kasax çayının Araza qovuşduğu yerə, şimali-qərbdə isə təqribən Tiflisə kimi uzanmışdır. Yalnız mübahisəsiz ərazilər, yəni 97,3 min kv. km-lik ərazi nəzərdə tutularsa, dövlətin sərhədləri aşağıdakı istiqamətlərdən, məntəqələrdən keçmişdir: şərqdə Xəzər dənizi ilə hüdudlanan Azərbaycan Cümhuriyyəti sərhədləri Astara ərazisinin cənubundan Talış dağları istiqaməti ilə qərbə tərəf uzanırdı. Daha sonra şimala tərəf uzanaraq Araz çayına çatan sərhədlər çayın axarının əks istiqamətində irəliləyərək Naxçıvanın cənubi-qərbində Sədərək yaşayış məntəqəsinə çatır və buradan şimali-şərq istiqamətində, Soğanlı məntəqəsindən isə birbaşa şimala gedərək Göycə gölünə qovuşurdu. Göycə gölü Azərbaycan Cümhuriyyəti ilə Ermənistan arasında sərhəd idi və Göycə mahalının şərq hissəsi Azərbaycanın, gölün qərbi isə Ermənistanın tərkibində idi. Göycədən şimalda Azərbaycan Cümhuriyyətinin sərhədləri yenə də şimala doğru istiqamətlənmiş, Qazax mahalının şima-[123-124] lından təqribən Qabırlı çayı ilə şərqə, daha sonra yenidən şimala və şimali-qərbə, nəhayət, Zaqatala dairəsinin şimalından cənubi-şərqə və yenə də şimali-şərqə uzanırdı. Daha sonra Samur çayı boyunca uzanan sərhədlər Xəzərə qovuşurdu.

Azərbaycan Cümhuriyyətinin mübahisəsiz sahələrinin inzibati-ərazi bölgüsü quberniyalar, qəzalar, dairələr və məntəqələr sistemində müəyyənləşmişdi. Daha doğrusu, həmin ərazilərdə mövcud olmuş əvvəlki ərazi bölgüsü qalırdı; yeganə dəyişiklik Göycə gölünün şərq hissəsində təsis olunmuş «Göycə dairəsi» idi. Dövlətin tərkibindəki Bakı quberniyası Bakı, Cavad, Lənkəran, Göyçay, Şamaxı və Quba qəzalarını, Gəncə quberniyası Gəncə, Şamxor, Qazax, Tavuz, Nuxa, Şuşa, Ağdaş, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını, Zaqatala dairəsi isə Əliabad, Car-Muxax, Qax, Almalı, Balakən ərazilərini əhatə edirdi. Azərbaycan Cümhuriyyətinin torpaqlarının bir qismi isə əvvəllər İrəvan quberniyasının tərkibində olmuş Naxçıvan və Şərur-Dərələyəz qəzalarından ibarət idi. Quberniyalar 1920-ci ildə ləğv olundu. Qəzaların əksəriyyəti isə 1929-cu ildəki inzibati-ərazi islahatına kimi fəaliyyətini davam etdirdi.

Qəzalar da öz növbəsində daha kiçik inzibati vahidlərə – məntəqələrə bölünmüşdü. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi-inzibati bölgüsünü (qəzalar və dairələr üzrə) göstərən aşağıdakı təqribi cədvəl dövlətin bu baxımdan ümumi mənzərəsini təsəvvür etməyə imkan verir (məlumat 1918-1920-ci illəri əhatə edən xəritə – bax: 76 - əsasında Azərbaycan Cümhuriyyətinin fəaliyyəti dövrünə uyğun tərtib edilmişdir):

| Qəzalar və dairələr | Quber-niyalar | Mərkəzi | Sahəsi (kv.km) | Təsis ili | Sonu | Tərkibindəki məntəqələr |
|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| Bakı | Bakı | Bakı | | 1859 | 1929 | Balaxanı-Sabunçi,Maş-tağa, Saray |
| Quba | «--» | Quba | | 1840 | 1929 | Quba, Həzrə, Buduq, Şabran |
| Şamaxı | «--» | Şamaxı | 6653 | 1840 | 1929 | |
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| Göyçay | «--» | Göyçay | 4988 | 1867 | 1929 | |
| Cavad | «--» | Salyan | 11617 | 1868 | 1929 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Lənkəran | «--» | Lənkəran | 5321,5 | | 1929 | Astara,Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad |
| Gəncə (Yelizavetpol) | Gəncə | Gəncə | | 1840 | 1929 | Qazax, Şəmşədil, Gəncə, Ayrım |
| Ərəş | «--» | Ağdaş | 3212,5 | 1873 | 1929 | |
| Nuxa | «--» | Şəki | 3008,7 | 1841 | 1929 | Nuxa, Xaçmaz, Qəbələ |
| Qazax | «--» | Ağstafa | 5908 | 1868 | 1929 | |
| Cavanşir | «--» | Tərtər | 5497 | 1873 | 1929 | |
| Qaryagin | «--» | Cəbrayıl | 3332 | 1873 | 1929 | |
| Zəngəzur | «--» | Gorus | | | 1929 | |
| Şuşa | «--» | Şuşa | 4911 | 1841 | 1929 | Mığri, Kəbirli, Çələbürt, Vərəndə |
| Naxçıvan | İrəvan (əvvəllər) | Naxçıvan | 4378 | 1841 | 1929 | Naxçıvan, Ordubad, Dərələyəz |
| Şərur-Dərələyəz | İrəvan | Baş Noraşen | | | 1929 | |
| Zaqatala | (dairə) | Zaqatala | 3736 | 1860 | 1929 | Əliabad, Qax, Car-Muxax, Balakən |
| Göycə | (dairə) | Basar-Keçər | | | | |

Qısa məlumatdan göründüyü kimi, cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti Şimali Azərbaycan torpaqlarının mühafizəsini həyata keçirə bilmiş və Azərbaycanın bütövlüyünü əsasən qoruyub saxlamışdır.

(Bax: 11; 13/V; 14-16; 23; 28; 79) [125-126]

## *XIV mövzu:* Azərbaycan ərazisi XX əsrin 20-90-cı illərində

XX əsrin 20-ci illəri ərəfəsində Azərbaycanda və ümumiyyətlə, Qafqazda siyasi vəziyyət gərgin olaraq qalmaqda idi. Fevral burjua inqilabı, çar Rusiyasının iflası, bolşeviklərin hakimiyyətə yiyələnmələri, Qafqaz respublikalarının öz müqəddəratını müəyyənləşdirməyə cəhd göstərmələri, onların arasındakı mübarizələr, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü və fəaliyyəti və s. hadisələr dövrü səciyyələndirən əsas cəhətlərdir. Dövrün diqqəti cəlb edən digər cəhəti Azərbaycan ərazisinin yenə də 2 hissəyə parçalanmış halda qalması idi. Vahid Azərbaycan ərazisi İranın və Rusiyanın nüfuz dairələrində qalmaqla öz fəaliyyətlərini həmin dövlətlərin idarəçiliyinə uyğun davam etdirirdi. Məlum olduğu kimi, 1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldı və sonralar onun ərazisində Azərbaycan Sovet Sosialist Respublikası təsis olundu.

Azərbaycan SSR Azərbaycan Xalq Cümhuriyyətinin ərazisində təsis edildiyindən onun sahəsi ilk vaxtlarda 97.298 kv. km olmuşdur. Sonrakı hadisələr nəticəsində Azərbaycan öz ərazisinin bir hissəsini itirmiş və daha kiçik əraziyə malik olmuşdur. Bu dövrdə Azərbaycan SSR-in sahəsi 86,6 min kv. km idi. Azərbaycan SSR şimalda RSFSR (Dağıstan MSSR), şimali-qərbdən Gürcüstan SSR, cənubi-qərbdə Ermənistan SSR və Türkiyə, cənubda İranla, şərqdə Xəzər dənizi ilə həmsərhəd idi. Paytaxtı Bakı şəhəri idi. Onun tərkibinə Naxçıvan MSSR və DQMV daxil idi. 1976-cı ilin məlumatına görə, respublikada 61 inzibati rayon, 60 şəhər, 125 şəhər tipli qəsəbə və fəhlə qəsəbəsi mövcud olmuşdur.

Bolşevik təcavüzü əslində Azərbaycanın müstəqilliyinə son qoymuşdu. Azərbaycan Xalq

Cümhuriyyətinin ərazisində yaradılmış Azərbaycan SSR ilk vaxtlarda müstəqil respublika elan olunsa da, tədricən onun müstəqilliyi formal xarakter almağa başladı. İlk növbədə Azərbaycanın Xalq Cümhuriyyəti dövründəki 20-yə qədər xarici ölkələrlə olan birbaşa əlaqələri ləğv edildi. Sonra Azərbaycan SSR-in Rusiyaya ilhaqı üçün mərhələli [126-127] tədbirlər görülməyə başlandı. Vahid siyasi partiya, vahid ticarət mərkəzi, vahid pulun qəbulu, gömrüyün ləğvi və s. həmin istiqamətdə görülən tədbirlərdən idi. Tədricən daha ciddi addımlar atıldı: 1922-ci ilin martın 12-də Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı (ZSSRFİ) yaradıldı və az sonra (13.XII.22) bu ittifaq ZSFSR adlandırıldı. Azərbaycan SSR ZSFSR tərkibinə daxil olundu və həmin addım əslində Azərbaycanın formal müstəqilliyinin də ləğvi demək idi. 1922-ci ilin dekabrın 30-da isə I Sovetlər qurultayı SSRİ-nin yaranması barədə qərar qəbul etdi. Azərbaycan SSR ZSFSR tərkibində SSRİ-yə daxil oldu və bununla da öz müstəqilliyini tam itirib bolşevik Rusiyasının müstəmləkəsinə çevrildi. 1936-cı ilin dekabrın 5-də Azərbaycan SSR SSRİ tərkibində müstəqil respublika kimi fəaliyyətə başladı, lakin bu da tam müstəqillik deyildi. Belə vəziyyət 1990-cı illərin əvvəllərinə kimi davam etdi.

XX əsrin ilk rübündə eyni zamanda Azərbaycan torpaqlarının itirilməsi prosesi getdi. Bu proses müxtəlif mərhələlərdə həyata keçirilmişdir:

- 1918-1920-ci illərdə - Azərbaycan Xalq Cümhuriyyəti vaxtında;
- 1920-ci ilin aprel-noyabr aylarında – Azərbaycan SSR elan olunduğu gündən Ermənistanda sovet hakimiyyəti qurulanadək;
- 1920-ci ilin noyabrından 1921-ci ilin fevralınadək – Gürcüstanda sovet hakimiyyəti qurulanadək;
- ZSFSR təşkili və onun SSRİ tərkibinə daxil olmasına kimi – «müstəqil» Zaqafqaziya sovet respublikalarının fəaliyyət göstərdiyi dövrdə.

Bu mərhələlərin hər birinin özünəməxsus xüsusiyyətləri, incəlikləri olmuş və hadisələrin gedişinə təsir göstərmişdir. Bütün hallarda regionda öz marağını güdən Rusiya problemlərin «həllinə» ciddi təsir göstərmişdir.

Ermənilər aprel çevrilişindən sonra da Azərbaycana qarşı olan ərazi iddialarından əl çəkmədilər. Onlar hələ Azərbaycan Xalq Cümhuriyyəti vaxtında mübahisəli ərazilər kimi qələmə verdikləri, əslində isə mübahisəli ərazilər olmayan Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və Şərur-Dərələyəz ərazilərini ələ [127-128] keçirmək niyyətində idilər. Sovet Rusiyası bu işdə ilk günlərdən erməniləri dəstəkləyir, onların niyyətinin həyata keçirilməsinə yardım edirdi. 1920-ci ilin yayında ermənilər Zəngibasar və Şərurda qırğın törətdilər və sonra Zəngəzuru dağıdıb Naxçıvana hücum etdilər. Veysəl bəyin başçılığı ilə köməyə gələn türk qoşunları Naxçıvan ərazisini nəzarət altına aldı. Həmin ilin avqustun 5-9-da Qırmızı Ordu hissələri Zəngəzura soxularaq buradakı erməni generalları Dro və Njdenin qoşunlarını bölgədən qovub çıxardı. Lakin 1920-ci ilin avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında müvəqqəti saziş bağlandı və onun şərtlərinə görə Şərur-Dərələyəz qeyd-şərtsiz Ermənistana verildi, Qarabağ, Zəngəzur və Naxçıvan isə yenə də «mübahisəli vilayətlər» elan olundu. Bununla Rusiya Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü. N.Nərimanov Moskvaya göndərdiyi teleqramlarda Azərbaycanda sovet hakimiyyəti qurulana qədər mübahisəsiz sayılan vilayətlərin indi nədənsə mübahisəli sayılmasına qarşı ciddi etirazını bildirirdi.

Ermənistan SSR yaradıldıqdan sonra (29.XI.1920) Azərbaycan ərazisinə iddialar daha da artdı. N.Nərimanovun AK(b)P MK Siyasi və Təşkilat bürolarının 30 noyabr tarixli qərarını elan edərkən verdiyi bəyanat və ertəsi gün qəzetlərdə onun saxtalaşdırılmış şəkildə dərc olunması həmin iddiaların daha da çoxalmasına səbəb oldu. N.Nərimanov Ermənistan SSR yaradılması münasibətilə təbrik göndərilməsini təklif etmiş və demişdi ki, «Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur». Qəzetlərdə isə onun sözlərinə «Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının ayrılmaz hissəsidir», «Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququ verilir» kimi təxribatçı fikirlər əlavə olunmuşdu. Həmin bəyanat ermənilərin yeni addımlar atmasına təkan verdi və dekabrın 25-də onlar Zəngəzurda «Azad Sünik hökuməti» təşkil etdilər. Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın əlinə keçdi. Bu bəyanat Naxçıvanın azərbaycanlı əhalisinin də ciddi narazılığına səbəb oldu. Əhalinin qapalı keçirilən rəy sorğusunun nəticələrinə əsasən (90%) Naxçıvanın Azərbaycanın tərkibində qalması qərara alındı. [128-129]

Bölgədəki vəziyyətlə yaxından maraqlanan Türkiyə bundan əvvəl, yəni 1920-ci ilin dekabrın

2-də Ermənistan ilə Gümrü (Aleksandropol) müqaviləsini bağlamışdı və İrəvan bölgəsi və Göycə gölü istisna olmaqla bütün Ermənistan ərazisi Türkiyənin himayəsinə keçmişdi. Lakin Sovet Rusiyası Gümrü müqaviləsini tanımaqdan imtina etdi.

1921-ci ilin fevral-mart aylarında Naxçıvan ərazisi yenidən müzakirə obyektinə çevrildi. Göstərildiyi kimi, 1921-ci ilin yayında ermənilər Naxçıvana hücum etmişdilər və türk qoşunları tərəfindən bölgədən çıxarılmışdılar. 1921-ci ilin martın 16-da isə RSFSR ilə Türkiyə arasında Moskva müqaviləsi imzalandı və qərara alındı ki, tərəflər müqavilənin 3-cü maddəsində göstərilən sərhədlər çərçivəsində Azərbaycanın himayəsi altında Naxçıvanın muxtar ərazi olmasına razılıq verirlər və Azərbaycan onu üçüncü dövlətə güzəştə getməməlidir. Bununla da, Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı və Azərbaycan ərazisinin bütövlüyü qismən olsa da, qorunmuş oldu. Moskva müqaviləsinin şərtləri 1921-ci ilin oktyabrın 13-də bağlanmış Qars müqaviləsi ilə daha da möhkəmləndirildi; Naxçıvanın sərhədləri və gələcək statusu qəti olaraq müəyyənləşdirildi. Müqavilə müddətsiz imzalandı və bu Naxçıvanın gələcək taleyi üçün mühüm əhəmiyyət kəsb etdi. Bununla bərabər, Naxçıvan ilə bağlı mübahisələr səngimədi. Diyarın sonrakı statusunun müəyyənləşdirilməsində bir neçə mərhələ baş verdi: Naxçıvan əvvəlcə «Naxçıvan SSR» adı ilə Azərbaycan SSR himayəsində muxtar respublika (22.V.1922), sonra Azərbaycan SSR tərkibində «Muxtar ölkə» (11.XII.1923), daha sonra yenə də Azərbaycan SSR tərkibində «Naxçıvan SSR» (11.XII.1923) statusu ilə fəaliyyət göstərdi. Nəhayət, 1924-cü ilin fevralın 9-da «Naxçıvan MSSR» təsis olundu.

Naxçıvan Muxtar SSR ərazisi şimalda və şərqdə Ermənistan SSR ilə (224 km sərhəd xətti ilə), qərbdə və cənubda Türkiyə (11 km) və İranla (163 km) həmsərhəd olmuşdur. Sahəsi 5,5 min kv. km idi. Azərbaycan ərazisinin 6,4%-ni təşkil edirdi. Respublika 5 inzibati rayonu – Babək, Noraşen, Ordubad, Culfa və Şahbuz rayonlarını birləşdirirdi. Onun tərkibində 4 şəhər, 2 şəhər tipli qəsəbə, 215 kənd və qəsəbə var idi. Paytaxtı [129-130] Naxçıvan şəhəri idi. Naxçıvan MSSR-in Türkiyə ilə çox da uzun olmayan sərhəddi bölgənin gələcək təərrüzlərdən qorunması və eləcə də, iqtisadi və mədəni həyatında mühüm rol oynadı.

Azərbaycan Xalq Cümhuriyyətinin XI Qırmızı Ordu tərəfindən işğalından sonra Qarabağ məsələsi nəinki səngidi, əksinə daha qabarıq şəkildə meydana çıxdı. Ermənistan hər bir vasitə ilə Qarabağın dağlıq hissəsini ələ keçirməyə can atırdı. Bu dövrdə «Dağlıq Qarabağ» istilahı da ortaya atıldı. Əslində Qarabağın dağlıq və düzən əraziləri tarixən birgə fəaliyyət göstərmiş və iqtisadi-ictimai, mədəni cəhətdən sıx bağlı idilər. 1920-ci ilin iyunun 19-da Ermənistan hökuməti Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olduğu barədə bəyanat verdi. Lakin, həmin cəhdin qarşısı alındı. 1920-ci ilin iyunun 27-də Azərbaycan K(b)P-nın Siyasət və Təşkilat büroları Ermənistanın Qarabağın yuxarı hissəsinə iddialarını rədd etmək barədə obyektiv qərar qəbul etdi. Çox keçmədən, həmin ilin iyulun 4-də RK(b)P-nın Qafqaz bürosu Dağlıq Qarabağın Ermənistan SSR tərkibinə qatılması və buradakı ermənilər arasında rəy sorğusu keçirilməsi barədə qərar çıxardı. N.Nərimanovun ciddi etirazı və əhalinin narazılığını nəzərə alan Qafqaz bürosu iyulun 5-də məsələni təkrar müzakirəyə qoydu və əvvəlki ədalətsiz qərar ləğv olundu. Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində saxlanılması və eyni zamanda Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə qərar qəbul olundu. Həmin qərar 1923-cü ilin iyunun 27-də RK(b)P Cənubi Qafqaz ölkə komitəsinin plenumunda təsdiq olundu və nəhayət, Azərbaycan MİK 1923-cü ilin iyulun 7-də Azərbaycan SSR tərkibində DQMV yaradıldığını elan etdi. Vilayətin tərkibinə Şuşa, Cavanşir və Cəbrayıl qəzaları ərazilərinin dağlıq hissələri daxil oldu. Qarabağın qalan hissəsində Ağdam, Cəbrayıl və Kürdüstan (mərkəzi Pircahan kəndi) qəzaları yaradıldı və əraziləri müəyyənləşdirildi. 1924-cü il noyabrın 26-da qəbul olunmuş «Əsasnamə»yə görə, Şuşa qəzasından Şuşa və Xankəndi (hələ 1923-cü ilin sentyabrında Stepanakert adlandırılmışdı), Cavanşir qəzasından 62 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi kəndi DQMV tərkibinə daxil olunmuşdu. Bu addım ermənilərin gələcək planlarının həyata keçirilməsinə zəmin yaratmış [130-131] oldu. DQMV-nin sahəsi 4.372 kv. km olub, inzibati baxımdan
5 rayonu – Əsgəran, Mardakert, Martuni, Hadrut və Şuşa rayonlarını birləşdirirdi. Mərkəzi Stepanakert (Xankəndi) idi. 1977-ci ilin məlumatına görə, 2 şəhəri, 5 şəhər tipli qəsəbəsi, 1 fəhlə qəsəbəsi və 220 kənd və qəsəbəsi vardı.

Zəngəzuru ələ keçirməyə can atan ermənilər hələ 1920-ci ilin dekabrın 25-də burada «Azad Sünik hökuməti» təşkil etmişdilər. İrəvan həmin bölgəni 2 yerə ayırmaq təklifini irəli sürdü: onun

qərb hissəsi Zəngəzur qəzası, şərq hissəsinin isə Meqri qəzası adlandırılması təklif olundu. Bununla yanaşı, rəsmi İrəvan XI Qırmızı Ordu ilə sazişə girdi və 1921-ci ilin iyulunda Əlahiddə Qafqaz Ordusunun hərbi hissələri Zəngəzurun yuxarı ərazisinə soxuldular, bölgəni daşnaq dəstələrindən təmizləyərək Ermənistana birləşdirdilər. Daha sonra bu əraziyə İran, Misir, Türkiyə, Rusiyadan ermənilər köçürüldü, azərbaycanlılar isə müxtəlif bəhanələrlə bölgədən çıxarıldı. 1929-cu ildə Zəngilan rayonunun 3 kəndi Ermənistana verildi (bu barədə qərar isə Azərbaycan SSR Ali Soveti tərəfindən 1969-cu ilin mayın 17-də təsdiq edilmişdir). Burada Meqri rayonu təşkil olundu və beləliklə, Naxçıvanla Azərbaycan arasında dəhliz yarandı. Bu illərdə Qazax qəzasının dağlıq hissəsi – Dilican ərazisi də Azərbaycan xalqının iradəsinə əks olaraq Ermənistana verildi.

Göstərildiyi kimi, 20-ci illərin əvvəllərində, Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycanın təxminən 114.000 kv. km ərazisi var idi. Onun 97.298 kv. km-i mübahisəsiz, 16,6 min kv. km-i isə mübahisəli ərazilər hesab olunurdu. Ərazi məsələlərinin birtərəfli, daşnaq-bolşevik sayağı «həlli» nəticəsində mübahisəli ərazilər bədnam qonşularımızın ixtiyarına keçdi və bundan əlavə 11.000 kv. km ərazimiz Ermənistana verildi. Buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərələyəz qəzası və Göycə dairəsinin torpaqları daxil idi. Beləliklə, həmin illərdə Azərbaycanın 27.599 kv. km ərazisi itirildi.

XX əsrin 20-ci illərinin sonunda Azərbaycanda inzibati-ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi. 1928-ci ilin oktyabrında Azərbaycan SSR XKS bu məsələni müzakirə edərək ona tərəfdar çıxdı. Həmin layihəyə əsasən qəzaların ləğv edilməsi lazım bilindi və ra-[131-132]yonlaşdırmanın əsasında üçdərəcəli bölgü – dairə, rayon, kənd soveti – qoyuldu. VI Ümumazərbaycan Sovetlər Qurultayında (1-9.04.1929) qəbul olunmuş müvafiq bölgüyə əsasən yeni inzibati sistem tətbiq olundu.

Yeni rayonlaşdırmaya qədər respublikada 15 qəza – Ağdam, Ağdaş, Gəncə, Göyçay, Cəbrayıl, Zaqatala, Qazax, Quba, Kürdüstan, Lənkəran, Nuxa, Salyan, Şamxor, Şamaxı və Bakı qəzaları, eyni zamanda Naxçıvan MSSR və DQMV mövcud idi. Yeni inzibati bölgüyə əsasən 15 qəza əvəzinə 8 mahal (Naxçıvan MSSR və DQMV-dən başqa) – Qarabağ, Gəncə, Şirvan, Zaqatala-Nuxa, Quba, Lənkəran, Salyan və Bakı təşkil olundu. 62 dairə, 1090 kənd soveti yaradıldı. 1930-cu ilin avqustunda Azərbaycan SSR XKS və MİK qərarı ilə dairələr (Zaqatala dairəsindən başqa) ləğv olundu. İnzibati ərazi bölgüsünün əsas həlqələri olan rayonların sayı 63-ə çatdırıldı. 1932-ci ildə isə rayonların sayı 47-yə endirildi (Naxçıvan MSSR və DQMV-dən başqa). 50-ci illərə kimi respublikada Qubadlı (1933), Mirbəşir (1934), Yevlax, Zərdab (1935), Ucar, Jdanov (1939), Saatlı (1943) və s. rayonlar da təsis olundu.

Azərbaycan ərazisində XX əsrin 60-cı illərində də müəyyən inzibati dəyişikliklər aparıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli fərmanına əsasən rayonların istehsalat prinsipləri üzrə təşkili həyata keçirildi. Nəticədə, 10 respublika tabeliyində şəhər (Bakı, Kirovabad, Sumqayıt, Mingəçevir, Əli-Bayramlı, Daşkəsən, Dəvəçi, Yevlax, Naftalan, Nuxa), 1 muxtar respublika tabeliyində (Naxçıvan), 2 muxtar vilayət tabeliyində (Şuşa, Stepanakert) şəhərlər və 38 kənd rayonları təşkil olundu. Kənd rayonlarının 3-ü Naxçıvan MSSR-na (Naxçıvan, Culfa, Noraşen), 4-ü DQMV-nə (Hadrut, Mardakert, Martuni, Stepanakert) daxil idi. Sonrakı illərdə də inzibati-ərazi bölgüsündə müəyyən dəyişikliklər edilmişdir: Abşeron, Şuşa (1963), Naftalan (1967), Nəsimi (1969) rayonları təsis olunmuş və başqa inzibati yeniliklər həyata keçirilmişdir. 1970-ci illərin sonunda isə Azərbaycan SSR-in yeni inzibati ərazi bölgüsü müəyyənləşdirildi. 1978-ci ilin göstəricisinə görə Azərbaycanda 10 respublika tabeliyində şəhər, 61 rayon fəaliyyət göstərirdi. Onlardan 1 şəhər və 5 rayon Naxçıvan MSSR-na, 5 rayon DQMV-nə [132-133] daxil idi. İnzibati dəyişikliklər 80-90-cı illərdə də davam etdirildi: Nizami (1980), Ağstafa, Hacıqabul, Xızı, Qobustan, Sədərək (1990), Xocalı, Xocavənd (1991), Samux, Siyəzən (1992) rayonları yaradıldı, DQMV ləğv olundu (26.XI.1991), bir neçə rayonun adı dəyişdirildi.

Keçən əsrin 80-cı illərində meydana atılan «yenidənqurma» və «aşkarlıq» Azərbaycanın DQMV-də milli münaqişə ocağının yenidən alovlanmasına gətirib çıxardı. 1987-ci ilin noyabrında Parisdə Qorbaçovun əlaltılarından olan Aqanbekyanın Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğunluğu barədəki bəyanatı ilə başlanmış bu proses Azərbaycan üçün mənfi nəticələr verdi.

Ümumiyyətlə götürüldükdə, cəmiyyətdə baş vermiş proseslər SSRİ-nin varlığına son qoyulması ilə nəticələndi. 1991-ci ilin dekabrın 29-da Azərbaycanda ümumxalq referendumu keçirildi, dövlət müstəqilliyinin qəbul olunması yekdilliklə rəsmiləşdirildi və müstəqil Azərbaycan

Respublikası təsis olundu. Həmin hadisələrin Azərbaycanın tarixi-siyasi coğrafiyasına da ciddi təsiri oldu. Bir tərəfdən Azərbaycan ərazisi müstəqil Azərbaycan Respublikasının tərkibində birləşdirildisə, digər tərəfdən ərazilərimizə qarşı erməni iddiaları çoxaldı. Rus hərbi hissələri ilə birləşmiş erməni dəstələri ilk vaxtlardan Azərbaycan torpaqlarını işğal etməyə başladılar. Dağlıq Qarabağ və ətraf ərazilər işğala məruz qaldı. Problemin «həlli» üçün görülmüş «tədbirlər» heç bir səmərə vermədi. Rus əsgərlərinin yaxından iştirakı ilə ermənilər yeni-yeni ərazilər zəbt etdilər. Kərkicahan, Malıbəyli, Quşçular, Xocalı kəndlərini zəbt edən ermənilər 1992-ci ilin mayın 8-də Şuşanı ələ keçirdilər. Daha sonra Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonları işğal olundu. Həmin ərazilərin sahəsi və zəbt olunma tarixini əks etdirən aşağıdakı cədvəl mövcud mənzərəni aydın təsəvvür etməyə imkan verir: [133-134]

| № | Ərazinin adı | Sahəsi (kv.km) | İşğal vaxtı |
|---|---|---|---|
| 1 | Dağlıq Qarabağ,<br>o cümlədən<br>Şuşa rayonu | 4372<br><br>289 | <br><br>8.05.1992 |
| 2 | Laçın rayonu | 1835 | 17.05.1992 |
| 3 | Kəlbəcər rayonu | 1936 | 3-4.04.1993 |
| 4 | Ağdam rayonu | 1094 | 23.07.1993 |
| 5 | Cəbrayıl rayonu | 1950 | 23.08.1993 |
| 6 | Füzuli rayonu | 1386 | 23.08.1993 |
| 7 | Qubadlı rayonu | 802 | 31.08.1993 |
| 8 | Zəngilan rayonu | 707 | 2-7.10.1993 |

İtirilmiş torpaqlarımız 13082 kv. km olmuş, bunun 4372 kv. km-i Dağlıq Qarabağa, qalanı isə ətraf rayonlara aiddir. Ümumiyyətlə götürüldükdə, XX əsrin 20-90-cı illərində 40.681 kv. km-lik ərazilərimiz Ermənistan SSR və ya ermənilər tərəfindən işğal olunmuşdur. Azərbaycan hökuməti zəbt olunmuş ərazilərin azad olunması üçün məqsədyönlü tədbirlər görür. İlk növbədə ərazilərimizin sülh yolu ilə qaytarılmasına cəhd göstərilir. 1994-cü ilin mayın 12-də atəşkəsə nail olunması da bu məqsədə xidmət edir. Lakin, sülh yolu ilə məsələnin həlli baş tutmazsa, digər vasitələrdən və lazım gələrsə, müharibə yolundan da istifadə etməklə torpaqlarımızın azad olunmasına nail olmaq vacibdir.

«Böyük Ermənistan» yaratmaq niyyətində olan ermənilər buna nail olmaq üçün hər vasitədən istifadə edirlər. Bunun bir yolu da azərbaycanlıların nəinki Ermənistandan, eləcə də bütün Qafqazdan qovulub çıxarılmasını həyata keçirmək idi. XX əsrdə bu istiqamətdə bir neçə dəfə cəhdlər olmuşdur. Hələ müharibə illərində azərbaycanlıların Orta Asiyaya və Qazaxıstana köçürülməsi planı hazırlanmışdı və həyata keçirilməsinə başlanılmışdı. Lakin M.C.Bağırov tutarlı arqumentlərlə İ.Stalini bu fikirdən döndərə bildi. 1945-ci ilin payızında Ermənistanın Dağlıq Qarabağın onlara verilməsi barədə Sovet hökuməti qarşısında qaldırdığı növbəti məsələ də M.C.Bağırovun tədbirləri nəticəsində həyata keçirilmədi (Şuşa və Zəngəzurun Azərbaycana [134-135] verilməsi şərti ilə bu məsələnin müsbət həlli təklif edildi). Çox keçmədən, 1947-ci ilin dekabrın 23-də SSRİ NS «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərarı qəbul olundu. Bununla da, azərbaycanlıların öz ata-baba torpaqlarından köklü deportasiyasının birinci mərhələsi başlandı. 1948-1950-ci illərdə Ermənistan SSR-dən 150.000 azərbaycanlı doğma yurdlarından zorla çıxarıldı. Onların evlərinə, yurdlarına xarici ölkələrdən gətirilmiş ermənilər yiyələndilər. Dağ və dağətəyi ərazilərdə yaşamış azərbaycanlılar isə əsasən Kür-Araz ovalığının isti ərazilərində məskunlaşdırıldı. Həmin hadisənin düzgün siyasi qiyməti isə çox sonralar – 1997-ci il dekabrın 18-də verildi. «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazilərindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin fərmanında son iki əsrdə xalqımıza qarşı tətbiq edilən etnik təmizləmə və soyqırımı siyasətinin əsl mahiyyəti açıqlandı.

Azərbaycanlıların deportasiyasının ikinci güclü mərhələsi 80-ci illərin sonlarında başlandı. İlk növbədə azərbaycanlıların Ermənistan SSR-dən bütünlüklə çıxarılması həyata keçirildi. 1988-

ci ilin yanvarında Qafan və Meqri rayonlarında başlanan həmin «etnik təmizləmə» tədricən Dağlıq Qarabağ ərazisində də tətbiq olundu. Dağlıq Qarabağın azərbaycanlı əhalisi zorla qovuldu, öldürüldü, didərgin salındı. 1991-ci ilin avqustun 8-də Ermənistan SSR-də sonuncu azərbaycanlı kəndi – Nüvədi boşaldıldı. Beləliklə, Ermənistan SSR-dəki 185 azərbaycanlı kəndi təmizləndi, 230.000 azərbaycanlı qovuldu, 31.000 ev, 165 kolxoz və sovxoz talandı, 225 nəfər öldürüldü, 1200-dən artıq adam yaralandı. Azərbaycanlıların bu dövrdəki deportasiyasında da Rusiya yaxından iştirak etdi. Baş vermiş tarixi proseslər zəminində Azərbaycanda yaşayan ermənilər də ölkədən çıxarıldılar. Nəticədə, Azərbaycan əhalisinin etnik tərkibində müəyyən dəyişiklik baş verdi. Ölkədə türkdilli əhalinin sayı nisbətən artdı. Bununla yanaşı Azərbaycan çoxsaylı xalqların, millətlərin, etnik qrupların, etnoqrafik qrupların, etnik azlıqların, milli azlıqların və s. birgə yaşadığı ölkə olaraq qalır. Azərbaycanda əhalinin 1989-cu il siyahıyaalma materiallarının nəticələrinə görə 141 millətin və xalqın nümayəndəsinin yaşadığı bəlli olmuşdur.

XXI əsrin başlanğıcında Azərbaycan Respublikası yenə də rəsmən 86,6 min kv. km əraziyə malikdir. Lakin, bunun 20%-i erməni işğalına məruz qalmışdır. Ölkə əhalisinin sayı 8 mln. 81 min nəfərdir. İnzibati baxımdan respublikada 1 muxtar respublika, 11 respublika tabeli şəhər, 79 rayon (o cümlədən, 11 rayon Bakı, 2 rayon Gəncə şəhəri tərkibində), 130 şəhər tipli qəsəbə, 4354 kənd yaşayış məntəqəsi vardır. Azərbaycan Respublikası cənubda İran (756 km) və Türkiyə ilə (13 km), şimalda Rusiya ilə (390 km), şimali-qərbdə Gürcüstanla (480 km), qərbdə Ermənistanla (1007 km), şərqdə isə Xəzər dənizi ilə (800 km) həmsərhəddir. Xəzərin Azərbaycan sektorunun ən enli sahəsinin uzunluğu 456 km-dir.

(Bax: 11; 13/VI; 14; 20; 23-26; 41; 77) [136-137]

## ƏSAS NƏTİCƏLƏR

«Azərbaycanın tarixi-coğrafiyası» dərs vəsaitində əsas diqqət Azərbaycanın tarixi-siyasi coğrafiyasına verilmişdir. Şərh olunan məlumatı ümumiləşdirərək aşağıdakı məsələləri qabarıq nəzərə çatdırmaq olar:

- «Tarixi-coğrafiya» fənni tarix və coğrafiya fənlərinin qovşağında təşəkkül tapmış elm sahəsidir və təbiətlə cəmiyyətin qarşılıqlı əlaqələrini, coğrafi mühitin cəmiyyətə təsirini, insanın öz fəaliyyətində təbiətdən istifadəsi və ona təsirini və s. öyrənir. Coğrafi mühit dedikdə cəmiyyəti əhatə edən və insan həyatı üçün zəruri olan təbiət anlaşılır. «Tarixi-coğrafiya» əhatəli elm sahəsidir və 6 mühüm elmi istiqamətə malikdir. Bunlardan «Tarixi-siyasi coğrafiya» elmi istiqaməti oxuculara təqdim olunan vəsait baxımından daha aktual əhəmiyyət kəsb edir və əsasən dövlətlərin, vilayətlərin, ölkələrin ərazisini, hüdudlarını, sərhədlərini, inzibati ərazi bölgüsünü və s. öyrənir;
- Qədim və ilk orta əsrlərdə (təxminən X əsrə kimi) Azərbaycan vahid şəkildə deyildi və onun cənub və şimal hissələrində müxtəlif dövlətlər – Manna, Atropatena, Qafqaz Albaniyası və s. fəaliyyət göstərirdi. Atropatena ilə Qafqaz Albaniyasının sərhədləri əksər vaxtlarda Araz çayından və Talış dağlarından keçirdi. Qafqaz Albaniyası 12 vilayətə bölünmüşdü və onlardan 5-i Kür ilə Araz çayları arasında idi. Sonralar dövlətin ərazisi Arran, Şirvan və Muğan əyalətlərinə bölündü. Arran adı ilə ərəblər dövründə bütün Qafqaz Albaniyası ərazisi nəzərdə tutulurdusa, son orta əsrlərdə Arran yalnız Kür və Araz çayları arasındakı ərazilərin (Göycə gölünə kimi) adı idi;
- Atropatena və Qafqaz Albaniyası ərazilərinin Ərəb xilafəti tərkibinə daxil olması onların gələcək taleyinə müsbət təsir göstərdi. Belə ki, iki tərəf arasında siyasi, dini, iqtisadi, etnik, mədəni birliklər, başqa sözlə, «Türk-islam birliyi» yarandı və məhz bunun sayəsində onların əraziləri birləşdi və «Vahid Azərbaycan» təşəkkül tapdı. Bu birlik XIX əsrin ilk rübünə kimi qorundu;
- Vahid Azərbaycan ərazisi tarixən sabit halda qalmamış və [137-138] tarixi şəraitdən asılı olaraq çoxalıb-azalmışdır. Atabəylər, səfəvilər dövründə ərazilərimiz daha geniş olmuş (təx. 400.000 kv. km), XIII-XV əsrlərdə isə nisbətən dar çərçivədə idi (təx. 370-375 min kv. km);
- Azərbaycan son orta əsrlərdə imperiyaların, iri dövlətlərin mərkəzi vilayəti, Marağa, Təbriz isə onların paytaxt şəhərləri olmuşdur. Həmin imperiyalar, dövlətlər Azərbaycandan idarə olunmuşlar (ən azı XVI əsrin ortalarına kimi). Bu isə Azərbaycanın qonşu vilayətlərlə münasibətlərdə aparıcı mövqedə durduğunu bildirir və heç də İrandan asılılığını göstərmir;
- Vahid Azərbaycanın sərhədləri Dərbəndin şimalından Xəzər dənizi sahilləri ilə cənuba istiqamətlənmiş, Astarada quruya çıxaraq Gilan vilayətinin qərbi və Zəncanın şərqindən cənuba, oradan isə qərbə tərəf uzanaraq müasir İran-Türkiyə sərhədlərinə çatmışdır. Buradan sərhədlərimiz Urmiya, Salmas, Xoy, Maku şəhərlərinin qərbindən keçərək Göycə gölünün qərbindən şimala istiqamətlənmiş, Debedçay, Hunan qalası istiqaməti ilə tarixi Şəki əlalətinin şimalına, oradan isə Şirvanın şimalından şərqə uzanaraq Dərbəndin şimalında Xəzərə qovuşmuşdur. Lakin, XIII-XV əsrlərdə Azərbaycanın qərb sərhədləri Göycə gölü ilə məhdudlaşdırılmışdı;
- Azərbaycan vilayəti inzibati baxımdan Azərbaycan, Şirvan, Arran və Muğan əyalətlərinə bölünmüşdü. «Azərbaycan» adı ilə 2 ərazi nəzərdə tutulurdu: bu ad həm bütün vilayətin, həm də onun bir hissəsinin – tarixi Atropatena ərazisinin (əyalətin) adı idi. Azərbaycan vilayətinin əylaətləri də daha kiçik inzibati vahidlərə bölünmüşdü: Azərbaycan əyalətinin tərkibində Qaradağ, Talış, Şirvanın tərkibində Şəki, Arranın tərkibində Qarabağ, Naxçıvan, Güştasfi, Arasbar adlı mahallar mövcud idi. Ölkə ərazisi müxtəlif vaxtlarda tümən, bəylərbəylik, sancaq, xanlıq, sultanlıq, məliklik, daha sonralar quberniya, qəza, dairə, rayon, məntəqə və s. inzibati vahidlərə bölünmüşdü;
- Qarabağ və Naxçıvan tarixən Azərbaycanın tərkib hissələri olmuş və müasir dövrə nisbətən daha geniş əraziləri əhatə etmişlər. XIII-XIV əsrlərdə Naxçıvan, tümən kimi, Makudan Qafan dağları da daxil olmaqla geniş əraziyə malik idi. Qarabağ isə qərbdə Həkəri və Zəyəm çaylarından şərqdə Beyləqanın şərqinə [138-139] kimi Kür-Araz çayları arasındakı torpaqları birləşdirirdi. «Dağlıq Qarabağ» termininə orta əsr mənbələrində təsadüf olunmur və Qarabağın dağlıq və düzən əraziləri eyni inzibati vahidə daxil olub iqtisadi cəhətdən bir-birini tamamlamışdır;

- Vahid Azərbaycan XIX əsrin I rübündə, çoxsaylı xanlarımızın «müdrik» siyasəti sayəsində 2 yerə parçalandı. Onun ərazisinin çox hissəsi (təx: 280.000 kv. km) İranın nüfuz dairəsinə düşdü, qalanı isə (təx: 130.000 kv. km) Rusiyaya ilhaq olundu. Bu hadisə ölkənin gələcək taleyinə çox mənfi təsir göstərdi. Şimali və Cənubi Azərbaycan istilahları meydana gəldi və onların inkişafında ikili istiqamətin yaranmasına gətirib çıxardı. Şimali Azərbaycanda müxtəlif inzibati dəyişikliklər aparıldı, quberniyalar, qəzalar, dairələr, məntəqələr və s. yaradıldı. Quberniyalar Oktyabr çevrilişi zamanı, qəzalar isə 1929-30-cu illərdə ləğv olundu və rayonlaşma sistemi tətbiq olundu;

- Azərbaycan Cümhuriyyəti dövründə ölkə ərazisi 113.895,97 kv. km idi. Bunun 97.298 kv. km-i mübahisəsiz ərazi, 16,6 min kv. km-i isə erməni (7,9 min kv. km) və gürcülərlə (8,7 min kv. km) mübahisəli ərazi hesab olunurdu. Azərbaycanla Rusiya arasında da iddialı ərazi (Dərbənd ərazisi) vardı. Dövlətin qərb sərhədləri Göycə gölündən keçirdi və ərazisi quberniyalara, qəzalara (16) və dairələrə (2) bölünmüşdü;

- Vahid Azərbaycan ərazisi tarixən itirilmə prosesinə düçar olmuşdur: Borçalı ərazisi XVIII əsrin 40-cı illərində Nadir şah tərəfindən gürcü çarına bağışlanmış, İrəvan 1918-cı ilin mayın 29-da ermənilərə verilmişdir. Azərbaycanda bolşevik ağalığının başlanması torpaqlarımızın hərraca qoyulmasına səbəb oldu. 20-ci illərin əvvəllərində Zəngəzur itirildi (təx. 11.000 kv. km), ərazilərimiz 97.298 kv. km-dən 86,6 min kv. km-ə düşdü. Növbəti böyük itki keçən əsrin 80-90-cı illərində baş verdi. Ermənilər daha 13,2 min kv. km torpaqlarımızı zəbt etdilər. Ümumiyyətlə götürüldükdə, XX əsrdə ermənilər 40.000 kv. km-dən artıq ərazimizə yiyələnmişlər. Hal-hazırda Azərbaycan Respublikasının sərəncamında faktiki olaraq 73.000 kv km ərazi qalmışdır;

- Azərbaycan ərazisində tarixən çoxsaylı etnik proseslər getmişdir. Strabonun dövründə Qafqaz Albaniyasında 26 dildə danışan qəbilələr vardısa, hal-hazırda onların sayı dəfələrlə ar-[139-140]tmış və keçən əsrin 80-cı illərinin sonunda Şimali Azərbaycanda 140-dan çox millətin, xalqın, etnik, etnoqrafik qrupların, etnik azlıqların və s. yaşadığı məlumdur. Bunun səbəbi tarix boyu ölkəyə müxtəlif qəbilələrin, tayfaların axışması və burada məskunlaşmalarıdır. Türk mənşəli qəbilələrin gəlişi ölkədəki türkdilli əhalinin sayca daha da artmasına səbəb olurdursa, digər qəbilələrin – irandillilərin, ərəblərin, moqolların, rusların, ermənilərin və s. gəlişi ölkə əhalisinin etnik tərkibinə təsir edir və etnik qrupların sayca çoxalmasına gətirib çıxarırdı. Azərbaycan əhalisinin əsas hissəsini türklər təşkil etsələr də, burada alban tayfalarının, irandilli tayfaların tarixən, əsrlər boyu mövcudluğu da danılmaz həqiqətdir. [140-141]

## İstifadə olunmuş mənbə və ədəbiyyat

### *Azərbaycan dilində*


1. Əbu Bəkr əl-Qütbi əl-Əhəri. Tarix-e Şeyx Üveys. – Bakı, Elm, 1984, 150 s.
2. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. – Bakı, Şuşa, 2000, 576 s.
3. Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarix-e qozidə. – Bakı, Elm, 1986, 148 s.
4. İbn əl-Əsir. Əl-kamil fi-t-tarix. – Bakı, 1959, 216 s.
5. İrəvan əyalətinin icmal dəftəri. – Bakı, Elm, 1996, 184 s.
6. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. – Bax: Qarabağnamələr. Bakı, Yazıçı, 1989, s.103-148.
7. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. – Bakı, Elm, 1993, 270 s.
8. Naxçıvan sancağının müfəssəl dəftəri. – Bakı, Sabah, 1997, 336 s.
9. Şərəffəddin Əli Yəzdi. Zəfərnamə. – Bakı, ADN, 1996, 80 s.
10. Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide. – Bakı, Elm, 1990, 212 s.
11. Azərbaycan Sovet Ensiklopediyası. I-X cildlər. – Bakı, 1976-1987.
12. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. – Bakı, ADN, 1994, 688 s.
13. Azərbaycan tarixi. Yeddi cilddə. I-VI cildlər. – Bakı, Elm, 1988-2001-ci illər.
14. Azərbaycan tarixi. XI. – Bakı, Çaşıoğlu, 2000, 349 s.
15. Azərbaycan tarixi xəritələri. – Bakı, Az. Ensiklop., 1994.
16. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. – Bakı, Elm, 1990, 382 s.
17. Budaqova S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı - XIX əsrin I qərinəsi). – Bakı, Elm, 1996, 96 s.
18. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225). – Bakı, Elm, 1985, 268 s.
19. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. – Bakı, 1965, 383 s.
20. Cavadov Q., Hüseynov R. Udilər. – Bakı, ADN, 1996, 236 s.
21. Cəfərzadə İ.B. Naxçıvanın tarixi və dövlətçilik ənənələri. – Azərbaycan DN Akad. «Elmi əsərləri», 1999, № 3, s.19-26. [141-142]
22. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. – Bakı: Elm, 1979, 144 s.
23. Dəmirli M., Məmmədli M.Azərbaycan tarixi (Mühazirə mətnləri). – Bakı, Təfəkkür, 2000, 470 s.
24. Dəmirli M., Məmmədli M. ADR dövründə ermənilərin ərazi iddiaları və Cənubi Qafqazda Sovet hakimiyyətinin qələbəsindən sonra onun daşnaq-bolşevik sayağı həlli. – bax: Azərbaycan XXI əsrin astanasında Bakı, 1998, s. 589-592.
25. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. – Bakı, Gənclik, 1995, 464 s.
26. Ələkbərli Ə. Qədim türk-oğuz yurdu – Ermənistan. – Bakı, Sabah, 1994, 204 s.
27. Fazili Abdulla. Atropatena. – Bakı, Elm, 1992, 216 s.
28. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycan milli dövlətçilik tarixində. Dok. dis. avtoreferatı. – Bakı, 1999, 66 s.
29. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – Bakı, ADN, 1994, 248 s.
30. Qeybullayev Q. Qarabağ (etnik və siyasi tarixinə dair). – Bakı, Elm, 1990. 248 s.
31. Qeybullayev Q. Naxçıvan ərazisində azərbaycanlıların qədim etnik tarixinə dair. – «Tarix və onun problemləri», 1999, № 2, s. 37-44.
32. Mahmudov Y. Azərbaycan tarixi. İntibah dövrü. – Bakı: 1996, 84 s.
33. Məmmədov Rauf. Naxçıvan şəhərinin tarixi oçerki. – Bakı, Elm, 1977, 160 s.
34. Məmmədov S.A. Azərbaycan tarixi – Bakı: Maarif, 2002, 292 s. (dərslik).
35. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyasının öyrənilməsi. – Tarix, insan və cəmiyyət. Elmi-metodik jurnal. № 1. Bakı: 2005, s. 23-28.
36. Piriyev V.Z. Qarabağ XIII-XIV əsrlərdə. – «Azərbaycan» , 5.XI. 89, s.6
37. Piriyev V.Z. XIII-XIV əsrlərdə Naxçıvanın tarixi-coğrafiyası. – Y.Məmmədəliyev ad. NDU «Elmi əsərləri» (humanitar seriya), 1999, № 5, s. 30-33
38. Şərifli M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. – Bakı, Elm, 1978, 344 s.
39. Vəlixanlı Nailə. Ərəb xilafəti və Azərbaycan. – Bakı, ADN, [142-143]1993, 160 s.
40. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. – Bakı: Elm, 1974, 224 s.
41. Vəliyev M.H. (Baharlı). Azərbaycan. – Bakı, 1993, 192 s.


### *Rus dilində*


42. – Абдар-Рашид ал-Бакуви. Китаб талхис ал-а'сар ва аджаиб ал-малик ал-каххар. – М.: Наука,

1971, 164 с.-195 с.
43. Армянская география VII века. – СПб, 1877
44. Бакиханов А.А. Гюлистан-и Ирам. Баку, Элм, 1991, 305 с.
45. – Геродот. История в девяти книгах. – Л. : Наука, 1972, 600 с.
46. – Ибн Хордадбех. Книга путей и стран. – Баку: Элм, 1986, 428 с.
47. – Иоанн де Галонифонтибус. Сведения о народах Кавказа (1404 г.). – Баку: Элм, 1980, 42 с.
48. – Йакут ал-Хамави. Му'джам ал-булдан. Хамдаллах Казвини. Нузхат ал-кулуб. – Баку: Элм, 1983, 66 с.
49. – Киракос Гандзакеци. История Армении. – М.: Наука, 1976, 358 с.
50. – Книга Орудж-Бека Байата Дон-Жуана Персидского (Историко-географической трактат). – Баку: Язычы, 1988, 216 с.
51. – Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII в. на персидском языке. – Уч. Зап. ИВ АН СССР, том IX, М.-Л : 1954, с. 175-219.
52. – Плутарх. Сравнительные жизнеописания. – М. : Изд. АН СССР, тт. I-III. 1961-1964 гг. – 503 с; 548 с. ; 546 с.
53. Рашидаддин Фазлуллах. Джами ат-таварих. III том - Баку, 1957, 361 с. + 727 с.
54. Страбон. География в 17 книгах. – М. : Наука, 1964, 942 с.
55. – Шихаб ад-Дин Мухаммед ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. – Баку: Элм, 1973, 450 с.
56. Абдуллаев Гаси. Азербайджан в XVIII в. и взаимоотношения с Россией. – Баку, 1965.
57. Алиев Играр. Очерк истории Атропатены. – Баку: АГУ, 1989, 160 с.
58. Алиев Играр. Нагорный Карабах: История. Факты. События. – Баку: Элм, 1989, 104 с.
59. – Алиев Т.Ф. Историческая география Ширвана XVII-XVIII вв. – Баку: 1992, 22 с. (автореф. канд. дис.). [143-144]
60. – Алиев Ф.М. Азербайджан в конце XVIII в. – В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 129-139.
61. Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. – Баку, 1956, 420 с.
62. Ашурбейли С.Б. Государство Ширваншахов. – Баку, Элм, 1983, 344 с.
63. Бартольд В.В. Историко-географический обзор Ирана. – Соч., VII том. М. : Наука, 1971, с. 29-225.
64. Бартольд В.В. Сочинения. Том Ш. Работы по исторической географии. – М. : Наука, 1965, 712 с.
65. – Бердзенишвили М.М. Границы грузинского государства в начале XIII века. – В сб.: Грузия в эпоху Руставели. Тбилиси, 1966, с. 52-65.
66. Буниятов З.М. Избранные сочинения в трех томах. Том II. – Баку, Элм, 1999, 366 с.
67. Буниятов З.М. Ширван в XII – первой половине XIII в. (статья вторая) – Изв. АН Азерб. ССР, СИФП, 1976, № 2, с. 60-74.
68. Буниятов З.М. Этнополитические рубежи Азербайджана в период правления Илденизидов. – В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 93-97.
69. Ваидова Х.Р. К вопросу о территории, населения и административной системе управления города Ордубада в XIX – начале XX вв. – Изв. АН Азерб.ССР, СИФП, 1990, № 1, с. 99-107.
70. Велиханова Н.М. Изменение исторической географии Азербайджана в результате арабского завоевания. – В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 46-87.
71. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. – Баку, Элм, 1991, 550 с.
72. Жекулин В.С. Историческая география. Предмет и методы. Л.: 1982, 224 с.
73. Егоров В.Л. Историческая география Золотой Орды в XIII-XIV вв. – М.: Наука, 1985, 248 с.
74. Еремян С.Т. Армения и сопредельные страны в 591-653 гг; в 701-862 гг; в 862-953 гг. – Ереван, 1983 (карты).
75. История Азербайджана (с древнейших времен до начала XX века). – Баку: Элм, 1995, 430 с.
76. Историческая география Азербайджана. – Баку: Элм, 1987, 148 с. [144-145]
77. Историческая география Западного Азербайджана. – Баку: Азербайджан, 1998, 560 с.
78. Историческая география СССР. Учебное пособие. – М.: Высшая школа, 1973, 320 с.
79. Карта Азербайджанской Республики. 1918-1920 гг. – Баку: 1994.
80. Карта Азербайджанской ССР. Баку: Изд. АСЭ, 1972.
81. Карта Кавказского военного округа 1903 года. – Баку, 1993.
82. Кашкай С.М. Из истории Маннейского царства. – Баку, Элм, 1977, 116 с.
83. Левиатов В.Н.Очерк истории Азербайджана в XVIII в. – Баку, 1948.
84. Мамедова Ф.Дж. Кавказская Албания и албаны. – Баку: 2005, 800 стр.

85. Мамедова Ф.Дж. О некоторых вопросах исторической географии Албании I в. до н.э. – VIII в. – В сб. : Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 7-45.
86. Мамедова Ф.Дж. Политическая история и историческая география Кавказкой Албании. – Баку: Элм, 1986, 284 с.
87. Мусхелишвили Д.Л. Из исторической географии Восточной Грузии. – Тб. : 1982, 104 с.
88. Новосельцев А.П. – К вопросу о политической границе Армении и Кавказской Албании в античный период.- В сб.: Кавказ и Византия. Ереван: 1979, т. 1.
89. Пириев В.З. Гарабаг в XIII-XIV вв.: притязания армян на эту область и историческая правда. – Кюрекчайский договор – 200. Баку: Тахсил, 2005, с. 58-66.
90. Пириев В.З. Об исторической географии Азербайджана XIII – начала XV вв. – В сб. : Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 98-109.
91. Пириев В.З. Сведения первоисточников о рубежах Азербайджана XIII-XIV вв. – Газ. «Азербайджан», 28.06.1991.
92. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. – Баку, Элм, 1981, 238 с.
93. Рахмани А.А. Азербайджан: границы и административное деление в конце XVI-XVII вв. – В сб. : Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 120-128.
94. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. – Баку: Элм, 1990, 304 с.[145-146]
95. – Феодальные государства Азербайджана IX-XII вв. в работах М.Х.Шарифли. – В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 88-92.
96. Шихсаидов А.Р. Дагестан в X-XIV вв. – Махачкала: 1975, 175 стр.
97. Эфендиев О.А. Азербайджанское государство сефевидов в XVI веке. – Баку, Элм, 1881, 308 с.
98. Эфендиев О.А. Территория и границы Азербайджанских государств в XV-XVI вв. – В сб.: Историческая география Азербайджана. Баку: Элм, 1987, с. 110-119.
99. Юшков С.В. К Вопросу о границах древней Албании. – Изв. АН СССР. М.: 1937, № 1
100. Якубовский А. и Греков Б. Золотая Орда. –Л.: 1937, 202 с.

### *Başqa dillərdə*

101. Həmdullah Mustovfi Qəzvini. Tarix-e qozide. – Tehran: 1339 h.q., 816 s. (farsca)
102. Həmdullah Mustovfi Qəzvini. Nüzhət əl-qülub. – Tehran: 1336 h.q. (farsca)
103. Məhəmməd Cavad Məşkür. Hüdud-e tarixi-ye Azərbaycan-e İran. – Bərrəsiha-ye tarixi. Sal-e çəharom, şomare 2-3, xordad-şəhrvər, 1348 h., s. 46-49 (farsca).
104. Rəşidəddin Fəzlullah Həmədani. Asar və əhya. – Tehran: 1348 h.q., 236 s. (farsca)
105. Tadhkirat al muluk. A monuel of safavid administration. Trans. and exrl. by V.Minorsky. – London, 1943.
106. Ahmet-Zeki Validi. Azerbaycanin tarihi coğrafiyası. – İstanbul: 1930.
107. Robert H.Hewsen. Armenia. A Historical Atlas. – Chicago and London, 2001. 389 p. (275 atlas). [146]

# XƏRİTƏLƏR



Albaniya və Adurbadaqan (Atropatena) erkən orta əsrlərdə
Dərbənd-Çola
XƏZƏR DƏNİZİ
Xunan
KAMBİSENA
Kiş
Şəki
LPİNA
ÇOLA
Kür
GİRDİMAN
ŞƏKİ
Xalxal
Qəbələ
SAKASENA
QƏBƏLƏ
PARTAV
Şamaxı
UTİ
Tərtər
ARSAX
SİSAKAN-SÜNİK
Paytakaran
Aquen
Araz
Amaras
BALASAKAN
(PAYTAKARAN KASPİANA)
Naxçıvan
Tatev
ALBANİYA
Xoy
Əhər
Səlmas
Təbriz
ƏRDƏBİL
Urmiya g.
Dehxarqan
Urmiya
Marağa
QAZAKA
Səfidruz
Neriz
Zəncan
Qızılüzən
ADURBADAQAN DÖVLƏTİ
SASANİLƏR DÖVLƏTİ
Şiz.
Təxt-i Suleyman
- paytaxt
- şəhərlər
UTİ - əyalətlər və vilayətlər

*Azərbaycan Atabəyləri (Eldənizləri) dövləti*



## *Azərbaycan XIII-XV əsrlərdə*



### *Gəncə-Qarabağ əyaləti (1727)*



*İrəvan əyaləti və Naxçıvan sancağının xəritəsi*




(*Nahiyələr:* 1. Naxçıvan; 2. Əlincə; 3. Sair Məvazi; 4. Dərəşahbuz; 5. Mülki-Arslan; 6. Məvaziyi-Xatun; 7. Qarabağ; 8. Qışlağat; 9. Dərəşam; 10. Azadciran; 11. Şorlut; 12. Dərənürgüt).

*Azərbaycan XVI-XVII əsrlərdə*




—·—·—·— - bəylərbəyliklərin hüdudları;
ooooooo - 1590-cı il müqaviləsinə görə səfəvi-osmanlı sərhəddi;
⊙ - bəylərbəyliklərin mərkəzi şəhərləri;
• - digər şəhərlər;
⅄ - qalalar.

*Azərbaycan XVIII əsrin II yarısında*




I - Bakı xanlığı; II - Dərbənd xanlığı; III - Sarab xanlığı; IV - Car-Balakən camaatı; V - İlisu sultanlığı; VI - Qazax sultanlığı; VII - Şəmşəddil sultanlığı; ☰ - Qubalı Fətəli xanın (1758-1789) birləşdirdiyi ərazilər.


QARABAĞ
XIII-XIV əsrlərdə
Hunan
Qabırrı
Qanıx
Şəki
ŞƏKİ
Natil
Yam
Qazax
Ağstafa
Dəbəd
Əliabad
Tovuz
Koqt
Kür
Bozalqanlı
Tatarlı
Şəmkir
Parisos
Zəyəm
Zəyəmçay
Qəbələ
Surxab
ŞİRVAN
Gəncə
Xanagah-i Şutur
Ağdaş
Şamaxı
Çarek
Karxun
Ağsu
Qalakun
Əkna
Dih-İsfahan
Lasub
Cuzbuq
Göyçə g.
İzz
Bərdə
Tərtər
Carberd
Bazarcıq
Xeyrək
Kanqlıkənd
Tərtər
Matris
Damqalı
Ləmbəran
Dadunvank
Yunan
Kür
Qandzasar
Xaçin
Bəkrabad
GÜŞTASFİ
Ağdam
Qarqar
Qaq
Xaçındarbatlı
Sarçabil
Xar
Beyləqan
Şuşa
Zaris
Köşk-Cankeşi
Xayzan
Bacərvan
Arpa
Bazarçay
Həkəri
Araz
Qorqan
Şahbuz
Dolanlar
Bərzənd
Tatar
MUĞAN
QARABAĞ
ARRAN
ŞƏRUR
NAXÇIVAN
Naxçıvan
Əlincə
Qafan

**Naxçıvan XIII-XIV əsrlərdə**




Azərbaycanın
inzibati bölgüsü
(1868-1917-ci illər)
Dağıstan vilayəti
TİFLİS
TİFLİS QUBERNİYASI
Balakən
Zaqatala
Zaqatala dairəsi
İlisu
Qusar
Quba
Quba qəzası
Dəvəçi
Qonaqkənd
Nuxa
Nuxa qəzası
Vartaşen
Qutqaşen
Qazax
Tovuz
Qazax qəzası
Şamxor
YELİZAVETPOL QUBERNİYASI
Yelenendorf
Yelizavetpol qəzası
Ərəş
Ağdaş
Ağdaş qəzası
Göyçay
Göyçay qəzası
BAKI QUBERNİYASI
Şamaxı
Şamaxı qəzası
Kürdəmir
Bakı qəzası
BAKI
Göyçə g.
Bərdə
Tərtər
Cavanşir qəzası
Kəlbəcər
Zərdab
Kür
İRƏVAN
Ağdam
Şuşa qəzası
Xankənd
Şuşa
Cavad
Cavad qəzası
Qarabulaq
Qaryagin
Qaryagin qəzası
Gorus
Zəngəzur qəzası
Qubadlı
Cəbrayıl
Araz
Salyan
Başnoraşen
Naxçıvan
Culfa
Ordubad
Mehri
Lənkəran qəzası
Lənkəran
Astara
İ R A N
Şərti işarələr:
- quberniya mərkəzləri
- qəza mərkəzləri
- digərləri
Sərhədlər:
dövlətlərin
quberniyaların və vilayətlərin
qəzaların

*Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər)*



**В.З.ПИРИЕВ**

# ИСТОРИКО-ПОЛИТИЧЕСКАЯ ГЕОГРАФИЯ АЗЕРБАЙДЖАНА

*(на азербайджанском языке)*

Баку – «Муаллим» - 2006

«Müəllim» nəşriyyatında çap olunmuşdur.

Çapa imzalanmış: 28.01.2006. Sifariş № 03.
Kağız formatı: 60×84 1/16. Şərti 9,25 ç.v.
Sayı 500. Qiyməti müqavilə ilə.



**Vaqif Ziyəddin oğlu Piriyev** 1939-cu ildə Qubanın Buduq kəndində anadan olmuşdur. Qubada 1 saylı orta məktəbi (1956), Quba kənd təsərrüfatı texnikumunu (1959), Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini (1965), daha sonra Azərbaycan EA Tarix institutunun əyani aspiranturasını (1969) bitirmişdir. Tarix elmləri doktoru (1989), professordur (1998). Əsas tədqiqatları Azərbaycanın XIII-XIV əsrlər dövrü tarixinə həsr olunmuşdur. 10-a yaxın kitabın, 100-dən artıq elmi məqalənin müəllifidir.

V.Z.Piriyev «XIII-XIV əsrlərdə Azərbaycanda dövlət quruluşu və idarə sistemi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 20-yə qədər məqaləsi Azərbaycanın, o cümlədən, Qarabağın və Naxçıvanın, tarixi-siyasi və tarixi-etnik coğrafiyasına həsr olunmuşdur. «Azərbaycanın tarixi coğrafiyası» toplusunun və «Azərbaycanın tarixi xəritələri» vəsaitinin müəlliflərindəndir. 1982-ci ildən başlayaraq tarixi coğrafiyaya həsr olunmuş bir sıra elmi məclislərin (Tiflis, Moskva, Bakı) iştirakçısı olmuşdur. Azərbaycan Müəllimlər İnstitutunda, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlama İnstitutunda, ADPU-da, Sumqayıt DU-da «Azərbaycanın tarixi coğrafiyası» fənnini tədris etmiş və edir. 2002-ci ilin əvvəllərində həmin fənn üzrə Proqram çap etdirmişdir. Tarixi coğrafiya və bu fənnə aid məsələlərin tarix dərslərində tədrisinə dair tövsiyələri nəşr olunmuşdur. Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə «Tərəqqi» medalı ilə təltif edilmişdir (2005).